
ISSN 2410-4108

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR



ELMİ-PRAKTİKİ JURNAL

№ 1 (17) 2022

ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

Elmi-praktik jurnal

№ 1 (17)

BAKI – 2022

BAŞ REDAKTOR:
Hüseyn Qaraşov, *sosiologiya elmləri doktoru, professor*

BAŞ REDAKTORUN MÜAVİNİ:
Fəhrad Möhbalıyev, *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

MƏSUL KATİBLƏR:
Vilayət İsmayılov, *iqtisad elmləri doktoru*
Zeynəddin Şabanov, *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

REDAKSİYA HEYƏTİ:

i.e.d., professor Səttar Möhbalıyev – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.e.d., professor Hüseyn Qaraşov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.e.d., professor Ramiz İsgəndərov – Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.e.d., professor Tərbiz Əliyev – AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin müdiri

fəl.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru

tarix e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi humanitar fənlər" kafedrasının müdiri

sos.e.d., professor Rəfail Həsənov – Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının müdiri

i.ü.f.d., dosent Fəhrad Möhbalıyev – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dosent Hicran Mirzəyeva – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə-iqtisad" fakültəsinin dekanı

i.e.d. Vilayət İsmayılov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri, məsul katib

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqı hərəkatı və sosial fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dosent Əsgər Əliyev – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müəllimi

Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr. 181
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
Tel.: (050) 631-57-90; e-mail: ***jurnal@aesma.edu.az***
Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının
Elmi Şurasının qərarı ilə çap olunur (protokol №10, 27.05.2022)
Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014
Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının ***fəlsəfə, sosiologiya və iqtisadiyyat*** *elmləri üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.*

MÜNDƏRİCAT

HUMANİTAR VƏ SOSİAL ELMLƏR

Rəcəbəli Əliyev
Yaşlı insanların sosial təminatı problemləri..... 4
Faiq Ələkbərli
Hüseyn Cavidin dini, fəlsəfi-utopik və ictimai-siyasi görüşləri..... 13
Sərraf Mirzəyev, Sahilə Mirzəyeva
Xarici dillərin tədrisində innovativ medotların istifadə yolları..... 35
Günel Heydərova
Yunan-Roma fəlsəfəsində etika və əxlaq ədalət və dövlət..... 41

İQTİSADİYYAT VƏ İDARƏETMƏ

Vilayət İsmayılov, Teymur Kərimov
Turizm müəsissələrinin fəaliyyətində turizm ehtiyyatlarının rolu..... 50
Nurəngiz Mikayılova, Aysel Məmmədli
Bələdiyyə büdcələrinin formalaşma problemləri..... 61
Niyar Umarova
Turizm inkişafında İKT-nin rolu..... 71
Hümeyrə Mustafayeva
Beynəlxalq Münasibətlər sistemində siyasi iqtisadi transformasiyalar..... 83
Vilayət İsmayılov, Nicat Rzayev
Beynəlxalq turizmin inkişafında informasiya texnologiyalarının rolu..... 94
Gülnarə Tanrıverdiyeva
Maliyyə nəticələrinin konseptual əsasları..... 103
Rauf Allahyarov
Müəsissələrdə audit xidmətinin yaranmasının əsas istiqamətləri..... 110
Söhrab Məhərrəmov
İnformasiya texnologiyalarının xüsusiyyətləri və əsas inkişaf istiqamətləri..... 118
Elnur Zeynalov
Valyuta məzənnəsi və makroiqtisadi tənzimlənmədə onun rolu..... 127
Toğrul Əkbərli
Qarşılıqlı asılılıq və təsirlərin iqtisadiyyatın açıqlığına və ölkənin maliyyə-iqtisadi təhlükəsizliyinə təsiri..... 137
İlham Bədəlov
Xarici ticarət siyasətinin seçimi kontekstində idxaləvəzləmə..... 144
Xançoban Şabanov
Elektron dövlət xidmətlərində innovativ texnologiyaların tətbiqi və bu istiqamətdə kadr hazırlığı problemlərinin qiymətləndirilməsi..... 152
Miriş Bağırzadə, Nazənin Hüseynova
Almaniya və Fransa-Avropa ittifaqi ölkələrində sosial müdafiə sistemləri..... 158

HUMANİTAR VƏ SOSİAL ELMLƏR

UOT 316

Rəcəbəli Əliyev
BDU, Sosial iş kafedrasının
"Sosioloji tədqiqatlar" laboratoriyası,
böyük elmi işçi, f.e.d.
eliyevreceb13@gmail.com

YAŞLI İNSANLARIN SOSİAL TƏMİNATI PROBLEMİ

Məqalədə söhbət mütləq yoxsulluqdan qurtulmaq vasitəsi kimi, sosial müdafiədən, ekstremal şəraitdə maddi yardım göstərməkdən, əhalinin sosial cəhətdən həssas qruplarının bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmasına töhfə verməkdən gedir. Göstərilir ki, sosial müdafiə sisteminin strukturuna ənənəvi olaraq sosial təminat, sosial sığorta, sosial yardım daxildir. Nəticə etibarı ilə sosial təminat vətəndaşlara dövlət pensiyaları, müavinətlər almaq imkanını təmin edən, ahılların və əlil vətəndaşların təminatı və onlara xidmət göstərilməsi üçün müxtəlif güzəştlər müəyyən edən müasir sosial müdafiə sisteminin ən mühüm elementi hesab oluna bilər.

Məqsəd: Yaşlıların müasir şəraitdə sosial təminat yollarının yaxşılaşdırılması imkanlarının araşdırılmasından ibarətdir.

Metodologiya: Sistemli yanaşma, statistik məlumatların təhlili və təkrar təhlil metodları vasitəsilə yaşlıların sosial təminatının hazırki vəziyyəti və yaxşılaşdırılması yolları araşdırılır, yeni biliklər əldə etmək üçün imkanlar müəyyənləşdirilir.

Elmi yenilik: Yaşlılara qayğının təmin olunmasında müxtəlif sosial aktorların iştirakçılığı yalnız ənənə və qanunverici baza ilə deyil, həm də vətəndaşların qayğı təminatçısına nə dərəcədə inanması, onun təqdim edə biləcəyi xidmətlərin qayğı normaları və idealları ilə uyğunluq səviyyəsindən asılıdır.

***Açar sözlər**: yaşlılar, sosial təminat, sosial siyasət, aztəminatlı təbəqə, sosial xidmətlər*

Giriş

Sosial müdafiə sisteminin strukturuna ənənəvi olaraq sosial təminat, sosial sığorta, sosial dəstək (yardım) daxildir. Nəticə etibarı ilə sosial təminat vətəndaşlara dövlət pensiyaları, müavinətlər almaq imkanını təmin edən, ahılların və əlil vətəndaşların təminatı və onlara xidmət göstərilməsi üçün müxtəlif güzəştlər müəyyən edən müasir sosial müdafiə sisteminin ən mühüm elementi hesab oluna bilər. Müasir sosial təminat sisteminin məqsədi onun iqtisadi, siyasi, demoqrafik, sosial reabilitasiya və mənəvi-ideoloji funksiyalarında özünü göstərir.

Sosial xidmətlər vasitəsilə həll edilən ahılların problemləri müəyyən sosial-iqtisadi şəraitdə ahılların sosial-psixoloji adaptasiyasına aiddir və onlar həm də dövlətin sosial siyasətindən, onun formalaşmasında və həyata keçirilməsində cəmiyyətin rolundan çox asılıdır.

Sosial təminat nədir?

İstənilən sosial sistemin ayrılmaz amili əhalinin sosial müdafiəsi və sosial-iqtisadi təminatıdır (7, s. 35). Əhalinin sosial müdafiəsi sistemi xüsusi sosial institut kimi öz inkişaf mərhələsindədir. "Sosial müdafiə" termininin müxtəlif mənaları vardır. Belə ki, yeni iqtisadi

şəraitdə sosial müdafiə sistemi sosial təminat sistemini əvəz etmişdir. Ölkəmizdə "sosial müdafiə" termini 1992-ci ildə sosial təminat orqanları sisteminin adının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adlandırılması ilə əlaqədar geniş yayılmağa başladı (4, s. 471).

Müasir ədəbiyyatda "sosial müdafiə" anlayışı bir neçə mənada şərh olunur. Bir sıra alimlər sosial müdafiəni "ananın uşaq dünyaya gətirdiyi dövrdən başlayaraq, insanın layiqincə dəfn olunmasına qədər bütün həyatı boyu müxtəlif problemlərin həllində dövlət tərəfindən ona hərtərəfli yardım göstərilməsi yolu ilə sosial risklərdən müdafiə" kimi müəyyən edirlər (14, s. 438). Bu zaman əhalinin sosial müdafiəsinin məqsədi zəruri və kifayət qədər maddi təminatla yanaşı, vətəndaşların ictimai faydalı fəaliyyətə fəal cəlb olunmasına şərait yaratmaqdır (14, s. 438).

Digər yanaşma "sosial müdafiə" anlayışının daha dar mənada nəzərdən keçirilməsinə əsaslanır. Ensiklopedik lüğətlərdə bu, "həyatı təmin edən tədbirlər sistemi" və ya "iqtisadi transformasiyalar zamanı əhalinin sosial cəhətdən həssas təbəqələrinə minimum maddi dəstəyin təmin edilməsi üçün sosial-iqtisadi və hüquqi xarakterli dövlət tədbirlərinin məcmusu" (bazar münasibətlərinə keçid) və bununla əlaqədar olaraq onların həyat səviyyəsinin azalması" kimi müəyyən edilir (6).

Burada söhbət "mütləq yoxsulluqdan qurtulmaq vasitəsi" kimi (2, s. 264), sosial müdafiədən, ekstremal şəraitdə maddi yardım göstərməkdən, əhalinin sosial cəhətdən həssas qruplarının bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmasına töhfə verməkdən gedir (8, s. 37).

Sosial müdafiə sisteminin strukturuna ənənəvi olaraq sosial təminat, sosial sığorta, sosial dəstək (yardım) daxildir. Nəticə etibarı ilə sosial təminat vətəndaşlara dövlət pensiyaları, müavinətlər almaq imkanını təmin edən, ahılların və əlil vətəndaşların təminatı və onlara xidmət göstərilməsi üçün müxtəlif güzəştlər müəyyən edən müasir sosial müdafiə sisteminin ən mühüm elementi hesab oluna bilər (5).

Müasir sosial təminat sisteminin məqsədi onun aşağıdakı funksiyalarında özünü ifadə edir:

1. İqtisadi. Funksiya çətin həyat vəziyyətində olan vətəndaşlara maddi dəstək göstərməkdə özünü göstərir. Real həyatda bu vəsaitlər vətəndaşlara müvafiq sosial təminat növləri üzrə verilir: pensiyalarda, müavinətlərdə, kompensasiyalarda və s.

2. Siyasi. Funksiya sosial təminat sistemi vasitəsilə dövlətə sosial siyasətin əsas istiqamətlərini həyata keçirməyə imkan verir ki, bu da insanların layiqli həyat səviyyəsindən bəhs edən konstitusiya müddəalarını həyata keçirmək üçün dövlətin insanların həyat şəraitinə məqsədyönlü təsiri kimi görünür.

3. Demoqrafik. O, sosial təminat sisteminin bir çox demoqrafik proseslərə təsiri ilə həyata keçirilir: gözlənilən ömür uzunluğu, əhalinin çoxalması, doğum səviyyəsinin stimullaşdırılması və ya onun məhdudlaşdırılması. Belə ki, pensiyaçıların istehlakının kəskin azalmasına səbəb olan pensiya təminatının həddən artıq aşağı səviyyədə olması ahıllar və əlillər arasında yüksək ölüm hallarının səbəbinə çevrilib.

4. Sosial reabilitasiya funksiyası. Onun məqsədi bütün sosial təminat obyektlərinin sosial-hüquqi statusunu və sağlamlığını bərpa etmək və qorumaqdır.

5. Sosial təminatın mənəvi-ideoloji funksiyası. Buraya ideoloji, əxlaqi və sosial-psixoloji alt funksiyalar daxildir (9, s. 75).

Beləliklə, sosial təminat sosial müdafiə sisteminin ən mühüm struktur elementi və milli strategiyanın və ölkənin sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsinin istiqamətidir (12, s. 88).

Yaşlı insanların həyat xüsusisiyyətləri

Yaşlılar əhalinin ən çox təmsil olunan demoqrafik və sosial qruplarından biridir. A.N. Alperoviç, T.E. Demidova, O.V. Krasnova, G.P. Medvedeva və digər tədqiqatçılara görə, bu

insanlar müəyyən bioloji, sosial, davranış xüsusiyyətləri ilə xarakterizə olunur (10).

Yaşlıların bioloji xüsusiyyətləri insan üçün sosial, iqtisadi, psixoloji və bir sıra digər amillərlə müəyyən edilən qocalma prosesi ilə bağlıdır. Yaşlılığın bir neçə növü var: xronoloji - yaşadıqları illərin sayı ilə müəyyən edilir (beynəlxalq təsnifata uyğun olaraq qocalığın erkən dövrü 65-74 yaş, qocalıq 75 yaşdan başlayır); fizioloji - sağlamlıq vəziyyəti, bədənin somatik sapmalarının məcmusu (maddələr mübadiləsinin və funksiyaların sönməsinin fərdi xüsusiyyətlərindən, həmçinin adaptiv mexanizmlərin formalaşmasından asılıdır); psixoloji - insanın özünü dərk etməsi, yaş strukturunda öz yerini görməsi; sosial - müxtəlif qocalıq növlərinin sintezi (bir insanın sosial yaşı müəyyən bir ölkədə və müəyyən bir müddət ərzində orta ömür uzunluğu ilə əlaqələndirilir və müxtəlif dövrlər, mədəniyyətlər, müxtəlif sosial təbəqələrin və qrupların nümayəndələri üçün eyni deyildir) (11, s. 134).

Sosial xüsusiyyətlər müasir cəmiyyətdə, müxtəlif sosial sistemlərdə, icmalarda, öz ailəsindəki yeri ilə müəyyən edilən sosial statusa da aiddir. O, yaşlı insanların digər yaş qrupları ilə münasibətində də özünü göstərir. Bu aspektdə iki ifrat mövqe fərqləndirilir: biri yaşlı insanların formal gücə malik olmayan, lakin faktiki olaraq makro və ya mikro kollektivlərdə lider olan ağsaqqalların, digəri, yaşlı insanların başqa insanlarla qarşılıqlı əlaqəsinin azalmasına və ya tamamilə dayandırılmasına səbəb olan kənar şəxslərin mövqeyidir (16, s. 122). A.N.Alperoviçin fikrincə, yaşlılarla cəmiyyətin ayrılması aşağıdakı prinsipə əsasən baş verir: "o, cəmiyyətdən uzaqlaşır və cəmiyyət də öz növbəsində onu özündən uzaqlaşdırır" (16, s.. 167). Yaşlı adamın və cəmiyyətin digər üzvlərinin qarşılıqlı yadlaşması baş verir. Yaşlı insanların dörddə birində müxtəlif dərəcəli və mənşəli şiddət və psixi pozuntular olması vəziyyəti daha da ağırlaşdırır (3, s. 68).

Yuxarıda göstərilənlərin hamısı sosial aktiv həyatdan getdikcə uzaqlaşan, hətta ailə olduğu halda belə tənhalaşan yaşlı insanların davranışlarında əhəmiyyətli iz buraxır (15, s. 38).

E.V Çernosvitova görə, onlarda müəyyən həyat tərzi formalaşır ki, bu da öz növbəsində maraqların, emosionallığın və ehtiyacların tədricən azalması və onların təmin edilməsi ilə bağlı bir sıra iddialar ilə xarakterizə olunan davranış xüsusiyyətlərini müəyyənləşdirir.

Yaşlı insanların ünsiyyət ehtiyacları çox təsirə məruz qalır, lakin bu, onların fərdi xüsusiyyətlərindən və yerləşdikləri sosial-mədəni mühitdən asılıdır (17, s. 12). Xidmətlərin göstərilməsi sistemi və konkret olaraq bu şəxslərin yaşayış yerlərində xidmət sahələrini formalaşdırılarkən yaşlı insanların yuxarıda göstərilən xüsusiyyətləri nəzərə alınmalıdır.

Qeyd edək ki, ahılların sosial problemləri bütün ölkələrdə mövcuddur, onlar kifayət qədər uzun müddət əvvəl yaranıb və cəmiyyətin inkişafı ilə birlikdə dəyişir. Sosial xidmətlər vasitəsilə həll edilən ahılların problemləri müəyyən sosial-iqtisadi şəraitdə ahılların sosial-psixoloji adaptasiyasına aiddir və onlar həm də dövlətin sosial siyasətindən, onun formalaşmasında və həyata keçirilməsində cəmiyyətin rolundan çox asılıdır.

Yaşla bağlı dəyişikliklər və əldə edilmiş sağlamlıq pozğunluqları, bir qayda olaraq, yaşlı insanların müstəqil yaşamasına, sosial əlaqələrin qorunmasına, iqtisadi müstəqilliyin təmin edilməsinə və digər məhdudiyyətlərə səbəb olur ki, bu da son nəticədə insanların sosial vəziyyətinə və onların həyat keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Yaşlı nəslin fiziki və sosial-iqtisadi fəaliyyətinin azalması və bu baxımdan onun cəmiyyətə fayda gətirməməsi haqqında əsrlər boyu cəmiyyətdə formalaşmış stereotiplər yaşlı nəslə münasibətin mahiyyətini, onlar üçün xidmətlərin seçilməsi üsullarını daha çox müəyyən edir.

Yaşlı vətəndaşlara münasibətdə sosial siyasət və onlara sosial dəstək tədbirləri

Bu məsələ bütün əsrlərdə daha çox əhalinin müəyyən kateqoriyalarına münasibətdə sosial-iqtisadi şərait, konkret dövlət vəzifələri, ictimai-siyasi konyuktura və ən əsası dövlətin sosial siyasəti və cəmiyyətin bu siyasətə münasibəti ilə müəyyən edilmişdir.

Müstəqillik illərində ölkədə əhalının sosial müdafiəsinin müxtəlif təşkilati-hüquqi formaları, o cümlədən icbari sosial sığorta, sosial yardım, sosial xidmət inkişaf etməyə başladı. Bu və ya digər şəkildə bütün bunlar dövlət sosial siyasətinin tərkib hissəsidir və bu siyasətin vətəndaşların və bizim halda yaşlıların sosial problemlərinin həlli sahəsində dövlət idarəçiliyinin aləti kimi nəzərdən keçirilməsi baxımından tətbiqi xarakterini göstərir.

Geniş yayılmış ictimai rəyə görə, yaşlı insanlar ən az təminatlı təbəqəyə aiddir və onlar aktiv sosial müdafiəyə, o cümlədən xüsusi xidmətlərdən məqsədyönlü istifadəyə ehtiyac duyurlar (6, 98).

Yaşlılara göstərilən xidmətlər yuxarıda qeyd edildiyi kimi, bu şəxslərin sosial və psixoloji xüsusiyyətlərinin qiymətləndirilməsinə əsaslanmalıdır. Bu xüsusiyyətlərin mahiyyəti O.V. Krasnovun göstərdiyi kimi (11, s. 134), yaşlı insanların, xüsusilə qocalıq yaşının daxili təcrübələrə, sosial mühitdəki vəziyyətlərə qeyri-adekvat emosional reaksiyasına diqqət yetirilməsindən ibarətdir. Bir çox yaşlı insanlar üçün özünü kiçiltmə, ağır vəziyyətlərində olduqları üçün özlərini ittiham etmək xarakterikdir (13, s. 102). Bir qayda olaraq, bu səbəbdən də onların arasında sosial təmasda çətinlik yaranır ki, bu da sosial təcridolunmanın kəskinləşməsinə səbəb olur.

Əksər yerli alimlər müəyyən kateqoriya vətəndaşlara, o cümlədən qocalara sosial xidmətləri onların sosial sektorların müəssisə və idarələrində (səhiyyə, təhsil, mədəniyyət, mənzil-kommunal təsərrüfatı və s.) göstərilməsi kontekstində nəzərdən keçirir və bunu əhalının sosial müdafiəsinin tərkib hissəsi hesab edirlər.

Yaşlı vətəndaşların problemlərinin həlli üçün pensiyalar, sosial yardım və müavinətlərlə yanaşı, sosial xidmətlər və onların arasında, ilk növbədə, sosial xidmət sistemində qulluq da nəzərdən keçirilir. Eyni zamanda, sosial xidmətlər sahəsində dövlət fəaliyyəti konkret ölkə üçün aktual olan müxtəlif sosial risklərin qarşısının alınmasına, habelə bu risklərin nəticələrinin ödənilməsinə yönəldilməlidir. Yaşlılara kompensasiya verilməsində mühüm rol yaşlılar üçün zəruri olan xüsusi sosial xidmətlərə verilməlidir.

Azərbaycan Respublikasında yaşlılara göstərilən sosial xidmət və qayğı

Azərbaycan Dövlət Statistika Komitəsinin 2019-cu il üçün göstəricilərinə görə yaşı 60-dan yuxarı olan vətəndaşlar əhalinin 11,5%-ni təşkil edir (1). Beynəlxalq proqnozlar 2050-ci ildə ölkə əhalisinin 25%-ə qədərinin yaşlılardan ibarət olacağını göstərir (18).

Yaşlılara qayğının təmin olunmasında müxtəlif sosial aktorların iştirakçılığı yalnız ənənə və qanunverici baza ilə deyil, həm də vətəndaşların qayğı təminatçısına nə dərəcədə inanması, onun təqdim edə biləcəyi xidmətlərin qayğı normaları və idealları ilə uyğunluq səviyyəsindən asılıdır.

2018-ci ildən geniş sosial islahat paketinə start verildi. Digər sahədə aparılmış islahat əmək pensiyalarının, ümumiyyətlə sosial ödənişlərin təyinatı ilə bağlı idi. 2020-ci ildə sosial ödənişlərin təyinatı ölkə üzrə mərkəzləşdirildi. Artıq bir mərkəz tərəfindən bütün ölkə üzrə əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin, kompensasiyaların təyinatı aparılır. Bu, sözsüz ki, vətəndaş-məmur təmasının azaldılmasına öz töhfəsini vermiş oldu. Vətəndaşlar üçün həmin təyinatlar artıq mərkəzləşmiş şəkildə aparılır, təyinat barədə vətəndaş məlumatlandırılır (19).

2021-ci ilin 2 fevral tarixində Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i təsdiq edildi. Qeyd edilən Milli Prioritetlər sənədinin 2-ci hissəsində dövlət başçısı tərəfindən sosial təminat sahəsində əsas prioritetlər müəyyən edilib. Belə ki, sənədin "Yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət" adlı 2.2-ci hissəsində sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatının

gücləndirilməsi, bu məqsədlə ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə nail olunması, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün onun maliyyə dayanıqlığının gücləndirilməsi, pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin artırılması nəzərdə tutulur. Qeyd edilənlər, növbəti dövrlərdə də sosial ödənişlərin məbləğlərində artımların olacağını deməyə əsas verir.

Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bütün sosial xidmət işçiləri səfərbər olunmaqla hazırda yaşı 65-dən yuxarı 10 mindən artıq tənha vətəndaşa evlərində gündəlik sosial məişət xidmətləri göstərilir. Hazırda tənha yaşlıların evlərində sosial xidmətlərlə təminatı işlərində DOST və ASAN, YAP könüllüləri, Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının, Gənclər Fondunun nəzdindəki Gənclərin İnkişaf və Karyera Mərkəzinin və "SƏLİS" Birliyinin könüllüləri yaxından iştirak edirlər. Fövqəladə Hallar Nazirliyi, "Azərpoçt" MMC də öz dəstəyini göstərir. "Azərmaş" ASC isə bu işlərə "Böyüklərimizi qoruyaq!" sosial aksiyası ilə qoşulmaqla sosial məsuliyyət prinsipinə sadiqlik nümayiş etdirir. Sosial xidmətçi və könüllülər tərəfindən tənha yaşlılarımıza evlərində xidmət göstərilməsi tədbirlərinin daha səmərəli və operativ təşkili üçün "Azərmaş" ASC bu aksiya çərçivəsində 100 avtomobil və sürücü ayırmaqla onları ödənişsiz taksi xidməti ilə təmin edir (20).

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT-nin Əhali Fondunun (UNFPA) birgə icra etdiyi "Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi" layihəsinin əhəmiyyəti haqqında da danışmaq yerinə düşərdi. Qeyd edək ki, layihənin mühüm uğurlarından biri kimi, BMT Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) sonuncu Siyasi İcmal buraxılışında Azərbaycan fəal yaşlanma sahəsində müsbət təcrübə nümunəsi olan ölkələr sırasında təqdim edilib. Layihə 65 və daha yuxarı yaş kateqoriyasına aid şəxsləri əhatə edir. Eyni zamanda, layihə çərçivəsində Azərbaycan üçün Fəal Yaşlanma indeksi hazırlanıb. Həmin indeks də yaşlı insanların fəal və sağlam yaşlanma potensialının qiymətləndirilməsində, yaşlı nəsilin cəmiyyət həyatında iştirakçılığının daha da artırılması ilə bağlı müvafiq sahələrin təkmilləşdirilməsi işlərində önəmlidir (21).

Daha sonra, respublikamızda tənha yaşlı insanlar evlərində qayğı və xidmətlərlə əhatə olunub. "Sosial xidmət haqqında" Qanuna uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmət işçiləri tərəfindən tənha yaşayan və yaşı 70-dən yuxarı olan, ahıl şəxslər evlərində sosial məişət xidmətləri ilə təmin olunurlar. Bu xidmətlərlə təmin edilənlərin sayı 9500-dən çox idi, karantin dövrü ərzində həmin sosial məişət xidmətləri yaşı 65-dən yüksək olan tənha yaşayan vətəndaşları da əhatə edir.

Tənha yaşlılara qayğı göstərilməsində Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) könüllülərinin, DOST və ASAN könüllülərinin, həmçinin Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü proqramının, Gənclər Fondunun nəzdindəki Gənclərin İnkişaf və Karyera Mərkəzinin və "SƏLİS" Birliyinin könüllülərinin yaxından iştirakı cəmiyyət tərəfindən rəğbətlə qarşılanır.

Tənha yaşayan insanlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən evlərində sosial xidmətlərin göstərilməsi işləri davam etdirilməklə yanaşı, ayrı-ayrı biznes qurumları da sosial məsuliyyətdən çıxış edərək tənha ahıl insanlara zəruri istehlak məhsulları ilə təmin edilmələrində qayğısını göstərir.

Buna misal olaraq "Binə Aqro" QSC, "İSR Holdinq" şirkətlər qrupu və "A-Qrup Sığorta" ASC tərəfindən bu istiqamətdə yaşlı insanlara hörmət və qayğıkeşlik hissi ilə, eyni zamanda, ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinə dəstək məqsədli nəcib sosial təşəbbüslər reallaşdırılır. "Binə Aqro" şirkəti 2200, "İSR Holdinq" şirkətlər qrupu

500, "A-Qrup Sığorta" şirkəti də 525 tənha ahılın birdəfəlik qaydada ərzaq yardımı ilə təminatını həyata keçirməkdədir. Bu sosial təşəbbüslər biznes nümayəndələri tərəfindən xüsusilə indiki şəraitdə sosial həmrəyliyə dəyərli bir töhfə və xeyriyyəcilik ənənələrinin davamlı olması yolunda atılan addımlardır (22).

Yaşlılarla bağlı Sosial Tədqiqatlar Mərkəzini tərəfindən "Azərbaycanda yaşlılar: qayğı və rifah" adlı tədqiqat həyata keçirilmişdir. Burada respondentlərin qayğı təminatçısı kimi görmək istədikləri sosial aktorları daha dəqiq və hərtərəfli müəyyənləşdirmək üçün onlara tələbatlarını ödəmək üçün əsas məsuliyyətin kimin üzərində olması haqqında sual ünvanlanmışdır.

Gözləntilərin böyük hissəsi daha çox ailə institutu və dövlətlə əlaqədardır. Respondentlərin 68,8%-i yaşlıların tələbatlarını ödəmək üçün əsas məsuliyyətin ailə, 62,1%-i isə dövlət (sosial işçilər) üzərində olması fikri ilə tam razıdır. Bu bir tərəfdən, ailə qayğısı ənənəsinin davam etməsi, digər tərəfdən dövlət qayğısına münasibətdə yüksək gözləntiləri göstərir. Yəni, respondentlərin fikrincə, yaşlılara ən ideal qayğı forması ailə və dövlət arasında bölüşdürülən qayğıdır. Qeyd etmək vacibdir ki, burda ailə dedikdə, məhz nüvə ailə nəzərdə tutulur. Belə ki, "digər qohumların" yaşlı insanın qayğısına qalmaq məsuliyyəti ilə heç razılaşmayanların sayı da kifayət qədər yüksək - 67,1%-dir.

Dostlar və qonşulardan qayğı gözləntisi isə maksimal neqativ seçim faizi - 74,6% qazanmışdır. Bu göstəricilər onu ehtimal etməyə imkan verir ki, gələcəkdə yaşlılara qayğının təmin olunmasında icma resurslarının potensialının reallaşmama təhlükəsi mövcuddur, bu resursların səfərbər olunması məqsədyönlü təbliğat-təşviqat proqramları, davamlı layihələrin həyata keçirilməsini tələb edir.

Növbəti vacib məsələ özəl sektorun (özəl qayğı mərkəzlərinin, qayğı üzrə ixtisaslaşan agentliklərin) məsuliyyəti ilə bağlı gözləntilərdir. Özəl sektorun yaşlılara qayğı xidmətlərində iştirakçılığı ilə ümumən razılaşanlar və razılaşmayanların faiz göstəriciləri təqribən bir-birinə yaxın rəqəmlərdir. Razılaşanlar 46,6% (tam razılaşanlar – 22, 44%, əsasən razılaşanlar – 24, 17% olmaqla), razılaşmayanlar isə - 49,6% dir (heç razı olmayanlar - 46, 4%, əsasən razı olmayanlar 3,2%-dir). Belə paylanma yaşlılara qayğı sahəsində özəl sektor tərəfindən təqdim olunan xidmətlərin inkişafı üçün əlverişli şəraitin yaradılması, sahibkarların belə fəaliyyətə cəlb olunması üçün stimullaşdırılmasının məqsədəuyğunluğu nəticəsinə gəlməyə imkan verir. Bu sahədə dövlət dəstəyi ilə xüsusi proqramların həyata keçirilməsi özəl sektorun yaşlılara qayğı xidmətlərini inkişaf etdirməsində mühüm rol oynaya bilər.

Ölkəmizdə bir qədər kiçik miqyasda olan xeyriyyə cəmiyyətlərindən və daha geniş vüsət almaqda olan könüllü təşkilatlarından müsbət gözləntilər uyğun olaraq, 63% və 56%-dir. Bu da yaşlılara qayğı məsuliyyətinin sosial aktorlar arasında daha balanslaşdırılmış bölgüsü üçün müvafiq sahələrin inkişafının vacibliyini göstərir.

2022-ci ilin dövlət başçısı tərəfindən "Könüllülər ili" elan olunması, habelə karantin müddətində könüllü fəaliyyətlərinin daha da genişlənməsi müvafiq sahədə təcrübənin genişləndirilməsi üçün mühüm rol oynaya bilər. Könüllülərin öz icmaları çərçivəsində ərazi bölgüsü üzrə səfərbər olunması həm də icma resurslarının səmərəli istiqamətdə səfərbər olunması deməkdir. Könüllülər ilk növbədə instrumental qayğı (evdə kiçik təmir işləri, bazarlıq etmək və s.) işlərinə qoşula bilər.

Respondentlərin yarıdan çoxunun (63%) xeyriyyə cəmiyyətlərinin yaşlılara görə məsuliyyət daşıması fikrinə müsbət yanaşması da, bu sahədə innovativ fəaliyyətlərin həyat keçirilməsi və görülən işlərin genişləndirilməsinin səmərəli ola biləcəyi nəticəsinə gətirir. Burda da müvafiq təşfiqedici proqramlar, müxtəlif qurum, təşkilat, şirkətlərin xeyriyyəçilik fəaliyyətinə həvəsləndirilməsi yaşlı nəslin, xüsusilə sosial-iqtisadi vəziyyəti bir qədər məhdud olan və qayğıya ehtiyacı olan vətəndaşların rifah halının yaxşılaşdırılmasını şərtləndirər (19).

Nəticə

Sosial xidmətlər sahəsində dövlət fəaliyyəti konkret ölkə üçün aktual olan müxtəlif sosial risklərin qarşısının alınmasına, habelə bu risklərin nəticələrinin ödənilməsinə yönəldilməlidir. Yaşlılara kompensasiya verilməsində mühüm rol yaşlılar üçün zəruri olan xüsusi sosial xidmətlərə verilməlidir.

Yaşlılara qayğının təmin olunmasında müxtəlif sosial aktorların iştirakçılığı yalnız ənənə və qanunverici baza ilə deyil, həm də vətəndaşların qayğı təminatçısına nə dərəcədə inanması, onun təqdim edə biləcəyi xidmətlərin qayğı normaları və idealları ilə uyğunluq səviyyəsindən asılıdır. Tədqiqatlar göstərir ki, respublikamızda yaşlıların tələbatlarını ödəmək üçün əsas məsuliyyət ailə institutu və dövlətlə bağlıdır və bundan sonra dostlar və qonşular, özəl sektor, xeyriyyə cəmiyyətləri və nəhayət, könüllülər bu məsuliyyəti bölüşdürürlər.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi / Əhalinin yaş qrupları üzrə çəkisi* / https://www.stat.gov.az/source/demoqraphy/ *linki üzrə (müraciət tarixi 21.02.2020)*
2. Абсолютная нищета – это когда средне-душевой доход семьи ниже прожиточного уровня //Российская энциклопедия социальной работы. М., 1999.
3. Альперович А.Н. Старость. Изд-во «Прогресс». М.,2006.
4. Большая советская энциклопедия, М., 1927. Т. 6.
5. Галаганов В.П. Право социального обеспечения: Учебник. М.: Изд. центр «Академия», 2004.
6. Доброхлеб В.И. Социально-экономический потенциал старшего поколения. Дисс. На соискание уч.ст. д.э.н. М., 2005.
7. Доклад Еврокомиссии о корпоративной социальной ответственности. Источник информации: сетевой сайт «Новое поколение: экономисты, политологи, философы» (http: //www.newgen.org/).
8. Зима В.В. Социальное обеспечение как структурный элемент системы социальной защиты населения. Среднерусский вестник общественных наук. N 1, 2010 г.
9. Иванова Р.И. Предмет и метод советского права социального обеспечения. М., 1983.
10. Косенко О.Ю. Теория и практика развития системы предоставления социальных услуг лицам пожилого возраста // Управление экономическими системами: электронный научный журнал, 2010. - № 2 (22). - № гос. рег. статьи 0421000034/. - Режим доступа к журн.: http://uecs.mcnip.ru.
11. Краснова О. В. Социальная психология старения: Учеб. пособие для студ. высш. учеб. заведений/ О.В. Краснова, А.Г. Лидерс. - М.: Изд. центр "Академия", 2002.
12. Самарцева В.Е. Социальная ответственность государства и бизнеса перед населением // Вестник СГАП. Саратов. 2006. № 5.
13. Социальная работа с пожилыми/ Ред-.сост. Т.Е. Демидова. - М.: Институт социальной работы, 1995. - (Настольная книга специалиста).
14. Социальная энциклопедия / Редкол.: А.П. Горкин, Г.Н. Карелова, Е.Д. Катульский и др. М.: Большая Российская энциклопедия, 2000.
15. Филозоп А.А. Некоторые аспекты психэсоциальной помощи пожилым и старым людям // Психология зрелости и старения. — 2003. — №3.
16. Холостова Е.И. Социальная реабилитация: Учебное пособие/ Е.И. Холостова, Н.Ф. Дементьева. — М., 2002.
17. Черносвитов Е.В. Проблемы активизации жизни пожилых людей // Психология зрелости и старения. —2000. — №1 (9).
18. *Population Situation Analysis: Beyond the Demographic Transition in Azerbaijan (2015) / Author: Avdeev A., UNPFA/UNDP Population Situation Analysis: Beyond the Demographic Transition in Azerbaijan (2015) / Author: Avdeev A., UNPFA/UNDP*

19. https://stm.az/en/news/330/azerbaycanda-yaslilara-qaygi-mesuliyyet-kimdedir
20. https://sputnik.az/20211007/pensiyaya-elleri-catmamis-dunyadan-kocurler---pensiya-yasi-niye-azaldilmir-433910666.html
21. https://www.sosial.gov.az/post_504558
22. https://www.azerbaijan-news.az/view-186167/tenha-yasli-insanlar-evlerinde-qaygi-ve-xidmetlerle-ehate-olunub

Раджабали Алиев

ПРОБЛЕМА СОЦИАЛЬНОЙ ЗАЩИТЫ ПОЖИЛЫХ

Резюме

В статье особое внимание уделяется социальной защите, оказанию материальной помощи в экстремальных условиях, содействию адаптации социально незащищенных слоев населения к условиям рыночной экономики. Отмечается, что в структуру системы социальной защиты традиционно входят социальное обеспечение, социальное страхование, социальная помощь. В результате социальное обеспечение можно считать важнейшим элементом современной системы социальной защиты, которая обеспечивает гражданам доступ к государственным пенсиям и пособиям, а также предоставляет различные льготы по обеспечению и обслуживанию лиц пожилого возраста и инвалидов.

Цель: Изучить возможности повышения социальной защищенности пожилых людей в современных условиях.

Методология: Анализируются современное состояние и пути повышения социальной защищенности пожилых людей на основе системного подхода, методов статистического анализа данных и повторного анализа, определяются возможности получения новых знаний.

Научная новизна: Участие различных социальных акторов в уходе за пожилыми людьми зависит не только от традиций и законодательства, но и от степени доверия граждан поставщику услуг и уровня соблюдения норм и идеалов ухода за пожилыми людьми.

Ключевые слова: *пожилые люди, социальное обеспечение, социальная политика, малообеспеченные, социальные услуги*

Racabali Aliyev

THE PROBLEM OF SOCIAL WELFARE FOR ELDERLY PEOPLE

Summary

The article pays special attention to social protection, the provision of material assistance in extreme conditions, and the promotion of the adaptation of socially unprotected segments of the population to the conditions of a market economy. It is noted that the structure of the social protection system traditionally includes social security, social insurance, social assistance. As a result, social security can be considered an essential element of the modern system of social protection, which provides citizens with access to state pensions and benefits, as well as provides various benefits for the provision and service of the elderly and the disabled.

Objective: To study the possibilities of increasing the social protection of the elderly in modern conditions.

Methodology: The current state and ways of improving the social protection of older people are analyzed on the basis of a systematic approach, methods of statistical data analysis and reanalysis, and the possibilities of obtaining new knowledge are defined.

Scientific novelty: The participation of various social actors in the care of the elderly

depends not only on traditions and legislation, but also on the degree of trust of citizens in the service provider and the level of compliance with the norms and ideals of care for the elderly that they can provide.

Keywords: *elderly people, social security, social policy, low-income people, social services*

UOT 1(091)

Faiq Ələkbərli
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası,
fəl.f.d., dosent
faikalekperov@mail.ru
http://orcid.org/0000-0002-8865-568x

HÜSEYN CAVİDİN DİNİ, FƏLSƏFİ-UTOPİK VƏ İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ

Məqalədə Azərbaycan Türk mütəfəkkiri Hüseyn Cavidin dünyagörüşündə insanlıq, türkçülük, islamlıq və yeniləşmə məsələlərindən bəhs olunur. Burada ilk növbədə, H.Cavidin dini və dini-fəlsəfi görüşlərindəki Tanrı+İnsan bütünlüyü təhlil olunmuşdur. Cavidin utopik fəlsəfəsində bir qadının sevgisi dalınca qoşan Şeyx Sənanla, tək Yaradan ideyasını təbliğ edən peyğəmbər arasında çox da fərq yoxdur. Çünki hər ikisi qəhrəmandır; birisi yerdəki müqəddəs sevgisi üçün, o birisi gözəgörünməz ilahi eşq üçün mücadilə verir. Məqalədə göstərilir ki, Cavidin fəlsəfəsində insanlar etdikləri səhvlərə, günahlara görə dinlər, eləcə də dinlərin yayıcıları peyğəmbərlər qarşısında deyil, yalnız vicdanları və Tanrı qarşısında cavabdehlik daşıyırlar. Cavid əslində bütün yaradıcılığı boyu yeni bir həyatın təbliğatçısı olub. Sadəcə, Sovet Azərbaycanında 27 aprel işğalınaqədərki şərtlər olmadığı üçün, həmin şərtlərə görə Tanrı-+İnsan fəlsəfəsindən yazırdı. Bizcə, Cavid üçün Tanrı+İnsan fəlsəfəsi şərtlərə görə, zahirən dəyişsə də mahiyyət etibarilə dəyişməz olaraq qalırdı. Başqa sözlə, Cavid üçün Tanrı nə ruhanilərin, nə kommunistlərin, nə də liberalların anladıqları Tanrı deyildi. Yeni şərtlərlə dinlərdəki Tanrını tamamilə inkar edən Sovet cəmiyyətinin özü fəhlə-kəndli cəmiyyətinin istədiyi "Tanrı" formalaşdırırdı ki, Cavid belə bir Tanrını qəbul edə bilməzdi. O, dinlərdəki Tanrını özəlləşdirən ruhanilər kimi, kommunistlərin də "kommuna" adlı "Tanrı"sını qəbul etmirdi. Çünki riyakar ruhanilərlə riyakar kommunistlərin istədikləri əsas hədəf gözəgörünməz Tanrı, ya da "Kommuna-Tanrı"" adları altında yağmaçılıqdır, qəsbkarlıqdır.

Məqalədə göstərilir ki, H.Cavidin yaradıcılığında ən çox diqqət çəkən Türk millətinin, o cümlədən Azərbaycan türklərinin yenidən oyanışı, maariflənməsi və milli dirçəlişi olmuşdur. Cavidin yaradıcılığında türkçülüklə bağlı olaraq, bu gün üçün də aktual olan məsələlərdən biri ortaq Türk tarixinin yaradılması ideyasıdır. Cavidə görə, ortaq Türk tarixi olmadığı üçün Türk xaqanlarını doğru-dürüst tanımırıq, eyni zamanda türklər tarixlərini doğru öyrənmədikləri üçün vaxtilə Türk sultanlarının bir-birləri apardıqları müharibələrdən bu gün də nəticə çıxara bilmirik. Bu mənada, türklük qürurunu, şərəfini hər şeydən vacib hesab etmiş H.Cavid üçün Çingiz xan, Əmir Teymur və başqa türk hökmdarları türk tarixinin ən şanlı qəhrəmanlarıdır. Məqalədə Cavidin mühüm milli əməllərindəin biri kimi Türk dilinə xidmətindən bəhs olunmuşdur. O, ortaq Türk dili ideyasını sözdən əmələ keçirməyə çalışmış, bütün əsərlərini ("Səyavuş", "Şeyda", "İblis" və b.) Türk dünyasının anlayacağı bir dildə qələmə almışdır. Onun ictimai-siyasi görüşlərində Şərqlə Qərbin müqayisəsi, hərb və sülh məsələləri də mühüm yer tutmuşdur. Xüsusilə də, davakar, savaşçı, tərəqqipərvər Qərbin ağlağan, məzlum, gerilikçi Şərq üzərində ağalığı Cavidi çox narahat etmişdir.

Məqsəd – Hüseyn Cavidin dini-fəlsəfi, utopik görüşləri və türkçülük, turançılıq ideyalarını təhlil etmək.

Metodologiya – müqayisəli təhlil, varislik, ideyaların ötürülməsi, analiz.

Tədiqatın nəticələri – Hüseyn Cavidin ideyaları ilə çağdaş dövrün ictimai-siyasi və ideoloji tələbləri arasında uzlaşdırmaların axtarılması

Açar sözlər: *Türklük, Turançılıq, Romantizm, İslam dini, İslamlıq, Yeniləşmə, Qərbçilik, İnsanlıq*

Giriş

Hüseyn Cavid (1882-1941) Naxçıvanda ruhani ailəsində anadan olub, molla məktəbində ibtidai təhsil aldıqdan sonra orta təhsilini M.T.Sidqinin "Məktəbi-Tərbiyə" adlı yeni üsullu məktəbində və 1899-1903-cü illərdə Təbrizin "Talibiyyə" mədrəsəsində davam etdirmişdir. O, burada ərəb və fars dillərinə yiyələnmiş, ancaq ağır göz xəstəliyinə görə təhsilini dayandırmış və bir müddət ticarətlə məşğul olmuşdur. Daha sonra Təbrizdən Urmiyaya getmiş 1904-cü ilin may ayına qədər orada yaşamış, oradan Tiflisə gedib orada yol tikintisi ilə məşğul olan şirkətdə mühasib olaraq işləməyə başlamışdır. 1906-cı ildə qardaşı Məhəmməd onu İstanbula ali təhsil almağa göndərmiş, İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmişdir (1909). O, ali təhsilini bitirdikdən sonra əvvəlcə Naxçıvanda, daha sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Cümhuriyyət quruculuğunda da yaxından iştirak edən Cavid bir sıra milli ruhlu əsərlər yazmışdır.

27 Aprel işğalından sonra da müəllimliyə və yazarlığa davam edən Cavid 1926-cı ildə müalicə üçün Berlinə (Almaniyaya) getmiş və burada ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik, lirik-epik əsərlə yazmışdır. Vətənə döndükdən sonra daima təqiblərlə üzləşən Cavid 1938-ci ildə həbs olunmuş, 1939-cu ildə 8 il islah əmək düşərgəsinə məhkum edilmişdir. O, 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunda dünyasını dəyişmiş, çox sonralar məzarı Naçxıvana gətirlmişdir.

Onun əsas əsərləri aşağıdakılardır: "Ana" (1913), "Maral" (1912), "Şeyx Sənan" (1914), "Şeyda" (1917), "Müharibə və ədəbiyyat", "Həsbi-hal", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam" və b.

Dini, fəlsəfi-utopik görüşləri

H.Cavidin dini və dini-fəlsəfi görüşlərində İnsan+Tanrı bütünlüyü mühüm yer tutur. O, yazırdı ki, bir könülə iki sevgi sığışmaz: "könül bir, sevgi bir, böyük Tanrı bir". Cavidə görə, insan ilahi sevgiyə qovuşmaq üçün mücadilə verir, çünki sevgidədir ancaq Allah rizası, sevgisiz bir könül şeytan yuvasıdır. Bu dünya isə kimsəyə qalmayacaq, çünki əsli, əsası çürükdür **(1, s. 69)**.

Bizcə, o, Şeyx Sənan timsalında da ilahi məhəbbəti bütün sevgilərdən üstün tutmuşdur. Yəni bir xristian qadınına aşiq olan Şeyx Sənan üçün dini əngəl olmadığı kimi, vahid Tanrıya gedən yolda da nə dinlər, nə də digər məzhəblər əngəl ola bilməz. Bu baxımdan bir kafir qadına uyub dinini, imanını satan Şeyx Sənanı qınamaqla yanaşı, Cavidə görə, o, cahan durduqca parlayan, yüksələn "məhəbbət", "eşq" adlı təriqətin də əsasını qoyub:

Uyub sən bir mələksimayə satdın dini, imanı,
Atıb ehkami-Quranı, uzaqlaşdın təriqətdən.
Fəqət xoş bir təriqət qoydun, əsla məhv olub getməz,
Cihan durduqca parlar, yüksəlir, düşməz tərəvatdən.
Ziyarətgahını gülbusələr təzyin edər hər an,
Sən əhli-eşq için bir Kəbə yapdırdın məhəbbətdən...
Məhəbbətsiz bütün mənayi-xilqət şübhəsiz hiçdir,
Məhəbbətdir əvət, məqsəd şu pürəfsanə xilqətdən ***(2, s. 58)***.

Burada incə bir məqam var ki, Cavid üçün yaxın deyil, uzaq məhəbbət, uzaq səadət dəyərlidir. Onun fikrincə, yaxın məhəbbət və saədər müvəqqətidir. Bizcə, onun Şeyx Sənanın məhəbbətinə olan hörməti də uzaq və əlçatmaz olması ilə bağlı idi. Ona görə,

yaxın olan məhəbbət, səadət insan nəfsi nəticəsində heç olur. O, yazırdı:

Gözəl mələksə... bulutlarda göy üzündə yaşar:
Uzaq, bəşərdən uzaq bir mühitə mail olur.
Uzaq, bəşərdən uzaq, gizli bir fəzaya qoşar;
Yaşar mələk kibi, xoş bir xəyali-müğfil olur.

Əvət, uzaqda səadət var, eşqə hörmət var,
Yaqın zəhərlidir, amma uzaqda cənnət var;
Uzaqda var əbədiyyət ki, başqa nemətdir ***(2, s. 70)***.

Çox güman ki, peyğəmbərlərin Yaradan ideyası da əlçatmaz, uzaqda olduqları üçün ilahi məhbbət xarakteri daşıyır. Bizcə, Cavidin utopik fəlsəfəsində bir qadının sevgisi dalınca qoşan Şeyx Sənanla, tək Yaradan ideyasını təbliğ edən peyğəmbər arasında çox da fərq yoxdur. Çünki hər ikisi qəhrəmandır; birisi yerdəki müqəddəs sevgisi üçün, o birisi gözəgörünməz ilahi eşq üçün mücadilə verir. Ona görə də, Cavid yalnız Şeyx Sənanlara deyil, Allahın dinini Yer üzərində yayan, təbliğ edən peyğəmbərlərə də böyük qiymət vermişdir. Onun fikrincə, peyğəmbərlərin hər biri bir qəhrəman olmuş, öz ümmətlərin doğru yol - Allahın yolunu göstərmişlər:

İştə onlar, hər biri bir qəhrəman,
Həp çalışmış durmadan, sarılmadan...
Həpsinin amalı bir, əfkarı bir,
Həpsinin iqbalı bir, idbari bir.
Həpsi yalnız bir həqiqət aşiqi
Həpsi bir vicdanla dinlər xaliqi.
Həpsinin qəlbində bir sevdası var,
Həpsi Məcnun,həpsinin Leylası var ***(2, s. 84-85)***.

Deməli, Şeyx Sənanlar sevgilisini yerdə ararkən peyğəmbərlər göydə aramış, hər bir peyğəmbər İlahi Eşq naminə mücadilə vermişlər. Ancaq peyğəmbərlər öz təbliğatlarını yalnız Yaradandan gələn ilhamla deyil, eyni zamanda öz hissiyyatları ilə də aparmışlar. Bu zaman da bir peyğəmbərin dedikləri digər peyğəmbərlə bəzən uyuşmamışdır. Cavid yazırdı:

Ağlamışlar həpsi insaniyyətə,
Xadim olmuşlar bütün bir niyyətə.
Parlamış həpsində bir haq şöləsi,
Xeyrə munis, şərə düşman cümləsi.
Haqdan almış həpsi ilhamatını,
Dinləmiş həm kəndi hissiyyatını.
Hər kəs inşad eyləmişdir bir kitab,
Ta ki, ihzar eyləsin bir inqilab.
Başqa bir "bənlik" ararkən hər biri,
Uymaz olmuş bir-birə çoq sözləri.
İştə hər dahidə var bir etiyad,
Yan baqıb təqlidə, eylər ictihad.
Pək təbiidir ki, hər sahibhünər
Bir təcəddüd, bir xüsusiyyət dilər ***(2, s. 85)***.

O, Allahın tək olduğu halda peyğəmbərlərin müxtəlif dinlər ortaya qoymasını təsadüfi hesab etmir. Onun fikrincə, Allah tək olduğu halda peyğəmbərlərin müxtəlif dinlər yaratması o anlama gəlir ki, hərə Yaradanı öz bildiyi kimi başa düşür. Bu isə o deməkdir ki, bütün peyğəmbərlər vahid Allaha tapınsalar da, ancaq Onu dərk etmə yolları bir qədər fərqlidir. Peyğəmbərlərin Allahın dərki yolundakı fərqli düşüncələri də ayrı-ayrı insanlar tərəfindən müxtəlif yerlərə yozulmuşdur. Cavid yazırdı:

Sonra, lakin sonra pək çoq sürmədən,
Fırlayıb meydana bir çoq rahzən,
Onların fikrində bulmuşlar təzad;
Hər biri bir yolda etmiş ictihad.
Bir-birindən xəlqi istikrah için
Hər biri bir dürlü olmuş xuşəçin.
Bir yığın əfsanə, bin lafü gəzaf
Uydurub hər kəs çıqarmış ixtilaf.
Hər biri boş bir xəyal almış ələ,
Uğraşıb dünyaya salmış vəlvələ ***(2, s. 85)***.

Bununla da, Cavid haqlı olaraq yazırdı ki, Yaradan tək olduğu halda, peyğəmbərlərin öz hissiyyatlarına əsaslanaraq insanları Onu fərqli yollarla dərk etməyə dəvət etmələri, daha sonra da peyğəmbərin ətrafındakılarının, ya da digərlərinin bundan çıxış edərək müxtəlif ideyalar ortaya atmaları ixtilaflara, müxtəlif məzhəblərin yaranmasına səbəb olmuşdur. O, yazırdı:

Ayrılıb bir mürşidin peyrəvləri,
Ayrı məzhəblər çıqarmış; hər biri
Bir yığın böhtanlar icad eyləmiş,
Pirinə həzyanlar isnad eyləmiş.
Anlamaz, kor xalqı qandırmış bütün,
Hər nə qusmuş, həp inandırmış bütün.
Qübbə yapmışlar küşük bir həbbəyi,
Söyləmiş: "haq məndə.." hər külxanbəyi.
Hakim olmuşlar bütün izanlara,
Hər kəs uymuşdur o bivicdanlara ***(2, s. 86)***.

Bizcə, Cavid o məsələdı haqlı idi ki, Yaradanı dərk etmə yolunda fərqliliyin təməlini ilk növbədə, özünü Yaradanın elçisi hesab edən peyğəmbərlər və onların müridləri qoymuşlar. Daha sonra da, peyğəmbərlərin yolundan ayrılanların hər biri də bir məzhəb icad etmiş, yalnız özlərinin doğru yolda oldğunu iddia edib Haqqın onunla olduğunu söyləmişlər. Beləliklə, müxtəlif məzhəblər və firqələr ortaya çıxmış, hər öz cığrını açmış, bu yolda öz həmfikirlərinə belə düşman olmuş və son nəticədə Yaradanın dərkinə münasibətdə antaqonist mülahizələr irəli sürülmüşdür. Cavid yazırdı:

Firqələr təşkil edilmiş anbaan,
Olmamış əskik niza heç bir zaman.
İzələyib hər firqə çıqmaz bir cığır,
Bir düğün-dərnək qurulmuş zırhazır.
Hər kəs uymuş kəndi sərsəm fikrinə,
Düşman olmuş çoqları öz həmfikrinə.

Eyləmiş hər kəs təsəvvür, qayəsiz,
Başa yol, bir başqa xaliq, başqa iz.
Hər kəs aldanmış da sapmış bir yana,
Bin çeşid bütlər yapıb tapmış ona.
Hər kəsin ruhunda bir xaliq gülər,
Öylə bir xaliq ki, xəlq etmiş bəşər ***(2, s. 86).***

Deməli, iki cür Xaliq var: 1) əsil Xaliq, 2) İnsanların yaratdığı "Xaliqlər". Belə anlaşılır ki, insanların böyük çoxu əsil Xaliqi bir kənara qoyub özlərindən uydurduqları "xaliqlər"ə tapınırlar. Əsil Xaliqlə insanların uydurduğu "xaliqlər" arasında isə dabandabana iç ziddiyyətlərlə yanaşı zahiri oxşarlıqlar da vardır. Cavid yazırdı:

Pək tühaf!...Bir firqə digər firqənin
Xaliqindən diksinib olmaz əmin.
Halbuki, hər kəscə Haq bir, Tanrı bir...
Ya bu sərsəmlik, bu azğınlıq nədir!?
Bir yığın insan arar zülmətdə nur,
Bir yığın: haq bizdədir, söylər durur.
Bir güruh eylər pərəstiş vəhdətə,
Bir güruh eylər təməllüq kəsrətə.
Hər kəs artıq izləyib bir yol gedər,
Əyri, düz, çirkin gözəl – iman edər.
Cahil – arif, bir çoban – bir feyləsuf
Kəndini sanmaqda... ərbabi-vüquf ***(2, s. 86).***

Cavidə görə, insanlar özlərindən uydurduqları "Xaliqləri"nə və həmin "Xaliqlər"lə bağlı tutduqları yollarına o qədər inanırlar ki, əsil Haqq yenidən təcəssüm etsə belə, onlar öz yollarından artıq geri dönməyəcəklər. O, yazırdı:

Hər kim əvvəldən inanmış hər nəyə,
Bir də ram olmaz o digər bir şeyə.
Haq təcəssüm etsə birdən həpsinə,
Tutduğundan kimsə vaz keçməz yenə.
Çünki pək gücdür unutmaq keçmişi,
Həm düşünmək istəməz bir çoq kişi.
Hökm edər "mazi" bütün vicdanlara,
"Əskilik" eylər nüfuz izanlara.
Əski adətlər birər zəncir olub,
Dəmbədəm etməkdə təsxiri-qülub.
Sorsalar: dünyada kimdir hökmdar?
Bən derim: ölmüşlər, ölmüş duyğular ***(2, s. 86-87).***

Cavid bütün bunlardan çıxış yolu kimi hesab edirdi ki, yanlış, çürümüş fikrilərdən, adətlərdən əl çəkib yeniləşməklə, əsil Xaliqin varlığını insan öz qəlbində aramaqla doğru qərar vermiş olar. Bir sözlə, şübhələrdən qurtulub yenidən əsil Yaradana dönmək lazımdır. O, yazırdı:

Şübhədir, hər həqiqətin anası,
Şübhədir əhli-hikmətin babası.
Şübhə etməkdə haqlıdır insan,
Çünki hər kəscə bəllidir: Yaradan

Hər zaman, hər tərəfdə nurəfşan,
*Fərqsiz onca həp zamanü məkan... **(1, s. 113).***

Bu baxımdan onun fikrincə, islamda, xristianlıqda öz əksini tapan bəzi məsələlərə, xüsusilə peyğəmbərlərin meracda olmasına, tövhidə insanların birmənalı yanaşmaması kafirliklə deyil, həqiqəti axtarmaqla bağlıdır. O, yazırdı:

Kim ki, Allahı istiyor görmək,
Arasın qəlbi-tabnakində,
Arasın ruhi-pakində,
Hər kimin qəlbi, ruhu düzgündür,
Daima hiss edər də haqqı görər.
Feyləsufanə ruha malik olan
*Yaşamaz ayrı hərgiz Allahdan. **(1, s. 113).***

H.Cavidin fikrincə, insanlar etdikləri səhvlərə, günahlara görə dinlər, eləcə də dinlərin yayıcıları peyğəmbərlər qarşısında deyil, yalnız vicdanları və Tanrı qarşısında cavabdehlik daşıyırlar. Bununla da Cavid demək istəyir ki, ürəyində əsil Allah sevgisi olan hər bir kəs doğru yoldaddır. Kim doğru yolda deyilsə, deməli onun ürəyində Allah sevgisi də yoxdur. O, yazırdı:

Əmin ol, nerdə nəfs olmuşsa hakim;
Həqiqi eşqi məhv etmiş məzalim.
Kimin ülviysə ruhu, söz onundur,
*Əsiri-nəfs olan daim zəbundur **(2, s. 29).***

Bir qədər də dəqiqləşdirsək görərik ki, bir yandan insan Yaradanın olub-olmamasının axtarışındadır, digər tərəfdən Yaradanın olmasını qəlbində tapsa belə, bundan sonra da Onu nə dərəcə də dərk edib-etməməsinin intizarındadır. Bizcə, Cavidin "Uçurum" faciəsində də əsas məsələ İnsan, Təbiət (Kainat) və Yaradan üçlüyü ilə bağlıdır. Məhz gənc filosof Əkrəm bu suallara cavab axtararkən yaşlı filosof Uluğ bəy ona belə bir "həqiqəti" deməli olur:

Əvət bir çox bilgiclər,
Filosoflar, ədiblər
Sənin kimi bu yolda
Haqq ictihad etmişlər.
Hər kəs duymaq istəmiş
Müəmmalı xilqəti,
Dərk olunmaz Tanrını,
O sarsılmaz qüvvəti.
Hər kəs uçduqca uçmuş,
Yüksəldikcə yüksəlmiş,
Fəzaları aşdıqca
Çırpınıb vəcdə gəlmiş,
Fəqət şəhpəri yanmış,
Şaşqın bir qartal kimi
Qeyb etmişdir, nəhayət

İzlədiyi kövkəbi.
Sarmaq istərkən bütün
Kainatı bir anda,
Donub qalmış ən kiçik
Bir zərrə qarşısında. ***(1, s. 338).***

Deməli, Cavid üçün bu məqamda Tanrı varsa belə, o dərk olunmazdır, daha doğrusu insan idrakı Onu dərk etmək gücündə deyil. Hətta, peyğəmbərlər və filosoflar belə Onu heç zaman tam dərk edə bilməmiş, sadəcə hərəsi özü üçün bir-iki idrak damlası ilə kifayətlənmişlər və çox dərinə getməkdə aciz qalmışlar. Bunu, yenə də Uluğ bəyin dilindən Cavid belə ifadə edir:

Böyük İbn Sinalar, Sokratlar, Əflatunlar,
Dahi bir ustad ikən əcəb, nə buldu onlar?!
Fəlsəfə bir çıxılmaz yol ki, yormuş hər kəsi,
Çoxlarını boğmuş da, duyulmaz olmuş səsi! ***(1, s. 113).***

Bu o anlama gəlir ki, Yaradanın var olub-olmamasını dərk, var olduğu təqdirdə də Onun dərki insan üçün əsasən sirrdir, çıxılmazlıqdır, ancaq yenə də Onun dərkinə doğru can atmaq da İnsanın xislətindədir. Ona görə də, İnsan Yaradanı gah sonsuz Kainatda, gah Təbiətin özündə, gah öz Qəlbində arayıb-axtarır. Bütün bunların hər birisi də İnsan şüuru üçün olduqca çətinliklər yaradır, müxtəlif çıxılmazlıqlara aparır. Çünki bəzi qənaətləri İnsanı Yaradanın Təbiətdə, digər qənaətləri Sonsuz Kainatda, üçüncüsü Qəlbində, dördüncücü tamam başqa bir məkan və zamanda, beşincisi ağılasığmaz yerlərdə, altıncısı çox sadə yerlərdə axtarıb tapır.

Cavid onu idrak etməkdə çətinlik çəkirdi ki, Yaradanda dəyişilmə varmı-yoxmu, ancaq sonsuz Kainatda, Təbiətdə (dünyada) və İnsanda bu dəyişilmələrin olması sirr deyil. O, yazırdı:

Yox təbiətdə eylə bir qüvvət
Əbədi, həm də payidar olsun.
Həp dəyişməkdədir bütün xilqət,
Həp dəyişməkdədir bütün fünun.
Olmayan varmı inqilaba zəbun?
Seyr edin iştə kainatı bütün
Devrilir hər addımda bir əzəmət,
Dinləməz dünki hadisatı bu gün,
Parlıyor hər dəqiqə bir hikmət.
Hər qaranlıqda çırpınır bir nur,
Hər həqiqətdəbir xəyal uyuyur. ***(2, s. 76).***

Maraqlıdır ki, H.Cavid bir tərəfdən Yaradanın varlığını qəbul etsə də, digər tərəfdən o, Yaradanı səmavi dinlərdəki, o cümlədən islam dinindəki Allah anlayışından xeyli dərəcədə fərqli başa düşür. Məsələn, Cavidin dərk etdiyi Yaradanın cənnət və cəhənnəmi, dindəki cəhənnəm və cənnətdən fərqlənir. Ona görə də, o, bəzi şeirlərində, dramlarında yazırdı ki, cənnəti yalnız o dünyada xəyal etmək deyil, real aləmin özündə də görmək olar. Cavid yazırdı:

Ruhim yenə ləbrizi-sədaət..
Ya rəbb, bu nə tufani-lətafət?!
Göydən Yerə enmiş kimi cənnət,
Yer-yer saçılır nuri-məsərrət...
Bu lövheyi-ülviyyətə əlbət
Röya deyəməm, eyni-həqiqət.

Deməli, Cavidə görə o dünyadakı cənnət və cəhənnəmin bir surəti həm də yaşadığımız real aləmdədir. Bu o anlama gəlir ki, bu dünyada cənnət və cəhənnəmi bədənimizlə yaşayırıqsa, o dünyada isə ruhumuzla bunun şahidi olacağıq. Hər halda o, inanırdı axirət dünyasında da cənnət mövcuddur və ruhən orada olacaqdır:

Məni həp parça-parça doğrasalar,
Ruhim ölməz, səmayi-eşqə uçar,
Uçar, ən möhtəşəm fəzalar aşar,
Yenə cənnətdə həp səninlə yaşar.

Bütün bunlardan belə nəticə çıxarmaq olar ki, din məsələsində şairin üsyanı Yaradana və islama deyil, Yaradanın və islamın adından sui-istifadə edən bir çox din xadimləridir. Cavid məhz onların mənfi əməlləri sayəsində insanların islam dini haqqında yanlış təsəvvürlərə malik olduğuna inanır. Bu baxımdan şair hesab edir ki, Allahın heç bir dini, o cümlədən islam elmə qarşı yönəlməmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, əgər dinlərlə insanla arasında problem varsa (var da), bunun günahı həmin dinləri təbliğ edənlərdədir. Məsələn, islam dinində qadınların başının və üzünün örtülməsi məcburi olaraq qadağan edilmədiyi halda, müxtəlif yozumlar nəticəsində belə bir halı müşahidə edirik. Cavidin fikrincə, halbuki qadınların üzü, ya da başı bağlı gəzməsinin islama heç bir aidiyyatı yoxdur, onların azadlığını əllərindən alanlar yalançı hədislər, yalançı ruhanilərdir: "Xalqı uçurumlara yuvarlayan bir qanun isə pək çürük və mənasız bir əfsanə deməkdir. Bir də nə islam şüarı, nə türklük səciyyəsi qadınlara "örtün" deyə, əsla məcbur etməz və bu hal yalnız etiqaddan doğma bir məhkumiyyətdir ki, o da gec-tez zail olar" ***(1, s. 92).***

Ümumiyyətlə, qadınların üzü bağlı, yaxud üzü açıq gəzməsi vicdan məsələsidir. Bu baxımdan H.Cavid də Ə.Hüseynzadə, M.Hadi, ƏAğaoğlu kimi, islamın yeniləşməyə zidd olmaması qənaətinə gəlmiş və hesab etmişdir ki, təbiətdə hər bir şey dəyişməkdə və inkişafdadır. İslam isə, heç vaxt dəyişilməyin və yenilşəməyin əleyhinə olmamışdır. Üstəlik, Cavid digər dinlərlə müqayisədə İslam dininin bir addım öndə olduğuna inanmışdır. Onun fikrincə, fiziki cəhətdən Günəş tək olub bütün insanlara eyni dərəcədə nur verdiyi kimi, yalnız İslam dini mənəvi anlamda buna qadirdir:

Arqadaşlar! Şu parlayan günəşin,
Feyzi birdir cihanda hər kəs için.
Türk, hindu, ərəb, əcəm bilməz,
Nuru hər yanda artar, əksilməz.
Mənəvi bir günəş də var: nəvvar –
O da islam dinidir, parlar.
Parlar, afaqı nurə qərq eylər.
Həq, həqiqət nədirsə həp söylər ***(1, s. 134).***

Doğrudur, 27 aprel işğalından sonra Cavidin dinlərə, o cümlədən islam dininə münasibəti bir qədər də dəyişmiş, bizcə, daha çox elmi-fəlsəfi xarakter daşımışdır.

Xüsusilə də, o, "Azər" poemasında insanları dindən imtina etməyə çağırmasa da, ancaq ümumilikdə "həyat dini"ni təbliğ etməklə, buna işarə etmişdir. Hər halda əsərin qəhrəmanı Azər (Azər adlı obraz Cavidin özüdür) 30 illik tərəddüdlərinin, bilgilərinin, ziddiyyətlərinin yekunu olaraq yeni bir həyat fəlsəfəsini ("dini-həyat"ı) ortaya qoymaq istəyir. Cavid yazırdı:

Azər düşünür... Bəlkə otuz yıldır o hər an
Düşkün bəşərin eşqini, fəryadını inlər.
Yaqdıqca yaqar beynini bir kölgəli böhran,
Əflaka sorar dərdini, yıldızları dinlər ***(2, s. 146).***

Azər kimdir? Azər, sevgi yolu izləyən, barış istəyən, əbədi azadlıq sevdalısı birisidir. Ancaq o yeri gələndə barış üçün qovğa da edir, əbədi azadlıq üçün mübarizə də aparır, bəzən mərhəməti dayaqda, bəzən də yardım etməkdə görür, ilahi sevgi üçün qurbanlar da verir. Ən əsası odur ki, Azərin yeni həyat fəlsəfəsində ikiüzlülüyə, riyakarlığa, saxtakarlığa yer yoxdur. O, bu məsələdə riyakar ruhaniləri də, yaltaqları da, rüşvətxor məmurları da, dini və siyasi fanatikləri də, yaxın dostlarını da qarşısına alır:

Rəqsi təlim ediyor aqsaqlar,
Əzəmət düşkünüdür alçaqlar.
Zevqə biganə səfillər bol-bol
Şerü sənətdə arar bir yeni yol.
Sadədil, hissə uyan abdallar
Həp siyasi kəsilib at nallar.
Bir yığın kor qılavuzluq yaparaq
Göstərir zülməti aydın, parlaq.
Hər gülər yüzdə ölüm, qan görürəm,
Pək yaqın dostları düşman görürəm.
Yurdu sarmış qabalıq, yaltaqlıq,
Yüksəliş varsa, səbəb alçaqlıq. ***(2, s. 154).***

Cavid açıq şəkildə deyirdi ki, dini və siyasi anlamda simasızlaşdırılan bir cəmiyyətin gələcəyi yoxdur. Ona görə də, hər şeyi yenidən başlamaq, artıq insanların şüurlarına yerimiş cəfəng, çürümüş əfsanələrdən, ideyalardan əl çəkib elmi, maarifpərvər yol tutmaq lazımdır. O, yazırdı:

Ən gözəl dindir iştə dini-həyat,
Başqa yol yox: ya fənn, ya mövhumat.
İstər uy dinə, istər uy fənnə,
Çağırır xalqı kəndi cənnətinə.
Biri nəqd iştə, nisyədir birisi,
Çoq olur bəlli, nəqd müştərisi.
Artıq əfsanə devri keçdi, yetər!
Oqşamaz ruhu əski bilməcələr.
Can çəkişdikcə köhnə zevqü şüar
Yeni bir cilveyi-dəha parlar.
O da yoq şübhə sarsılır bir gün,
Başqa bir ictihad olur üstün.

Əski dahilər "iştə haq" dedilər,
Çırpınıb bir həqiqəti izlədilər,
O həqiqət bu gün xəyal oluyor,
Dünkü şən bağçalar bu gün soluyor.
Dəyşirkən, əvət bəşər qafası,
Dəyişir Tanrının siması. ***(2, s. 155).***

İlk baxışda, zahirən Cavidin "Yeni həyat", yeni "dini-həyat" dedikdə, Sovet kommunistlərinin "sovet həyatı"nı nəzərdə tutduğunu güman etmək olar. Çünki həmin dövrdə məhz bu cür təbliğat aparılır, imperiyanın hər tərəfində olduğu kimi, Quzey Azərbaycandan, onun aydınlarından da bu tələb olunurdu. Bu prosesə Caviddə cəlb olunmuşdur ki, o da, "Azər" poemasında zahirən yeni "sovet həyat"ını, əslində isə özünün istədiyi, arzuladığı "yeni həyatı" ortaya qoyurdu. Başqa sözlə, Cavid əslində Sovet Azərbaycanından öncə yeni bir həyatın təbliğatçısı idi, ancaq o dönəmin şərtləri altında düşüncələrini ifadə edirdi. Artıq Sovet Azərbaycanında 27 aprel işğalınaqədərki şərtlər olmadığı üçün, indi də yeni şərtlərə görə eyni həyat fəlsəfəsini yazırdı. Bizcə, Cavid üçün yeniləşmə, yeni həyat fəlsəfəsi şərtlərə görə, zahirən dəyişsə də mahiyyət etibarilə dəyişməz olaraq qalırdı. Başqa sözlə, Cavid üçün Tanrı nə ruhanilərin, nə kommunistlərin, nə də liberalların anladıqları Tanrı deyildi. Bunu, o, əvvəllər də dəfələrlə ifadə etmişdir. Sadəcə, yeni şərtlərlə dinlərdəki Tanrını tamamilə inkar edən sovet cəmiyyətinin özü yeni Tanrı, yəni fəhlə-kəndli cəmiyyətinin istədiyi "Tanrı" formalaşdırırdı ki, Cavid belə bir Tanrını qəbul edə bilməzdi. O, dinlərdəki Tanrını özəlləşdirən ruhanilər kimi, kommunistlərin də "kommuna" adlı "Tanrı"sını qəbul etmirdi. Çünki riyakar ruhanilərlə riyakar kommunistlərin istədikləri əsas hədəf gözəgörünməz Tanrı, ya da "Kommuna-Tanrı"" adları altında yağmaçılıqdır, qəsbkarlıqdır.Bu baxımdam Azərin üzünü tutub allahlı "Şeyx"ə dedikləri, eyni ilə allahsız "Kommunist"ə (əslində isə Kommuna "Tanrı"lı ateistə) də aid idi:

Yaşatan varsa iştə xilqətdə,
Mədə... həp mədə... həzrəti-mədə...
Baq, həqiqət də, bəlkə haq da budur,
Səni hər kim doyursa Tanrın odur.
Din için, firqə, ya siyasət için
Nerdə bəslənsə bir ədavət, kin,
Nerdə qan, ya ölüm, ələm görsən,
Buna yalnız sənin mədən... ***(2, s. 156).***

Azərin dili ilə Cavid açıq şəkildə deyirdi ki, artıq "göylərin hekayəsi"ni bir qıraға qoyub yerin gerçək "hekayəsi"ni öyrənmək lazımdır. Ona görə yerdə, yerdəki cəhənnəm və cənnətdə daha gerçəkçidir, çünki onları özümüz öz əllərimizlə yaradırıq. Cavid yazırdı:

Şeyxim, aldatma xalqı, dinlə bəni,
Bütün əfsunlu sözlərin xülya...
Gəl bıraq göylərin hekayəsini,
Enəlim kəndi doğma yurdumuza.

Burda cənnət də var, cəhənnəm də,
Onu, yoq şübhə, bizləriz yaratan.

"Cifə" zənn etdiyin şu aləmdə
Başqa zevq almaq üzrə insan hər insan.

Kimi cəhl atəşində qavrularaq,
Həp yanar, qəhr olur səfalətdən.
Kimi irfanla şadkam olaraq,
Dəm vurur nəşədən, səadətdən ***(2, s. 156).***

Beləliklə, Cavid belə qənaətə gəlirdi ki, könülü cənnət istəyən cəmiyyət dini əfsanələri bir kənara qoyub bu dünyanın özündə məscidləri, kilsələri, sinaqoqları məktəblərə, kitabxanalara çevirməlidir. Onun fikrincə, yalnız mərifətli, bilikli bir cəmiyyətdə cənnəti yaratmaq; şərəf və qürurla yaşamaq mümkündür **(2, s. 157).** Əlbəttə, Cavidin bu dediklərində xeyli dərəcədə həqiqət olmaqla yanaşı, elmlə, biliklə yəni maariflənməklə hər şeyin öz həllini tapacağına ümid etmək də doğru deyil. Biz bunu, maariflənmiş sovet cəmiyyətində də gördük. Deməli, əsas problemi yalnız hərf tanımaqla, ya da müxtəlif kitablardan müxtəlif biliklər almaqla həll etmək çox zordur. Bu, yəni bütün cəmiyyətin hərf tanıyıb maariflənməsi ən yaxşı halda, insanlıq yolunda gediləcək yolun başlanğıcı ola bilər. Ancaq işin çox çətin olanı insanlıq fəlsəfəsinin bütün insanlar tərəfindən qəbul edilməsidir. Yəni müharibə yox sülh olsun, şər deyil xeyir olsun, nifrət deyil sevgi olsun deməklə, insanlıq fəlsəfəsi olmur. Çünki insanlıq fəlsəfəsinin özü elə bütün bunları: sülh üçün savaşmağı, sevgi üçün nifrəti öldürməyi, xeyir üçün şəri dəf etməyi tələb edir. Bu zaman da məlum olur ki, insanlar da, cəmiyyətlər də Tanrılardan, dinlərdən, Ədalətli cəmiyyətdən, Demokratiyadan, Sosializmdən çıxış edərək bu ikili mübarizələrdə məhz özünün doğru yolda olduğunu iddia edirlər. Caviddə bu cür ziddiyyətləri göstərərək, bir çox hallarda sülh deyənlərin əslində müharibə üçün, müharibə deyənlərin isə əslində sülh üçün çalışmaları kimi qəribəlikləri ifadə etmişdir. Cavid yazırdı:

...Əvət, insan olursa insanlar,
Şübhəsiz, parlayıb da vicdanlar
Sevgi nurilə kainatı bəzər,
Bıraqıb kini, qurt qoyunla gəzər.
Bəlli... Ta əskidən böyük başlar
Sülh üçün uğraşıb çalışmışlar.
Çıqaraq hərbə qarşı ürəfa,
Əbədi sülh içində buldu şəfa.
Kimi "qan-qan!.." deyib də çıldıraraq,
Sülhə düşman kəsildi, iştə məraq... ***(2, s. 160).***

Bir sözlə, Cavidin təbrincə desək, "insan olursa insanlar" kainatda sevgi, ədalətlilik, bərabərlik hökm sürər. Bu isə heç bir zaman olmamışdır, bu gün də gerçək deyil və görünən odur ki, gələcəkdə də olmayacaq. Ən yaxşı halda ayrı-ayrı cəmiyyətlərdə bu olmuşdur, indi də bəzi cəmiyyətlərdə az-çox var, gəlcəkdə də hansısa toplumlarda olacaqdır, deyə bilərik. Ancaq yenə də Cavid ümid edir ki, ağıl insanın rəhbəri olsa, nə zaman müharibə, nə zaman sülh etməyin yerini bilsə insanlıq qalib gələcək. Başqa sözlə, qüvvəti ağıl ilə idarə etməklə digər yalançı, zərərli ideyaları aradan qaldırmaq mümkündür. O, yazırdı:

Bən derim: "Həpsi laf, inanma saqın!
Rəhbər olsun da qüvvətin, ağlın.

Yeri gəldikdə sülh üçün çabala,
Öylə yer var ki, hərbi alqışla.
Quzu gördünmü sev, o, kin bilməz;
Canavar qarşı gəlsə parçala, əz.
Qüvvət üstündə varsa əqli-səlim,
*Sana kainat olur təslim" **(2, s. 161).***

Cavidə görə, ağıllı insan üçün önəmli olan "yaşatmaq" ideyasıdır, "yaşatmamaq" yox. Onun fikrincə, insanın yonulmuş heyvan, meymun hesab olunmasında müəyyən həqiqət payı olsa da, ancaq bunu tam eyniləşdirmək də doğru deyil. Çünki insanın zəkası var, ancaq bu zəkanı hansı məqsədə xidmət etməsi məsələsi də istisna olunmamalıdır. Cavid yazırdı:

İnsan yonulmuş bir heyvan olsa da,
Endirilməz hiçə ondakı zəka.
O yalnız düşünməz, düşündürər də,
Kəşf edər gündə bir qaranlıq pərdə.
Hər gün beynində bir yıldırım çaqar,
Dilərsə bir anda bir cihan yıqar.
İnsan pək tuhafdır, o hər şey yapar,
Onda yaşatmaq da, yaşatmaq da var.
"Yaşatmam, yaaşrım" deyən səfillər
Qan içən vəhşilər yolunu izlər.
Sən nə mələksən, nə də bir qaplansın:
Nə gülsün, nə dikən... yalnız insansın.
Çalış, parla, yüksəl! Unutma ancaq,
*Yaşamaq bir haqsa, yaşatmaq da haq!.. **(2, s. 195).***

Beləliklə, Cavidə görə, ağıllı insan həyat və ölümün mənasını vaxtında anlamalı, heş bir şeydə ifrata varmamlıdır. Bir sözlə, insan bilməlidir ki, bəzən yaşamaq kimi, ölmək də xoşbəxtlikdir. Sadəcə, hər bir şeydə anlam olmalıdır. O, yazırdı:

Ölüm var ki, həyat qadar dəyərli,
Həyat var ki, ölümdən də zəhərli...
Yaşamaq da xoşdur, ölmək də xoşdur,
Qayəsiz həyatda ölüm də boşdur.
Hər sönük eşq üçün üzülmək fəna,
Dar gəlməsin dünya genişkən sana.
Er-gec məzar alır bizi qoynuna,
*Uyma, saqın, vaqtı gəlmədən ona. **(2, s. 210).***

Cavidə görə, insan ancaq böyük bir eşq üçün hər şeyi gözə ala bilər. Bunun üçün insan ali bir idealın daşıyıcısı olmalı, nəfsinə xor baxan qəhrəman olmalıdır. Cavid yazırdı:

"Ölüm də xoş..." dedim, qapılma hissə,
Böyük bir eşq üçün lazım gəlirsə,
Nəfsinə xor baqan bir qəhrəman ol,
Haqq çin başından keçən insan ol!

"El için ağlayan göz kor" olsa da,
İnanma, arqadaş! O, boş bir səda!
Xayır, xudkam olub sapma dar yola,
Həp el için ağla, el için sızla!
Ağla demək – çarpış, vuruş deməkdir,
Ağlamaq insana miskinlik verir.
Bir eyilik yapsan ıssız yurduna,
Haq da, həqiqət də göz önündədir,
Yer altında deyil, yer üstündədir.
Bəxtiyarsan, əgər çəkdiyin əmək
Cihan sərgisinə versə bir çiçək. ***(2, s. 212).***

Cavid bir tərəfdən hər adətin köhnəlmiş, çürümüş hesab olunub atılmasının da, hər yeniliyə də mədəniyyət deyilib qəbul olunmasının da əleyhinədir. Bir sözlə, köhnə adətlərlə yeni adətlər məsələsində ifrata varmamaq üçün insan doğru seçim etmək iqtidarında olmalıdır. O, yazırdı:

Dəmin güləşməyə "əski adət" dedin,
Bən şaşırdım, bəlkə onu fərq etmədin.
Əski olsun, bu xoş adət ən mədəni,
Ən yaldızlı adətlərdən daha yeni..
Cahil-alim həp çarpışır, həp güləşir,
Meydanda tək qalmaq için pənəcələşir.
İnsan var ki, gülüb durukən qüvvətə,
Qarşı gəlsə məcbur olur itaətə ***(2, s. 220).***

O, belə bir qənaətə gəlirdi ki, hər hansı təhlükələrə üstün gəlmək üçün bəşər övladı qorxusuz olmalı, mücadilə aparmalıdır. Çünki qorxu içində yaşamaq insanı da, cəmiyyəti də yavaş-yavaş öldürür. O, yazırdı:

Hər qüvvətə üstün gəlir ancaq qorqusuz bəşər,
Cihan yigit ərlərindir, qorqaq gözə çöp düşər.
Qorqu-sinsi bir mərəz ki, azar-azar öldürür,
Nəşəsiz bir ömrü ancaq mübarizə güldürür. ***(2, s. 213).***

Sadəcə, burada incə bir məsələ var ki, qüvvətli kim isə, haqlı da o çıxır. Deməli, zəifsənsə haqsızsan və ölməyə, köləliyə məhkumsan. Cavid yazırdı:

Hər şey qüvvətdədir, qalan həp yalan...
Gücsüzlük ən böyük qüsurdur, inan!
Bütün cahan qüvvət tərəfdarıdır,
Qəvi iblis olsa belə Tanrıdır.
Acizlərin haqqı ölümdür ancaq... ***(2, s. 230).***

İctimai-siyasi görüşləri

H.Cavidin ictimai-siyasi görşülərində türkçülük və turançılıq mühüm yer təşkil etmişdir. Cavidin yaradıcılığında Türkçülüklə bağlı olaraq, bu gün üçün də aktual olan məsələlərdən biri ortaq Türk tarixinin yaradılması ideyasıdır. Cavid doğru yazırdı ki, ortaq

Türk tarixi olmadığı üçün Türk hökmdarlarına (Atilla, Çingiz xan, Əmir Teymur, İldırım Bəyazid, Şah İsmayıl, Sultan Səlim və b.) sahib çıxa bilmərik. Eyni zamanda türklər tarixlərini doğru bilmədikləri üçün vaxtilə Türk sultanlarının bir-birləri apardıqları müharibələrdən bu gün də nəticə çaxara bilmirlər. Bu mənada, türklük qürurunu, şərəfini hər şeydən vacib hesab etmiş H.Cavid üçün Çingiz xan, Əmir Teymur və başqa türk hökmdarları türk tarixinin ən şanlı qəhrəmanlarıdır. Onun fikrincə, avropalılar İskəndərləri, Napoleonları və başqa həmyerlilərini böyük sərkərdə adlandırıb heykələr yapdıqları halda, türklərin öz qəhrəmanlarına qan içən, zalım, canavar kimi isimlər verib ləkələmələri haqsızlıqdır: "Əcnəbilər böyük İskəndər, böyük Napoleon deyə öz qəhrəmanlarına abidələr yapdırıyor, heykəllər dikdiriyorlar. Fəqət bizlər!.. Bizlər isə Çingiz kibi cihangirlərə, Teymur kibi qəhrəmanlara xunxar, canavar deyə ləkələmək istiyoruz!" ***(1, s. 70)***.

Beləliklə, Cavid Türk tarixinin obyektiv öyrənilməsinin və Türk böyüklərinini doğru dəyərləndirilməsinini vacibliyini bəyan etmişdir. Azərbaycan Türk filosofunun fikrincə, Türk hökmdarlarına başqa millətlərin alimlərinin deyil, millətimizin öz alimlərinin gözü ilə baxıb qiymət verməliyik. Eyni zamanda, Cavid türklərin həmişə törələrinə sahib çıxmalarını və milli şərəflərini uca tutmalarını, xüsusilə qeyd etmişdir. Türk xalqlarının şanlı tarixindən söz açan Cavid yazırdı ki, beş-altı əsr bundan əvvələ qədər türkün atı kişnəyəndə bütün ölkələr, onların kralları, prensləri, şahları təslim olarmışlar:

Bir zamanlar şərəfli Turanın
O cihani ğəyuri qavğanın
Qəhrəman, bərguzidə evladı,
Türklərin adlı-şanlı əcdadı
Saldırıb titrədirdi yer yüzünü,
Hökm edər, dinlətirdi hər sözünü.
Nə zaman kişnəsəydi türkün atı,
Qırılırdı bir ölkənin qanatı. ***(2, s. 52)***.

Vaxtilə türklərin mərhəməti sayəsində canını qurtaran millətlərin indi türkə qənim kəsilməsini tarixin acı istehzası adlandıran Cavindin fikrincə, artıq türklər zamanın dəyişməsini görməli, oyanmalı, özünü tanımalı və yüksəlməlidir:

Qalx, oyan, gör nə fikrə xadimsən?
Kimlərin oğlusan? Nəsin? Kimsən?
Sürünüb durma böylə, bir yüksəl!
Bir düşün, gör beş-altı əsr əvvəl
Nə idin? İndi nərdəsən? Bu nə yəs?
Əcəba yoxmu səndə izzəti-nəfs. ***(2, s. 54)***.

Cavidə görə istiqbala, ideala çatmaq üçün isə milli-dini birlik məfkurəsi lazımdır:

İdealsız nicat ümidi məhal...
"İttihad!" İştə ən böyük ideal!
Səni qurtarsa, qurtarır birlik,
Çünki birlikdədir fəqət dirilik!... ***(2, s. 54)***.

"Qoca bir türkün vəsiyyəti" şeirində də Cavid yazırdı ki, 20-ci əsrdə ilk vəzifəmiz Türk millətinin şanlı tarixini, mədəniyyətini və mənəviyyatını öyrənmək olmalıdır. Yəni ilk növbədə, milli mənsubiyyətimizi tanımalı və türk olmağımızla fəxr etməliyik. Cavid

yazır:

Namus, vicdan insanlarda iki böyük qanatdır,
Onlar ilə Adəm oğlu yüksək göylərdən aşar.
Namus, vicdan bizlər üçün daimi bir həyatdır,
Türk eli həp o hiss için doğmuş,onunla yaşar.

Bir millətin tarixidir kökü, yurdu, yuvası,
Tarixiniz baş ucundan hərgiz əksik olmasın.
"Altay" dağı, "Makan" çölü, "Yasın" ovası,
Birər aydın səhifədir, hər türk gərək anlasın. ***(2, s. 128).***

Bu baxımdan Cavidə görə, artıq yatmaq vaxtı deyil, bütün qonşu millətlər kimi XX əsrə üzüağ çıxmaq lazımdır. Bunun üçün isə, türkün keçmiş şanlı və şərəlfi tarixini öyrənib fəxr etməklə iş bitməz, türkün şərəfini və şanını XX əsrdə də qorumaq, yaşatmaq lazımdır. O, yazırdı:

Südü təmiz, əsil oğul bilməzmi ki, əcdadı
Nasıl doğub yaşamışlar, nə ərliklər etmişlər.
Bilməli ki, tez məhv edər zaman nankor evladı,
Öz nəslini unutanlar çoqdan sönüb getmişlər.

Bir millət öz kökü üstə bitər, böyür, yüksəlir,
Köksüz ağac çabuq qurur, çiçək açmaz, bar verməz.
Baqın, görün tarixiniz sizə nələr göstərir,
Həp şərəf, həp böyüklükdür, ancaq şaşılar görməz...

Əvət, arslan yavrularım! Türk eli həp çanlıdır,
Elmas kibi ləkəsizdir, saqın, qafil olmayın.
Əsr, iyriminci əsrdir! Vəzifəsi pək ağır... ***(2, s. 128).***

Bu cür milli duyğuların təsiri altında H.Cavid "Şeyda" pyesində də yazırdı ki, millətin milli azadlığı, onun birliyində, oyanışında, bütövlüyündə və mübarizliyindədir. Millət öz haqqını almalı və geri verməməlidir. Cavid yazırdı:

Arkadaş, göz aç aman!
Qalx ölüm uyqusundan!
Zülmə çox əydin boyun,
Çox əzildin, qalx oyan. ***(1, s. 255).***

Bir sözlə, H.Cavid Türk xalqlarını oyanmağa, birləşib əsarətdən xilas olmağa çağırırdı:

Çox əzildin yetər, haydı doğrul, ər ol!
Haq sənindir bu gün arkadaş! Hazır ol!
Haq sənin, çünki zəhmət sənin...
Güc sənin, səyü qeyrət sənin.... ***(1, s. 272).***

Fəlsəfə tarixçisi Müstəqil Ağayevin fikrincə, H.Cavid bu çağırışları edərkən moizə və nəsihət yolunu tutmur, öz sözünü qəti və birbaşa söyləyir. Çünki Cavidin ruhunda ruh düşkünlüyü, şübhə yoxdur, əksinə mübarizə və inqilab yolu vardır **(3, s. 56).**

Cavidin mühüm milli əməllərindəın biri də Türk dili ilə bağlıdır. O, elə aydınlarımızdandır ki, ortaq Türk dili ideyasını sözdən əmələ keçirməyə çalışmış, bütün əsərlərini ("Səyavuş", "Şeyda", "İblis" və b.) Türk dünyasının anlayacağı bir dildə qələmə almışdır. Bu gündə Cavidin yolunu davam etdirərək sözdən işə keçmək lazımdır. Ortaq Türk dilinin yaradılması Türk dünyasının bu günü və gələcəyi üçün çox önəmlidir.

H.Cavid də M.Ə.Rəsulzadə və Ə.Hüseynzadə kimi hesab edirdi ki, Türk xalqlarının dil birliyi digər birliklərdən daha önəmlidir. Bu mənada, Cavid əsərlərini qələmə aldığı ilk illərdən etibarən ortaq Türk dilini özü üçün bir yol seçmişdir. Belə ki, Azərbaycan Türk aydını istər şeir və dramlarında, istərsə də publisistik yazılarında bütün Türk dünyasının anlaya biləcəyi bir Türk dilindən istifadə etmişdir:

Çocuqkən, iştə xatirəmdədır, gecələr
Öyüb də cənnəti təsvir edərdilər.. daim
Maraqlanır, düşünürdüm: nədir şu bilməcələr?
Yalanmı? Doğrumu – derkən yanardı idrakım ***(2, s. 55)***.

Türkiyədə H.Cavidin irsini araşdıranlardan Mustafa Haqqı Türkəqul doğru qeyd edir ki, Azərbaycan Türk aydınının ortaq türkcədən çıxış etməsində İstanbul türkcəsini incəliyinə qədər mənimsəməsi mühüm rol oynamışdır: "Yaradıcılığının ilk dövründə, bilxassə şeirlərində İstanbul şivəsini məharətlə işlədən şair sonralar yaratdığı əsərlərində bu şivəni Azərbaycan ədəbi türkcəsinə yaxınlaşdırmağa çalışmışdı və demək olar ki, bu işdə müvəffəq olmuşdur. Bunun üçün də Cavidin türkcəsinə nə tamamilə İstanbul türkcəsi, nə də tamamilə Azərbaycan ədəbi türkcəsi demək qabildir. Cəsarətlə deyə bilərik ki, Cavid bu iki türkcə şivə arasında bir körpü yaratmışdı və bu iki şivə arasındakı məsafəni qısaltmışdır" **(4, s. 53).**

Doğrudan da, Cavidin türkcəsi demək olar ki, bütün Türk xalqlarının anlayacağı bir türkcədir. Başqa sözlə, Cavidin dilini Türküstanda, Qafqazda, Türkiyədə, Qazanda, Krımda, Uyğurustanda və başqa Türk ellərində onu öz ana dili kimi anlayaraq oxuyan türklər vardır. Görünür, Cavid Türk dünyasının bu gününü düşünərək əsərlərinin imlasına toxunulmamasını vəsiyyət etmişdir. Bu, böyük Türk oğlunun fani dünyadakı ölümündən sonra belə ulu Türk millətinin gələcəyini düşünməsinin bariz örnəyidir.

Cavid Turan ideyasını Azərbaycanın Sovet Rusiyasının işğalından sonra daha əzmlə davam etdirmişdir. O, Sovet Azərbaycanı dövründə milli mədəniyyəti, milli ruhu və onun bariz nümunəsi olan türkçülüyü-turançılığı beynəlmiləl-proletar mədəniyyətinə və müstəmləkəçiliyə qarşı müdafiə etmişdir. O, Sovet Rusiyasının Quzey Azərbaycanı əsarət altında saxladığı dönəmdə hər bir şeirində, dramında, poemasında turançılığı yaşatmağa çalışmışdı.

Buna ən bariz nümunə H.Cavidin 1920-1930-cu illərdə qələmə aldığı "Topal Teymur", "Səyavuş" əsərləridir. Bu əsərlər milli məzmununa görə, SSRİ rəhbərlərini çox məşğul etmişdir. Cavid bu əsərlərində açıq şəkildə milli və dini dəyərləri müdafiə edirdi. Xüsusilə, Azərbaycan türkləri bu dövrdə səhnəyə qoyulan "Topal Teymur"da türklüyün ümumi qəhrəman tipi Teymurun obrazından fövqəladə dərəcədə razı qalmışdır **(5, s. 62).** Çünki Cavid bu əsərdə Teymuru türklüyün və islamın böyük bir türk oğlu kimi tərif etmişdir. O, Teymurun dilindən bir Türk-Turan hökmdarının hansı xüsusiyyətlərə malik olmasının başlıca əlamətlərini göstərmişdir: "Fəqət unutmamalı ki, hər səciyyə və şəxsiyyət birər qanun deməkdir. İştə bu gün şəsiyyətim bana nə əmr edərsə, onu yapmaqdan çəkinməm. Bununla bərabər bən şimdiyə qadar qurultaysız, şurasız bir şey yapmadım, çünki şurasız bir məmləkət cahil bir şəxsə bənzər ki, tutduğu işlər, söylədiyi

sözlər həp nədamət və fəlakət doğurur. Bən daima həkim və aqil şəxsləri dinlədim, böyük sərdarlarla müşavirə yapdım. Yalnız hərb ilə mübarizəyi deyil, sülh mənafeyini də düşündüm" **(6, s. 261)**. Cavid Türk hökmdarı Teymurun dilindən daha sonra yazırdı: "Avropalıların dilləri başqa, yürəkləri daha başqadır. Hər halda məmləkətimiz arslanlar yurdu, qartallar yuvası olaraq qalmamalı. Bəlkə dünyada ən parlaq maarif və mədəniyyət ocağı, ən zəngin sənaye və ticarət mərkəzi olmalıdır. Əvət, qoy düşmanlarımız görsünlər ki, türk evladı yalnız basıb-kəsməkdən deyil, yaşamaq və yaşatmaqdan da zevq alır. Yalnız yaqıb-yıqmaq deyil, yapmaq və yaratmaq da bilir" **(6, s. 265)**.

O, yazırdı ki, türklər müharibədə olduğu kimi, siyasətdə, elmdə və mədəniyyətdə də hiyləgərlik nədir bilməzlər. Ona görə də, hərb meydanında yenilməslər də, siyasətdə yenilmişlər. Cavid yazırdı:

Türk ordusu daim basaraq ölkələr almış,
Ən sonda siyasətdə basılmış da bunalmış.
İdraki sönük başçıların qəfləti ancaq
Etmiş, edəcək milləti həp əldə oyuncaq.
Turana qılıcdan daha kəskin ulu qüvvət,
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət... **(6, s. 27)**.

Cavidin fikrincə, millətin həyatında özəlliklə, elm və mədəniyyət elə bir anlayış, ünsürdür ki, bu sahədə görülən hər iş irəliyə doğru bir addımdır. Hər kəs mədəniyyət və elmin təməlinə bir daş atmalıdır ki, gələcək nəsillər ondan qidalansın. Başqa sözlə, elm və mədəniyyətdə geridə qalmaq bir millətin gələcəyi üçün çox təhlükəlidir. Ona görə də, bir millətin savaşda məğlub olması deyil, elm və mədəniyyətdə geridə qalması fəlakətdir. Cavid Əmir Teymurun dilindən yazırdı: "Bununla bərabər yapdıqlarımız hiç bir şey deyil. Bu, yalnız mədəniyyətə doğru, bir addım, gələcək üçün bir başlanğıcdır. Bizim başladıqlarımızı gələcək nəsil ikmal etməli. Yalnız beş-on şəhər deyil, bütün məmləkət tərəqqi və gözəlliklər için birər nümunə olmalı. Əvət, biz təməl daşı atıyoruz. İştə bu təməl üzərində möhtəşəm binalar qurmaq və bu şüarı çiçəkləndirmək... ancaq yeni nəslə, ancaq sarsılmaz gəncliyə aiddir" **(6, s. 265)**.

O, bu əsərində iki Türk hökmdarının müharibəsinin əleyhinə çıxış edirdi. Onun fikrincə, Turan adlı Vətəndə iki Türk böyüyünün savaş açmaları yalnız Turanı parçalayacaqdır. Bu baxımdan, Divanbəyinin dilindən Teymura deyilmiş sözlər çox dəyərlidir: "Fəqət mən biləkis, Yıldırım məsələsinə əsla tərəfdar olmaq istəməm. Çünki hər ikiniz Turan aləminin birər qütbüsünüz. Şu iki qütb bir-birilə çarpışırsa, ortada fəlakətli bir uçrum açılmış olur. Və bu nifaqdan istifadə edərək ətrafı saran əcnəbi dövlətlər Türk dünyasına saldırmağa fürsət bulur" **(6, s. 266)**. Ona görə də, Cavid bu əsərində Teymurla İldırım Bəyazid arasındakı tarixi döyüşü sonuncunun dilindən bir tərəfin deyil, bütün Türk millətinin məğlubiyyəti kimi qələmə almışdır: "Bu qələbə türk əqvamını deyil, yalnız fürsət bəkləyən qomşu hökumətləri məmnun etdi. Ah doğrusu, İslam aləmini başsız qoydu" **(6, s. 302)**.

Fikrimizcə, Cavidin "Səyavuş" əsərində də milli istiqlal və turançılıq ideyası təbliğ olunmuşdu. Bir növ o, Azərbaycan Türk mütəfəkkiri, dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin "Əsrimizin Səyavuşu" siyasi-fəlsəfi əsərini bədii dillə ifadə etmişdi. H.Cavid də M.Ə.Rəsulzadə kimi bir türk qəhrəmanının - Səyavuşun ölümünü, yəni Azərbaycanın Rusiya tərəfindən işğalını Turan üçün zərbə hesab etmişdir. Bunu, Cavid Turan elinin vəziri Piranın dilindən belə ifadə etmişdir: "Sağın, öylə şanlı bir gəncə qıymaq. Qəlbindən yaralar bütün dünyanı. Anıldıqca ağlar qoyar Turanı" **(7, s. 251)**. Bu baxımdan hər iki

mütəfəkkirin fikrincə, Səyavuşun-Azərbaycanın mücadiləsi millilik və müstəqillik uğrunda mübarizədir **(7, s. 247)**.

Beləliklə, bu əsərində də H.Cavid göstərmək istəmişdir ki, Türk-Turan birliyi gerçəkləşsə, heç bir millət ona üstün gələ bilməz. Bunu nəzərə alaraq M.Ə. Rəsulzadə yazırdı ki, Cavidin "Səyavuş"unda dərin mənalı fəlsəfi fikirlər vardır **(5, s. 68)**. Şübhəsiz, bu fikirlərin əsasında isə Turan ülküsünün yaşadılması dayanırdı. Bunu, sonradan başa düşən beynəlmiləlçi bolşeviklər bir tərəfdən pyesin göstərilməsini qadağan etmiş, digər tərəfdən "panturanist tiplərini realizə etməyə cəsarət edən" H.Cavidin əleyhinə təbliğat aparmağa başlamışlar.

Doğrudur, çox sonralar sovet ideoloqları və müəllifləri "proletkultçular"ın deyil, Cavid-Cavad ədəbi məktəbinin doğru yol tutduğunu bu və ya digər formada, etiraf etmək məcburiyyətində qaldılar. Sovet ədəbiyyatında yazılırdı ki, vaxtilə "proletkulti" deyilən xətt leninizmə zidd hərəkət kimi **(8, s. 51)**, milli mədəni irsi tamamilə inkar etmişdi. Bundan çıxış edilərək həmin dövrün bir sıra ədəbi tənqidçiləri, o cümlədən Əli Nazim, Cəfər Cəfərov, Mikayıl Rəfili, M.Quluzadə və başqaları kosmopolitizm, nihilizm, burjua estetizmi və vulqar sosoligizmində ittiham olunurdular **(9, s. 27, 41)**. Bununla da, dolyasıyla da olsa, vaxtilə milli mədəniyyətdə "proletkultçuluq"dan deyil, millilik-türkçülük mövqeyindən çıxış edən mütəfəkkirlər, o cümlədən H.Cavidin əslində düzgün yol tutduqları etiraf olunurdu.

Onun ictimai-siyasi görüşlərində Şərqlə Qərbin müqayisəsi, hərb və sülh məsələləri də mühüm yer tutmuşdur. Xüsusilə də, davakar, savaşçı, tərəqqipərvər Qərbin ağlağan, məzlum, gerilikçi Şərq üzərində ağalığı Cavidi çox narahat etmişdir.Şərqin "aman bilməz Qərbi hər gün mərhəmətə dəvət etməsi" qarşılığında çoxdan bəri Şərqin sazının inləyib, ağlamasın doğru hesab etməyən Cavidə görə, ancaq mübarizə mənlik verə bilər hər millətə. Çünki soyuqqanlı, amansız Qərb qarşısında ağlamaq, sızlamaqla deyil, yalnız mübarizə aparmaqla milli azadlıqlar əldə etmək mümkündür **(2, s. 162)**.

Cavid Qərbin bu cür amansız, soyuqqanlı olmasını qərblilərin yeni həyat fəlsəfəsi, praqmatizmi ilə bağlayırdı. Xüsusilə də, ingilis-amerikan praqmatizminin Qərbdə, o cümlədən Avropada hökmran olmasını ifadə edən Caviddə bütün bunlar nifrət oyadırdı. Çünki bir zamanlar Asiyada, Afrikada qızların alıb-satılmasını doğru bulmayan Qərbdə, bu gün həmin qitələrə aid qadınlar azad şəkildə özlərini qərblilərə satırlar. Cavid yazırdı:

Mədəniyyətdə çırpınan vəhşət
Daha yaldızlı, şairanə, əvət.
Burada öz istəgilə cariyələr
Sana şaqraqca ninnilər söylər **(2, s. 167)**.

Cavid açıq şəkildə yazırdı ki, Qərblilər dünyanın digər qitələrindəki xalqları, insanları böyük ölçüdə özlərinin müstəmləkəsi halına salıblar. Guya, başqa xalqlara azadlıq, demokratiya verərək, əslində isə öz ağalıqlarını genişləndiriblər. Məsələn, guya, Misiri Osmanlının əlindən qurtarıb ona "milli azadlıq" vermiş, Qərb digər tərəfdən misirliləri sömürgə altına salmışdır. Bir sözlə, Qərb öz səadətini səfil, ağlar Şərq üzərində qurmuşdur. Cavid yazırdı:

Çoq düşündüm bunu dəmindən bəri,
Hər zevqi bir acı bəslər düşünsən!
İştə Qərbin azğın səadətləri
Alır qida Şərqin fəlakətindən. **(2, s. 183)**.

Cavid çox doğru deyirdi ki, Qərb kimi mübarizə aparmaq, inkişaf etmək əvəzinə ağlamaq, xəyallarla yaşamaq Şərqi yormuşdur. Bununla da, Qərb yalnız maddi-fiziki anlamda deyil, yavaş-yavaş mənəvi cəhətdən də Şərqi ələ keçirmişdir. Cavid yazırdı:

Şərq elləri irişilməz "xəyal" için yaşarkən,
Qərb aləmi az da olsa "həqiqət"dən xoşlanır.
Şərqin sönük duyğusunu afyon ruhu oqşarkən
Onlar yeni bir silah kəşfini səadət sanır.
Şərq uğraşır yalnız "ölməyim" deyə,
Qərb elləri maildir öldürməyə.
Ya o, ya bu qoşar durur həp bir dilək peşincə,
Məqsəd ancaq yarını yoq, bir həyatı xoş bulmaq.
Şərqə görə o diyarda azad ikən düşüncə,
Yazıq!.. Yenə mümkün deyil didişmədən qurtulmaq
Artdıqca bilgilər artar ehtiras,
Hiç fərqi yoq, əski hamam, əski tas... **(2, s. 194).**

Cavidə görə, Şərqin tək çıxış yolu gəncliyin hər cür xurafat və mövhumata qarşı mübarizə aparıb yeniləşmək ideyasını müdafiə etməsidir. O, yazırdı:

Lazımsa cəhalətlə güləşmək,
Bir çarə var: ancaq yeniləşmək!
Onlardakı himmət və mətanət
Qırbaclayacaq Şərqi nihayət.
Onlardakı qüdrət və məharət
Er-gec verəcək xalqa səadət.
Onlar mədəniyyətlə günəşlər yaqacaqlar,
Keçmişlərə üstdən baqacaqlar.
Onlar güləck, yüksələcəklər,
Həp yüksələcək, həp güləcəklər **(2, s. 241).**

Nəticə

Ümumilikdə, Cavidin dini-fəlsəfi görüşlərində Tanrının birliyi və Onun dərkinin mürəkkəbliliyi məsələsi dayanmışdır. Doğrudur, Cavidə görə, tanrının dərki əslində Kainat, Təbiət və İnsan üçlüyünün özünün nə dərəcədə dərki ilə bağlıdır. Bu isə o deməkdir ki, Kainat, Təbiət və İnsan sirrlərini dərk edən müdrik, səlində bu dərkdən asılı olaraq Yaradanı dərkə addım-addım yaxınlaşır. Ancaq Yaradanı dərkin əsas pilləsi İnsan üçün çox həssasdır. Bizcə, bu da İnsanın son pillədə, yəni Yaradanı dərk etməyin bir addımlığında qalarkən, Onunla İnsan arasındakı məsafəni son cizgidə aşmaq heç də asan deyildir.

H.Cavidin ictimai-siyasi görüşlərində isə türkçülük və islamçılıq mühüm yer tutmuş, o, bu ideyalarla bağlı bir sıra yeni fikirlər səsləndirmişdir. O, islamlıq və türklüyün bir-birinə əsrlərboyu çulğalaşmış olmasına inanır və onların qarşı-qarşıya qoyulmasının əleyhinə idi. Biz görürük ki, bu milli-dini ruhu Cavid Azərbaycanın Sovet Rusiyasının işğalından sonra da davam etdirmişdir. Bu baxımdan Sovet Azərbaycanı dövründə də islam mədəniyyəti ilə yanaşı, milli mədəniyyəti, milli ruhu və onun bariz nümunəsi olan Azərbaycan türkçülüyünü beynəlmiləl-proletar mədəniyyətinə qarşı qoyanlar arasında H.Cavid xüsusilə fərqlənmişdir.

Bütövlükdə, isə Cavid XX yüzildə Turançılıq ideyasını əsərlərində yaşadan böyük Türk aydınlarımızdan biridir. Onun yaradıcılığında Türk dünyasının sütunları sayıla biləcək Türk tarixi, Türk fəlsəfəsi, Türk dili və Turan ideyası bir bütündür. Cavid ən kiçicik şeirində belə bu ideyaları, özəlliklə Turançılığı yaşatmağa çalışmışdır. Çağımızda da Cavidin həyatı bahasına yaşatdığı bu ideyalar aktual olaraq qalmaqdadır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Cavid H. Əsərləri. Beş cilddə II cild. Bakı, «Lider nəşriyyat», 2005
2. Cavid H. Əsərləri. Beş cilddə I cild. Bakı, «Lider nəşriyyat», 2005
3. Ağayev M.B. Hüseyn Cavidin dünyagörüşü. Bakı, «Təknur», 2005
4. Türkəqul M.H. Azərbaycan Türk şairi Hüseyn Cavid. Bakı, 2002, səh.53
5. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, səh.62
6. Cavid H. Əsərləri. Beş cilddə III cild. Bakı, «Lider nəşriyyat», 2005, səh.261
7. Cavid H. Əsərləri. Beş cilddə IV cild. Bakı, «Lider nəşriyyat», 2005, səh.251
8. Azərbaycan sovet ədəbiyyatı tarixi. İki cilddə, 1 cild. Bakı, Azərnəşr, 1967
9. Həsənli Cəmil. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı, «Adiloğlu», 2008, s.27, 41
10. Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı: Elm və təhsil, 2020

Faiq Alekperli

HUSSEIN JAVID'S RELIGION, PHILOSOPHICAL-UTOPIC AND SOCIO-POLITICAL MEETINGS

Summary

The article discusses the issues of humanity, Turkism, Islamism and renewal in the worldview of the Azerbaijani Turkish thinker Huseyn Javid. First of all, God + Human Integrity in H.Javid's religious and religious-philosophical meetings is analyzed here. In Javid's utopian philosophy, there is not much difference between Sheikh Sanan, who followed the love of a woman, and the prophet, who preached the idea of a single Creator. Because they are both heroes; one fights for his holy love on earth, the other for invisible divine love. The article states that in Javid's philosophy, religions, as well as the propagators of religions, are responsible not only to the prophets, but also to their consciences and God for their mistakes and sins. Javid was, in fact, a preacher of a new life throughout his career. Just because there were no pre-occupation conditions in Soviet Azerbaijan on April 27, he wrote from the philosophy of God-Man according to those conditions. In our opinion, for Javid, the philosophy of God + Man, although conditionally changed according to the conditions, remained essentially unchanged. In other words, for Javid, God was not a god understood by the clergy, communists or liberals. Under Soviet conditions, the Soviet society itself, which completely denied God in religions, formed the "God" desired by the workers 'and peasants' society, which Javid could not accept. He did not accept the "god" of the communists, the "commune", as did the clergy who privatized God in the religions. Because the main target that the hypocritical clergy and the hypocritical communists want is looting and usurpation under the name of the Invisible God, or "Commune-God."

The article shows that the most remarkable thing in H.Javid's work was the revival, enlightenment and national revival of the Turkish nation, including the Azerbaijani Turks. In connection with Turkism in Javid's work, one of the issues relevant today is the idea of creating a common Turkish history. According to Javid, we do not know the Turkic khagans properly because

they do not have a common Turkish history, and at the same time we cannot draw conclusions from the wars waged by the Turkish sultans against each other because they did not study the history of the Turks correctly. In this sense, Chingiz khan, Amir Teymur and other Turkish rulers are the most glorious heroes of Turkish history for H.Javid, who considered Turkish pride and honor more important than anything else. The article discusses Javid's service to the Turkish language as one of his important national deeds. He tried to form the idea of a common Turkish language from words, and wrote all his works ("Sayavush", "Sheyda", "Iblis", etc.) in a language that the Turkic world could understand. In his socio-political meetings, the comparison of East and West, military and peace issues also played an important role. In particular, Javid was deeply disturbed by the dominance of the belligerent, militant, and progressive West over the weeping, oppressed, and backward East.

Purpose - to analyze Hussein Javid's religious-philosophical, utopian views and ideas of Turkism and Turanism.

Methodology - comparative analysis, inheritance, transmission of ideas, analysis.

The results of the study - the search for reconciliation between the ideas of Hussein Javid and the socio-political and ideological requirements of modern times

Keywords: *Turkism, Turanism, Romanticism, Islam, Islam, Renewal, Westernism, Humanity*

Фаиг Алекперли

РЕЛИГИЯ ХУСЕЙНА ДЖАВИДА, ФИЛОСОФСКО-УТОПИЧЕСКИЕ И СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ВСТРЕЧИ

Резюме

В статье рассматриваются вопросы человечности, тюркизма, исламизма и обновления в мировоззрении азербайджанского тюркского мыслителя Гусейна Джавида. Прежде всего, здесь анализируется Целостность Бог+Человек в религиозной и религиозно-философской встречах Х.Джавида. В утопической философии Джавида нет большой разницы между шейхом Сананом, следовавшим за любовью к женщине, и пророком, проповедовавшим идею единого Творца. Потому что они оба герои; один борется за свою святую любовь на земле, другой за невидимую божественную любовь. В статье утверждается, что в философии Джавида религии, а также пропагандисты религий несут ответственность не только перед пророками, но и перед своей совестью и Богом за свои ошибки и грехи. Фактически Джавид был проповедником новой жизни на протяжении всей своей карьеры. Именно потому, что в Советском Азербайджане 27 апреля не было предоккупационных условий, он писал из философии Богочеловека в соответствии с этими условиями. На наш взгляд, для Джавида философия Бог+Человек, хотя и условно менялась по условиям, оставалась по существу неизменной. Другими словами, для Джавида Бог не был богом, понятным духовенству, коммунистам или либералам. В советских условиях само советское общество, полностью отрицавшее Бога в религиях, формировало желаемого рабоче-крестьянским обществом «Бога», которого Джавид не мог принять. Он не принял «бога» коммунистов, «коммуны», как и духовенство, приватизировавшее Бога в религиях. Потому что главная мишень, которой хотят лицемерное духовенство и лицемерные коммунисты, это грабеж и узурпация под именем Невидимого Бога, или «Общинного Бога».

В статье показано, что самым замечательным в творчестве Г.Джавида было возрождение, просвещение и национальное возрождение тюркского народа, в том числе азербайджанских тюрков. В связи с тюркизмом в творчестве Джавида одним из актуальных сегодня вопросов является идея создания общей турецкой истории. По словам Джавида, мы не знаем правильно тюркских каганов, потому что у них нет общей турецкой истории, и мы

не можем делать выводы из войн, которые вели турецкие султаны в прошлом, потому что они неправильно изучали историю тюрков. В этом смысле Чингиз-хан, Амир Теймур и другие турецкие правители являются для Х.Джавида самыми славными героями турецкой истории, для которого турецкая гордость и честь были важнее всего остального. В статье рассматривается служение Джавида турецкому языку как одно из его важных национальных дел. Он пытался составить представление об общем тюркском языке из слов, и все свои произведения («Саявуш», «Шейда», «Иблис» и др.) писал на языке, понятном тюркскому миру. В его общественно-политических встречах важную роль также играло сопоставление Востока и Запада, военных и мирных вопросов. В частности, Джавида глубоко беспокоило господство воинственного, воинствующего и прогрессивного Запада над плачущим, угнетенным и отсталым Востоком.

Цель – Проанализировать религиозно-философские, утопические взгляды Хусейна Джавида и идеи тюркизма и туранизма.

Методология – сравнительный анализ, наследование, передача идей, анализ.

Результаты исследования – поиски примирения идей Хусейна Джавида с общественно-политическими и идеологическими требованиями современности.

Ключевые слова: *тюркизм, туранизм, романтизм, ислам, ислам, обновление, западничество, человечество*

UOT 316

Sərraf Mirzəyev
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası
e-mail: mirzayevsarraf@gmail.com

Rəhilə Mirzəyeva
Zəngilan rayonu 20 saylı orta məktəbin müəllimi
e-mail: rmirzoyeva29@gmail.com

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ İNNOVATİV METODLARIN İSTİFADƏ YOLLARI

İnteraktiv təlim idrakın və kommunikativ fəaliyyətin elə bir formasıdır ki, tədris olunan mövzünun mənimsənilməsinə hər bir şagird, hər iştirakçı öz töhfəsini verir.
Məqalədə müasir dövrdə təlim prosesində yeni, müxtəlif interaktiv metodlardan istifadəinin əhəmiyyətindən bəhs edilir.Məqalədə qeyd edilir ki, interaktiv metodlar bilik və bacarıqların , şagirdlərə hazır şəkildə verilməsini deyil, bu bilik və bacarıqları daha çox onların özlərinin kollektiv şəkildə axtarıb tapmalarına kömək etməsini nəzərdə tutur.

Məqsəd: Tədris prosesində yeni interaktiv təlim metodlarından istifadə etməklə şagirdlərdə xarici dilə marağı və xarici dildə ünsiyyət qurmaq bacarığını aşılamaqdır.

Metodologiya: Məqalədə müxtəlif təlim metodlarının tədris prosesində istifadə edilməsi, onların əhəmiyyəti müqayisəli şəkildə təhlil edilmişdir.

Tədqiqatın nəticəsi: Müasir dövrdə tədris prosesində yeni təlim metodlarından istifadə etməklə tədrisin məznunu və məqsədi şagird şəxsiyyətinin inkişaf etdirilməsi ilə yanaşı, onların dil vərdişlərinin möhkəmlənməsinə, xarici dildə nitqin inkişafına böyük maraq və həvəsin yaranmasına zəmin yaradır.

Açar sözlər: *xarici dil, şagird, öyrənmək, müəllim, interaktiv metod, kommunikativ təlim metodu, ünsiyyət*

Giriş

Azərbaycan Respublikası dünya birliyi ölkələri ilə ictimai həyatın bütün sahələrində səmərəli əməkdaşlıq edən bir ölkədir. Azərbaycanın müstəqil bir dövlət kimi dünyaya inteqrasiyası, beynəlxalq münasibətlərin daha da möhkəmlənməsi xarici dillərin, xüsusi ilə ingilis dilinin öyrənilməsi tələbatını daha vacib zərurətlərdən birinə çevirmişdir. Bu gün qloballaşan dünyamızda bir və ya iki xarici dil bilmək və o dillərdə ünsiyyət qurmaq bacarığı, xarici ölkə vətəndaşları ilə onların öz dillərində fikir mübadiləsi aparmaq bacarığına yiyələnmək çox zəruri tələbatlardan hesab edilir. Bunun üçün istər orta məktəblərimizdə, istərsə də ali məktəblərimizdə, xarici dilləri tədris edən müəllimlərin üzərinə böyük məsuliyyət düşür. Dünyanı Azərbaycana, Azərbaycanı dünyaya tanıtmaq üçün xarici dilin öyrənilməsi və onun tədris edilməsi çox vacib və əhəmiyyətli amillərdən biridir.

Yeni təlim metodları

Azərbaycan Respublikasının təhsil sahəsində aparılan "islahat proqramı"n da göstərildiyi kimi, bu islahatın yeni yanaşmalar əsasında təhsilin səmərəliyini yüksəltmək beynəlxalq təcrübədə müsbət cəhətlərin milli təhsilə tətbiqini sürətləndirmək, bütövlükdə

təhsilin səviyyəsini yüksəltməkdən ibarət olmuşdur. Müasir dövrdə xarici dilin tədrisinin məzmunu və məqsədi şagird şəxsiyyətinin inkişaf etdirilməsi ilə yanaşı onların dil vərdişlərinin üzə çıxarılmasına, xarici dildə nitqin inkişafına böyük maraq və həvəsin yaradılmasına, şagirdə müstəqil öyrənmək bacarıq və vərdişlərinin aşılanmasına yönəlməlidir. Fikrimizcə, şagirdlərdə şifahi nitq fəaliyyəti aşağıdakı bacarıqlara söykənməlidir:

A) Oxuyub anlama və dinləyib anlama bacarığı;

B) Öz fikrini şifahi və yazılı ifadə edəbilmə bacarığı;

C) İki və daha çox fərd arasında yuxarıda göstərilən hər iki bacarıqların qarşılıqlı mübadiləsi.

Xarici dilin tədrisində interaktiv metodla dərs keçməyə aid bir nümunə göstərək. Sinifdəki şagirdləri iki, üç dəstəyə bölüb və hər komandaya bir ad veririk. Müəllim olaraq biz artiq bilirik ki, hansı komandanın şagirdləri güclüdür, hansı komandanın şagirdləri isə zəifdir. Zəif komandaya bilərəkdən "güclü" bir ad veririk.Belə güclü ad komandada bir ruh yüksəkliyi yaradır və komandanın şagirdləri böyük coşqu ilə yarışmaya qoşulur. Müəllim sualı elan edəndə təbii ki, bütün komandanın iştirakçıları çalışırlar ki, suala cavab versinlər, lakin müəllim bilərəkdən zəif hesab edilən komandanın zəif bir şagirdindən sualın cavabını soruşur. Həmin şagird, tərəddüd içərisində sualı izah etməyə çalışır. Müəllim şagirdin cavabını dinləyir və onun cavabını yüksək qiymətləndirir, (baxmayaraq ki həmin şagird suala tam doğru cavab verməmişdir)və həmin şagird öz komandasına bir bal qazandırır. Şagird tərifləmir və komandasına bir bal qazandırdığına görə alqışlanır. Təbii ki, bu halı görən şagird sevinir və onda növbəti suallara cavab vermək, gələcəkdə daha çox oxumaq, öyrənmək həvəsi oyanır. Onun kimi digər şagirdlər də, təbii ki, həvəslənir və özlərində bir bilik gücü toplayaraq böyük şövqlə sual-cavablarda iştirak etməyə çalışıb komandanın şərəfini ucaltmağa çalışırlar. İlk baxışda adi görünən bu metod şagirdlərin yaddaşında dərin bir iz buraxır. Bu metod şagirdlərdə biliklərə daha səylə yiyələnməyi, daha savadlı olmağı , kollektivin şərəfini qorumaq hissi, sərbəst fikir ifadə etmək bacarığı aşılayır.

İnnonativ metodlarla dərsin aparılmasında bir çox şagirdlər cavablarda iştirak etməyə çəkinirlər və ya cavab verəndə bir çox çətinliklərlə qarşılaşırlar və çoxlu səhvlər edirlər. Bu zaman həmin şagirdlərlə çox səmimi davranmaq lazımdır. Onun səhvlərinin dərhal üzünə vurmağa yol verilə bilməz. Şagirdə imkan, şərait yaratmaq lazımdır ki, o öz fikrini davam etdirsin. Belə ki, hər bir fərd səhvlər edə-edə öyrənir. Necə deyərlər, "yıxıla-yıxıla yeriməyi öyrənirik". Belə metodlarla dərsin aparılması şagirdlərdə pozitiv mühit, pozitiv əhval-ruhiyyə yaradır və təlimin nəticələri də uğurlu alınır. Bundan əlavə, qalib gələn komandanın şagirdlərini istər ümumi şəkildə, istərsə də fərdi şəkildə nailiyyətlərinə görə tərifləmək lazımdır. Doğrudur, dahilər deyib "Tərif üzə deyiləsi yaxşı bir şey olmasa da, hər kəs ürəyində ona bir ehtiyac duyur". Belə tərif sözlərlə ifadə olunmalıdır. Tərif izaha yaxınlaşmaya görə tapşırıqların həllində müxtəlif vaxtlardan istifadəyə görə, ümumiyyətlə, şagirdlərin zəhmətinə görə olarsa daha faydalı olar. Məsələn, "sənin cavablarından görünür ki, sən çox çalışmısan" və ya "müxtəlif variantlarla fikrini söylədiyinə görə "afərin" və s. bu kimi tərif şagirdi daha əzmlə çalışmağa ruhlandırır. Amma " sən çox ağıllısan" , " sən çox bacarıqlısan "," sən həddən artıq zəkalısan" kimi tərif şagirdin xoşuna gəlsə də, fikrimizcə, bu kimi tərif şagirdin psixologiyasında mənfi təsirlər oyadar. Belə ki, şagird hər hansı bir çətin tapşırıq ilə qarşılaşanda və onun öhdəsindən gələ bilməyəndə öz zəka gücünə inamı azalır və həvəsdən düşür. Fikrimizcə, xarici dilin tədrisində hansi innovativ metodlardan istifadə etsək də, birinci növbədə şagirdə xarici dili öyrədən də başlıca məqsəd ona bu dildə ünsiyyət qurmaq bacarığını aşılamaqdır. Buna nail olmaq üçün dərs prosesində çalışmaq lazımdır ki, bütün şagirdlər

mümkün qədər daha çox xarici dildə danışsınlar. Belə ünsiyyət qurmaq üçün yaxşı olar ki, kiçik dialoqlardan, bir - birinə sadə suallar verməkdən istifadə etmələrinə şərait yaradılsın. Debatlardan, atalar sözlərindən, deyimlərdən, tapmacalardan, oyunlardan, xırda şeirlərdən istifadə edərək şagirdlərin əksəriyyətini dərsə cəlb etmək və onlarda xarici dil ünsiyyətini qurmaq mümkündür. Dil ünsiyyət vasitəsi olduğundan onu öyrənməkdə başlıca məqsəd bu dildə ünsiyyət qurmaq bacarığına yiyələnməkdir. Digər tərəfdən onu da qeyd etməliyik ki, şagirdlərdə xarici dildə ünsiyyət qurmaq vərdiş və bacarığının aşılanması üçün ən yaxşı metodlardan biri də "kommunikativ təlim" metodudur. Xarici dillərin tədrisinin kommunikativ təlim metodunun məqsədi şagirdin şəxsiyyət kimi formalaşmasını əsas götürür. Kommunikativ təlimin həyata keçirilməsi şagirdə eşitdiyini və oxuduğunu başa düşməyə, öz fikrini şifahi və yazılı şəkildə ifadə etməyə, müəllimlə danışıq fəaliyyətinin həyata keçirilməsin , onlara verilən dil və nitq materialları üzərində iş apara bilmələrinə kömək edir, mətnləri dəyişdirmək, qısaltmaq, genişləndirmək, şəkillər üzrə müsahibə qurmaq ekskursiyaların, filimlərin müzakirə etmək bacarığı və s. bu kimi dil vərdişlərini aşılayır. Kommunikativ təlim metodunun və başqa təlim metodlarının ən öndə vəzifəsi öyrənmədir. Çin filosofu Konfutsi öyrənməni belə şərh edir :" Qulaq asıram unuduram, görürəm yadda saxlayıram, özüm edirəm dərk edirəm". Deməli, xarici dilin tədrisində ünsiyyət, kommunikativ təlim prosesində şagird ilkin mərhələdən düzgün dil mühitinə düşür, lüğət tərkibini zənginləşdirir, müstəqil danışmağa çalışır, daim irəliyə doğru can atır. Bu metod şagirdlərə iki -iki və ya qrup halında işləmək, bir - birilə mədəni, elmi, siyasi, iqtisadi ünsiyyətdə olmaq, yekdil fikir söyləmək vərdişləri aşılayır. Kommunikativ təlim prosesində şagird yavaş - yavaş Avropa ölkələri ilə inteqrasiyada olmaq, həmin ölkələrdə yaşayan xalqlar ilə ünsiyyəti daha da genişləndirmək üçün təhsil sistemində, xüsusilə xarici dillərin tədrisi sahəsində müasir dövrün tələbləri səviyyəsində əsaslı dəyişikliklər nəzərdə tutulmuşdur.

Ölkədə təhsilin keyfiyyətinin artırılmasına, milli təhsilin dünya təhsil sisteminin inteqrasiyasına imkan yaradan, təhsil alanları informasıya cəmiyyətinin fəal üzvlərinə çevirən təhsil islahatı uğurla davam edir.

Bu "islahat proqramı"nın əsas məqsədlərindən biri də istər orta,istər ali məktəblərdə canlı xarici dilin kommunikativ tədrisinə nail olmaq, dil öyrənənlərin dünya görüşünü inkişaf etdirərək formalaşdırmaq və onların mədəni səviyyəsini yüksəltməkdən ibarətdir. Ümumiyyətlə, xarici dillərin tədrisi başqa humanitar fənlərin tədrisindən özünəməxsusluğu ilə fərqlənir. Bu özünəməxsusluq ilk növbədə xarici dil dərslərində hər dəfə yeni məzmun verməkdən daha çox məzmunun çatdırılmasını, qramatik qaydaların izahını, söz mənalarının açılış qaydalarını yeni metodlarla, müxtəlif formalarla, uşaqların daha rahat formada dərk edə bilmək xidmətindən ibarətdir. Xarici dillərin tədrisinin digər bir spesifik xüsusiyyəti də ondan ibarətdir ki, burada dərslər bir-biri ilə zəncirvari əlaqədardır. Xarici dillərin tədrisi zamanı şagirdlərdə birinci növbədə söz və onun tələffüz normaları, qrammatik qaydaları şüurlu şəkildə dərk etmək, daha sonra oxu, yazı, dinləmə, eşitmə, danışıq, bacarıq vərdişlərinin inkişaf etdirilməsi diqqət mərkəzində durur. Yeni sözləri şagirdlərə izah edəndə birinci növbədə onun düzgün tələffüzü aşılanmalıdır. Söz mənasının açılmasını, yəni tərcüməni birbaşa dedikdə uşağın yaddaşında az qalır. Yəni, sözlərin tərcüməsini şəkillərlə və ya müxtəlif situasiya yolları ilə vermək daha məqsədəuyğun hesab edilir və yadda qalan olur. Yeni sözlərin cümlədə düzgün istifadə qaydalarını izah edəndən sonra onları müstəqil şəkildə cümlələrdə istifadə etmək bacarığını inkişaf etdirmək lazımdır. Bu da şagirdlərdə həm yazını inkişaf etdirir, həm şagird dili hiss edir, həm də onun xarici dildə danışmağından həvəslənməyinə kömək edir. Eyni zamanda, sözlərin tələffüz qaydalarını öyrənmək vasitəsilə dil vərdişlərinə yiyələnir. Bunları

öyrəndikdən sonra şagird sözlərdən istifadə edərək cümlə qurur, danışır, ünsiyyət qurur, eşitdiyini anlayır. Daha sonra isə mətnlər oxuyur. Şagirdlərin xarici dildə təkmilləşməsinin ən mühüm,ən vacib komponenti oxudur. Oxunun faydası istər söz öyrənməkdə, istər cümlə qurmaqda, istər dialoq qurmaqda, istər anlamada danılmaz faktordur. Necə deyərlər "Əvvəlcə oxumağı öyrənək, sonra isə öyrənmək üçün oxuyaq".

Xarici dillərin tədrisində innovativ metodlardan istifadə etmək dərsin daha maraqlı, daha canlı keçməsinə şərait yaradır. Dərsin ilk dəqiqələrindən başlayaraq müxtəlif innovativ metodlardan istifadə edəndə şagirdlər daha həvəslə dərsi dinləyir və müstəqilliyə alışır və sərbəst düşünüb fikir söyləməyə can atır. Kommunikativ təlim prosesində müəllimin üzərinə də böyük məsuliyyət düşür. Bu təlimlə işləyən müəllimlər həddən artıq səbirli olmalı, tədris etdiyi xarici dildə gözəl danışmağı bacarmalı və bununla şagirdlərinə nümunə olmalıdır, şagirdlərin fikirlərinə qayğı ilə yanaşmalıdırlar və onların fikirlərinə şərik olmalıdırlar.

Müasir tədris prosesində metodoloji analizlər göstərir ki, ənənəvi, təktərəfli tədris kommunikativ, interaktiv tədris metodologiyası ilə əvəz olunmalıdır. Ənənəvi tədrisdə müəllim işini təzə dərsi izah etmək, evə tapşırıq vermək və ev tapşırığını yoxlamaq, bir -iki şagirddən dərsi soruşmaq üzərində qurur, yəni ənənəvi "çərçivə" formasında qurur. Yəni, "çərçivədən" çıxmır. Bu metodda şagird- müəllim və ya müəllim şagird ünsiyyəti birbaşa deyil, dolayı şəkildə həyata keçirilir. İnteraktiv, kommunikativ tədrisdə isə şagird- müəllim ünsiyyəti birbaşadır. Müəllim şagirdi ilə ünsiyyət yaradır və bu ünsiyyətdən şagird öz bacarığını ifadə etmək imkanı, vərdişi qazanır . Bu ünsiyyətdən sonra şagirddə güclü həvəs yaranır onda əcnəbi dildə danışmaq utancaqlığı zamanla aradan qalxır və nəticədə, gələcəkdə dərs vaxtı real ünsiyyət qurmaq imkanı qazanır və real ünsiyyət quran şagirdlərdən birinə çevrilir. Bu bir həqiqətdir ki, həvəsi olmayan şagird heç vaxt dərsdə iştirak etmək istəməz. "Mən başa düşmürəm" deyə dərsdən soyuyar və dərsə maraq göstərməz. Ona görə də müxtəlif audio-video texniki vasitələrdən istifadə etməklə, oradakı mətinləri, dialoqları dinləyib-eşitməklə və daha sonra dialoqdakı cümlələri söyləməklə şagirddə dərsə, xüsusən xarici dil dərsinə həvəs və maraq yaranır. Şagirdlərdə xarici dildə ilkin danışıq vərdişlərini yaratmaq üçün, bir-birləri ilə ünsiyyət qurmaq üçün müəyyən oyunlar təşkil etmək, şagirdlərə rollar vermək, birgə mahnılar oxumaq, onları müəyyən müzakirələrdə iştirak etməyə cəlb etmək bu metodun əsas komponentlərindən biridir. Kommunikativ metod müasir tədris metodudur. Bu metod dərsi müxtəlif vasitələrdən istifadə etməklə aparılmasını tələb edən metoddur, bu metod nitqi , xüsusən də şifahi nitqi inkişaf etdirir. İnkişaf etmiş nitq şagirdlərdə səlis danışmaq qabiliyyəti formalaşdırır. Kommunikativ metodun üstün cəhətlərindən biri də şagird danışıq qabiliyyətini formalaşdırdıqca qramatik biliklər də həmin danışıq prosesində öyrənilir. Dərslərdə tez-tez qarşılıqlı sual-cavab və testlərdən istifadə interaktiv metodun üstünlüklərindən biridir. Dərsdə iştirak edən bütün şagirdləri bu prosesə cəlb edərək onlar arasında rəqabət mühiti yaratmaqla həm öyrətmək, həm də ünsiyyət maneələrini, ünsiyyət qurmaq çətinliklərini aradan qaldırmaq olur.

Nəticə

Bu cür effektiv metodlardan istifadə şagirdlərdə ünsiyyət qurmaq istəyində utancaqlığı, həvəssizliyi, tənbəlliyi, "birdən səhv olar " düşüncəsini və ya "səhv danışaram, uşaqlar gülər" kimi yanlış düşüncələri aradan qaldırır. Şagirdlər unutmamalıdırlar ki, yuxarıda sadalanan yanlış amilləri dəf edib danışmağa çalışsınlar. Danışığı inkişaf etdirmək üçün bütün vasitələrdən ən mühümü deyərdim ki, öncəsi təkbaşına danışaraq, çoxlu məşq etmək, sonra isə öz dostları ilə ünsiyyət qurmaq məsləhətdir. Şagirdlər

unutmamalıdırlar ki, xarici dildə danışmaq üçün birinci növbədə danışıq vərdişlərinə yiyələnmək lazımdır. Xarici dildə danışmaq vərdişə çevrilməklə möhkəmlənir. Ümumiyyətlə, istənilən metoddan istifadə edərkən aşağıdakı faktorlara əməl etmək tövsiyə edilir:

1. Seçdiyin metod dərs prosesi ilə uzlaşmalıdır.
2. Seçdiyin metod şagirdlərin bütün maraqlarına uyğun gəlməlidir və tələblərinə cavab verməlidir.
3. Seçdiyin metod şagirdlərin dil vərdişlərini təkmilləşdirməli və onların öyrənmə qabiliyyətini artırmalıdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Afaq Rüstəmova: İctimai inkişaf və dil. Bakı, "Təknur",-2012.
2. Yeni təlim texnologiyaları (Ümumtəhsil məktəblərində seçmə fənlərin tədrisi üçün metodik vəsait, Bakı 2011)
3. Pilot məktəbləri üçün interaktiv təlim proqramı. Bakı, 2018
4. Ümumtəhsil məktəblərinin V-XI siniflər üçün ingilis dilindən proqram. Bakı, 2000
5. Kurrikulum. Dərslik. Bakı, 2020

Сарраф Мирзоев
Рахила Мирзоева

ПРАВИЛА ИСПОЛЬЗОВАНИЯ ИННОВАЦИОННЫХ МЕТОДОВ В ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ

Резюме

Интерактивное обучение – это форма познавательной и коммуникативной деятельности, при которой каждый учащийся и каждый участник вносят свой вклад в овладение изучаемым предметом. В статье рассматривается важность использования новых, различных интерактивных методов в процессе обучения в современное время. В статье отмечается, что интерактивные методы не предполагают передачу знаний и умений учащимся в готовом виде, а скорее помогают им искать их коллективно.

Цель: Использование в учебном процессе новых интерактивных методов обучения для привития у учащихся интереса к иностранному языку и умения общаться на иностранном языке.

Методология: В статье анализируется использование различных методов овичения в учебном процессе и их значение.

Результат исследования: Использование новых методов обучения в учебном процессе в современное время, содержание и цель обучения наряду с развитием личности учащихся, создает основу для укрепления их данных, возникновения большого интереса и увлеченность развитием речи на иностранном языке.

Ключевые слова: *иностранный язык, студент, изучить обучение, преподаватель, интерактивный метод, коммуникативный метод обучения, общения*

Sarraf Mirzeyev
Rahile Mirzeyeva

RULES OF USING INNOVATIVE METHODS IN TEACHING FOREIGN LANGUAGES

Summary

Interactive learning is a form of cognitive and communicative activity in which each student and each participant contributes to the mastery of the subject being taught. The article discusses the importance of using new, different interactive methods in the learning process in modern times. The article notes that interactive methods do not imply the transfer of knowledge and skills to students in a ready-made way, but rather help them to search for them collectively.

Purpose: Using new interactive teaching methods in the teaching process to instill in students the interest in foreign language and the ability to communicate in a foreign language.

Methodology: The article comparatively analyzes the use of different teaching methods in the teaching process and their importance.

Result of the research: Using new teaching methods in the teaching process in modern times, the content and purpose of teaching along with the development of students' personalities, creates the basic for the strengthening of their data, the emergence of great interest and enthusiasm for the development of speech in a foreign language.

Keywords: *foreign language, student, to study, teacher, interactive method, communicative teaching method, communication*

UOT: 17 (0758)

Günel Heydərova
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, dissertant
e-mail: Alesker.lala@gmail.com
https://orcid.org/0000-0001-5784-2418

YUNAN-ROMA FƏLSƏFƏSİNDƏ ETİKA VƏ ƏXLAQ, ƏDALƏT VƏ DÖVLƏT

Tədqiqatın məqsədi – Yunan-Roma fəlsəfəsində etika və əxlaq, ədalət və dövlət məsələlərini müəyyənləşdirməkdir.

Elmi yenilik – Yunan-Roma fəlsəfəsində etika və əxlaq, ədalət və dövlət məsələləri müqayisəli təhlil əsasında araşdırılmışdır.

Tədqiqatın metodoloji əsasını – Yunan-Roma fəlsəfəsində etika və əxlaq, ədalət və dövlət ilə bağlı etik və fəlsəfi-hüquqi fikirlərin tarixi-müqayisəli təhlili, məntiqi və tarixi əlaqə prinsipləri müstəvisində analizi təşkil edir.

Nəticə - Yunan-Roma fəlsəfəsində etika və əxlaq, ədalət və dövlət, əxlaq və hüquq anlayışları və onlar arasında əlaqə məsələsi, fəlsəfi diskusiyaların əsas mövzularından olmuşdur. Xüsusilə, bu sahədə Demokrit, sofistlər, Sokrat, Platon, Aristotel, Epikur kimi filosofların yeri müstəsnadır. Onların bu istiqamətdə ortaya qoyduğu fikirlər, sonrakı dövrlərdə müvafiq məsələlər ətrafında meydana çıxan fəlsəfi fikirlərin bazası rolunu oynamışdır.

***Açar sözlər**: Yunan-Roma fəlsəfəsi, etika, əxlaq, ədalət, dövlət, hüquq, mənəviyyat, qanun*

Giriş

Antik mədəniyyətin etik və aksioloji baxışları Protaqorun "İnsan hər şeyin ölçüsüdür" tezisinə əsasən bir insandan yalnız ümumi normativ və dəyərlərə bağlılığı deyil, həm də onun inkişafına yönəlmiş real fiziki, intellektual və mənəvi keyfiyyətlərin birliyini tələb edirdi. Antik mədəniyyətdə əxlaq, ağlın hisslər üzərində hökmranlığının ölçüsü kimi başa düşülürdü. Buna görə də, antik filosoflar insan həyatının mənası və onun səadəti məsələsini rasionallıqla əlaqələndirirdilər. Çünki cəmiyyətin hüquq sistemi və qanunlarının ədalətli olması meyarı, ancaq insan həyatının mənasına məna verən və onu xoşbəxt edən rasional imkanlar ilə müəyyən edilə bilərdi.

Yunan-Roma fəlsəfəsində ədalət və dövlət, əxlaq və hüquq anlayışları və onlar arasında əlaqə məsələsi barədə ilk ideyaların Abderalı Demokritdən başladığını desək yanılmarıq. Lakin, onun fikirlərinin təkmilləşməsində və baxışlarının formalaşmasında mühüm rol oynayan müəllimi Levkipi də unutmaq olmaz.

Əksər tədqiqatçılar Demokritin etikası ilə fizikası arasında dərin bir daxili əlaqə olduğunu iddia edirlər. Demokrit, atomları bütün obyektlərin, hətta, insan ruhunun ayrılmaz hissəsi hesab edirdi. O, hərəkətin nəticədə insanın ruh və zehnində olan dəyişikliklərin səbəbi hesab etsə də, insanların davranış və motivlərinin atomların hərəkəti ilə birbaşa bağlı olduğunu iddia etməmişdir. O, dövlət və qanun da daxil olmaqla mövcud olan hər şeyin ilk prinsipləri kimi atomlardan ibarət olduğuna inanırdı. Boşluqdakı atomların birləşməsi insan, cəmiyyət, dövlət də daxil olmaqla müxtəlif fenomen və obyektlərin bir zərurət kimi meydana çıxmasına səbəb olur. Cəmiyyətdə isə, bu zərurəti təmin edən, insanların bir-birinə olan ehtiyaclarıdır. Buna görə də, o, təbii və insani olmaqla iki növ qanunun mövcudluğunu tanıyırdı. O, hesab edirdi ki, bu qanunların

pozulması böyük fəlakətlərə səbəb olur.

Demokritə görə, cəmiyyət və dövlət, təbii bir vəziyyətdən təbii təkamülün nəticəsi kimi ortaya çıxır. O, insanların heyvanabənzər durumdan mədəni bir səviyyəyə qədər təkamülünü əks etdirən müstəqil tarixi tərəqqi nəzəriyyəsini yaratdı. İnsanlar hər şeyə ehtiyacları və təbiəti təqlid edərək öz ağılları ilə özləri gəlirlər. Ehtiyac insanları bir araya gətirməyə, bir-birlərinə kömək etməyə, həddini aşmadan və qarşılıqlı dostluq içində yaşamağa məcbur edir. Bu, dövlətin yaranmasına səbəb olur. Bu baxımdan, o, insanın iradəsinin azadlığını və onun əxlaqının varlığını qəbul edirdi. Tarixi inkişaf prosesində sosial bir varlığa çevrilən təbii insan varlığı, qarşılıqlı yardım nəticəsində öz həyatını təmin etdi, ehtiyac və təcrübə vasitəsilə zərərli olanı faydalıdan ayırmağı öyrəndi. Demokritin etik, siyasi və hüquqi baxışları, "təbiət" və "həqiqət" anlayışlarına münasibətdən irəli gəlirdi. O, təbiətə uyğunluğu etika, siyasət və qanunvericilikdə ədalət meyarı kimi qiymətləndirdiyi üçün deyirdi: "Ədalətli sayılan şey ədalət deyildir. Ədalətsiz olan şey təbiətə zidd olan şeydir." [7, s.152]. Demokrit "təbiət" və "həqiqət" kontekstindən irəli gələn öz ədalət konsepsiyası ilə, ədalət, dövlət quruluşları, qanunvericilik barədə ənənəvi təsəvvürləri dəyişdirmək, təbii ilə süni olanın fərqini ortaya qoymaq üçün deyirdi: "Qanunların göstərişləri sünidir. Təbiətdə atomlar və boşluqlar var." [6, s. 373] ... Qanunlar pis ixtiradır... Müdrik bu səbəbdən qanunlara tabe olmamalı və azad yaşamalıdır." [6, s. 371].

Demokrit, qanunları süni və insanın təbii azalığına manea kimi dəyərləndirirdi. Çünki qanunların süni mühitində (mövcud qaydalar, qanunlar, adət-ənənələr, sosial normalar və s.) həqiqətəuyğun olan təbii azadlıq məhdudlaşdırılır. Bunun aradan qaldırılması üçün, insan həyatının əxlaqi keyfiyyətlərini yüksəltmək və ictimai-siyasi formaları sünidən təbiiyə doğru təkmilləşdirmək lazımdır. Təbiət və onun həqiqəti, insan idrakı və cəhdi (təlim-tərbiyə) ilə əldə oluna bilər. Uzlaşma etikasının köməyi ilə bu iki prinsipin uzlaşmasını birincinin xeyrinə (təbii azadlığın qanun üzərində, həqiqətin müddəa üzərində üntünlüyünü) təmin etmək olar.

Demokrit üçün qanunlar nə deməkdir? Demokritə görə, mənəviyyat qanundan üstündür. Qanun mənəviyyat üçün köməkçi vasitədir. Çünki mənəviyyat müdriklər üçün, qanun cahil kütlə üçün lazımdır. Qanunlar insanlar tərəfindən yaradılan süni və qeyri-kamil fenomenlərdir. İnsanlar bir-birlərinə qarşı ədalətli olsaydılar, qanun hər kəsin istədiyi kimi yaşamağına mane olmazdı. Paxıllığı və düşmənçiliyi cilovlamaq üçün qanunlar lazımdır. Qanunlar insanların yaşamasına kömək etməyə çalışır. Ancaq buna yalnız vətəndaşların özləri xoşbəxt yaşamaq istədikləri zaman nail ola bilərlər. Qanuna tabe olanlar üçün, qanun, öz fəzilətlərinin dəlilidir.

Demokritə görə, dövlət (polis) hüquqi deyil, daha çox əxlaqi bir strukturdur. "Vətəndaş - dövlət" əlaqələri müstəvisindən yanaşanda, bir tərəfdə yalnız hüquqlar, digər tərəfdə yalnız öhdəliklər vardır. Demokritin, dövlətin "ümumi işinin" vətəndaşların şəxsi mənafelərindən üstün olduğunu bildirir. Bu üstünlük hüquq vasitəsilə deyil, etik kateqoriyalarda ifadə olunan mənəvi vəzifəsi kimi səciyyələndirilir. Hər bir vətəndaşın dövlətin "ümumi işi"nə öz mənəvi borcunu verməlidir. Vətəndaşlarla dövlət arasındakı əlaqələr hüquqa deyil, mənəvi-etik prinsiplərə söykənir. Vətəndaş və dövlət arasındakı etik münasibətlər mahiyyət etibarilə bərabərlik və qarşılıqlı əlaqə prinsipi üzərində deyil, digər prinsiplər üzərində qurulur. Burada etik bərabər olmayan, qeyri-bərabər münasibət subyektlərindən bəhs olunur. Dövlət, ümumi və bütöv olan, xüsusi maraqları ilə vətəndaşların fərdi maraqlarından üstün bir şey kimi qəbul edilir. Etik cəhətdən daha az dəyərli olan subyektin daha dəyərli birinə (dövlət, polis) tabe olması şərtsiz bir etik borcdur. Demokrit məsuliyyət etikası barədə deyir: "Ədalətli olmaq – öz vəzifəni yerinə

yetirməkdir. Ədalətsizlik isə, öz vəzifəni yerinə yetirməkdən boyun qaçırmaq deməkdir." [7, s. 158].

Demokrit, müdrikləri mənəviyyat qanunlarına uyğun şəkildə yaşayan insanlar hesab edirdi. Onlar, dünyanın vətəndaşı olan ("çünki bütün dünya yüksək ruh üçün vətəndir"), siyasi fəaliyyətdən uzaq olan və öz içinə çəkilərək özlərini fəlsəfəyə həsr edən fəzilətli insanlardır. Lakin, kütlə üçün qanunların mövcudluğu zəruridir. Çünki bu qanunlar da əxlaq qanunlarına nail olmaqda mənəvi təkamülü təmin edirlər. Bu mənəvi təkamül prosesini təmin edən dövlət quruluşu demokratiyadır. Ona ən böyük maneə isə, monarxiyadır. Buna görə də, demokratik bir dövlətdəki yoxsulluq, monarxiyada xoşbəxt bir həyat deyilən həyatdan daha üstün olmalıdır. Çünki azadlıq köləlikdən üstündür. Demokrit, demokratiyanın ən yaxşıların (aristokratiyanın), fəzilətli və ağıllıların idarəsi altında olan qarışıq bir forma ideyasını irəli sürmüşdür. Ona görə, "Cahillər, əmr etməkdən daha çox itaət etməlidirlər. İdarəçilik təbiətinə görə, ən yaxşı olana məxsusdur. Pis idarəçiyə tabe olmaq çətindir. Ədəb qanuna, hakimiyyətə və üstün zəkaya itaət etməyi tələb edir." [7, s. 168].

Demokritin hüquq və dövlət doktrinası onun etikasından, xoşbəxtlik təlimindən irəli gəlir. Hüquq, evtümiyaya ("yaxşı ruh") nail olmaq üçün bir vasitədir. Demokritə görə, dövlət, hər kəs üçün xoşbəxtlik əldə etmək üçün yaradılmışdır. Xoşbəxtlik sərvətlə deyil, insanın mənəviyyatı ilə bağlıdır. Sərvət, insanlara fayda gətirərək ağıllı şəkildə istifadə olunmalıdır. Cəmiyyətin zəngin və yoxsula bölünməsini təbii bölgü kimi qəbul edən Demokrit bildirir ki, kasıblar sahib olduqlarına sevinməli və daha varlı olanlara yox, daha kasıb olanlara baxmalıdırlar. Dövlət, insanlar arasında dostluq əsasında yaranan ünsiyyətə əsaslanır. Dövlətin əsas məqsədi evtümiyaya nail olmaqdır. Evtümiya ruhun barışıq və tarazlıq içində olduğu, heç bir qorxu, xurafat, pis ehtirasla narahat olmadığı bir halıdır. Ona nail olmaq üçün, orta yolu tutmaq vacibdir. Hər şeydəki ölçü qızıl ortadır. Çünki "qızıl orta" hər şeydə gözəldir. Bunu fəlsəfə vasitəsilə öyrənmək mümkündür. Çünki "fəlsəfə ruhu ehtiraslardan azad edir."

Demokrit tərbiyə sayəsində sosial bərabərsizlik problemini sosial sahədən əxlaq sahəsinə köçürür. Fəzilətli həyat tərzinin fitri olmadığını düşünən Demokrit, xeyir və şəri tanımaq, düzgün davranışı seçmək bacarığının tərbiyədən asılı olduğunu bildirirdi. Fəzilətə nail olmaq məcburiyyət ilə deyil, inam və ağıla əsaslanan tərbiyə ilə mümkündür. Tərbiyə utanma qabiliyyətinə, yəni vicdana əsaslanır. Utanmaz insanı tərbiyə etmək mümkün deyildir. Tərbiyənin ən yaxşı yolu ata nümunəsidir. Eyni zamanda, pis insanlarla ünsiyyətdən çəkinmək lazımdır. Gözəl tərbiyə, öyrənmə və cəhd yolu ilə əldə edilir. Naqisliklər asanlıqla öz-özünə mənimsənilir.

Demokrit etikasının əsas prinsipi rasionalizmdir. O, insanın əxlaqi ləyaqətini onun əqli inkişafı ilə əlaqələndirir. Mənəvi ləyaqət, yalnız əməllərlə deyil, hər şeydən əvvəl daxili vəziyyət ilə təyin olunur. Ədalətsizlik edən, ədalətli olub əzab çəkəndən daha bədbəxtdir. Əxlaq doğuşdan deyil, tərbiyə ilə əldə olunduğu üçün, insanlar təbiəti baxımından deyil, tərbiyə yoluyla xeyirxah fikirli, xeyirxah söz və əməlli olurlar. Ona görə, müdriklik ən ali fəzilət, ağıl insan davranışının düzgünlüyünün meyarıdır.

Demokrit etikasının əsas anlayışları ali fayda və fəzilətdir. Fəzilətlər, ali faydaya və həyatın hədəfinə çatmağın yoludur. Ən ali fayda fərdin xoşbəxtliyidir. O, fərdin mənəvi rahatlığı və ruhi məmnunluğunda özünü ifadə edir. Müdriklik və ölçü hissi ən ali fəzilətlər kimi, insanı xoşbəxtliyə çatmağa yardım edir. Çünki müdriklik, hikmətli düşünmək, danışmaq və davranmaqda özünü ifadə edirsə, onlar da, insanı əsassız narahatlıq və qorxulardan azad edən həqiqi düşüncələrə sahib olmasına və ruhi sağlamlığına şərait yaradır. Gözəl nitq bacarığı açıqlıq və doğruluqda, yaxşı işlər isə, praktik əxlaqda özünü

göstərir. Demokritə görə, ölçü hissi fəzilətli və xoşbəxt bir həyat üçün əvəzolunmaz bir şərtdir. Xoşbəxtlik, hər bir azad insan tərəfindən əldə edilə bilər, yalnız, bu hissi yaşamağı öyrənmək vacibdir (evtimiya). Müdrik insan həmişə fəzilətli olduğuna inanır. Cahil insan zövq, xoşbəxtlik və həyatın məqsədi barədə səhv fikirlərə sahib olduğu üçün, bədbəxtliyə məhkumdur.

Demokrit, əxlaqi bir davranışda obyektiv və subyektiv olanı, xüsusən əməlin motivi ilə həqiqi əməli ayırmışdır. O, əxlaqlı əməldə niyyət və əməlin birliyinin varlığını (və ya olmamasını) nəzərə almağı tövsiyə edirdi: "Yaxşı bir insan olmaq, yalnız ədalətsizlik etməmək deyil, həm də onu istəməmək deməkdir..." [7, s. 165]. Yalnız əqidəyə uyğun hərəkət etməklə siz həqiqətən əxlaqlı ola bilərsiniz: "Daxili istək və inamlı sözlə nəzakətli olmaq, qanun və qüvvə ilə nəzakətli olmaqdan daha yaxşıdır." [7, s.161]. Bu mülahizələr, şübhəsiz ki, Demokritin əxlaqı hüquqdan üstün tutduğuna dəlildir. O, mənəvi suverenliyi və fərdi muxtariyyəti də qəbul edirdi. Demokrit kölələri rasional olaraq istifadə edilməli bir vasitə hesab etdiyi üçün, onları əxlaq sahəsinin xaricində buraxırdı.

Demokritin "təbii" və "süni", təbii ədalət və hüquq arasında qoyduğu fərq, sonrakı siyasi və hüquqi düşüncəyə böyük təsir göstərdi və ilk dəfə sofistlərin, daha sonra Sokrat, Platon və Aristotelin diqqətini çəkdi. Antik fəlsəfədə etika və əxlaq məsələləri, əxlaq və biliyin vəhdəti təlimi ilk öncə **Sokratın** fəlsəfəsində öz parlaq nümunəsini tapdı. Fəlsəfi düşüncə mərkəzini ontologiyadan insan probleminə keçirən Sokrat cəmiyyətin adi əsaslarını sındıran, lakin, fərdi əxlaq yaradıcılığı üçün geniş üfüqlər açan bir sıra etik paradoksları formalaşdırdı. İnsanın və onun dünyadakı yeri, Sokrat etikasının mərkəzi probleminə çevrildi. O, əxlaqi bir həyat və mənəvi yüksəliş naminə rasional etikanın imperativliyi prinsipini ortaya qoydu və özündə daxili davranış qanunvericisi olan daymoniyanı aşkar edərək polis normalarının və qanunlarının universallığını şübhə altına aldı. Afinalı müdrik ilk dəfə etikanı paradoksal bilik kimi şərh edir və bu səbəbdən dərin intellektual etik düşüncənin bütün səylərinə baxmayaraq, o, heç bir mücərrəd rasional fəlsəfi sxemə sığmır. Sokratın fəziləti, öyrənmə prosesində qazanılan, miras və ya genetik yolla ötürülən bilik deyildir. O, tanrının yaradıcı, gözlənilməz və dramatik bir vergisidir.

Sokrat ruhu, ağıl və vicdanın vəhdəti kimi səciyyələndirdi. Xoşbəxtliyin fərdin əxlaqından asılı olduğuna inanan filosof, özünüdərk üsulunu ("mayevtika") inkişaf etdirdi. Ona görə, xeyirlə şərin bilinməsinə aparan yol fəzilətin bilinməsi ilə müşayiət olunur. Sokrat dövlət-hüquqi hadisələrin mahiyyətinin etik və antropoloji əsaslandırmasını təklif edir. O, insanın davranışının yaxşı və pis arasındakı fərqi mütləq edən obyektiv əxlaq normalarının mövcudluğundan qaynaqlandığına inanırdı. Sokrat xoşbəxtliyi mənfəətlə yox, fəzilətlə bərabərləşdirir. Xeyirxahlıq etmək üçün xeyirin nə olduğunu bilmək lazımdır. Nəyin xeyir, nəyin şər olduğunu bilmək insanları fəzilətli edir. Əgər şər xeyiri bilməməyin nəticəsidirsə, mənəviyyat da biliyin nəticəsidir. Sokrat cəmiyyətdəki bəzi normaların mütləq və hamı üçün keçərli olduğuna, obyektiv fəzilətə inanırdı. Sokrat üçün fəziləti bilmək onu praktikada gerçəkləşdirmək deməkdir. Fəziləti, onun gözəl təcəssümünü, faydalı olanı bilmək, xoşbəxtliyə yol açan gerçək əxlaqın özünü bilmək deməkdir. Belə bir nəticəyə nail olmaq, yalnız bilik, təcrübə və müşahidə yolu ilə mümkündür. Sokrata görə, bütün əxlaq normaları yalnız ağılla inkişaf etdirilir və bu səbəbdən fəziləti bilmək, əxlaqi cəhətdən mükəmməl bir həyatı nəzərdə tutur.

Sokrat, insan əxlaqını yalnız ağıl ilə əsaslandıran etik rasionalistdir. Çünki o deyir: "Yalnız bir gerçək sikkə vardır - ağıl. Yalnız onunla hər şey mübadilə olunur. Yalnız bu vəziyyətdə mərdlik, ehtiyatlılıq və ədalət həqiqidir. Bir sözlə, o, həqiqi fəzilətdir. O, həzz, qorxu və buna bənzər şeylərlə müşayiət olub-olunmamasından asılı olmayaraq, ağıl ilə bağlıdır. Bütün bunları ağıldan ayırıb bir-biri ilə mübadilə olunan bir şeyə çevirsək, bu

fəzilət içiboş bir şeyə çevrilər və yalnız kölələr üçün yararlı olan zəif və pozulmuş bir fəzilət olar." [9, c.3, s. 21].

Sokrata görə, heç bir insan heç vaxt özünü əxlaqi baxımdan qiymətləndirə bilməz. Çünki bu haqq, hətta yanılsalar belə ətrafındakı insanların haqqıdır. Bu, Sokrat tərəfindən aşkar olunan - insanda əxlaqın və insanın əxlaqda varlığının paradoksudur. Sokrata görə, insanın əxlaqi şüuru iki hissədən ibarətdir. Adi empirik "Mən" in içində, sanki onu mühakimə edib idarə edən, varlığın uyğun və fəzilətli formalarını göstərməyə qadir olan ikinci əks "Mən" (daymon, tanrı, dahi) vardır. Sokrat məhz bu başlanğıcın onu siyasətlə məşğul olmasına və ya müəyyən hərəkətlər etməsinə mane olduğunu bildirir. O deyir: "... Məndə uşaqlıqdan, məni bir şey etmək istəyəndə çəkindirən, heç vaxt heç nəyə meyilləndirməyən ilahi bir əlamət və bir səs vardır. Məhz bu səs, dövlət işləri ilə məşğul olmağıma imkan vermir." [4, s.85].

Sokrata görə, insanın içində olan "Mən" fenomeni elə bir gücdür ki, o, cəmiyyətdəki norma və qanunlara, adi empirik "Mən" başlanğıcına da etiraz edə bilər. Bu o deməkdir ki, insanın içində olan "Mən" fenomeni cəmiyyətdəki müəyyən etik standartlara tabe olmur və insan bu dünyada hər şeyə rəğmən öz əxlaqi inancını yarada bilir, ənənəvi əxlaqi münasibətlərin toxunulmazlığına qarşı çıxaraq, yeni, daha mükəmməl bir alternativ ortaya qoya bilir. Sosial və fərdi olaraq qarşı-qarşıya qoyulan bu qarşıdurmada, fərdlə cəmiyyət arasında müəyyən bir kompleksdə, mənəvi cəhətdən çoxölçülü bir ziddiyyətdə, sosial əxlaq ilə mənəviyyat arasındakı münaqişədə özünü göstərir. Bir çox tədqiqatçı hesab edir ki, Sokrat daymon başlanğıcı ilə fəlsəfəyə insanı mühakimə edən vicdan fenomenini gətirdi. Bu barədə F.X. Kessidi yazır: "Platon və Ksenofonun mövqeləri, onu (daymonu), öz vicdanının və ağlının səsinin metaforik bir işarəsi və ya "öz sağlam düşüncəsinin" alleqorik bir ifadəsi kimi şərh etməyə imkan verir." [4, s. 206].

Sokrat ilk dəfə insanın əxlaqi həyatını fəlsəfinin əsas mövzusuna çevirdi. O, mənəvi mövqe və əxlaqi davranışın vəhdəti məsələsini ortaya qoyaraq, insanın əxlaqi yaradıcılığının mövcudluğunu ortaya qoymağa imkan verdi və bununla da fərdin əxlaqi "məni" ilə cəmiyyətin ümumi əxlaqi münasibətləri arasında qaçılmaz qarşıdurmanı göstərdi. Fərd və cəmiyyət arasındakı bu əsas ziddiyyət, bir insanda etik cəhətdən icazə verilən və qadağan olunan sərhədlər məsələsini gündəmə gətirdi, dahi şəxsiyyət və cəmiyyətin əbədi bir toqquşması kimi başa düşüldü, yeni mənəvi münasibətlərin və yeni əxlaq mədəniyyətinin yaradıcıları ilə ənənəvi sosial-əxlaqi normaların qoruyucularını qarşı-qarşıya gətirdi. Bu mənada, əxlaqi cəhətdən üstün bir şəxsiyyətin sosial-etik normaları pozmaq və ya aradan qaldırmaq hüququ və ənənəvi dəyərlərin müzakirə olunması, dəyişdirilməsi məsələsi meydana çıxdı. Etikada mənəvi və əxlaqi qarşıdurma, ənənəvi olaraq söz və əməl, normativlik və canlı yaradıcılıq aktı, doqmatizm və azadfikirlilik arasında parçalanmış əbədi etik bilik paradoksunu aktuallaşdırdı. Əslində, Afina polislərinin sosial və əxlaqi ənənələrini "məhv edən" Sokrat, heç nəyə tabe olmayan daxili qanunvericiliyin dinamik idrak prinsipini əsaslandırdı. O, əxlaqi düşüncədə cazibə mərkəzinin polisdən (dövlətdən) insana keçməsinin mümkünlüyünü göstərdi [1, s. 92].

Yunan düşüncəsində ədalət qanunla əlaqəli bir anlayış olmuşdur. Sokrat, hər kəsin özünə yetərincə zərər verəcəyini anlayaraq, bəzi haqsızlıqlara yol verməmək üçün, daha diqqətli olması lazım olduğunu söylədikdə, şərin mahiyyətini məhz qanunları pozmaqda görürdü. Haqsızlığa yol verərək, mümkün qədər qısa müddətdə özünü şərdən təmizləmək və cəzanı cəsarətlə qəbul etmək lazımdır. Sokrat, cəzanın nə olduğunu qəbul edərkən insanın həm özünün, həm də yaxınlarının "ilk ittihamçısı" olan fenomeni vicdan ilə deyil, mühakimə ilə eyniləşdirir. Buna görə də, o, cinayət edəndən bütün nitq qabiliyyətini istifadə etməsini tələb edir ki, cinayət tamamilə ifşa olunsun və bununla da günahkarlar

cəza çəkərək ən böyük şərdən - ədalətsizlikdən qurtulsunlar [10, c.1, s. 304].

Sokrat hesab edir ki, ölüm yaxınlaşan ana qədər ədalətsizlikdən qurtulmaq lazımdır. Ona görə birinci fəzilət ədalətli olmaqdırsa, ikincisi günahı cəza ilə təmizləməkdir. Sokrata görə ədalətsizlik etmək pisdirsə, cəzasız qalmaq daha böyük pislikdir. İnsan, ədalətsizlikdən çəkinərək, özünə haqsızlıq gətirməyə müqavimət göstərməkdən daha çox düşmənino zərər verir. Düşmənə özünə haqsızlıq etmək, sonra da gizlətmək imkanı vermək, axirətdə əzaba məhkum edilməsinə kömək etmək deməkdir. Ləyaqətli və fəzilətli bir insana pislik etmək mümkün deyildir. Eynilə, qohumlarınızdan və ya dostlarınızdan biri haqsızlıq etsə, bunu gizlədə bilməzsiniz - məhkəməyə müraciət edib yaxınlarınızın günahını elan etməlisiniz və bununla da cəzaya töhfə verərək qohumunuza və ya dostunuza pislikdən qurtulmağa kömək etməlisiniz. Və əksinə, düşmən bir cinayət törədərsə, onun cəhənnəmə (aida) düçar olmasını təmin etmək üçün, cəzasız qalmasına və mühakimə olunmamasına şərait yaratmaq lazımdır. [10, c.1, s. 364-365].

Sokrat, dövləti qeyri-təbii, lakin, sosial və mənəvi bir varlıq hesab edərək, insanın təbiətindən çıxarır. Onun fikrincə, dövlət, xoşbəxtlik və ədalət əldə etmək üçün, fəzilətli vətəndaşların ağıl və bilik yoluyla yaratdığı mənəvi birlik formasıdır. İdrak etmə qabiliyyəti sayəsində insanın obyektiv əxlaqi prinsipləri, ədalət və qanunçuluq prinsiplərini anlamaq dərəcəsini ifadə edən bilikləri vardır. Ədalətin əsası bilik olduğu üçün, maariflənən insanlar mənəvi cəhətdən gözəl davranışları qeyri-adi və pis davranışlardan üstün tutarlar. Ədalət və rifah haqqında ağlabatan düzgün fikirlər, insanın digər insanlarla münasibətlərində fəzilətli davranışını müəyyənləşdirir. İnsanın əxlaqi keyfiyyətlərinin formalaşması tərbiyə, vərdiş və dövlətin formasından asılıdır. Sokratın siyasi idealı, səlahiyyətli və bilikli insanların hakimiyyətində olan və ədalətli qanunlarla idarə olunan aristokratik respublikadır.

Sokrata görə, dövlətin mənəvi əsası və mahiyyətini, dövlətdəki qanunçuluğun meyarı və ədalətin təcəssümü olan adil qanunlar təşkil edir. Vətəndaşla dövlət (polis) arasında, qanunlarla təsbit edilmiş və vətəndaşlarının riayət etməli olduqları müəyyən bir müqavilə vardır. Ona görə, hüququn strukturunda təbii, pozitiv və "əcdadların qurduğu" (adət hüququ) qanunlar dayanır. Sokratın hüquq nəzəriyyəsi, ədalət və pozitiv qanunun eyniyyəti prinipinə əsaslanırsa, onlar da insanın rasional-mənəvi mahiyyətinin nəticəsi kimi ortaya çıxırlar. Ədalətli rasional qanunların məqsədi, həm insan, həm də dövlət üçün möhtəşəm bir mülkiyyəti və azadlığı yaratmaqdır. Bu yalnız dövlətin (polis) vətəndaşlarının qanunları bilib ona əməl etdikləri halda mümkün olur. Cəmiyyət həmişə qanunçuluq prinsipinə riayət etməlidir. İlahi mənbədən qaynaqlandıqları üçün, bir-birindən asılı olan qanunlar, istisnasız həm hökmdarlar, həm də tabe olanlar üçün bərabər işləməlidirlər. Əks təqdirdə, dövlət öz mahiyyətindən çıxaraq, səhv bir idarəetmə formasına sürüklənir.

Epikur etikasının başlanğıc nöqtəsi sosial bütövlük deyil, fərddir. Bütün sosial əlaqələr, insanların bütün münasibətləri fərdlərdən, onun subyektiv istəklərindən və rasional düşüncələrindən asılıdır. Epikura görə, sosial birlik, ən yüksək hədəf deyil, yalnız fərdlərin şəxsi rifahı üçün bir vasitədir. Bu məsələdə Epikur sofistlərə yaxındır və onun atom fəlsəfəsi insanın fərdi şərhinə tamamilə uyğundur. Epikur etik problemin həllinin xoşbəxtliyin (evdemonizm) düzgün yozulmasından asılı olduğunu bildirirdi. Epikura görə, xoşbəxt insanlar fəzilətlidirlər, aralarında mübahisə etməyə ehtiyacları və ya səbəbləri yoxdur. Çünki onlar heç kimin diqqətini cəb etməyə çalışmır və qəlb rahatlığı əldə etməyə cəhd göstərirlər.

Stoiklərdən fərqli olaraq Epikurun etikası hedonistdir (həzz). Epikur insanlarda əsas məqsədin həzz olduğunu bildirir. Çünki doğuşdan bütün canlıların həzzə sevindikləri və

əzablardan çəkindikləri, bunu təbii və ağılın iştirakı olmadan etdikləri danılmazdır. Bu baxımdan, heç bir həzz özlüyündə pis deyildir. Lakin, başqa həzzlərə qovuşmağın vasitələri onlardan qat-qat əziyyətlidir. O, həzzdən bəhs edərkən, heç bir ölçü olmadan (Epikur ölçü idealına sadiq idi) kobud mənada məmnun olmağı nəzərdə tutmurdu.

Epikur insanların fərdi azadlığının və qarşılıqlı təhlükəsizliyinin təmin edilməsi üçün faydalı bir müqavilə kimi ədalət və hüquq konsepsiyasına əsaslanan hüquqi düşüncə konsepsiyasını hazırlanmışdır. Epikura görə, təbiət, tanrıların müdaxiləsi olmadan öz qanunlarına görə inkişaf edir. İnsanın təbiət idrakı və hərəkətlərinin səbəblərini və hədəflərini ağıllı şəkildə öyrənməsi Epikür etikasının əsas şərtləridir. Epikurun etikasının əsas dəyərləri azadlıq, həzz, və ataraksiya (ruhun dinclik halı). Buna görə də, onun etikası fərdi və qeyri-siyasidir. Bunlar fərdin şüurlu səylərinin, təbiətə uyğun düşüncə və davranış tərzini başa düşməsi və həyata keçirməsi nəticəsində qazandığı nəticələrdir.

Epikura görə, insan azadlığı, zərurətin fövqündə insnın öz həyat tərzinin məntiqi seçimi üçün daşıdığı məsuliyyətdən ibarətdir. Azadlıq "bizdən asılı olan" və "heç bir kəsə tabe olmayan" anlayış sayəsində qazanılır. Zərurət, "bir fəlakətdir, ancaq zərurətlə yaşamağa ehtiyac yoxdur." Ehtiras və istəkləri ağıla tabe etmək, aza qane olmaq azad insanın vacib xüsusiyyətləridir [2, s. 342].

Dövlətin əsas məqsədi və siyasi ünsiyyətin əsası, insanların qarşılıqlı təhlükəsizliyini təmin etmək, qarşılıqlı qorxularını aradan qaldırmaq, bir-birlərinə zərər verməməkdir. Həqiqi təhlükəsizlik, yalnız sakit bir həyat tərzi və kütlədən kənarlaşmaqla əldə edilir. Epikur bildirir ki, "təbiətdən qaynaqlanan ədalət, bir-birlərinə zərər verməmək və zərərlərə dözməmək məqsədilə faydalı olan bir müqavilədir." [11, s. 89-90]. Bu konsepsiyaya görə, insanlar öz biliklərinin nəticələrinə arxalanaraq ünsiyyət şərtlərini və həyat tərzlərini özləri müəyyənləşdirirlər. İnsanların şüurlu şəkildə öz müqəddəratını təyin etməsi "müqavilə", "razılaşma" anlayışları ilə ifadə olunur. Epikur ədalətin müqavilə xarakteri haqqında yazır: "Ədalət özlüyündə bir şey deyil, insanların hər yerdə olan bir-birləri ilə münasibətlərində həmişə zərər verməmək və zərər görməmək barədə bir növ razılaşmalar vardır. Ümumiyyətlə, hər kəs üçün ədalət eynidir. Çünki insanların qarşılıqlı ünsiyyətində bir fayda vardır. Lakin, yerin və şərtlərin xüsusiyyətlərinə tətbiq edildikdə ədalət hər kəs üçün eyni deyil. Qanunun adil olaraq tanıdığı əməllərdən yalnız hər kəs üçün eyni olub-olmamasından asılı olmayaraq, faydaları insan ünsiyyət ehtiyacları ilə təsdiqlənən əməllər, həqiqətən ədalətli əmələrdir. Kimsə insan ünsiyyətində heç bir fayda gətirməyən bir qanun çıxarsa, belə bir qanun öz xarakterinə görə ədalətsizdir." [3, s. 110].

Müqavilə, dövlətin ədaləti və hüquq, təbiətdən irəli gələn, kənardan verilən və insanlara kor-koranə yüklənən fenomenlər deyil, insanlar tərəfindən qurulan və onların öz müqəddəratlarını təyinetmə institutlarıdır. Ədalət prinsipi və meyarı, yalnız müqavilə iştirakçılarının (insanlar və millətlər) münasibətlərinə tətbiq olunur. Ədalət anlayışının məzmunu müəyyən bir ölkənin xüsusiyyətlərindən, zamanla dəyişən şəraitdən və digər amillərdən asılı olaraq dəyişkəndir. Lakin bütün bu dəyişkənlikdə ədalət prinsipi özü dəyişməz olaraq qalır [5, s. 231].

Hər yerin və zamanın özünün "təbii ədalət konsepsiyası" vardır [632]. Lakin, bütün bu dəyişən təsəvvürlər üçün ümumi olan şey faydalılıqdır. Epikur konsepsiyasında "ədalət" dəyişən (yer, zaman və şərtlərdən asılı olaraq) məzmunu olan təbii hüquqdur. Təbii hüquq və qanun arasındakı əlaqə dinamik bir prinsipə əsaslanır. "Ədalət haqqında təbii fikirlərin" dəyişən mənbəyi insanların qarşılıqlı ünsiyyətinin dəyişən praktik ehtiyaclarını əks etdirir. Bu ehtiyacların dəyişməsi ilə faydalı olanlar, yəni ədalətin məzmununu təşkil edən fikirlər də dəyişir. Burada ədalət, qanunun insanların dəyişən ehtiyaclarına və eyni zamanda, dəyişən "təbii ədalət ideyalarına" uyğunluğu üçün bir meyar rolunu oynayır. Ədalətə uyğun

olan qanunlar "müdrikləri" "izdihamdan" qoruyur, fərdin azadlıq və təhlükəsizliyini təmin edir. Epikur deyir: "Qanunlar, müdriklər üçün yaradıldı. Onların pislik etməmələri üçün deyil, zərər görməmələri üçün çıxarıldı." [8, s. 45-46].

Epikur hesab edirdi ki, bir icma üzvləri güzəştə getmək və başqalarının hüquqlarını tanımaq qabiliyyətində deyillərsə, bioloji kimliyinə baxmadan onlar üçün də heç bir hüquq tanınmamalıdır. O deyir: "Zərər verməmək və zərərə məruz qalmamaq üçün müqavilə bağlaya bilməyən heyvanlara münasibətdə ədalət və ya ədalətsizlik anlayışı yoxdur. Bu yanlız heyvanlar üçün deyil, həmçinin, eyni cür davranan xalqlar üçün də xarakterikdir" [5, s. 230].

Epikurun dövlət və hüquq konsepsiyası, müqavilə əlaqəsi üzvlərinin bərabərliyi, azadlığı və müstəqilliyini nəzərdə tutur. Bu yanaşma, liberalizmin və liberal individualizminin ilk fəlsəfi və hüquqi konsepsiyasıdır. Yeni dövrdə ictimai müqavilə ideyalarının qaynağı buradan irəli gəlir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Бердяев, Н.А. О назначении человека. Издательство Республика - Москва, 1993 – 383 с.
2. Бровкин, В. В. Концепция добродетели у Эпикура. **[Electronic resource]** / ΣΧΟΛΗ Vol. 6. 2 (2012), с. 340-349. URL: https://classics.nsu.ru/schole/6/6-2-brovk.pdf
3. Бровкин, В. В. Место удовольствий в системе этических предпочтений Эпикура. Вестник Томского Государственного Университета. Философия. Социология. Политология №4 (20). С 108-116. URL: https://www.The_place_of_pleasures_in_the_system_of_ethical_preferences_in_Epicurus.pdf
4. Кессиди, Ф.Х. Сократ. **[Electronic resource]** / Спб., Алетейя, - 2001. 352 с. URL: http://filosof.historic.ru/books/item/f00/s00/z0000839/st000.shtml
5. Комарова, Л. А. Пути достижения истинного счастья в философском учении Эпикура. **[Electronic resource]** / Вестник ТГУ, выпуск 8 (112), - 2012 - с. 229-232. URL: https://www. puti-dostizheniya-istinnogo-schastya-v-filosofskom-uchenii-epikura(1).pdf
6. Лурье, С. Я. Демокрит: Тексты, перевод, исследования. **[Electronic resource]** / Ленинград «Наука» - 1970. (664 с) URL: https://archive.is/20121221135712/www.philosophy.nsc.ru/BIBLIOTECA/History_of_Philosophy/DEMOCRIT/Democrit.htm
7. Материалисты древней Греции: Сборник текстов Гераклита, Демокрита и Эпикура. **[Electronic resource]** / Госполитиздат, Москва - 1955. - 238 с. URL: https://www.runivers.ru/upload/iblock/96d/Materialisty%20drevney %20grecii.pdf
8. Никольский, Б. М. Эпикур о наслаждении: проблема кинетического и статического наслаждения // Цицерон. О пределах добра и зла. Парадоксы стоиков. **[Electronic resource]** / М.: РГГУ, 2000.- с. 421-452. URL: http://ancientrome.ru/publik/article.htm?a=1367509076.
9. Платон. Собрание сочинений в 4 т. Т. 3/ Пер. с древнегреч.; Общ. ред. А.Ф.Лосева, В.Ф.Асмуса, А.А.Тахо-Годи; Авт. вступ. ст. и ст. в примеч. А.Ф.Лосев; Примеч. А.А.Тахо-Годи. М.: Мысль, 1994. - 654 с.
10. Платон. Собрание сочинений в 4 т.: Т. I / Общ. ред. А.Ф.Лосева и др.; Авт. вступит, статьи А.Ф.Лосев; Примеч. А.А.Тахо-Годи; Пер. с древнегреч. М.: Мысль, 1990. - 860 с.
11. Шакир-Заде, А.С. Эпикур. М., Соцэкгиз, - 1963. - 223 с.

Гюнель Гейдарова

ЭТИКА И МОРАЛЬ, СПРАВЕДЛИВОСТЬ И ГОСУДАРСТВО В ГРЕКО-РИМСКОЙ ФИЛОСОФИИ

Резюме

Целью исследования является определение вопросов этики и морали, справедливости и государства в греко-римской философии.

Научная новизна. В греко-римской философии вопросы этики и морали, справедливости и государства исследовались на основе сравнительного анализа.

Методологическую основу исследования составляет историко-сравнительный анализ этических и философско-правовых представлений об этике и морали, справедливости и государстве в греко-римской философии, их анализ в плоскости принципов логической и исторической взаимосвязи.

Заключение. В греко-римской философии вопрос о понятиях этики и морали, справедливости и государства, морали и права и соотношении между ними был одной из основных тем философских дискуссий. В частности, исключительным в этой области является место таких философов, как Демокрит, софисты, Сократ, Платон, Аристотель, Эпикур. Идеи, выдвинутые ими в этом направлении, послужили основой философских идей, возникших вокруг соответствующих вопросов в более поздние периоды.

Ключевые слова: *греко-римская философия, этика, мораль, справедливость, государство, право*

Gunel Geidarova

ETHICS AND MORALITY, JUSTICE AND THE STATE IN GRECO-ROMAN PHILOSOPHY

Resume

The purpose of the study is to determine the issues of ethics and morality, justice and the state in Greco-Roman philosophy.

Scientific novelty. In Greco-Roman philosophy, the issues of ethics and morality, justice and the state were studied on the basis of comparative analysis.

The methodological basis of the research is a historical-comparative analysis of ethical and philosophical-legal ideas about ethics and morality, justice and the state in Greco-Roman philosophy, their analysis in the plane of the principles of logical and historical interrelation.

Conclusion. In Greco-Roman philosophy, the question of the concepts of ethics and morality, justice and the state, morality and law and the relationship between them was one of the main topics of philosophical discussions. In particular, the place of such philosophers as Democritus, sophists, Socrates, Plato, Aristotle, Epicurus is exceptional in this field. The ideas put forward by them in this direction served as the basis for philosophical ideas that arose around the relevant issues in later periods.

Keywords: Greco-Roman philosophy, ethics, morality, justice, state, law

İQTİSADİYYAT VƏ İDARƏETMƏ

Vilayət İsmayılov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.e.d
ismaylov1953@mail.ru

Teymur Kərimov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant
teymur-kerimov@internet.ru

TURİZM MÜƏSİSSƏLƏRİNİN FƏALİYYƏTİNDƏ TURİZM EHTİYATLARININ ROLU

Məqalədə turizm müəsissələrinin fəaliyyətində turizm ehtiyatlarının rolu, turizm ehtiyyatlarından səmərəli istifadənin ölkə turizminə verdiyi töhfələrin əhəmiyyəti, Azərbaycanda mövcud turizm ehtiyatlarını müəyyənləşdirməklə onlardan səmərəli istifadə yollarının araşdırılması göstərilir. Turizm resurslarından rasional istifadənin qiymətləndirilməsi izah olunur. Ölkə turizminin inkişafında resursların bögüsünə uyğun inkişaf prespektivləri vurğulanır. Turizm ehtiyatlarının iqtisadiyyata təsiri, ehtiyatları təşkil edən əsas amillər və bunların umumilikdə ölkə turizmində rolu haqqında məlumat verilir. Həmçinin, məqaələdə milli mədəni turizm ehtiyatları və ondan optimal istifadə yolları təklif edilir.

Müasir dövrdə beynəlxalq inteqrasiya prosesidə turizm ehtiyyatlarından səmərəli istifadə yolları, rekreasiya ehtiyatlarının qiymətləndirilməsi, turizm resurslarına təsir edən daxili və xarici amillər tədqiqat işində ön plana çəkilir.

Məqsəd - Azərbaycanda mövcud turizm ehtiyatlarını müəyyənləşdirməklə onlardan səmərəli istifadə yollarının araşdırılmasından ibarətdir.

Metodologiya - tədqiqat işində statistik, iqtisadi və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Tədqiqatın nəticələri – turizm müəsissələrinin fəaliyyətində turizm ehtiyyatlarının rolu, turizm ehtiyyatlarından səmərəli istifadənin ölkə turizminə verdiyi töhfələrin əhəmiyyəti müəyyən edilmişdir.

Açar sözlər: *turizm müəsissələri, ehtiyyatlar, milli, müasir turizm, rol, resurs*

Giriş

Son on il ərzində turizm sahəsi formalaşdı və dünyada ən böyük miqyasda xidmətlərin göstərilməsi üzrə fəaliyyət sferası kimi tanındı. Turizm – ölkələrin beynəlxalq bazarda müxtəlif keyfiyyətli tur xidmətlərinin təklifini özündə ehtiva edən iqtisadi sektorlardan biridir. Turizmin davamlı inkişafı onu əhatə edən, onunla əlaqəli infrastrukturun inkişafına birbaşa və vasitəli təsir göstərir, yekun nəticə etibarilə bütün ərazinin sosial-

iqtisadi və ekoloji inkişafına təkan verir.

Qeyd etmək lazımdır ki, beynəlxalq turizm dövlətlərarası elmi-texniki, iqtisadi, mədəni, sosial əlaqələrlə yanaşı qarşılıqlı etimadın, sülhün qorunmasında, dostluq əlaqələrinin möhkəmlənməsində mühüm vasitələrdən biri kimi önəmli rol oynayır. Hazırki dövrdə beynəlxalq turizm, avtomobil və neft emalı sənayesindən sonra dünyada iri ixrac sənayesi hesab olunur. Bu mənada turizm öz təşkilinə görə geniş spektrə malikdir. Son zamanlarda bu sahənin inkişafı üçün yaranmış siyasi, iqtisadi və sosial-mədəni imkanlar Azərbaycanda turizmin inkişaf perspektivlərinə nikbin baxmağa əsas verir [16, s. 75].

Mövcud şərtlərdə regional iqtisadiyyatın sistemli fəaliyyətinin rasional olması istiqamətində turizmin inkişafının təşkilatı-iqtisadi mexanizminin formalaşmasına yeni yanaşmaların hazırlanması lazımdır. Bu və bu kimi proseslər tədqiqatın aktuallığını müəyyən edir.

İstənilən regionun turizm-rekreasiya xidmətləri sahəsinin səmərəli inkişafı turizm resursları və turistlərə xidmət şərtləri də daxil olmaqla, onun resurs potensialının inkişaf səviyyəsi və miqyası ilə əhəmiyyətli dərəcədə müəyyən edilir. Buna görə də regionda turizmin ayrı-ayrı növlərinin inkişaf perspektivlərini müəyyən etmək üçün mövcud turizm resurslarını sadəcə təsvir etmək deyil, turizm resurslarının və onlardan istifadənin səmərəliliyini təmin edən amillərin kompleks qiymətləndirilməsini həyata keçirmək lazımdır.

Turizm fəaliyyətində turizm ehtiyatlarının rolu

Müəlliflər Azərbaycan Respublikasının turizmin inkişafı üçün resurs potensialını təhlil etmişdir. Ölkədəki turizm resurslarının qiymətləndirilməsi zamanı ədəbiyyat mənbələrində tanınmış ayrı-ayrı metodikalardan istifadə olunmuşdur. Tədqiqatda məlumat mənbələri kimi Azərbaycan Dövlət Statistika Komitəsi, Azərbaycan Dövlət Turizm Agentliyinin məlumatları və saytları, "Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 20 fevral tarixli 2677 nömrəli Sərəncamı, həmçinin 2025-ci ilə qədər turizm sferasının inkişafı konsepsiyasının layihəsi və digər mövcud informasiya mənbələrindən istifadə edilmişdir.

Əksər dünya ölkələrində, milyonlarla insanın əmək fəaliyyətini təmin edən, sənayenin bütün istiqamətləri ilə bağlı olaraq fəaliyyət göstərən və geniş bir maddi bazara sahib olan turizm sahəsi mövcuddur. Müasir turizm sənayesi dünyada ən dinamik şəkildə inkişaf edən və iqtisadiyyata yüksək gəlir gətirən sahələrindən biridir.

Turizm, sosial bir hadisə kimi nəzərə alındıqda aşağıdakı kimi təsvir oluna bilər: "Turizm insanların daimi yaşayış evlərinin yerləşdiyi yerdən kənarda müvəqqəti yaşamaq, yalnız pul qazanmaq və ya siyasi, ya da hərbi bir məqsəd güdməmək şərti ilə, azad bir mühit içində, iş, din, səhiyyə, idman, istirahət, əyləncə, mədəniyyət, təcrübə qazanmaq, digər məqsədlər ilə yanaşı dost, qohum ziyarəti, konqres və seminarlarda iştirak etmək kimi səbəblər ilə həyata keçirilən prosesdir. Fərdi və ya kollektiv olaraq həyata keçirdikləri səyahətlərdən, getdikləri yerlərdə 24 saatı aşan və ya o yerin bir yerləşdirmə obyektində ən azı bir gecələmə müddət ilə yerləşdirilməsindən ortaya çıxan iş və münasibətləri əhatə edən, ictimai bir hadisə, inteqrasiya olunmuş bir xidmət və mədəniyyət sənayesidir" [24, s. 30].

Turizm ehtiyatlarının öyrənilməsinin əsas vəzifəsi mövcud resursları təsərrüfatın dövriyyəsinə cəlb etmək, onların qiymətləndirilməsini aparmaqdan ibarətdir. Hər bir təbii və antropogen komponentlərdən istifadənin məqsədi turisti cəlb etmək imkanlarını artırmaqdan ibarətdir. Turizm ehtiyatlarının öyrənilməsində Azərbaycan alimlərindən Ə.C.Əyyubovun, B.Ə.Budaqovun, H.B.Sultanovanın, A.H.Salmanovun; rus tədqiqatçılarından İ.T.Balabanov,

M.B.Birjakova, V.Q.Qulyaeva, V.A.Kvartalnova, V.M.Kozıryov, M.E.Nemolyaevoy və s. alim-tədqiqatçıların xidmətləri olmuşdur [6, s. 52].

Azərbaycan Respublikası və onun ayrı-ayrı regionlarının turizm resurslarının mövcudluğunun və vəziyyətinin ilkin təhlili və turizm-rekreasiya xidmətləri sahəsinin maddi-texniki, maliyyə və əmək potensialının qiymətləndirilməsi ölkədə turizmin inkişafına mane olan əsas səbəbləri müəyyən etməyə imkan vermişdir. Bu səbəblərə ərazilərdə qeyri-rasional yerləşdirilmə, turizm-rekreasiya xidmətləri sahəsinin resurs potensialının vəziyyəti və turizm infrastrukturunun kifayət qədər inkişaf etmədiyi barədə tam və düzgün məlumatın olmaması daxildır.

Azərbaycanın ərazisində fəaliyyət göstərən kurortlar müalicə funksiyalarını saxlamaqla digər müalicə və istirahət məqsədli turistlər üçün nisbətən müxtəlif formalı proqramlar hazırlayır, mədəni və idman tədbirləri həyata keçirirlər. Onlar turistlər üçün sağlamlıq və güc bərpa edici kompleks xidmətlərini genişləndirməklə böyük seçim proqramları təklif edirlər. Bu təkliflər içərisində dənizkənarı otellərdə dənizdə üzmək və dəniz iqlimi ilə müalicə (talassoterapiya), yüksək tələbə malik olan "Fito-Gözəllik-Cavanlaşma" və s. proqramlar üstünlük təşkil edir ki, bu da uzun müddətli müalicə və sağlamlıq kurslarından ibarətdir. Odur ki, istirahət və müalicə bazarında geniş miqyaslı tədqiqatların aparılması, kurort xidməti standartlarının işlənilməsi və tətbiqi mövcud şərait üçün əlverişli hesab edilən bu növ turizmin inkişaf etdirilməsini şərtləndirir. N.S.Musayev turizmin bu istiqamətində aparılmış tədqiqatlara əsaslanaraq qeyd edir ki, dünya miqyasında fəaliyyət göstərən kurortları üç əsas növə ayırmaq olar: balneoloji (müalicəvi sular), palçıq və iqlim müalicəsi [10, s.113-122].

Qeyd edək ki, istənilən ölkədə turizmin inkişafı üçün resurs potensialının vəziyyəti haqqında dəqiq məlumatların olmaması turizm sahəsinin inkişafının effektiv strateji planlaşdırılmasına mane olur. Deməli, turizm resurslarının mövcudluğu və vəziyyəti barədə tam, düzgün və kompleks informasiya ilə təmin etmək üçün onların qiymətləndirmə mexanizmini tənzimləmək lazımdır.

Azərbaycanda turizmin inkişafı üçün resurs potensialının təhlilinin nəticələrini təqdim edəcəyik. 6 dekabr 2016-cı il tarixli Fərmanla təsdiq edilmiş Azərbaycan Respublikasında ixtisaslaşdırılmış turizmin sənayesinin inkişafına dair Strateji Yol Xəritəsinə əsasən 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış işlənib hazırlanmış və Azərbaycanın müxtəlif turizm növləri üzrə potensialı, o cümlədən mədəni, sağlamlıq, dağ və qış, idman, işgüzar, çimərlik, ekoloji, ov və s. ayrı-ayrı turizm növlərinin inkişafı üçün zəruri potensialı müəyyənləşdirilmişdir. Odur ki, Azərbaycanin turizm ehtiyatları təbii resurslardan çox tərəfli istifadəyə görə fərqləndirilir.

Turizm ehtiyatlarının təsnifatında təbii resursdan istifadənin aşağıdakı xüsusiyyətləri vardır:

1. Təbii resurslar və onun ayrı-ayrı komponentləri turizm istehlakçısına yönəldilmiş əsas ehtiyat mənbələri olduğuna görə onun təbii mühitlə əlaqəsini birbaşa təmin etmiş olur.

2. Turizm bir çox hallarda təbii resurslardan istifadənin təşəbbüsçüsü kimi çıxış edir. Yəni onun elementlərinin mənimsənilməsi fəaliyyətində üstün istiqaməti təşkil edir. Belə ki, təbii turizm ehtiyatları turizm və istirahətin bütün növlərinin təşkili üçün baza rolunu oynayır.

3. Təbiətdən çox məqsədli istifadə etdiyinə görə turizmin ərazi təşkilində mövsümlük problemi yaranmır. Belə ki, komfort və ya diskomfort şərait, ekstremal ərazilər turizm resursuna çevrilir və istifadəni məqsədindən asılı olaraq dəyişir.

4. Turizm sahəsi və ya sənayesi təbiətdən istifadə edən bir çox sahələrlə qarşılıqlı təsirə və marağa malikdir. Bunlara misal olaraq kənd təsərrüfatı və aqro turizmi, milli parklar və ekoturizm, hətta filiz mədənlərinə də ekskursiya təşkil olunduğuna görə turizm ehtiyatı sayıla bilir. Turizmin təbiətdən çox tərəfli istifadə etdiyinə görə insanlar asudə vaxtlarının əsas hissəsini ətraf mühitlə bağlı olan turizm sahəsinə ayırır [19, s. 150].

Turizm resurslarının öyrənilməsinin təhlili göstərir ki, ehtiyatların yayılma arealı, turizm məqsədilə istifadə imkanları, mənimsənilmə səviyyəsi əsas götürülmüşdür. Turizm ehtiyatlarının istismar göstəriciləri onun yayıldığı ərazidən və kapital tutumundan asılıdır.

Turizm ehtiyatlarının ərazi amilləri əsas olduğuna görə mövcud resurs potensialı, turist cəlb olunma imkanı və bölgələr üzrə yayılmasının da öyrənilməsi vacibdir. Turizm ehtiyatlarının istismar müddəti aşağıdakı amillərdən asılıdır:

- Rekreasiya turizm ehtiyatlarının qiymətləndirilməsindən və turistlərin cəlb edilmə imkanlarından;
- Bəzi turizm ehtiyatlarının toxunulmazlığı və ərazi üzrə yayılma səviyyəsindən;
- Turizm ehtiyatlarının yığcam yerləşməsindən, həmçinin müəyyən ərazi vahidi çərçivəsində miqdarından;
- Turizm ehtiyatlarına olan tələbat və mövcud infrastrukturun inkişaf səviyyəsindən.

Turizm ehtiyatlarının uzunmüddətli istifadəsi onun yerləşdiyi ərazinin coğrafi xüsusiyyətlərindən asılıdır. Belə ki, turizm ehtiyatları müəyyən bir ərazidə yığcam cəmlənirsə, bunlar rekreasiya təsərrüfatının inkişafı ilə bərabər onun uzunmüddətli istifadəsinin də təmin olunmasına xidmət edir. Ərazinin rerkreasion dinamikliyi, ətraf mühitin antropogen təsirə az məruz qalması turizm ehtiyatlarından istifadənin səmərəliliyini artırmış olur [2, s. 241].

Təbii turizm ehtiyatlarına – təbiət abidələri, ekzotik landşaft, ərazinin yaşıllıq (meşəlik) dərəcəsi, Milli Parklar, dağ ekosistemləri, baleneloji və mikroiqlim resursları aiddir. Antropogen turizm ehtiyatlarına tarixi-memarlıq abidələri, mədəni-maarif müəssisələri, milli-irs nümunələri və s. aiddir [1, s. 45].

Təbii turizm ehtiyatlarının ərazi üzrə təminat səviyyəsində ayrı-ayrı komponentlərə görə qarşılıqlı əlaqəsi:

- ekzotik landşaft – təbiət abidələri – Milli Parklar;
- meşəlik dərəcəsi – təbiət abidələri – ekzotik landşaft;
- çimərlik – meşə – dağ ekosistemləri.

Bu əlaqələndirmə mövcud turizm ehtiyatlarının cəlbediciliyi, mənzərə müxtəlifliyi əsasında müəyyənləşir. Təbii turizm ehtiyatlarında cəlbedicilik landşaftın müxtəlifliyinin zəngin olmasına görə müəyyən olunur ki, bu da qeyd olunan komponentlərin qarşılıqlı olaraq əlaqələndirilməsi turizm tələbatına təsir etmiş olur.

Minlərlə tarixi memarlıq abidələrinin mövcudluğu ölkəmizin qədim və zəngin tarixə malik olmasının göstəricisidir. Azərbaycanın hər bir regionu (rayonu) özünə məxsus tarixi abidələri ilə fərqlənir və hər kəsi cəlb edir. Ölkəmizdə ən qədim tarixə malik olan Azıx mağarasıdır. Bundan başqa Qobustanda qayaüstü rəsmlər, müxtəlif müdafiə qalaları və qəsrləri, İslam mədəniyyətini özündə əks etdirən saraylar və digər tikililər tariximizi təzahür edir. Yuxarıda bəhs etdiyimiz, ölkəmizin zəngin ekoloji – turizm ehtiyatlarını təhlil edərkən respublikamızda müxtəlif turizm sahələrini inkişaf etdirməyin mümkünlüyünü müəyyən etmək olar [13, s. 90].

Ümumilikdə bütün memarlıq nümunələri, qədimliyi ilə seçilən tarixi-mədəni abidələr antropogen turizm ehtiyatlarına aid edilir. Antropogen turizm ehtiyatları aşağıda sadalanan qruplara bölünür:

- tarixi-memarlıq abidələri;

- arxitektura abidələri;
- mədəni irs nümunələri;
- müasir şəhərsalma və arxitektura abidələri;
- mədəniyyət müəssisələri və muzeylər;
- dini abidələr.

Ümumiyyətlə mədəni komplekslər maddi və mənəvi obyektləri özündə birləşdirməklə turizmdə müxtəlif məqsədlərlə istifadə olunur. Geniş həcimli mədəni komplekslərlə yanaşı, eyni zamanda xalqın sosial-mədəni mühiti, adət-ənənələri, məişəti və təsərrüfat fəaliyyəti də buraya daxil edilir.

Mədəni komplekslər dəyərindən, davamlığından və həcmindən asılı olaraq turizm sənayesinə tələbatı formalaşdırmış olur. Mədəni komplekslər turizm sistemlərinin normal fəaliyyətin təmin etmək üçün insanların dünya görünüşün artırılmasında, biliklərinin çoxalmasında rol oynamaqla yanaşı, mühitin estetik sərvətlərini artırır, sağlamlıq və müalicə üçün əlverişli şərait yaradır.

İqtisadi ədəbiyyatlarda və tədqiqatlarda turizm ehtiyatlarının üç istiqamətdə qruplaşdırılması verilir (şəkil 1) [14, s. 3-12]:

- təbii turizm ehtiyatları;
- antropogen turizm ehtiyatları;
- sosial-iqtisadi turizm ehtiyatları.

Turizmdə sahibkarlıq fəaliyyətinin genişlənməsi bölgələrdə investisiyaların artımına səbəb olmuşdur ki, bunun da nəticəsində dövlət proqramına uyğun olaraq burada turizmin müxtəlif növlərinə təkan vermişdir. Ölkədə turizm sahəsində yerli sahibkarlığa məxsus investisiyaların genişləndirilməsi üçün ölkənin vergi siyasəti təkmilləşdirilməli, yeni layihələrin həyata keçirilməsində güzəştlərin tətbiqi, kredit sistemində stimullaşdırıcı tədbirlərin görülməsi məqsədəuyğun olardı. Azərbaycanın turizm bazarında xarici investisiyaların payı az olsa da (15%), hazırda alman, ingilis, türk, fransız, avstriyalıların iştirakı təmin olunmuşdur. Onların əsas fəaliyyət sahəsi müasir turist obyektlərinin, xüsusilə otellərin tikintisinə yönəldilmişdir.

Turizmin əsas predmetlərindən biri yerləşdirmə xidmətidir. Yerləşdirmə dedikdə, turistlərin gecələməsi üçün nəzərdə tutulan yer başa düşülür. Mehman-xana və ya otel təsərrüfatı turizm sənayesinin mühüm tərkib hissəsidir.

Mehmanxanalar aşağıdakı əlamətlərə malik olurlar:


1. Sayı müəyyən edilmiş, minimumu aşmayan, vahid rəhbərliyi olan nömrələrdən ibarət olurlar.
2. Yatağın sahmana salınması, nömrənin və sanitariya-gigiyena xəttinin gündəlik təmizlənməsi ilə məhdudlaşmayan müxtəlif mehmanxana xidmətləri göstərilir.
3. Göstərilən xidmətlərə, mövcud qurğulara və ölkənin standartlarına uyğun olaraq dərəcə və kateqoriyalara görə qruplaşmışdır.
4. İxtisaslaşdırılmış qurum kateqoriyasına daxil deyil.

Material və metod

Azərbaycan Respublikasında turizm obyektləri fərqli maliyyə-təsəttüfat fəaliyyətinə malikdirlər. Bu baxımdan hər birinin fəaliyyətini əks etdirən əsas sosia-iqtisadi göstəricilərinin təhlil edilməsi onların fəaliyyətinin qiymətləndirilməsi nöqteyi nəzərindən xüsusilə vacibdir.

Odur ki, 2006-2020-ci illər üzrə mehmanxana və mehmanxana tipli turizm müəssisələrinin əsas iqtisadi göstəricilərinin təhlil edilməsi onların inkişafını xarakterizə edə bilər (cədvəl 1).

Məlumatların təhlii göstərir ki, 2006-2020-cü illər ərzində mehanxana tipli müəssisələrin sayında 370 vahid artım müşahidə edilmişdir bu da 130 % artım deməkdir. Yerləşdirilmiş şəxslərin sayına gəlincə pandemiyadan öncə (2019) ən yüksək nəticə (1.919.765) olmuşdur. 2020-ci ildə isə bu göstərici azalaraq 668.813 nəfər olmuşdur (1.250.952 nəfər azalma müşahidə edilib – 65%).



Şəkil 1. Turizm ehtiyatlarının təsnifatı

Mənbə: [13, s.125-132; 14, s.3-12] əsasında müəlliflər tərtib etmişdir

Cədvəl 1

Mehmanxana və mehmanxana tipli müəsissələrin əsas göstəriciləri

Göstəricilər	2006	2016	2017	2018	2019	2020
Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahid	285	548	563	596	642	655
Yerləşdirilmiş şəxslərin sayı - cəmi, nəfər	291 617	1 122068	1 414 708	1 749475	1 919765	668 813
İşçilərin sayı, nəfər	4 338	9 838	10 015	11 407	12 481	10 731
Müəssisələrin istismarından daxil olan gəlir, min manatla	74 342,4	240112,7	284 453,9	359 453,0	450188,5	116 798,0
Büdcəyə ödənilmiş ƏDV və digər vergilər, min manatla	9 445,9	38 525,7	39 040,6	33 323,1	42 252,5	15 018,2

Mənbə: [23] əsasında müəlliflər tərtib etmişdir

Mehmanxanalarda çalışan işçilərin sayında da müsbət dinamika müşahidə olunmuşdur (2020-ci il istisna olmaqla). 2006-2019 cu illərdə işlə təmin olunanların sayı artaraq 8143 nəfər olmuşdur. 2020-ci il pandemiya və qapanmalarla əlaqədar mehmanxanaların fəliyyətində durğunluq müşahidə edilmişdir və bununlada 1750 nəfər insan öz iş yerini itirmək məcburiyyətində qalmışdır.

Müəssisələrdən əldə olunan gəlirdə 2019-cu ilə nisbətən 2020-ci ildə 333390,5 min manat az gəlir əldə olunmuşdur buda təxminən 74% azalmanı göstərir.

Dövlət bücəsinə ödənilmiş vergilərin də artım tempində azalma müşahidə olunmuşdur. 2020-ci ildə 15018,2 min manat vəsait köçürülmuşdür və bu göstərici 2019-cu ilin məlumatına əsasən 64,4% azalmanın olduğu qeyd olunur.

Azərbaycanda 2015-2020-ci illərdə beynəlxalq turist qəbulu göstəricilərinin təhlilinə əsasən qeyd etmək olar ki, bu illər ərzində ən çox turistlərin qəbulu 2019-cu ildə olmuş, bu göstərici 2015-ci illə müqayisədə 58,0%; 2016-cı illə müqayisədə 41,0%; 2017-ci illə müqayisədə 17,6% və 2018-ci illə müqayisədə 11,3% artım təşkil etmişdir. Həmçinin, 2019-cu ildə müxtəlif nəqliyyat növlərindən istifadəyə görə turistlər 2019-cu ildə ən çox hava nəqliyyatından istifadə etmişlər və bu göstərici ümumi qəbul edilmiş turist sayının 40,5%-ni, avtomobil nəqliyyatından istifadə edərək ölkəyə səyahət edənlər 40,1%-ni, dəmir yolu nəqliyyat ilə səyahət edənlər 12,9%-ni, həmçinin su nəqliyyatı və digər nəqliyyat vasitələrindən istifadə etməklə ölməmizə gələn turistlər isə birgə 6,5% təşkil etmişdir. Onu da qeyd edək ki, bütün dünyada tüğyan edən COVİD 19 virusunun törətdiyi fəsadlar nəticəsində ölkələr arası qediş-gəlişlərə məhdudiyyətlər qoyulduğundan 2020-2021-ci illərdə ölkəmizə gələn turistlərin sayında 2019-cu illə müqayisədə çox kəskin azalma olmuşdur. Belə ki, beynəlxalq turist qəbulu göstəricisinin müqayisəli təhlilindən göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə 74,9% və 2021-ci ildə 18,5% azalma olmuşdur ki, bunun da səbəbi ölkələrin quru və hava yollarının başlanması və ölkələrarası əlaqələrin müəyyən müddət ərzində bağlı olması ola bilər.

Həmçinin gəlmə və getmə turizmi üzrə məlumatların təhlilindən görünür ki, müqayisə edilən dövrdə getmə turizmi həmişə gəlmə turizmini üstələmişdir. Belə ki, 2015-ci ildə bu göstəricinin nisbəti 1:2,04; 2016-cı ildə 1: 1,9; 2017-ci ildə 1:1,52; 2018-ci ildə 1: 1,72; 2019-cu ildə 1: 1,76; 2020-ci ildə 1:1,46 və 2021-ci ildə 1:1,34 olmuşdur. Lakin qeyd edək ki, bu göstərici turizm inkişaf etmiş ölkələrdə 1:5 nisbətində olduqda qənaətbəxş hesab edilir. Bu onu göstərir ki, Azərbaycanda həmin göstəricilərin nisbətinin turizm sferası inkişaf etmiş ölkələr üzrə göstərici səviyyəsinə çatdırılması istiqamətində həm dövlət, həm də Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi və onun tabeliyində

fəaliyyət göstərən müvafiq turizm şirkətləri maksimum güclə çalışmalıdırlar [23, s. 22].

Müzakirə

2016-2020-ci illərdə iqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə turistlərin yerləşdirilməsi və onlardakı birdəfəlik tutumun həcminin müqayisəsi cədvəl 2-də verilir.

Cədvəl 2

İqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə birdəfəlik tutum (yer)

İllər / Regionlar	2016	2017	2018	2019	2020
Bakı	14 020	14 861	18 637	20 740	21 151
Şəki-Zaqatala	4 469	4 308	4 432	4 561	4 701
Gəncə-Qazax	2 911	2 978	3 312	3 392	3 392
Quba-Xaçmaz	9 572	10 162	10 462	10 931	10 991
Lənkəran	2 984	3 199	3 249	3 658	3 658
Dağlıq Şirvan	1 688	1 688	1 738	1 738	1 834
Aran (Göyçay, Mingəçevir və s.)	2 099	2 040	2 234	2 296	2 296

Mənbə: [23, s. 49] əsasında müəlliflər tərtib etmişdir

Aparılmış təhlil göstərir ki, Bakı şəhəri üzrə bu tip müəssisələrdə birdəfəlik tutumun sayında 2016-cı ilə nisbətən 2017-ci ildə 6,0%; 2018-ci ildə 32,9%; 2019-cu ildə 47,9% və 2020-ci ildə 50,9% artım olmuşdur.

2021-ci ildə mehmanxanaların birdəfəlik tutumundan istifadə 11,2 faiz səviyyəsində olmuşdur (2020-ci ildə 6,5 faiz). Bu göstərici Şabranda 82,2 faiz, Beyləqanda 25,5 faiz, Qubada 22,2 faiz, Naftalanda 21,0 faiz, Lənkəranda 19,1 faiz, Qəbələdə 16,2 faiz, Bakıda 14,2 faiz, Ağcabədidə 14,0 faiz, Bərdədə 13,0 faiz, Göyçayda 12,9 faiz, Cəlilabadda 12,7 faiz, Sabirabadda 12,0 faiz, Şəmkirdə 11,7 faiz, Şamaxıda 11,2 faiz, digər şəhər və rayonlarda isə ölkə üzrə orta göstəricidən aşağı olmuşdur [23, s.49].

Ölkədə xarici investisiyaların daxili turizm sektoruna yönəldilməsi, ilk növbədə regionlarda infrastuktur sahələrin bərpasından asılıdır. Keçid dövründə olan ölkələrin təcrübəsinin təhlili göstərir ki, turizm sənayesinə xarici kapitalı cəlb etmək üçün əvvəlcə ayrı-ayrı regionlarda nəqliyyat, kommunikasiya infrastrukturu bərpa olunur, mövcud rekreasiya ehtiyatları qiymətləndirildikdən sonra onlar turizm fəaliyyətinə yönəldilir. Azərbaycanda infrastrukturun bərpasına, turizm sənayesinin modelləşdirilməsinə, bölgələrin rekreasiya potensialının mənimsənilməsinə xarici investorların cəlb olunması mümkündür. Ölkədə xarici iş adamları üçün münbit şəraitin yaradılması, bu sahədə investisiyaların qoyulması, vergi mühitinin yaxşılaşdırılması və şəffaflaşdırılması, reklam bazarının inkişafı, onların turizm sahəsinə daha çox kapital yönəltməsinə təsir göstərə bilər [18, s. 251].

Nəticə

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, ölkəmiz çox yüksək turizm potensialına malikdir. Respublikamızın əlverişli iqtisadi coğrafi mövqeyi, iqlimi, relyefi, hidroloji resusrları, təbiət və tarixi abidələri, palçıq vulkanları və s. turizmin inkişafı üçün əsas amillərdir.

Bu turizm növlərinin inkişafı istiqamətində dövlətimiz tərəfindn müxtəlif dövlət proqramları hazırlanır və həyata keçirilir. Son vaxt "Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" hazırlanaraq təsdiq edilmişdir. Məhz bu işlərin həyata keçirilməsinin nəticəsidir ki, bu gün azərbaycan turizmi inkişafın yüksək pillələrinə qədəm qoyur. Lakin bu istiqamətdə görüləcək işlər həddindən artıq çoxdur. Bunun üçün məlumat bazaları hazırlanmalı və qarşıya çıxan problemlərin həlli yolları öyrənməlidir. Bunun üçün ölkəyə gələn və ölkədən gedən turistlərin göstəriciləri öyrənilməli və məlumat bazası yaradılmalı müxtəlif reklam çarxlarından, internet resusrlarından istifadə olunmalıdır. Bu məlumatlar turistlərə dolğun və düzgün çatdırılmasına, ölkəyə turist axınının artmasına xidmət etməlidir.

Ölkənin təbii imkanlarının və ayrı-ayrılıqda turizm potensialının bütün dünyaya çatdırılması istiqamətində reklam işlərinin genişləndirlməsinə, informasiya vasitələrinin artırılmasına xüsusi diqqət yetirilməlidir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycanın tarixi abidələri. AMEA. –Bakı, - 1958, -75 S.
2. "Turizm" – S. Yeganlı, E.Hacıyev, -Bakı, -2001, - 166 S.
3. "Rekreasiya-turizm ehtiyatları", - Bakı, -2003, -14 S.
4. "Azərbaycanda gəlmə turizm və onun inkişafı yolları" - C.A. Məmmədov, B.Ə.Bilalov, - Bakı, - 2004, -171S.
5. "Turizmin əsasları" - İ. Hüseynov, N. Əfəndiyeva, Bakı, -2007 -144 S.
6. "Azərbaycanda turizmin inkişaf problemləri" - F.İ.Qurbanov, "Adiloğlu" nəşriyyatı, Bakı, - 2007, -272 S.
7. "Turizmin tarixi" (Dərslik) - B.Ə. Bilalov "Mütərcim", -Bakı, - 2008, -188 S.
8. Azərbaycan turizminə bir baxış, "Mədəniyyət " qəzeti, 2009-cu il
9. "Turizmin iqtisadiyyatı və idarə edilməsi" - Ə.Q. Əlirzayev, -Bakı, - 2011, -122 S.
10. "Müalicə-sağlamlıq turizminin inkişaf etdirilməsi istiqamətləri". N.S.Musayev, -Bakı: Əmək və Sosial Münasibətlər Elmi praktiki jurnal, -2019, №1 (11), -s.113-122
11. "Azərbaycanda regional turizmin inkişafı: problemlər və perspektivlər" - A.N. Həsənov, - Bakı, - 2012, s. 65-77; 232-253; 263
12. "Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri" - E.Q. Məmmədov, -Bakı, -2013, -s.72; -s. 239-251
13. "Turizmin əsasları" - B.Ə. Bilalov, Ç.G.Gülalıyev, Bakı, - 2015, - 150 S.
14. "Turizm ehtiyatları" (fənn mühazirələri) - H. Rəsulov, Mingəçevir, - 2015, - s. 3-12
15. "Azərbaycanda turizm"- Statistik məcmuə, -Bakı, -2016, -s.25-27
16. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" çərçivəsində Turizm üzrə Alt-işçi qrupunun Hesabatı, -Bakı, -2016, -s. 13-15
17. Hasan Olalı, Turizm Teorisi ve Politikası, Endüstri Maatbacılık ve Ticaret, -İzmir, -1963, -s. 50
18. Hasan Olalı ve Alp Timur, Turizm Ekonomisi, -1988, -s. 30
19. "Экономика и организация туризма" Азар В. И., М., -1993, -s.17
20. Шаповал Г.Д. История туризма. Минск, ИП, «Эноперспектива»,-1999, -s.184
21. "Международный туризм и развитие туризма в Азербайджанской Республике" - S.T.Eqanlı, G.M.Qadjiev, -Bakı, -2003, -s.154
22. Ölkə iqtisadiyyatında turizmin rolu və onun yüksəldilməsi istiqamətləri - http://www.intranslaw.com
23. Azərbaycan Respublikasının Dövlət Statistik Komitəsi - www.stat.gov.az
24. "Azərbaycanda turizm" - www.azerbaijan.travel
25. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi - www.mct.gov.az

26. Azərbaycan Respublikası - www.azerbaijan.az
27. Azərbaycan Milli Kitabxanası "Azərbaycanın daxili turizm potensialı" - www.anl.az
28. Azərbaycan İnformasiya Agentliyi - www.azerbaycaninfo.az
29. Tourism - www. wikipedia. org
30. World Tourism Organization - www2.unwto.org
31. www.turizm.az
32. https://studopedia.ru/3_159256_geografiya-lechebno-ozdorovitelnogo-turizma.html

Д.э.н. Вилаят Исмайлов
Теймур Керимов

РОЛЬ ТУРИСТСКИХ РЕСУРСОВ В ДЕЯТЕЛЬНОСТИ ТУРИСТСКИХ ПРЕДПРИЯТИЙ

Резюме

В статье освещается роль туристских ресурсов в деятельности туристских предприятий, значение эффективного использования туристских ресурсов в туризме страны. Показано изучение способов эффективного использования существующих туристических ресурсов в Азербайджане, дана оценка рационального использования туристических ресурсов. Освещены перспективы развития туризма страны. Влияние туристских ресурсов на экономику, основные факторы, входящие в состав ресурсов и их роль в туризме страны в целом. Также в статье упоминаются наши национальные культурно-туристические ресурсы и пути их оптимального использования.

В современное время, в процессе международной интеграции, в исследовании выделяются пути эффективного использования ресурсов туризма, оценка рекреационных ресурсов, внутренние и внешние факторы, влияющие на ресурсы туризма.

Цель – он состоит в выявлении существующих туристических ресурсов в Азербайджане и изучении способов их эффективного использования.

Методология – в исследовании использовались методы статистического, экономического и сравнительного анализа.

Результаты исследования – выявлена роль туристских ресурсов в деятельности туристских предприятий, важность вклада эффективного использования туристских ресурсов в туризм страны.

Ключевые слова: *туристские предприятия, заповедники, национальный, современный туризм, роль, ресурс*

Doctor of economics Vilayat İsmayilov
Teymur Karimov

THE ROLE OF TOURIST RESOURCES IN THE ACTIVITIES OF TOURIST ENTERPRISES

Summary

The article shows the role of tourism resources in the activities of tourism enterprises, the importance of the effective use of tourism resources in the country's tourism. The study of ways to effectively use the existing tourism resources in Azerbaijan is shown. The assessment of the rational use of tourism resources is explained. Prospects for the development of the country's tourism are highlighted. The impact of tourism resources on the economy, the main factors that

make up the resources and their role in the country's tourism in general. The article also mentions our national cultural tourism resources and ways to use them optimally.

In modern times, in the process of international integration, the ways of efficient use of tourism resources, assessment of recreational resources, internal and external factors affecting tourism resources are highlighted in the research.

The purpose – it consists of identifying the existing tourism resources in Azerbaijan and exploring ways to use them effectively.

Methodology – political, normative and comparative analysis methods were used in the research.

The results of the study – The role of tourism resources in the activities of tourism enterprises, the importance of the contribution of the efficient use of tourism resources to the country's tourism was identified.

Keywords: *tourism enterprises, reserves, national, modern tourism, role, resource*

UOT 353.336.2

Nurəngiz Mikayılova
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası, dosent
nurengiz.mikayilova@mail.ru

Aysel Məmmədli
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası, müəllim

BƏLƏDİYYƏ BÜDCƏLƏRİNİN FORMALAŞMA PROBLEMLƏRİ

Məqalədə bələdiyyə idarəçiliyinin mahiyyəti, Azərbaycanda bələdiyyə büdcələrinin mövcud vəziyyəti və formalaşma problemləri araşdırılmış, təhlil edilmiş və bu problemlərdən çıxış yolları müəyyən edilmişdir. Stastistik göstəricilər cədvəl və diaqram formasında verilərək təhlil və müqayisələr aparılmışdır. Avropa Xartiyasına və Azərbaycan qanunvericiliyinə əsasən bələdiyyələr öz büdcələrini tərtib etməkdə və xərcləməkdə tam müstəqildirlər. Məqalədə yerli və xarici ədəbiyyatlara istinadlar edilmiş, sonda bələdiyyə büdcələrinin formalaşmasına təkan verə biləcək umumiləşdirilmiş nəticə və təkliflər verilmişdir.

Məqsəd: Bələdiyyə büdcələrinin formalaşma problemlərinin araşdırılması və bu problemlərdən çıxış yollarının müəyyən edilməsi

Metodologiya: Tədqiqat işində iqtisadi-statistik və təhlil metodundan istifadə edilmişdir.

Tədqiqatın nəticəsi: Müəyyən edilmişdir ki, bələdiyyə institutunun formalaşmasından 20 il keçməsinə baxmayaraq büdcə formalaşmasında çoxsaylı problemlər hələ də qalmaqdadır: kifayət qədər maliyyə mənbələri yoxdur, bələdiyyə mülkiyyətində olan əmlakın tam inventarlaşması ləng gedir, əmlak və torpaq vergisinin dərəcələri bazar qiymətləri ilə uzlaşmır, bələdiyyələrin vergiyığmada təsir mexanizmləri yoxdur, büdcə transfertləri inkişaf etmiş ölkələrlə müqayisədə azlıq təşkil edir və s.

Açar sözlər: *bələdiyyə büdcələri, gəlir və xərclər, problemlər, vergi*

Giriş

Yerli özünüidarəetmə sistemi insan cəmiyyətinin qurulması və inkişafı ilə təşəkkül tapmış, iri dövlətlərin yaranmasına səbəb olmuşdur. Yerli özünüidarənin icma xarakteri onun sosial idarəetmənin ilk nümunəsi olduğunu göstərir. Qədim Afinanın və Romanın şəhər-dövlətlərində yerli özünüidarəetmə xüsusiyyətlərinə malik orqanlar, orta əsrlərdə işə Avropanın bir sıra şəhərlərində özünüidarəetmə orqanları təşəkkül tapmışdır. Şəhərlərin və feodal münasibətlərinin inkişafı yerli özünüidarənin yeni mərhələsini açır və bu, cəmiyyətdəki sosial, iqtisadi və siyasi proseslərin idarə edilməsi ilə əlaqəli xüsusi terminləri meydana gətirir. Yerli özünüidarəetmə ilə işlədilən "münisipalitet" və "bələdiyyə" terminləri tez-tez rast gəlinən terminlərdir. "Bələdiyyə"nin kökü ərəb mənşəli bələd olmaq sözündən götürülmüş, yerli əraziyə bələd olan idarəçilik anlamını verir, daha geniş yayılmış "münisipalitet" sözü isə latınca "municipium" sözündən götürülmüşdür: "munus" çətinlik, ağırlıq, "capio" və "recipio" isə götürürəm, anlayıram deməkdir **[7, s.28]**. Bu termin ilk dəfə olaraq, Qədim Romada, respublikaçıların hakimiyyəti zamanı meydana gəlmişdir, ərəb mənşəli bələdiyyə termini isə müsəlman ölkələrində orta əsrlərdən başlayaraq geniş istifadə olunmağa başlanılmışdır.

Yerli büdcənın formalaşmasının hüquqi əsasları

Yerli özünüidarənin icma xarakteri onun sosial idarəetmənin ilk nümunəsi olduğunu göstərir. Bələdiyyə idarəçiliyi əsrlərlə mövcud olmuş və daim islahatlar aparılaraq təkmilləşmiş və müasir bir idarəermə formasına çevrilmişdir. "Amerikada demokratiya" əsərində A.Tokvil yazırdı: "İcma təsisatları olmadan da millət azad hökumət yarada bilər, lakin əsl azadlıq ruhunu heç vaxt əldə edə bilməz" **[12, s.58].**

Bələdiyyələr 1999-cu il dekabr ayının 12-də ölkəmizdə ilk dəfə keçirilmiş Ümumxalq Seçkiləri əsasında yaranmışdır. Bələdiyyə qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyələrin öz mülkiyyəti, yerli büdcəsi və seçkili bələdiyyə orqanları olur. Bələdiyyə orqanları bələdiyyə tərəfindən yaradılan, dövlət orqanları sisteminə daxil olmayan yerli əhəmiyyətli məsələləri həll etmə səlahiyyətləri verilən seçkili orqanlardır.

1995-ci ildə müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyada bələdiyyələrin yaradılması və seçkilərin keçirilməsi barədə müvafiq müddəalar öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının dördüncü bölməsində göstərilmişdir: "Yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir" **[1, s.18].** Eyni zamanda Avropa Xartiyasında göstərilmişdir ki, "Yerli özünüidarəetmə prinsipi ölkə qanunvericiliyində və imkan daxilində ölkənin konstitusiyasında təcbit olunmalıdır" **[5, s. 3].** Qeyd etməliyik ki, Avropa Xartiyası demokratik inkişaf yolu seçmiş bütün dövlətlərdə bələdiyyə idarəçiliyinin əsaslarını özündə əks etdirən beynəlxalq bir sənəddir və Azərbaycan da bu Xartiyaya qoşulan dövlətlər sırasındadır.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 40-cı maddəsinə əsasən bələdiyyə mulkiyyətinin özəlləşdirilməsindən, bələdiyyə əmlakının icarəyə verilməsindən, yerli lotereyalardan, reklamlardan daxil olan vəsait, bələdiyyə idarə, muəssisə, idarə və təşkilatlarının mənfəətindən tutulan vergi, dotasiya, subvensiyalar, transfert ödənişləri yerli büdcəni təşkil edir **[6].** Eyni zamanda Azərbaycan Respublikası Konstitusiyası bələdiyyələrin müstəqil surətdə yerli vergi və ödənişləri müəyyənləşdirmək hüququnu təsbit edir.

Azərbaycanda bələdiyyə idarəciliyinin formalaşması üçün ona kifayər qədər səlahiyyət və maliyyə mənbələri verilməlidir. Qabaqcıl dünya dövlətlərinin təcrübəsi göstərir ki, yerli özünüidarəetmənin normal fəaliyyəti onun maddi bazasından bilavasitə asılıdır. "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasının 9-cu maddəsi bələdiyyə orqanlarının kifayət qədər maliyyə ehtiyatlarına malik olmalarını nəzərdə tutur. Bələdiyyələrin maliyyə ehtiyatları onların konstitusiya və qanunlarla müəyyən edilmiş səlahiyyətiərinin həcminə uyğun olmalıdır. Xartiyaya və Azərbaycan qanunvericiliyinə görə yerli özünüidarəetmə orqanlarının maliyyəsinin əsas hissəsi onlar tərəfindən toplanan yerli vergi və yığımlar hesabına formalaşmalıdır. Yerli özünüidarəetmə orqanlarının maliyyə əsaslarının formalaşması zamanı dövlət ilk növbədə maliyyə cəhətdən zəif olan bələdiyyələrin müdafiəsini təşkil etməli və bu məqsədlə onların maliyyə baxımından bərabərləşdirilməsinə yönəlmiş və maliyyə ehtiyatlarının qeyri-bərabər bölüşdürülməsini aradan qaldıran tədbirlərin həyata keçirilməsini nəzərdə tutmalıdır. Q.V.Marçenkoya görə "dövlət ilk növbədə maliyyə cəhətdən zəif olan bələdiyyələrin müdafiəsini təşkil etməli və bu məqsədlə onların maliyyə baxımından bərabərləşdirilməsinə yönələn və maliyyə ehtiyatlarının qeyri-bərabər bölüşdürülməsini aradan qaldıran tədbirləri həyata keçirməlidir" **[9, s.85].**

Bundan başqa bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər Azərbaycan Respublikasının Konstitusiyası, "Bələdiyyələrin statusu haqqında", "Büdcə sistemi haqqında", "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında", "Bələdiyyələrin statusu haqqında", "Yerli (bələdiyyə) vergilər və

ödənişlər haqqında", "Yerli özünüidarəetmənin maliyyə əsasları haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə tənzimlənir.

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu bələdiyyə maliyyəsinin formalaşması və istifadəsinin prinsipləri, yerli büdcə prosesinin əsasları və bu sahələrdə bələdiyyələrin səlahiyyətləri və onların müvafiq icra hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edir. Dövlət bələdiyyələrin yerli büdcənin formalaşdırılması və icrası sahəsində səlahiyyətlərini möhkəmləndirir və bələdiyyələrin müstəqil sürətdə yerli sosial-iqtisadi və ekoloji proqramlarının hazırlanması, maliyyələşdirilməsi və həyata keçirilməsi sahəsində də müstəqilliyinin saxlanılmasını təmin edir. Yerli vergilər (bələdiyyə vergiləri) dedikdə, müvafiq qanunla müəyyən edilən, bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilər nəzərdə tutulur. Bələdiyyələr tərəfindən tətbiq edilən digər məcburi ödənişlər müvafiq qanunla müəyyən edilir. Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən edilir **[2, s.34].** Vergi qanunvericiliyinə uyğun olaraq bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, bələdiyyələrin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Yerli büdcənin tərtibi və icrası büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri əsasında və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatına uyğun olaraq həyata keçirilir.

Yerli büdcənin formalaşmasının iqtisadi əsasları

Yerli büdcə bələdiyyə büdcəsi olub dövlət büdcəsinin tərkib hissəsi deyil. Bələdiyyələrin qanunvericiliyə uyğun olaraq yerli büdcənin tənzimlənməsi prosesində dövlət büdcəsindən vəsait almaq hüququ vardır. Yerli büdcənin tərtibi və icrası prosesində büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatından istifadə olunur.

Qanunvericiliklə bələdiyyələr büdcə fəaliyyəti, onun tərtib, müzakirə və təsdiq edilməsi, icrasında tam müstəqildir və müvafiq icra strukturlarının bu kimi məsələlərdə bələdiyyələrə müdaxiləsi yolverilməzdir. Yerli büdcələrin müstəqilliyinə dövlət zəmanət verir və bu zəmanət investisiya və pul-kredit siyasəti əsasında istehsal və xidmət sferasının inkişafına şərait yaratmaq, dovlət büdcəsindən dotasiya və subvensiyaların ayrılmasına şərait yaratmaq, müəyyən kompensasiya siyasəti irəli sürmək kimi məsələləri əhatə edir.

Bələdiyyələrin öz səlahiyyətlərini həyata keçirməsinin əsas şərtlərindən biri də onun kifayət qədər maliyyə potensialına malik olmasıdır. Yerli büdcənin gəlirlər hissəsi vergilər, yığımlar, ayrı-ayrı dövlət səlahiyyətlərinin bələdiyyələrə verilməsi nəticəsidə yaranmış əlavə xərclərin qarşılığında dövlət tərəfindən ayrılmış vəsait, bələdiyyə əmlakının özəlləşdirilməsindən əldə olan vəsait, yerli lotoreyalar və reklam fəaliyyətindən əldə olunmuş vəsait, bələdiyyə mülkiyyətində olan müəssisələrin gəlirləri, dotasiya, subvensiya və qrandlar hesabına formalaşır (cədvəl 1).

Bələdiyyələr yerli əhəmiyyətli məsələlərin maliyyələşdirilməsi üçün yerli ödənişlər, habelə könüllü birdəfəlik ödənişlər barədə qərarlar qəbul edə bilərlər. Könüllü birdəfəlik ödənişlər barədə qərarlar nəticəsində əldə olunan vəsait yalnız məqsədli təyinatı üzrə istifadə olunur. Bələdiyyə qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerli büdcənin icrasına dair məlumatı statistika orqanlarına və müvafiq icra hakimiyyəti orqanına təqdim

edir. Bələdiyyə büdcələrinin formalaşmasını həyata keçirərkən öncə onun gəlir mənbəyini müəyyən edirlər. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə, müvafiq azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur **[8, s. 226].**

Cədvəl 1

Bələdiyyə büdcələrinin gəlir mənbəyi və xərcləri

Büdcə gəlirləri	*Xərclər*
Vergilərdən daxilolmalar, ondan	
Fiziki şəxslərdən torpaq vergisi	Yerli özünüidarəetmə orqanlarının saxlanılmasına, o cümlədən:
Fiziki şəxslərdən əmlak vergisi	Təhsil xərcləri
Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi	Səhiyyə xərcləri
Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi	Sosial müdafiə və sosial təminat xərcləri
Kücə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödənişlər	Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyətlə bağlı xərclər
Bələdiyyə tərəfindən xüsusi ayrılmış torpaq sahəsində stasionar və səyyar ticarət, ictimai iyaşə və digər xidmətlərə görə ödəniş	Gənclər siyasəti və turizm xərcləri
Sanatoriya, kurort rüsumu, mehmanxana rüsumu, mehmanxana xidmətləri	Mənzil kommnal və təsərrüfat xərcləri
Avtomobillərin dayanacaqları üçün ödənişlər	Yanacaq və enerji xərcləri
Yerli lisenziya yığımı	Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərcləri
Qanunla müəyyən edilmiş digər vergi və yıgımlar	Ətraf mühitin mühafizəsi xərcləri
Qeyri-vergi gəlirləri, ondan	Sənaye, tikinti və faydalı qazıntılar üzrə xərclər
Bələdiyyə mülkiyyətinə daxil olan əmlakın istifadəsindən gələn gəlirlər	Nəqliyyat və rabitə xərcləri, ondan
Bələdiyyə əmlakının və torpağının özəlləşdirilməsindən və icarəyə verilməsindən gələn gəlirlər, ondan	Avtomobil yolları və avtomobil nəqliyyat xərcləri
Bələdiyyə əmlakının və torpağının özəlləşdirilməsindən gələn gəlirlər	Digər xərclər
Bələdiyyə əmlakının və torpağının icarəyə verilməsindən gələn gəlirlər	
Fiziki və hüquqi şəxslərin maliyyə yardımları, ondan	
Fiziki şəxslərin maliyyə yardımları	
Beynəlxalq təşkilatların və fondların maliyyə yardımı və qrantlar	
Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar	
Digər gəlirlər	

2020-ci ilin statistikasına görə hal-hazırda ölkədə 1606 bələdiyyə fəaliyyət göstərir (cədvəl 2).

Cədvəl 2

İqtisadi rayonlar üzrə bələdiyyə büdcələrini gəlir və xərcləri, min manat

	Bələdiy-yələrin sayı	Gəlirlər	Əvvəlki ilə nisbətən faizlə	Xərclər	Əvvəlki ilə nisbətən faizlə
Respublika üzrə cəmi	1606	36381,8	101,1	36378,8	101,2
Bakı şəhəri	53	9849,2	101,2	9868, 3	102,5
Abşeron iqtisadi rayonu	30	3354,5	91,7	3364,4	91,2
Gəncə-Qazax iqtisadi rayonu	265	4442,5	86,2	4425,1	86,0
Şəki-Zaqatala iqtisadi rayonu	145	5180,6	108,2	5071,9	104,0
Lənkəran iqtisadi rayonu	179	1460,5	100,8	1501,2	100,0
Quba-Xaçmaz iqtisadi rayonu	127	3732,3	107,2	3756,2	108,6
Aran iqtisadi rayonu	467	5912,3	106,9	5984,9	108,6
Yuxarı Qarabağ iqtisadi rayonu	60	279,3	92,7	271,1	91,0
Dağlıq Şirvan iqtisadi rayonu	110	1319,5	117,2	1337,3	118,4
Naxçıvan Muxtar Respublikası	170	851,0	108,0	798,2	105,6

Mənbə: [4] əsasında müəlliflər tərəfindən hazırlanmışdır

Ölkə üzrə bələdiyyələrin gəlirləri 36381,8 min manat (əvvəlki ilə nisbətən 101,1faiz), xərcləri isə 36378,8 min manat (əvvəlki ilə nisbətən 101,4 faiz) olmuşdur.

Cədvəl məlumatlarından göründüyu kimi, əvvəlki ilə nisbətən Şəki-Zaqatala (108,2 faiz), Daglıq Şirvan (117,2 faiz) Quba-Xacmaz (107,2 faiz) iqtisadi rayonlarında büdcə gəlirləri artmışdır, Abşeron (91,7 faiz), Gəncə-Qazax (86,2 faiz), Yuxarı Qarabag (92,7 faiz) iqtisadi rayonlarinda büdcə gəlirləri azalmış, digər iqtisadi rayonlarda isə demək olar ki, sabit qalmışdır.

Tədqiqatlar nəticəsində məlum olur ki, 2019-cu ildə bələdiyyə büdcələrinin formalaşmasında vergilərdən daxilolmaların büdcə gəlirlərinin yekununda xüsusi çəkisi 37,6 faiz, vergı olmayan gəlirlər 58,1 faiz, digər gəlirlər isə 4,3 faiz təşkil etmişdir. Vergidən daxilolmalarda fiziki şəxslərin torpaq və əmlak vergisi üstünlük təşkil edir. Lakin statistik rəqəmləri incəliyində məlum olur ki, ölkə üzrə bu kateqoriyadan kifayət qədər az vergi daxilolmaları mövcuddur (36,6 faiz).

Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanılır. Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fiziki şəxslər torpaq vergisinin ödəyicilərıdir. Fiziki şəxslərin Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri torpaq vergisinin vergitutma obyekti sayılır.

Kənd təsərrüfatı təyinatlı torpaqlar üzrə verginin dərəcəsi 1 şərti bal üçün 0,06 manat müəyyən edilir. Kənd təsərrüfatı torpaqlarının 1 hektarının şərti balı kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə Azərbaycan Respublikasının Nazirlər

Kabinetinin "Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla şərti balların müəyyənləşdirilməsi haqqında" 29 dekabr 2000-ci il tarixli 230 №-li Qərarı ilə müəyyənləşdirilmişdir. Həmin Qərara əsasən biçənəklər, örüşlər və otlaqlar üçün torpaqlar üzrə şərti bal müvafiq kadastr rayonlarının əkin, dinc və çoxillik əkmələrin altındakı torpaqlarının I keyfiyyət qrupu üçün müəyyənləşdirilmiş şərti balların 1/10-i miqdarında qəbul edilir. Şərti ballar nəzərə alınaraq bələdiyyələr tərəfindən torpaq mülkiyyətçilərinə bildirişlər göndərilir və vergi subyektləri vergitutmaya cəlb edilir. Vergitutmada bələdiyyələrin təsir dairəsi olmadığına görə hesablanan vergilər tam olaraq yığıla bilmir. Torpaq mülkiyyətçilərinin vergidən yayınması üstünlük təşkil edir.

Məsələn, Zərdab rayonunda fiziki şəxsin mülkiyyətində II keyfiyyət qrupuna aid olan 4,0 ha əkin sahəsi vardır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 29 dekabr tarixli 230 №-li qərarı ilə təsdiq edilmiş "Kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmiş şərti balları"na əsasən Zərdab rayonuna daxil olan Aran-Şirvan kadastr qiymət rayonunun II keyfiyyət qrupu üzrə torpaqların 1 ha üçün şərti bal 75 müəyyən edilmişdir.

Bu halda fiziki şəxsin 4,0 ha torpaq sahəsinə 18,0 manat (1 ha əkin sahəsinin şərti balı 75 x 0,06 manat x 4,0 ha) torpaq vergisi hesablanır **[12, s. 99].**

Göründüyü kimi, 29 dekabr 2000-ci il tarixli qərarla müəyyən edilmiş şərti ballar bazar qiymətləri ilə uzlaşmır, yəni bugünki reallıqla bu şərti ballar çox aşağıdır və bu da vergi daxilolmalarının həcminə kifayət qədər mənfi təsir göstərir.

Əmlak vergisinin yığılmasında da bələdiyyələr problem yaşayırlar. Qeyd edək ki, fiziki şəxslərin əmlak vergisi bələdiyyə büdcələrinə daxil olur. Xüsusilə kənd rayonlarında fiziki şəxslərə məxsus əmlakların dövlət qeydiyyatına tam alınmaması onların vergiyə cəlb olunmasını mümkünsüz edir. Digər tərəfdən əmlakların vergiyə cəlb olunması üçün müəyyən edilmiş dərəcələr bazar qiymətlərindən çox aşagıdır.

Bundan əlavə bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi bələdiyyə büdcələrinə daxil olur. Burada da müəyyən problemlər qalmaqdadır. Belə ki, maliyyə azlığından bələdiyyələr istehsal və xidmət müəssisələri yarada bilmir, yaxud buna cəhd eləmirlər. Bu kateqoriyadan büdcə daxilolmaları büdcə gəlirlərinin umumi həcmində 1 faiz belə təşkil etmir. Araşdırmalar nəticəsində məlum olur ki, 2020-ci ildə bələdiyyə mülkiyyətində cəmi 120 ədəd **[4, s. 654]** istehsal və xidmət müəssisəsi olmuşdur.

Bələdiyyə büdcələrinin formalaşmasında qeyri-vergi gəlirləri üstünlük təşkil edir (təxminən büdcə gəlirlərinin yekununda xüsusi çəkisi 30-35 faiz). Bu daha bir problemin reallığını ortaya qoyur. Belə ki, bələdiyyələr formalaşarkən ölkənin ümumu torpaq fondunun 23 faizi bələdiyyə mülkiyyətinə verilmişdir. İdarəetmə səriştəsizliyi və maliyyə baxımdan zəif olması səbəbindən bələdiyyələr mülkiyyətində olan torpaqların özəlləşdirilməsinə önəm verməkdədirlər. Bu da bələdiyyə mülkiyyətində olan torpaqların azalmasına gətirib çıxarır. Hal-hazırda bələdiyyə mülkiyyətində umumi torpaq fondunun 17 faizindən az hissəsi qalmaqdadır. Dövlət fondu torpaqlarının bir hissəsinin bələdiyyə mülkiyyətinə yönəldilməsi fikirləri irəli sürülsə də, zənnimizcə, bu çıxış yolu deyil. Ölkə bələdiyyələri mənsub olduğu torpaqlardan səmərəli istifadə etmir, maliyyə azlığından bələdiyyə müəssisələri yarada bilmirlər. Büdcələrin formalaşdırılması məqsədilə torpaqlar satılır və tədricən bələdiyyə mülkiyyəti azalır. Heyvandarlığın inkişafı üçün əlverişli şəraitin olması, bələdiyyə mülkiyyətində müəyyən qədər maddi və insan resurslarının olduğunu dəyərləndirməklə bələdiyyə müəssisələrini yaratmaq mümkündür. Bələdiyyə maliyyəsini yaxşılaşdırmaq məqsədi ilə hec də torpaqları satmaq deyil, həmin ərazilərdə

bələdiyyə müəssisələri yaratmaq daha doğru çıxış yoludu. Dövlət bələdiyyələrin maliyyə təminatatını yaxşılaşdırmaq məqsədilə dotasiya və subvensiyaların miqdarını artırmalı, xarici ölkə təcrübəsindən istifadə edərək büdcələrarası tənzimlənmə mexanizminə keçidi formalaşdırmalıdır **[10, s. 42]**.

Yerli büdcələrə maliyyə yardımları

Müasir dövrdə Azərbaycanda bələdiyyə büdcə gəlirlərinin böyük hissəsini dövlət büdcəsindən bələdiyyələrin büdcələrinə edilən transfertlər təşkil edir. Məqsədsiz maliyyə yardımları – dotasiya və konpensasiyalar büdcə kəsirlərini aradan qaldırmaq məqsədi daşıyır və hər il bütün bələdiyyələrə verilir. Dünyanın inkişaf etmiş ölkələrində bələdiyyələr əsasən istehsal və xidmət sahələri yaradaraq öz büdcələrini formalaşdırır. Məsələn, Türkiyədə bələdiyyələr şirkətlər yaradaraq yolların, körpülərin, magistralların və yaşayış binalarının inşası, yaşıllıq və abadlıq işləri, parkların salınması, məişət tullantılarının yığılması və emalı, yanğından mühafizə, tibbi sanitariya, küçə və parkların təmizliyi, müxtəlif növ mühəndislik fəaliyyətləri, hotel, turizm, dəniz nəqliyyatı, su, çörək təchizatı kimi bir çox xidmətlər göstərirlər. Bu şirkətlər eyni zamanda bələdiyyə büdcələri üçün böyük gəlir mənbəyidir.

Bir sıra ölkələrin (İngiltərə, ABŞ, Belçika, İsveç və s.) büdcə sistemində yerli səviyyədə büdcənin formalaşdırılması nəzərdə tutulsa da, onların tərkibi, formalaşdırılması qaydası ölkədən-ölkəyə tarixən mövcüd olan ənənələr, qüvvədə olan qanunvericilik, yerli maliyyə üzərində dövlət nəzarətinin həyata keçirilməsi qaydası, yerli maliyyə sahəsində bələdiyyə orqanlarının səlahiyyətləri baxımından fərqlənir.

Əksər Qərbi Avropa dövlətlərində yerli büdcənin gəlirlər hissəsində vergi və qeyri-vergi gəlirlərinin ümumi çəkisinin, dövlət tərəfindən ayılan dotasiyalara nisbətdə artması və nəticədə bələdiyyələrin maliyyə müstəqilliyinin həcminin genişlənməsi müşahidə olunur, məsələn, Almaniyada yerli büdcənin gəlirlər hissəsində vergilərin ümumi çəkisi 70%, İngiltərədə 65%, Fransada 47 % təşkil edir. Bu, Almaniya, ABŞ və İngiltərədə daha kəskin surətdə özünü göstərir. Lakin vergilər yerli büdcənin gəlirləri sırasında əhəmiyyətli yer tutsalar da, yeganə gəlir mənbəyi deyildir. Bəzi ölkələrdə yerli maliyyənin tərkibində dövlət tərəfindən transfer edilmiş dotasiya və subsidiyaların da əhəmiyyəti az deyildir. Belə ki, Fransada yerli büdcənin gəlirlər hissəsinin 40%-i bu mənbələr hesabına yaranır, ABŞ-da subsidiyaların 200-ə yaxın növü fərqləndirilir, İngiltərədə onların sayı 50-yə çatır **[12]**.

Azərbaycanda bələdiyyələrin maliyyə təminatının yaxşılaşdırılması məqsədilə büdcələrarası transfertlər edilir. Belə ki, 2000-ci ildən etibarən hər il dövlət büdcəsindən bələdiyyə büdcələrinə maliyyə vəziyyətinin yaxşılaşdırılması məqsədilə dotasiyalar köçürülməkdədir (şəkil 1).

Qanunvericilikdə bələdiyələr üçün xüsusi vergilər və ödənişlər müəyyən edilsə də həmin gəlir mənbələri yerli özünüidarəetmə qurumlarının funksiyalarını reallaşdırmaq üçün kifayət etmir. Belə ki, bələdiyyə büdcələri onların normal fəaliyət göstərməsinə inkan vermir. Cədvəldən göründüyü kimi, 2000-ci ildən başlayaraq, dövlət büdcəsindən yerli büdcələrə transfertlərlər edilir.

Transfertlərin maksimum həddi 2016-2018-ci illərdə 5,2 milyon manat, minimum həddi isə 2003-cü ildə 1,0 milyon manat olmuşdur. Bələdiyyələr yaradılandan bəri (2000-2021) dövlət büdcəsindən 64,1 milyon manat həcmində maliyyə yardımı ayırmışdır. 2019-cu ildə dotasiyaların həcminin dövlət büdcəsinin xərclərində payı 0,08%, 2020 və 2021-cü ildə isə 0,017 % həddinə düşmüşdür. Demək, dotasiya ayrılmasının mövcüd mexanizmində bir sıra təkmilləşdirilməsi vacib olan məsələlər mövcüddür.



Şəkil 1. 2000-2021-ci illər ərzində dövlət büdcələrindən yerli büdcələri edilən dotasiyalar
Qeyd: [3] əsasında müəlliflər tərəfindən hazırlanmışdır

İnkişaf etmiş ölkələrdə yerli büdcələrin icmal büdcələrdə payı isə Almaniyada 30,1%, Kanadada 18,5%, Amerika Birləşmiş Ştatlarında 31,6%, Norveçdə 31,7%, Niderlandda 23,6%, Böyük Britaniyada 22,0%, Danimarkada 44,0% təşkil etmişdir. Qərbi Avropa ölkələrində bələdiyyələrin ümumi xərclərinin dövlət məcmu xərclərində xüsusi çəkisi orta hesabla 22-25% təşkil edir. Hətta Norveçdə 2000-ci ildə bu göstərici ən yüksək həddə-60%-ə çatmışdır. Bununla yanaşı kəmiyyət indiqatoru kimi yerli özünüidarə xərclərinin dövlətin məcmu xərclərinin Ümumdaxili Məhsulda xüsusi çəkisi göstəricisindən istifadə olunur. Xorvatiyada bu göstərici 6%, Çexiyada 9%, Estoniyada 12%, Litvada 7%, Latviyada 8%, Rumıniyada 5,5%, Slovakiyada 4% təşkil edir **[13].**

Subvensiya – dövlət büdcəsindən məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün yerli büdcələrə verilən maliyyə vəsaitidir və bələdiyyə müəyyən edilmiş müddətdə həmin məqsəd üçün köçürülən vəsaiti istifadə etmədikdə həmin vəsait dövlət büdcəsinə geri qayıdır. Uzun illər dövlət büdcəsindən yerli orqanlara subvensiya ayrılsa belə bələdiyyələr məqsədli bir proqram təqdim etmədiyinə görə həmin vəsait geri qayıtmışdır. 2019-cu ildən etibarən bələdiyyələr onlara ayrılan subvensiyadan faydalanmağa başlamışdır (şəkil 2).



Şəkil 2. Yerli büdcələrə verilən subvensiyalar
Qeyd: [3] əsasında müəllif tərəfindən hazırlanmışdır

Nəticə

Bələdiyyələr yaranmasından 20 il keçməsinə baxmayaraq, onlar bu gün də çoxsaylı problemlərlə qarşılaşırlar. İstisnalar olmaqla, bütövlükdə respublikada bələdiyyə orqanlarının fəaliyyətində nəzərəçarpacaq dərəcədə canlanma hiss olunmur. Bələdiyyə institutunun fəaliyyətinə mane olan başlıca səbəb verilən səlahiyyətlərin azlığı olmayıb, səlahiyyətlərin müstəsnalığının və tamlığının təmin olunmaması, paralelliklərin üstünlük təşkil etməsidir. Qanunvericilikdə eyni səlahiyyət bələdiyyələrlə yanaşı başqa dövlət qurumuna da həvalə olunur. Bələdiyyələrlə yerli icra hakimiyyətləri arasında səlahiyyət bölgüsünün qeyri-dəqiqliyi, habelə bələdiyyələrin səlahiyyətlərinin tam və müstəsna olmaması tez-tez münaqişəli vəziyyətlərin yaranmasına gətirib çıxarmaqla bərabər daha güvənli bir büdcənin formalaşmasına da mane olur. Transfertlərin həcminin azlığı, bələdiyyələrin daha effektiv maliyyə mənbələrinin olmaması, mövcud maliyyə mənbələrindən daha səmərəli istifadə etmək üçün qiymətqoyma və vergitutma mexanizminin təkmil olmaması, bələdiyyələrin kredit bazarına çıxışının təmin olunmaması, eyni zamanda dünya təcrübəsində büdcələrarası transfertlərin ən geniş yayılmış növlərindən biri olan paylı vergi sisteminin Azərbaycanda tətbiq olunmamasıdır.

Sadalanan problemləri nəzərə alaraq, bu problemlərdən çıxış yolları kimi aşagıdakıları təklif etmək olar:

1. Yerli özünüidarə orqanlarına müstəsna səlahiyyətlər verilməli, səlahiyyətlərin həyata keçirilməsi məqsədilə onları maliyyə mənbələri ilə təmin etməli, xarici ölkə təcrübəsindən faydalanaraq paylı vergi sisteminin tətbiqi imkanları nəzərdən keçirilməlidir;
2. Mövcud vergi mənbələrindən səmərəli istifadə etmək üçün bələdiyyələrin vergitutma mexanizmləri təkmilləşdirilməli, əmlakın və torpağın qiymətləndirilməsi bazar qiymətləri ilə üzlaşdırılmalı, bələdiyyələrin vergiyığma zamanı təsiretmə mexanizmləri işlənilməli, "şəffaf büdcə" sistemi yaradılmalı, bələdiyyələrə kreditə çıxış imkanları genişləndirilməlidir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: 2011.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı: 2010.
3. "Azərbaycan Respublikasının Dövlət büdcəsi", 2000-2021-ci illər, http://www.e-qanun.az/framework
4. Azərbaycanın statistik göstəriciləri 2020, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi: 9 №-li kiçik müəssisə, 772 s.
5. Avropanın Yerli Özünüidarəetmə haqqında Xartiyası, Strasburq: 15 oktyabr 1985-ci il
6. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanun, http://www.e-qanun.az/framework
7. Hüseynzadə H.S., Azərbaycan Respublikasında Bələdiyyələrin hüquqi əsasları", Bakı: "NAKSUANA" 2005, 568 səh.
8. Qurbanov H.S., Y.N.Balakişiyeva, S.Q.Haciyeva, "Azərbaycanda bələdiyyə hüququ". Bakı: "Təknur", 2011, 360 səh.
9. Марченко Г.В. Государственная власть и местное самоуправление // Россия и современный мир. М.,1995. №4, с.84-86.
10. Микаилова, Н.Я. Роль муниципалитетов в экономическом развитии Азербайджана // Международный технико-экономический журнал, Москва: Спектр, 2013, №1, с. 50-57
11. Mikayılova N.Y., "Bələdiyyə idarəçiliyi və maliyyəsi", Dərs vəsaiti, Bakı: "Müəllim" nəşriyyatı, 2021, səh. 240
12. Tokvil Alexis. Amerikada demokrasi, Türk Siyasi İlimler Derneği Yaymları, İstanbul, 2016
13. wwwfpcenter/ru

Нурангиз Микаилова
Айсель Меммедли

ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ БЮДЖЕТОВ МУНИЦИПАЛЬНЫХ ОБРАЗОВАНИЙ

Резюме

В статье исследованы сущность муниципального управления, нынешнее состояние бюджетов муниципальных образований Азербайджан и проблемы их формирования, проведен анализ и определены пути выхода из указанных проблем. Статистические показатели приведены в форме таблиц и диаграмм, проведены их анализ и сравнение. Согласно Европейской Хартии и законодательству Азербайджана, муниципалитеты свободны в составлении и расходовании своих бюджетов.

В статье приведены ссылки на местную и зарубежную литературу, далее приведены обобщенные выводы и предложения, которые смогут подтолкнуть формирование бюджетов муниципальных образований.

Цель: Исследование проблемы формирования муниципальных бюджетов и определение путей выхода из этих проблем.

Методология: В исследовательской работе использован экономико-статистический метод и метод анализа.

Результаты исследования: Установлено, что в формировании бюджетов все еще существует множество проблем, хотя уже прошло более 20 лет с формирования института муниципалитета: отсутствуют достаточно финансовых источников, полная инвентаризация находящегося в собственности муниципалитета имущества идет медленно, ставки налогов на имущество и землю не сходятся с рыночными ценами, муниципалитеты не обладают механизмом воздействия в сборе налогов, уровень бюджетных трансферов низок в сравнении с развитыми странами и т.д.

Ключевые слова: *бюджеты муниципальных образований, доходы и расходы, проблемы, налог*

Nurangiz Mikayılova
Aysel Mammadli

CHALLENGES OF MUNICIPAL BUDGETING

Summary

The paper reviews and analyses the essence of municipal governance, the current state of municipal budgets in Azerbaijan and the challenges of their budgeting, and identifies solutions to these challenges. Statistical indicators were presented in the form of tables and diagrams and they were analyzed and compared. According to the European Charter and the legislation of Azerbaijan, municipalities are completely independent in compiling and spending their budgets. The article provides references to the domestic and foreign literature, and concludes with a summary of the results and suggestions that can stimulate municipal budgeting.

Purpose: Investigate the problems of formation of municipal budgets and identify ways out of these problems

Methodology: The study used economic-statistical and analytical methods.

The results of the study: It was determined that despite the fact that 20 years have passed since the formation of the municipal institution, there are still many problems in the formation of the budget: there are not enough sources of finance, full inventarization of municipal property is going slow, rates of property and land taxes do not match market prices, municipalities do not have mechanisms to influence tax collection, budgetary transfers are lower compared to developed countries, etc.

Keywords: *municipal budgets, revenues and expenditures, challenges, taxes*

UOT 004:372

Niyar Umarova
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası, t.ü.f.d.
niyar61@list.ru

TURİZMİN İNKİŞAFINDA İKT-nin ROLU

Məqalədə İKT avadanlıqları və proqramlarının turizmin inkişafında rolu, informasiya emalı texnologiyalarının turizm sahəsində tətbiqinin üstünlükləri və onun normativ yanaşma metodu ilə əlaqələndirilməsi açıqlanır.

Azərbaycan Respublikasının turizm sahəsində İKT vasitələrindən istifadənin statistik hesablamalardakı rolundan, həmin sahədə tətbiqinə yeni metodoloji yanaşmadan və tətbiq olunan sistemli tədbirlərdən bəhs edilir.

Məqsəd: turizm və onun inkişafında İKT vasitələrinin, virtual proqramlarının tətbiqinin üstünlükləri üzrə metodoloji yanaşma və onun elmi cəhətdə əsaslandırılmasından ibarətdir.

Metodologiya: məqalədə müvafiq əsaslandırma və məntiqi-sistemli təhlil metodundan istifadə edilmişdir.

Tədqiqatın nəticələri: Müasir informasiya cəmiyyətinin bütün sahələrində tətbiqinə ehtiyac duyulan İKT vasitələrinin, proqramlarının, həmçinin Azərbaycan turizmində informasiya emalı texnologiyalarının tətbiqinin verdiyi töhfənin müəyyən edilməsinin vacibliyi qeyd edilmişdir.

Açar sözlər: *turizm, İKT, internet, sistemli tədbirlər*

Giriş

Müasir cəmiyyətin virtual əlaqə vasitələrindən hesab edilən şəbəkə sistemlərinin, İKT avadanlıqlarının kütləvi şəkildə tətbiqi informasiyanın sərhədsiz yayılmasında əsas və başlıca amildir. Cəmiyyətdə qlobal sosial-texniki inqilab kimi qeyd olunan İKT vasitələri və onların müvafiq proqramları ictimai həyatın informasiyalaşdırılması prosesində əsas rol oynayan vasitələrdən biridir, çünki, texnoloji avadanlıqlardan istifadə paralel və çevik şəkildə geniş əhatəli iş rejiminə imkan yaradır.

Daima yeniləşən İKT sistemləri, avadanlıqları, proqramları hazırda daha aktiv və fəal sahələrdən hesab edilən turizm sektoru üçün əvəzedilməz vasitədir. Çünki, bu sistemdən istifadə edərək məkanı dəyişmədən dünya xəritəsi və ora daxil olan ölkələr haqqında geniş məlumat toplamaq mümkündür. Ona görə də hazırda elektron turizm geniş sahəli virtual cografi imkanlarina, təbliğat vasitələrinə, reklam çarxlarına görə daha çox müraciət olunan sahələrdən hesab edilir. Yəni, həyatımızın bütün sahələrinə nüfuz edən İKT turizm sahəsində də geniş tətbiq olunaraq, çox önəmli rola malikdir. İnternet üzərindən turizm məkanlarına aid yerlərin seçilməsi və sifarişi, avia, dəmiryol biletlərinin bronlaşdırılması, otellərdə yerlərin sifarişi və s. elektron proqramların köməyilə həyata keçirilir.

Turizm "heçdən varetmənin" bir mexanizmi olduğuna görə ölkəyə gəlir gətirən ən əlverişli sahədir. (Turist - istirahət, gəzinti, tanışlıq, iş, idman və s. bir çox məqsədlər üçün 24 saatdan 12 ayadək müddətdə səfər edən şəxslərdir). Lakin turizmin inkişafında reklam çox böyük rol oynayır. Belə ki, ölkələrin malik olduqları qeriadi və maraq yaradan məkanları dünya səviyyəsində tanıtdırmaq lazımdır və bunu üçün də ən yaxın köməkçi vasitəsi İKT-dir. Virtual əlaqələrdən istifadə digər sahələrdə olduğu kimi turizm sahəsində də çox böyük imkanlar yaradır, ona görə də inkişaf etmiş ölkələrdə turizm sahəsi üçün elektron sistem əvəzedilməz vasitə hesab edilir. Hazırda dünyada turizm sahəsi sürətlə

inkişaf edən iqtisadi sektor kimi qeyd olunur, ona görə də turistlərin cəlb edilməsi üçün daxili turizm ehtiyatlarını müəyyənləşdirilərək, səmərəli mexanizmlər işlənib hazırlanmalıdır [1,11]. Turizmin inkişafı eyni zamanda işsizlik kimi ağır problemin öhdəsindən gəlməkdə də köməkçi vasitədir.

Turizm müasir cəmiyyətin ən aktiv və aktual müraciət olunanan sahələrindən biri olduğuna görə hazırda kütləvi informasiya vasitələrində bu sahəyə aid bəzi terminlərə daha çox rast gəlirik [7, s.6-10], məsələn:

- Beynəlxalq turizm,
- Milli turizm,
- Gəlmə turizmi,
- Getmə turizmi,
- Sağlamlıq turizmi və s.

Məqsəddən asılı olaraq turizm səfərləri müxtəlif istiqamətli ola bilər, məsələn:


- Beynəlxalq əhəmiyyətli xidməti ezamiyyətlər
- Elmi-tətbiqi konfranslarda, müşahidələrdə iştirak
- İşgüzar biznes və reklam məqsədli
- Məqsədli işgüzar turizm xidmətləri
- Dini ziyarətlər
- Bazarlıq məqsədli
- Təhsil və peşəkarlıq hazırlığı
- İstirahət yönümlü
- Əyləncə məqsədli
- Mədəni tədbirlər üçün
- İdman tədbirlərində iştirak etmək üçün
- İdman tədbirlərində tamaşaçı iştirakçısı kimi
- Qeyri-peşəkar idmanla məşğul olmaq üçün
- Bal ayı səyahəti
- Konsertlər, seminarlar, yarmarka və sərgilərdə iştirak
- Sağlamlıq və müalicə turizmi və s.

Turizmin Azərbaycanda inkişafı

Azərbaycan Respublikası yerləşdiyi əraziyə görə çox əlverişli və zəngin fauna və floraya malikdir. Ölkəmiz gənc ölkə olmasına baxmayaraq digər sahələrdə olduğu kimi turizm sahəsinin inkişafı istiqaməti üzrə də bir çox ölkələrdən irəlidədir. (Azərbaycan Respublikasında turizm siyasətinin təşkili və idarə olunması 2004-cü ildən başlanan regional inkişaf siyasətinin tərkib hissəsi olmaqla, uğurlu şəkildə təmin edilir).

Ölkəmizdə turizmin növlərinə görə (üzrə) müxtəlif potensiallar var və onların reallaşdırılması vacibdir, məsələn (*Şəkil 1*):

- Mədəni turizm;
- Sağlamlıq turizmi;
- Dağ və qış turizmi;
- İdman turizmi;



Şəkil 1. Ölkəmizdə turizmin növləri üzrə müxtəlif potensial istiqamətlər

- İşgüzar turizm;
- Çimərlik turizmi;
- Ekoloji turizm;
- Ov turizmi və s.

Azərbaycan Respublikası böyük turizm potensialına, müxtəlif iqlim qurşağına, maraqlı və zəngin təbiətə malikdir. Vətənimizin olduqca əlverişli və biri-birindən fərqlənən təbii-iqlim xüsusiyyətlərinə malik olması bura turist axınlarının sayını günü-gündən artırır. Bu potensiallardan səmərəli istifadə üçün xüsusi layihələr hazırlanaraq, uğurlu şəkildə tətbiq olunur.

Xarici turistlərin ölkəmizə maraqlarını artırmaq üçün bir çox tədbirlər görülür. Məsələn, müxtəlif veb saytlarda respublikamızın turizm məkanları haqqında məlumatların yerləşdirilməsi bu sahəyə aid daha çox informasiya əldə etməyə imkan yaradaraq, həmin məkanlara maraqları daha da artırır. Maraqlı turizm potensialının tərkib hissəsi kimi bizim ölkəyə xas olan əlverişli məkanlara, qeyriadi mənzərələrə, qoruqlara və meşələrə aid olan istirahət güşələrinə aşağıda adları qeyd olunan obyektləri misal [7, s. 11-16, 12, 19] göstərmək olar:

- Xınalıq Dövlət Tarix-Memarlıq və Etnoqrafiya qoruğu;
- Qobustanın qayaüstü təsvirləri və palçıq vulkanları;
- Qusar "Şahdağ" Qış-Yay Turizm istirahət kompleksi;
- Xaçmaz rayonunun "Nabran" kurort turizmi;
- Quba rayonunun əsrarəngiz görünüşü, "Cənnət bağı", "Şahbulaq" və s. istirahət mərkəzləri;
- Lənkəran böləsinin nadir qoruqları;
- Qaz, Zaqatala, Balakən ərazisində yerləşən meşəliklər, qoruqlar, şəlalələr, Balakən-Katex və İlisu dağ şəlalələri;
- İsmayıllı meşələri və Lahıc qəsəbəsi istiqmətində dağların füsunkar görünüşü;
- Şəki Xan sarayının deyri-adi incəlikləri, Alban kilsəsi, Marxal istirahət mərkəzi;
- Qəbələ rayonunun füsunkar mənzərəsi, "Semerana", "Duyma", "Qəbələn" istirahət və əyləncə mərkəzləri;
- "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət kompleksi;
- Mingəçevir şəhərində "Kür" çayı üzərində kürəkçəkmə idmanı;
- Naxçıvan ərazisində yerləşən əsrarəngsiz mənzərələr, təbii müzeylər, müalicəvi mərkəzlər;
- *Zəngin tarixi-mədəni irsə, əlverişli təbii-coğrafi şəraitə malik olan* Dağlıq Qarabağ zonasının müxtəlif turizm məkanları;
- Kəlbəcər və Laçın rayonlarının qədim abidələri, səfalı güşələri, dağlıq əraziləri;
- "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və s. adlandırılan Şuşa şəhərinin əlverişli mühiti və s.

Eyni zamanda bir çox qədim abidələrinə, dadlı-milli mətbəximizə, ecazkar təbiətli mənzərələrinə görə də turistlərdə ölkəmizə qarşı xüsusi maraq yaradır. Bütün bunlar isə turizm üçün böyük potensial deməkdir və hazırda bu sahə ölkə üçün prioritet hesab edilir. Neft sənayesindən sonra İKT sahəsi kimi, turizm sahəsidə tədricən gəlir gətirən sahələrə çevrilir. Ona görə də, turizm sahəsini inkişaf etdirmək üçün xüsusi tədbirlər görülür. Məsələn, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi Azərbaycan Respublikası Prezidentinin 20.04.2018-ci il tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən yaradılıb. 21.09.2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi dövlət qoruqlarının, tarixi və mədəniyyət abidələrinin qorunması

sahəsində turizm sahəsinin tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır [2, 12]. Azərbaycanda Dövlət Turizm Agentliyinin tabeliyində - Qoruqları İdarəetmə Mərkəzinin və Turizm İnformasiya Mərkəzinin yaradılmasının bu sahənin inkişafında xüsusi rolu var.

Turizm sahəsini genişləndirmək və daha çox turistləri ölkəyə cəlb etmək üçün agentliklərdə təbliğat məqsədilə öz fəaliyyətlərini müxtəlif istiqamətlər üzrə qururlar, məsələn [2, 5,19] (*Şəkil 2*):

- turizmin inkişaf konsepsiyalarının hazırlanması;
- əsas turizm bazarlarının müəyyənləşdirilməsi;
- regionlara turistlərin cəlb edilməsi üzrə tədbirlərin planlaşdırılması;
- turizm təhsilinin inkişaf etdirilməsi;
- dövlət-özəl biznes əməkdaşlığının genişləndirilməsi;
- turizmdə İKT-nin imkanlarından və məxsusi proqramlarından istifadə;
- turizm nümayəndəliklərinin yaradılması və s.



Şəkil 2. Turizm agentliklərlərinin fəaliyyət istiqamətləri

Onu da qeyd edək, ki, ölkədəki qlobal turizm sektoruna aid olan turizm mərkəzlərinin (turizm agentlikləri, firmaları və s.) əksəriyyəti Bakı şəhərində yerləşir, təqribən 75 % [18].

Ümumiyyətlə istənilən ölkə turizminə maraq yaratmaq üçün müxtəlif proqramlardan, reklamlardan, saytlardan, vasitələrdən və s. istifadə olunur, məsələn (*Şəkil 3*):

- Ölkəyə maraq yaradan yüksək səviyyəli dizayna əsaslanan veb səhifələrin təşkili;
- Turistlərin ölkəyə qəbul edilməsinin düzgün və dolğun şəkildə təşkili;
- Turistlərin yerləşməsində dəqiqlik və diqqətlilik;
- Maraqlı gəzintinin təşkili;
- Düzgün istirahətin təşkili və s.



Şəkil 3. Turistlərin ölkəyə marağını yaradan və artıran istiqamətlər


Ölkəmizin milli və digər bayramlarını (Novruz bayramı, Nar bayramı) və füsunkar təbiətini ümumdünya şəbəkəsində tanıtmaq üçün müxtəlif saytlar hazırlanmışdır, məsələn:

1. www.azerbaijan-info.jimdo.com

2. http://az.baku-art.com/az/
3. www.az.baku-art.com
4. www.culture.azerbaijan.az
5. *https://en.wikipedia.org ›*
6. www.tourism.az
7. www.azerifolk.com və s.

Burada təşkilati və cəlbedici metodlar kimi ölkədəki turizm məkanlarına aid reklam çarxlarının internet saytlarında, sosial şəbəkələrdə aktiv şəkildə paylaşılması çox böyük rol oynayır. Azərbaycan turizminin dünyada tanınması üçün İnternetin virtual məkanı əvəzedilməz vasitədir.

Azərbaycanda sağlamlıq və ya müalicə turizm məkanlarına da xüsusi diqqətlə yanaşılır. Belə məkanlara misal olaraq, Naftalan nefti, duz mədənləri, palçıq vulkanları (qeyd edək ki, dünyadakı ən böyük palçıq vulkanı Torağay Azərbaycanda yerləşir), bulaqlar, mineral sular, metan, kükürdlü və oksigenli sular, mineral palçıqlar, göllər, çimərliklər və s. daxildir (Şəkil 4):



Duz müalicə mədənləri *Naftalan nefti* *Palçıq vulkanları*

Şəkil 4. Azərbaycanın sağlamlıq-müalicə məkanları

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda turizmin inkişafı üzrə sistemli tədbirlər işlənib hazırlanaraq, aktiv sürətdə həyata keçirilir, ona görə də hazırda Azərbaycan turizmi dünyada sürətlə inkişaf ölkələr sırasında irəliləyir. Bu sahədə uğurlar, nailiyyətlər əldə etmək üçün "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 01.09.2016-cı il tarixli 2295 nömrəli Sərəncamına əsasən müvafiq dövlət qurumlarına bir sıra tapşırıqlar verilmişdir.

Azərbaycan Respublikası 2001-ci ildən etibarən BMT-nin Dünya Turizm Təşkilatının Seulda keçirilən 14-cü Baş Assambleyasında təşkilata üzv kimi qəbul olunmuşdur. Ölkə prezidentinin 01.09.2016-ci ildə imzaladığı Sərəncama əsasən hər il 27 sentyabr respublikamızda "Turizm işçiləri günü" kimi qeyd olunur (27 sentyabr Dünya Turizm Günüdür).

2011-ci il Azərbaycan Respublikasi Prezidentinin 15 fevral 2011-ci il №1320 sərəncamı ilə "Turizm ili" elan edilmişdir. Burada əsas məqsəd turizm sahəsi üzrə xidmətlərin keyfiyyətini yaxşılaşdırılmaq, regionlarda turizm bölgələrini aktivləşdirmək və inkişaf etdirmək, peşəkar mütəxəssislər hazirlamaq, turizmin inkişafi üçün lazımi addımlar atmaq, dünya turistlərini ölkəyə cəlb etməkdir.

Turizmin inkişafı üçün ölkəmizdə qəbul edılən layihələrə, qərarlara, sərəncamlara misal olaraq, gösrətə bilərik [2; 7, s. 24-29] məsələn:

- Heydər Əliyev tərəfindən 1999-cu ildə qəbul edilmiş Fərmana əsasən "Turizm haqqında" Qanunu;

- Ulu öndər tərəfindən 27.08.2002-ci il tarixli Sərəncamı ilə qəbul edilmiş Azərbaycanda 2002-2005-ci illər üçün "Turizmin İnkişaf Proqramı və Proqrama dair Tədbirlər Planı";

- Prezident İlham Əliyev tərəfindən 06.04.2010-cu ildə imzalanmış "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı";

- "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" isə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətləri üzrə nəzərdə tutulmuş xüsusi layihələrdən biridir;

- 20.04.2018-ci ildə Prezidentimiz "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ının imzalaması və s.

Prezidentimizin müvafiq Fərmanının tələbinə uyğun "Turizm və rekreasiya zonalarının nümunəvi Əsasnaməsi" hazırlanmışdır. Destinasiya Menecmenti Təşkilatları isə əsasən turizm potensialının araşdırılmasına xidmət edəcək. Həmçinin Azərbaycanda Turistlərə Yardım Mərkəzi və onun tərkibində turizm polisinin yaradılması da nəzərdə tutulur.

27.12.2022-ci il tarixində Milli Məclisin plenar iclasında "Turizm haqqında" yeni qanun layihəsi üçüncü oxunuşda təsdiqlənib. "Turizm haqqında" qanunun müddəaları ilə bu sahənin müxtəlif bölmələrində çalışan şəxslərin məlumatlandırılması üçün 12.01.2022 və 13.01.2022-cü il tarixlərində onlayn görüşlər keçirilmişdir.

2025-ci ildən sonrakı dövr üçün Azərbaycan Respublikasını dünya üzrə turistlərin ən çox üstünlük verdiyi 20 turizm məkanından birinə çevirmək hədəf baxışı müəyyən edilmişdir [19]. Burada sektorun turizm xidmətləri üzrə keyfiyyətinin yüksəldilməsi üçün müxtəlif məqsədyönlü planlar, proqramlar və s. qəbul edilmişdir [3], məsələn:

- turizm sektorunun inkişafının dəstəklənməsi;

- beynəlxalq və yerli bazarlarda yüksəkkeyfiyyətli və rəqabətə davamlı turizm xidmətlərinin təmin edilməsi;

- milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması;

- müasir ideya və innovasiyalara əsaslanan yeni investisiya layihələrinin cəlb edilməsi;

- turizmin inkişafı ilə əlaqədar aidiyyəti orqanların qarşılıqlı koordinasiyası kimi tədbirlər və s.

Azərbaycan Respublikasında bir neçə iri miqyaslı beynəlxalq tədbirlərin keçirilməsi də ölkəmizi Avropa miqyasında tanıtdırır. Məsələn:

- 2011-ci ildə Avroviziya Mahnı Müsabiqəsində müsabiqənin qalibi olan Azərbaycan Respublikasının 2012-ci ildə ev sahibliyi etməsi;

- 12.28.2015-ci il iyun tarixlərində Bakıda təşkil olunan I Avropa oyunlarının Bakıda olması və dörd il müddətində davam etməsi;

- 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi;

- "Baku Expo Center" Sərgi və Konfrans Mərkəzində beynəlxalq əhəmiyyəyli sərgilərin, konfransların, işgüzar tədbirlərin keçirilməsi;

- Qəbələ Beynəlxalq Musiqi Festivalının hər il dünya səviyyəsində təşkili və s.

Ölkə turizminin dünyada tanınmasında atılan bu kimi addımlar çox mühüm rola malikdir.

Azərbaycannın turizm sahəsini daha da inişaf etdirmək üçün ölkə xaricində də bir çox əlverişli addımlar atılır. Məsələn, 2018-ci ildə Moskva (Rusiya), Dubay (BƏƏ), Ər-riyad (Səudiyyə Ərəbistanı), Mumbay (Hindistan), Pekin (Çin), Frankfurt (Almaniya) şəhərlərində daimi turizm nümayəndəlikləri fəaliyyətə başlamışdır.

Ümumdünya Səyahət və Turizm Şurasının hesabatına əsasən Azərbaycan 2010-2019-cı illərdə turizmin ən sürətlə inkişaf etdiyi ölkələr arasına daxil olmuşdur [18].

Turizmin inkişafında innovativ texnologiyalar

Qeyd etdiyimiz kimi, İKT sistemlərinin tətbiqilə informasiyanın hökmran rol oynadığı müasir informasiya cəmiyyətində intenet turizm sahəsinin inkişafı və tanınması üçün əlverişli mühiti yaradır, belə ki, qloballaşan dünyada şəbəkə əlaqələrilə hər hansı ölkə haqqında məlumatı ani vaxt müddətində əldə etmək mümkündür. Yəni, turizm şirkətlərində iş sisteminin avtomatlaşdırılması, innovativ texnologiyalardan istifadəyə keçid, idarəetmədə İKT vasitələrinin tətbiqi, əlverişli texnologiyalardan və proqramlardan istifadə hər hansı turizm şirkətinin dünyada tanınması üçün ən vacib amildir. Turizm sahəsində istifadə olunan proqramlar turagentlərin, turoperatorların fəaliyyətinə görə müxtəlif istiqamətlidir. İnternet üzərindən aktiv olaraq tanınmaq üçün ilkin olaraq lazımi tələbata keyfiyyətli cavab verə bilən saytı hazırlamaq lazımdır. Saytın hazırlanması mərhələsində isə dizaynerlər, proqramçılar, menecerlər və s. iştirak edirlər.

Turizmin sahəsinin dünya ilə virtual əlaqəsini yaratmaq üçün müxtəlif turoperator proqramlarından istifadə olunur (bu proqramlardan həmçinin turizmin inkişafı, firmanın keyfiyyətli və etibarlı adı qazanması, şirkət işlərinin avtomatlaşdırılması və s. yönümündə istifadə olunur) Bu proqram paketlərinə [7,səh.29-32 10, səh. 187-199] - MASTER TUR, CAMO-TYP, TURWIN MULTIPRO AMADEUS, GALILEO, SABRE, WORLDSPAN və s. misal göstərmək olar.

Məsafədən asılı olmadan elektron iş sisteminin tətbiqini həyata keçirən proqramların özünə xas xidmət və tətbiq sahələri var. Məsələn, proqramlardan bəziləri sənədlərin idarəetmə sistemlərinin hazırlanmasında (Word, Excel, Power Point, Outlook, Access və s.), digərləri qlobal bronlaşdırma sistemlərində (AMADEUS, GALILEO, SABRE, WORLDSPAN və s.) və s. istifadə olunur.

İstifadə olunacaq proqramların seçimində bəzi nüansları (tələblərin dünya səviyyəsində necə ödənməsinin mümkünlük dərəcəsi, lazımi standartlara uyğun qanunlar çərçivəsində olması və s.) nəzərə almaq məsləhətdir, məsələn:

- Proqramın özünü necə doğrultması;
- Standart interfeysə malik olması;
- Proqramdan istifadənin sadəliyi, münasibliyi;
- Xarici və daxili fəaliyyətin və ya əlaqələrinin yaradılması və təşkili;
- Proqramların səmərəlilik, çeviklik, şəffaflıq dərəcəsinin təmin edilməsi faizi və sistemdə məhsuldarlığının təmin olunması, şəbəkə üzərindən müştəri-server əlaqə aktivliyinin təmini;
- Sistemin təhlükəsizlik təmini və icazəsiz müdaxilənin, kiberhücumların təsirinin neytrallaşdırması;
- Məlumatların ümumdünya şəbəkəsinə qoşulmasının yüksək səviyyədə təmini və ya yeniləşən İKT sisteminin tələbatına cavab verəbilmə dərəcəsi və s.

Turizmin işini asanlaşdıran virtual bronlaşdırma proqramlarılə agentliklərə məxsus olan müxtəlif paketlərin şəbəkədə yerləşdirilməsi, istifadəçilərin məlumatlandırılması və həmçinin onlayn (online) rejimindən məsafəli istifadəyə imkanlar yaradır. Məsələn, *"Hotelspro.com"* və *"Booking.com"* saytından istifadə etməklə otellərin rezervasiyası, *"tourinfo.az"* saytı ilə əvvəlcədən rezervasiya etmək, bronlaşdrma turpaketləri almaq, ölkə, region, şəhər, yer, otel, bilet və s. haqqında məlumatları əldə etmək, *"Airbnb.com"* saytından istifadə etməklə qalmaq üçün ucuz qiymətə otelləri, evləri, villaları bron etmək və s. mümkündür.

Turizm sahəsində tətbiq edilən virtual proqramlar

70-ci illərdə ABŞ turfimaları aviakompaniyaların avtomatlaşdırılmış sistemlərinə qoşulmağa başladılar. Aviareyslər haqqında informasiyanın əldə olunması və istifadəsi üçün "United Airlines" aviaşirkətində avtomatlaşdırılmış sistem kimi "APPOLLO", "American Airlines" aviaşirkətində "SABRE" və s. ilk sistem olmuşdur.

"Summer-tour.com" turoperatoru daha çox hava nəqliyyatı bazarında yaxşı tanınıb və AZAL Azərbaycan milli aviaşirkəti, Buta Airways aviaşirkəti və Silk Way holdinqin Rusiyadakı eksklüziv nümayəndəsidir (bunlara daxildir: Yük aviaşirkəti; Azərbaycanda və Türkiyədə DMC (ev sahibi); Azərbaycanda otellər və s.).

Hazırda turagentlərin istifadə etdiyi virtual proqramların funksiyaları ilə ümumi şəkildə tanış olaq. Məsələn:

"AMADEUS" – proqramı dünyanın turizm sahəsi üzrə ən böyük sistemlərinə xidmət etmək qabiliyyətinə malikdir [21]. **Proqram əsasən** avia uçuşların, mehmanxana, avtomabil, dəmiryol daşınmaların bronlaşdırılması sistemidir və yüz minlərlə turizm agentliyinə aviabiletlər, otellər, turlar və onların qiymətlər haqqında məlumatı verərək, bronlaşdırmanın təsdiqini təmin edir. Eyni zamanda avtomobil icarəsi və bilet sifariş etmək, satmaq, cədvəllər, uçuşlar, tariflər haqqında informasiyaları saxlamaq kimi bir çox imkanlara malikdir. Sistem dünya hava yollarının planlaşdırılan uçuşlarında yerlərin təqribən 95%-i haqqında məlumatı özündə cəmləşdirərək müxtəlif ölkələrdə istifadə olunur.

Turizm sahəsində zəmanət verən tur-paket proqramlarından biri də "Мастер-Тур" proqramıdır, bu proqramdan istifadənin müxtəlif üstünlükləri var. "Tur konstruktoru", "Turizm məhsullarının satışı", "Tərəfdaşlarla işləmək", "İnzibatçı bloku", "Statistika", "Sorğu", "Maliyyə" və s. bölmələri özündə birləşdirən *"Master Tur"* proqram paketində müxtəlif funksiyaların icrası mümkündür, məsələn:

- istifadəçilər, iştirakçılar üçün əlverişli muhitin yaradılması, tur məhsulu üçün endirimli qiymətlərlə təkliflərin hazırlanması, turlar üçün əlverişli məbləğin hesablanması, agentlikləri üçün bonuslar təklifi;
- müqavilələrin tamamlanma tarixləri haqqında məlumatların verilməsi və yenilənməsi;
- agentliklər arası mesajlaşma və xəbərdarlıq xidməti keyfiyyətinin yüksək səviyyədə təşkili;
- viza üçün sənədlərin işlənməsi və təqdim olunmasındakı tarixlərə avtomatik nəzarət;
- lazımi sənədlərin (məsələn, səyahət paketləri, turist siyahıları, kuponlar, sorğu vərəqələri, maliyyə hesabatları və s. formalar), MS Word, MS Excel, MS Access və s. formatında hazırlanmasının mümkünlüyü;
- turlara və xidmətlərə nəzarətin idarə edilməsi və təkrar satış imkanının istisnasına nəzarət;
- tur ödənişlərinə mərkəzdən nəzarət, gedişat proseslərini izləmək, cari maliyyə vəziyyətini qiymətləndirmək, depozit ödənişlərini təmin etmək;
- turistlər üçün təyin edilmiş yerlərin, otellərin, marşrut və nəqliyyat vasitələrinin diaqramlarını təqdim etmək, göstərmək;
- xarici tərəfdaşlar üçün müxtəlif dillərin interfeysi;
- müxtəlif turizm şirkətlərinin iş sisteminə uyğun real iş proqramının təşkili;
- maliyyə zəmanəti ilə şirkətlərin məlumatlandırılması;
- İnternet yaxud virtual əlaqələrlə məsafəli iş rejimində proqramların fərdi və qrup halında işləmək imkanları;

- tur məhsulu üçün uyğunluğun yaradılması və s.

"Master Tur" proqramında

- "Master-İnterLook" kompleksi,
- "Master Veb",
- "Master-İnterlook",
- "Master AGENT",
- "Master AVİA" və s. bölmələrilə əlverişli iş mühitini yaratmaq mümkündür.

Turoperatorların avtomatlaşdırılması üçün (turoperator avtomatlaşdırma sistemi kimi) "CAMO-TYP" proqram paketindən istifadə olunur. "CAMO-турагент" proqramı lazımi səviyədə avtomatlaşdırılmanı təmin etməklə bərabər, geniş funksionallığı, effektiv iş sistemi ilə seçilir və digər tur operatorların turlarını satmaq istəyən şirkətlər üçün də əlverişlidir. Bu proqramda:

- sifarişləri idarə etmək, imkanları genişləndirmək, sifarİşlərlərin ödənişinə nəzarət
- onlayn satışları optimallaşdırmaq, şəbəkə sistemilə, elektron poçtla sifariş və sürətli qeydiyyat imkanı;
- turoperatorlara otellər, nəqliyyat, sığorta şərtləri, viza dəstəyinin təyini və bronlaşdırma funksiyası (turoperator resurslarının bronlaşdırma modulu);
- istənilən tur paketinin həcminin hesablanması və çevik qiymətqoyma mexanizmi, sənədlərin mübadiləsinin avtomatlaşdırılması;
- turist sənədlərinin sürətli, keyfiyyətli, əlverişli yaradılması;
- əlavə xidmətlər üçün soraq kitabçasının yaradılması;
- turoperator təkliflərinin araşdırılması, axtarılması, satışların, sifarişlərin, qeydiyyatın aparılması imkanları;
- maliyyə vəziyyətinin araşdırılması üçün müxtəlif hesabatlar və müxtəlif əməliyyatların icrası mümkündür.

Digər turoperator proqramı "TURWIN MULTIPRO" proqram paketinin əsas xüsusiyyətlərinə aiddir:

- Tur paketlərinin avtomatik sifarişi;
- Tur paketlərinin qiymət siyahısına baxış;
- Uçuşların və otellərin yüklənməsi və nəzarət etmək;
- Turizm məhsulunun istənilən seqmenti üçün kataloqlar yaratmaq imkanı;
- Bir və ya bir neçə ölkədə turların təşkili;
- Pul vəsaitlərinin uçotu, əsas mühasibat sənədlərinin, məsələn, fakturalar, hesab-fakturalar, nağd pul zəmanətləri, kassa hesabatların aparılması;
- Yerli şəbəkələrdə etibarlı işin təşkili və s.

Göründüyü kimi müasir informasiya cəmiyyətinin tələbatına uyğun olaraq İKT, İnternet əlaqələri hazırda ən aktual sahələrdən hesab edilən turizm sahəsi üçün olduqca əlverişli mühiti yaradaraq, bu sahə üçün ən vacib amil rolunu oynayır.

Azərbaycanda Tur Operatorların fəaliyyəti üçün müxtəlif proqramlardan istifadə olunur, lakin son vaxtlar daha aktiv olan proqramlar içərisində "TourİnfO" programının fəaliyyətini xüsusilə qeyd etmək lazımdır [12, 15, 20, 21]. Bu proqrama daxil olmaq üçün əsasən "summertour.az" saytindan isdifadə edilir. Program şirkətlərə müqavilə əsasında (şirkətin təyin etdiyi müəyyən qiymətdə olan depazitə əsasən) olan Şifrə-Kod vasitəsiylə verilir (hər şirkətin öz Şifrə-Kod-u olur). Turoperatorlar il ərzində aldığı və ya satdığı hər əməliyyatı ona verilən imtiyazlar əsasında rahat şəkildə icra edə bilir. Yəni, Şifrə-Kod əldə edildikdən sonra dünyanın bir çox ölkələrinə səyahət üçün otellərin, təyyarələrin, transferlərin qiymətlərinə baxmaq və bu sahədə istifadə olunan digər programlarla müqayisə etmək olar. Bu və buna bənzər programlardan istifadə etmək həm turoperatorun

işini tezləşdirir, həmdə lazımı nəticə əldə etmək üçün başqa tərəfdaşlardan asılılıgı aradan qaldırır (yəni, saatlarla onların cavabını gözləməkdən can qurtarır. Deyilənlərə misal olaraq qeyd etmək olar ki, bayram ərəfələrindəki müraciət sıxlığını nəzərə alsaq bir istiqamət üçün bəzən 1-dən 100-ə qədər şirkətlər eyni olan ölkədə və ya şəhərdə eyni olan Hotellə maraqlana bilərlər. Bu isə tərəfdaş olan şirkətlərin gec cavab verməsinə səbəb olur. Lakin belə programların vasitəsilə hər bir şirkətdə fəaliyyət göstərən turoperatorlar özü müstəqil olaraq dünyanın bir çox ölkələrində olan tur paketlərinin qiymətini bir neçə dəqiqə ərzində baxıb hesablayaraq, müştəriyə məlumat verə bilirlər). Əksər hallarda uçuşlar proqramlarda məhdud şəkildə təqdim olunduğuna görə turoperatorlar bəzən təyyarə biletlərinin baxılmasında da çətinlik çəkirlər. Belə hallarda eyni müəssisədə işləyən aviakassirlərin köməyi lazım olur. Aviakassirlər yaranan problemin həlli üçün bəzən (əsasən) müxtəlif programlardan istifadə edirlər (məsələn, Amadeus, Galileo, Sabre və s.). Bildiyimiz kimi, dünyada fəaliyyət göstərən müxtəlif avia kompaniyaların özünə xas onlayn (online) saytları mövcuddur. Həmin saytlara müraciət edərək həmin ölkəyə aid edilən uçuşlara baxmaq və lazımi əməliyyatları onlayn şəkildə aparmaq mümkündür (burada məqsəd əsasən daha ucuz biletin tapılması və ya firmaların ən uyğun olan qiyməti tapmağa çalışmasıdır, lakin ölkələr üzrə pul-valyuta dəyərinin fərqli olması bəzən bilet qiymətlərində çox böyük fərqin yaranmasına səbəb olur, ona görə də yaranan məsələnin həllində bir neçə proqramdan paralel şəkildə istifadə edilir. Lakin aveokompaniyaların özlərindən hər hansısa bir təyyarə bileti və ya transfer əldə etmək mümkündür).

Qeyd edək ki, "Covid 19" pandemiyasının öldürücü mənfi təsirinin dünya üzrə sürətlə yayılması bütün dünyada olduğu kimi bizim ölkəmizdəndə yan keçmədi və bu təsir özünü turizm sahəsindədə göstərdi. (Çox təəssüflər olsun ki, hazırda bu sahədə yeni mutasiya növlərinin yaranması onun hələ ki, dünyada öz aktivliyini qorumasına səbəb olur).

Nəticə

Xarici valyutanın ölkəyə axınında əhəmiyyətli sektorlardan hesab edilən turizm sahəsinin tənzimlənməsi iqtisadiyyata öz təsirini sürətli şəkildə göstərir, yəni, turizmin inkişaf etdirilməsi iqtisadi vəziyyətə müsbət təsir etməklə bərabər, həm daxili işsizliyin qarşısının alınmasında müəyyən rola malikdir, eyni zamanda da alış-verişə müsbət təsir etməklə bərabər, ölkənin dünyaya tanınması və xarici vətəndaşlarda maraq yaratması üçün açılan bir pəncərədir. Ona görədə bu sahənin inkişaf etdirilməsi ölkə iqtisadiyyatı üçün vacib hesab edilir.

Azərbaycan Respublikasında bu sahənin inkişafı istiqamətində bir çox işlər görülür. Turizm sahəsinin daha da inkişaf etdirilməsi üçün:

1. Qəbul edilən yeni layihələrdə informasiya emalı texnologiyalarına geniş yer vermək və bu sahə üçün mühitin rəqəmsallaşdırılması istiqamətində investisiya qoyuluşlarını davamlı şəkildə artırmaq;

2. Maraq yaradan bölgələr və turizm məkanları haqqında virtual məkanda göstərilən reklamların tərtibində yüksək texnoloji sistemlərə, yeni dizayna əsaslanan proqramlara (məsələn, 3D texnologiyasına və ya kompüter qrafikasının son imkanlarına əsaslanmaq) daha çox müraciət etmək;

3. Turizmin inkişafı üçün yeni virtual proqramların yaradılması istiqamətində xüsusi maliyyə vəsaiti ayırmaq və bu yönümlü ixtisaslı kadrların sayını artırmaq, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq dünyadakı təcrübəli kadrlara müraciət edərək yeni kadrların yetişməsi üçün planlı layihələr qəbul etmək;

4. Dünya üzrə tanınan məşhur otellərin yerli filialları açaraq, onları KİV-lərdə,

virtual şəbəkə məkanında reklam etdirmək və ticarət festivallarının, işgüzar turizm üzrə ixtisaslaşmış konfransların, xüsusi tədbirlərin keçirilməsinin sayının artırılması və bu barədə sosial şəbəkələrdə aparılan reklamların gücləndirilməsi;

5. Milli turizm üzrə mərkəzləşmiş idarəetmə sisteminin yaradılması və aktivliyininin təşkili.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Hüseynov İ., Əfəndiyeva N."Turizmin əsaslari" Dərslik. BAKI 2007
2. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.
3. Maksudova A. "Turizm şirkətlərinin avtomatlaşdirilmasi". Dissertasiya işi BDİU. Bakı 2017
4. Ə.Q.Əlirzayev "Turizmin iqtisadiyyati və idarə edilməsi" BDİU nəşriyyatı. Bakı 2010.
5. *Cəbizadə* N.Ə."Turizm biznesində informasiyaların tətbiqi problemləri" BDİU. Bakı 2018
6. Heydərov.Ş.Ə."Turizmdə nəqliyyat xitmətlərinin təşkili". (Dərs vəsaiti/metodik vəsait). Mingəçevir 2011.
7. Umarova N.Ə. "Turizm və onun inkişafında İKT" Metodiki vəsait. Bakı 2021. ADNSU nəşriyyatı.
8. Süleymanov E.N."Azərbaycanda turizmin inkişafının sosial-iqtisadi rolu" BDİU. Bakı 2016.
9. http://www.anl.az/down/meqale/baki_xeber/2013/dekabr/342634.htm - Bölgə turizmi sahəsində dövlət siyasəti Azərbaycan xalqının rifah mənbələrindən biridir
10. Umarova N.Ə. "İKT və kompüter baza blikləri". Dərslik Bakı 2021. ADNSU nəşriyyatı.
11. https://az.wikipedia.org/
12. https://tourism.gov.az/
13. https://ebooks.azlibnet.az
14. hotelspro.com
15. tourinfo.az
16. booking.com
17. www.azerbaijan-news.az
18. https://www.stat.gov.az/source/tourism/
19. https://mida.gov.az/documents/Turizm
20. https://www.bbc.com/azeri/international-59515751]
21. https://lemanpirimova.wordpress.com/2011/02/05/amadeus-proqrami/

Нияр Умарова

РОЛЬ ИКТ В РАЗВИТИИ ТУРИЗМА

Резюме

В статье раскрывастваяя роль – оборудования и программы ИКТ в развитии туризма, преимущества применения технологии обработки информации в его сфере, а также корреляция методом нормативного подхода.

Обсуждается роль Азербайджанской Республики в статистических расчетах, использования ИКТ в сфере туризма и новый методологический подход к его применению в этой сфере и применяемые систематические меры.

Цель – методологический подход к преимуществам туризма и его применения при разработке средств ИКТ, виртуальных программ и его научное обоснование.

Методология – в статье используется метод соответствующего обоснования и логико-системного анализа.

Результаты исследования – Отмечена важность выявления вклада ИКТ – инструментов, программ, а также применения технологий обработки информации в туризме Азербайджана, которые необходимо применять во всех сферах современного информационного общества.

Ключевые слова: *туризм, ИКТ, интернет, систематические мероприятия*

Niyar Umarova

THE ROLE OF ICT IN THE DEVELOPMENT OF TOURISM

Summary

The article explains the role of ICT equipment and programs in the development of tourism, the advantages of the application of information processing technologies in the field of tourism and its connection with the method of normative approach is disclosed.

The role of the use of ICT in the field of tourism of the Republic of Azerbaijan in statistical calculations, a new methodological approach to its application in this field and the systematic measures applied are discussed.

Purpose – tourism and ICT tools in its development, methodological approach to the advantages of implementing virtual programs and its scientific substantiation.

Methodology – the article uses the method of appropriate justification and logical-systematic analysis.

The results of the study – The importance of identifying the contribution of ICT tools, programs, as well as the importance of identifying the contribution of the application of information processing technologies in tourism in Azerbaijan was noted.

Keywords: *tourism, systematic measures, ICT, software, internet*

UOT:32.3

Hümeyrə Teymur qızı Mustafayeva
Azərbaycan Dövlət İqtisad Universiteti,
fəl. ü. f. doktoru, dosent
humeyramustafayeva12@gmail.com

BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ SİYASİ, İQTİSADİ TRANSFORMASİYALAR

Məqalədə beynəlxalq münasibətlərin dünya arenasında fəaliyyət göstərən dövlətlər və dövlət sistemləri arasında iqtisadi, siyasi, ideoloji, hüquqi, diplomatik və digər əlaqələrin və münasibətlərin məcmusu tarixi və siyasi baxımdan xarakterizə edilir. Xüsusilə XIX əsrdən etibarən müasir dövrədək beynəlxalq münasibətlərin inkişafında iqtisadi maraq və mənafelərin güclənməsi ilə milli dövlətlər arasında əlaqə və münasibətlərin formalaşması konsepsiyaları müəyyən edilmişdir. Eyni zamanda dövlətlərarası beynəlxalq əməkdaşlıq əsasında yaranan beynəlxalq təşkilatların fonunda iqtisadi, siyasi, sosial,mədəni sahələrin qarşılıqlı fəaliyyət çərçivəsində beynəlxalq münasibətlərin inkişafı təhlil edilir.

Beynəlxalq münasibətlərin sistemli tədqiqi çərçivəsində bir neçə yanaşma ənənəvi-tarixi, tarixi-sosioloji, evristik, qarışıq və empirik yanaşmalarla fərqləndirilərək dünya sistemində beynəlxalq nizamın mövcud olmasında beynəlxalq münasibətlər siyasi baxımdan analiz edilir.

Müasir beynəlxalq münasibətlərin inkişafında hüquq normaları çərçivəsində beynəlxalq əməkdaşlığın və dövlətlərarası münasibətlərin tənzimlənməsində dövlətlərin hüquq bərabərliyinin gözlənilməsinin mühüm şərtləri vurğulanır. Həmçinin tədqiqat işində müasir dövrdə dövlətlərin siyasi və sosial-iqtisadi inkişafının mürəkkəbliyi və müxtəlifliyi siyasi proseslərə təsiri müəyyən edilir.

Məqsəd – beynəlxalq münasibətlər sistemində dövlətlərlərarası, beynəlxalq təşkilatlar və transmilli korporasiyaların geosiyasi baxımdan iqtisadi maraqlar üzərində qurulması xüsusiyyətlərini müəyyənləşdirməkdir.

Metodologiya – **tədqiqat işində siyasi, normativ və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.**

Tədqiqatın nəticələri – müxtəlif beynəlxalq münasibətlərin formalaşmasında dünya sistemində yaranan siyasi proseslərin dünyanın nizamına təsiri səbəbləri müəyyən edilmişdir.

Açar sözlər: *beynəlxalq münasibətlər, siyasət, iqtisadi-milli maraqlar, beynəlxalq təşkilatlar, beynəlxalq əməkdaşlıq, demokratikləşmə*

Giriş

Beynəlxalq münasibətlər tarixən dövlətlərin yarandığı vaxtdan inkişaf etməyə başlamışdır. Buna görə də beynəlxalq münasibətlər müxtəlif inkişaf səviyyələrinə və coğrafi mövqeyə malik dövlətlər arasında diplomatik sənədlərdə - müqavilələrdə, notlarda, memorandumlarda və s.öz əksini tapır. Beynəlxalq münasibətlər dövlətlərin xüsusi nümayəndələrinin-diplomatların qarşılıqlı fəaliyyəti ilə inkişaf edir, onlar öz ölkələrinin maraqlarını öz fəaliyyətlərində ifadə edir və müdafiə edirlər. Beynəlxalq münasibətlərin xüsusiyyətlərindən biri də alternativ inkişaf yollarıdır. Dünya tarixi boyu dövlətlərin inkişafının müxtəlif mərhələlərində beynəlxalq münasibətlərin həm dinc (diplomatik), həm də açıq silahlı münaqişə yolu ilə hərbi inkişaf yolunu müşahidə etmək olar. Buna görə də, artıq qədim zamanlarda müharibələrin səbəbləri və onların aradan qaldırılması yolları haqqında təbii sual yaranır.

19-cu əsrdə marksizm sayəsində beynəlxalq münasibətlərin yaranmasının iqtisadi səbəbləri haqqında fikir yarandı. K.Marks hesab edirdi ki, kapitalist istehsal üsulunun inkişafı, onun genişlənməsi və satış bazarlarının axtarışı ona gətirib çıxarır ki, kapitalizm nəinki hansısa qitədə, həm də bütün dünyada geniş miqyasda inkişaf edir. Başqa sözlə desək, milli-dövlət maraqlarından daha çox iqtisadi hökmranlığa can atmaq beynəlxalq münasibətlərin inkişafının hərəkətverici qüvvəsidir.

Bu gün beynəlxalq münasibətlərin inkişafı üçün 5 konsepsiya mövcuddur:

Siyasi idealizmin nümayəndələri hesab edirdilər ki, dünya müharibələrinin və yerli silahlı münaqişələrin tənzimlənməsinin mümkünlüyü beynəlxalq hüququ və ölkələrin demokratik inkişaf yolunu yaradır (R.Clarke, L.B.Son). Beynəlxalq münaqişələrin beynəlxalq arbitr və tənzimləyici rolu ən inkişaf etmiş demokratik dövlətlərə aid olmalıdır.

Siyasi realizmin nümayəndələri (R.Aron, Q.Morgenthau) hesab edirlər ki, beynəlxalq münasibətlər dövlətlərin dünya siyasətində gücünün və təsirinin təminatı və təsdiqi kimi qlobal miqyasda hakimiyyət uğrunda dövlətlər arasında kəskin siyasi mübarizə meydanıdır. Onlar beynəlxalq münasibətlərin inkişafını hərbi strategiya və diplomatiyada görürlər [1, s.24,26].

XIX əsrin pozitivistlərinin təsirini yaşamış **modernizm konsepsiyasının tərəfdarları** (M.Kaplan, K.Rayt, K.Doyç, Saint-Simon və O.Comte, E.Haas və başqaları) beynəlxalq münasibətləri riyaziyyat elmi və statistika nöqteyi-nəzərindən nəzərdən keçirməyə çalışırlar.

Transmillilik konsepsiyasının yaradıcıları (D.Nye, R.O.Kohein) hesab edirlər ki, beynəlxalq münasibətlərdə dövlət maraqları milli maraqlara əsaslanan dövlətlərarası çərçivədən kənara çıxıb. Onlar aktorların dairəsini (siyasətçilər, təşkilatlar, partiyalar, qeyri-dövlət birlikləri) və beynəlxalq münasibətlərin növlərini (mədəni, iqtisadi, elmi və s.) genişləndirirlər. Transmilli şirkətlərin (TMŞ) inkişafı dünyanı bir-birindən asılı vəziyyətə salmaqla beynəlxalq münasibətlərin inkişaf tendensiyalarını dəyişdirir.

Neo-marksizm anlayışının nümayəndələri (P.Baran, S.Amin, P.Svizi və başqaları) dünya və ölkələrin iqtisadi qeyri-bərabər inkişafı bütövlüyü ideyasını, inkişafı olan geri ölkələrin potensial inkişaf etmiş ölkələrdən asılılığını və onlar arasında daha böyük uçurumun yaranmasını müdafiə edirlər [2, s.123].

Müasir dünyada beynəlxalq münasibətlərin bir neçə növü var:

- qarşılıqlı fəaliyyət və ictimai həyat sahələrinə görə: siyasi, iqtisadi, hərbi, mədəni və s.;
- subyektlərin xarakterinə görə: dövlətlərarası; hökumətlərarası; partiyalararası; müxtəlif beynəlxalq təşkilatlar arasında;
- subyektlərin sayına, yəni münasibətlərin iştirakçılarına görə: ikitərəfli; çoxtərəfli;
- coğrafi məkana və fəaliyyət dairəsinə görə: qlobal; regional.

Bir çox müasir tədqiqatçılar üçün beynəlxalq münasibətləri sistemli konsepsiya çərçivəsində öyrənmək səciyyəvidir. beynəlxalq münasibətlər öz qanunlarına uyğun fəaliyyət göstərən ayrılmaz bir sistemdir. Sistemli yanaşma təkcə nəzəri deyil, həm də praktikdir. Siyasi tarixdə onun tətbiqi beynəlxalq münasibətlərin qavranılmasının bütövlüyünə, subyektlərin hərəkətlərinin qarşılıqlı əlaqəsi və asılılığı, onların uzunmüddətli münasibətlərə istiqamətlənməsi və sabitliyə yönəldilməsi deməkdir ki, bu da onları ümumi məqsədləri inkişaf etdirməyə və müəyyən bir çərçivədə fəaliyyət göstərməyə vadar edir.

Beynəlxalq münasibətlərin subyektləri suveren dövlətlər, beynəlxalq hökumətlərarası təşkilatlar (BMT, Avropa İttifaqı, MDB), hökumətlərarası təşkilatlar (BVF, ÜTT, BƏT, YUNESKO), regional hökumətlərarası təşkilatlar (NATO, Şanxay altılığı), transmilli şirkətlər (TMŞ) və təşkilatlardır (OPEC) və s.

Dünya siyasi prosesinin obyektləri müxtəlif növ problemlər ola bilər:

a) siyasi və milli maraqların, ideya və konsepsiyaların formalaşması və yayılması;

b) dünya siyasi institutlarının yaradılması və inkişafı;

v) beynəlxalq terrorizmlə mübarizə və ya bəşəriyyətin qlobal problemlərinin həlli üçün dünya qüvvələrinin birləşməsi və s. [8, s. 28].

Dünya siyasətinin obyektləri aşağıdakılara bölünür:

- beynəlxalq problemlərin təbiətinə görə;
- növünə görə;
- problemin həlli növlərinə görə.

Beynəlxalq münasibətlərin tənzimlənməsi beynəlxalq hüquq əsasında həyata keçirilir - dövlət suverenliyinin toxunulmazlığını, təbii insan hüquqlarının tanınmasını, beynəlxalq problemlərin həllinin zorakı üsullarının rədd edilməsini, xalqların bərabərliyini, beynəlxalq əməkdaşlıq və s.

Beynəlxalq hüquq, beynəlxalq münasibətlər kimi, bəşəriyyətin tarixi inkişafının məhsuludur. Beynəlxalq hüququn ilk formaları ilahi iradə ideyalarına əsaslanan ilahi (teoloji) nəzəriyyəyə əsaslanırdı. Buna görə də, kahinlər, sehrbazlar, kahinlər həmişə bəyannaməni və müharibənin sonunu əhatə edirdilər, monarxlar və komandirlər məsciddən və ya kilsədən xeyir-dua və dəstək istəyirdilər. Beynəlxalq hüququn antropomorfik forması orta əsrlərdə teoloji formaya paralel olaraq yaranır və təkbaşına müharibə və sülh haqqında qərar qəbul etməkdə sərbəst olan monarxın hakimiyyətinin toxunulmazlığı və müstəqilliyi (suverenliyi) kimi şərh olunur.

Beynəlxalq hüquq bu gün "beynəlxalq sistemdə fəaliyyət göstərən xüsusi hüquqlar sistemidir". Əsas beynəlxalq hüquqi akt BMT tərəfindən 1946-cı ildə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir. 1966-cı ildə BMT Baş Assambleyasında qəbul edilmiş İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Pakt və Mülki və Siyasi Hüquqlar haqqında Pakt beynəlxalq səviyyədə məcburi qüvvəyə malikdir. BMT Nizamnaməsində, Beynəlxalq Hüquq Prinsipləri haqqında Bəyannamədə (1970), Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Konfransının Yekun Aktında (1975) təsbit olunmuş prinsiplərə əsaslanır [4].

Müasir dövrdə beynəlxalq münasibətlərin və dünya sistemlərinin formalaşması və inkişafı mərhələlərinə (XIX-XX əsrlər) qısaca nəzər salaq:

Beynəlxalq münasibətlərin sistemli tədqiqi çərçivəsində bir neçə yanaşma fərqləndirilir: ənənəvi-tarixi, tarixi-sosioloji, evristik, qarışıq və empirik. Tarixən dövlətlər Şərq despotizminin siyasi quruluşuna əsaslanan ən qədim imperiya formalarından, polis demokratiyasının ilkin və sadə formalarından Avropa monarxiyalarına və müasir dövrün milli dövlətlərinə qədər uzun bir inkişaf yolu keçmişlər. Dövlətlərarası münasibətlərin artıq antik dövrdə mövcud olmasına baxmayaraq, ənənəvi-tarixi yanaşma nöqteyi-nəzərindən müasir dövrdə milli dövlətlərin inkişafı və müəyyən bir dövrdə fəaliyyət göstərən müntəzəm diplomatik münasibətlərin qurulması ilə beynəlxalq münasibətlər sistemli xarakter alır.

Beynəlxalq münasibətlər və dünya sistemləri beynəlxalq nizam anlayışı ilə sıx bağlıdır - "dövlətlərin və digər qurumların əsas ehtiyaclarını ödəmək, onların mövcudluğu, təhlükəsizliyi üçün şərait yaratmaq və saxlamaq üçün nəzərdə tutulmuş beynəlxalq (ilk növbədə dövlətlərarası) münasibətlərin strukturu. və inkişafı. İstənilən dövlət öz sərhədləri daxilində təhlükəsizliyi və asayişi qoruma; cəmiyyətin inkişafı, onun iqtisadi və sosial rifahı üçün şərait yaratmaq; mal və xidmətlərin paylanması; vətəndaşların əsas ehtiyaclarını ödəmək və s. təşəbbüs göstərir.

Tarixən təcrid olunmuş Vestfaliya dünya sistemi və ya beynəlxalq nizam (XVII

əsr), Vyana sistemi (XIX əsr), XX əsrdə Versal-Vaşinqton, Yalta - Potsdam (bipolyar) və Malta Madrid-dünya sistemləri mövcud olmuşdur. Bir sıra tədqiqatçıların fikrincə, bu yanaşma beynəlxalq münasibətlərin əsas iştirakçılarının qarşılıqlı fəaliyyətinin öyrənilməsi ilə məhdudlaşır [10].

Orta əsrlərdə və erkən müasir dövrdə (VII-XVI əsrlər) beynəlxalq münasibətlərin zəifliyi, inkişaf etməməsi və müəyyən dağınıqlığı, qeyri-sabitliyi və sərhədlərinin və suverenliyinin siyasi və hüquqi baxımdan təyin edilməməsi ilə müəyyən edilirdi. Beynəlxalq münasibətlər əsasən qısamüddətli və ya uzunmüddətli hərbi toqquşmalarda (1337-1453-cü illərdə İngiltərə ilə Fransa arasında yüzillik müharibə) ifadə olunurdu. Eyni zamanda XIV-XVI əsrlərdə böyük coğrafi kəşflər Amerikada yeni ərazilərin kəşfinə və Avropada sərvətin artmasına kömək etdi. XV-XVI əsrlərdə Amerika qızılı sayəsində İspaniya İngiltərənin dəniz ticarət yolları üzərində münaqişəyə girdiyi Avropanın ən güclü dövlətinə çevrildi. Ümumiyyətlə, bütün böyük dövlətlərin iştirak etdiyi bu böyük hərbi münaqişə dini geyimdə olub və 1618-ci ildən 1648-ci ilə qədər davam edib. O, tarixə Otuz illik müharibə kimi düşdü, nəticəsi Vestfaliya Sülhünün imzalanması və Avropada ilk beynəlxalq münasibətlər sisteminin qurulması idi. Qərbi Avropada bağlanan sülh müqaviləsi nəticəsində Müqəddəs Roma İmperiyası dağıldı və bir neçə müstəqil dövlət yarandı. Bu hadisə Avropa cəmiyyətlərinin siyasi təşkilatı formas kimi milli dövlətlərin formalaşması prosesinin başlanğıcını qoydu. İlk dəfə olaraq milli-dövlət suverenliyi prinsipini beynəlxalq aləmdə dövlətlər arasında qarşılıqlı fəaliyyət və münasibətlərin əsası kimi təsdiq etdi. Vestfal dünya sisteminin vəzifəsi ərazi-dövlət sərhədlərini təmin etmək və Avropada siyasi qüvvələr balansını yaratmaq idi ki, bu da milli-dövlət maraqları ilə suverenlik prinsipi arasında kompromis saxlamaq demək idi. Qüvvələr balansını saxlamaq vasitəsi Avropada siyasi qüvvələrin balansını pozmağa çalışan ölkələrə qarşı ittifaq və koalisiyaların yaradılması idi. Vestfaliya sistemində birtərəfli güc tətbiqi asayişi pozan amil, koalisiya tərəfindən güc tətbiqi isə asayişin qorunması və saxlanması vasitəsi kimi müəyyən edilirdi [7, s.44].

Beynəlxalq münasibətlərdə siyasi qüvvələr balansı prinsipi 1815-ci ilə qədər mövcud olmuşdur. XVIII-XIX əsrlərin sonunda Napoleonun hərbi rəhbərliyi altında inqilabi Fransanın apardığı müharibələr inqilabın tam məğlubiyyəti və Avropada monarxizmin mövqelərinin möhkəmlənməsi ilə başa çatdı. 1814-1815-ci illərdə dünyanın ən böyük monarxiyaları - Rusiya, Avstriya, Britaniya və Prussiyanın rəhbərlik etdiyi Vyana Konqresi keçirildi. Qurultayda monarxiya sülalələrinin "qanuniləşdirilməsi" prinsipi təsbit edildi. Başqa sözlə desək, monarxlar yeganə qanuni hökmdarlar, monarxiya isə dövlətin siyasi sisteminin yeganə mümkün forması sayılırdı. Qurultay nəticəsində yaranmış Müqəddəs Birlik qurulmuş nizamın sarsılmazlığını qorumağa, monarxiyaların inqilabi hərəkatlara qarşı mübarizəsinə dəstək verməyə çağırılırdı. Qüvvələr tarazlığı prinsipi Avropada qanuni nizam-intizamın qorunmasının yeganə mexanizmi kimi görünürdü, feodal nizamını qorumaq üçün Müqəddəs Alyansa üzv dövlətlərin silahlı müdaxiləsinə haqq qazandırırdı.

Paris Sülh Konfransı və Versal Sülh Müqaviləsinin imzalanması (1918), eləcə də Vaşinqtonda keçirilən bir sıra konfranslar (1919-1921) Versal-Vaşinqton dünya sisteminin və dünya nizamının - hərbi təcavüzün pislənməsi və pasifizm (dövlət münaqişələrini silahlı vasitələrlə həll etməkdən imtina), münasibətləri tənzimləmək üçün diplomatik vasitələrdən fəal istifadə etmək prinsiplərinə əsaslanaraq qurulmasını qeyd etdi. İlk dəfə olaraq, vəzifələri Avropanın dinc inkişafı üçün təminatlar sistemi yaratmaq, silahlara nəzarət və kollektiv təhlükəsizlik sistemini təmin etmək olan Millətlər Liqası (1918) adlı dövlətlərarası təşkilat meydana çıxdı [3, s.131-135].

Amma Rusiyada baş verən inqilabi hadisələr, Oktyabr inqilabı və bolşeviklərin hakimiyyətə gəlməsi (1917), SSRİ-nin yaranması (1922) ilk dəfə olaraq beynəlxalq münasibətlərə ideoloji xarakter verdi. Avropanın ideoloji parçalanması çərçivəsində qüvvələr balansının mexanizmi bolşevizmə qarşı koalisiya və ona hərbi-siyasi müxalifətin yaradılması demək idi. Münasibətlərin qeyri-sabitliyi özünü Avropanın aparıcı dövlətlərinin – İngiltərə və Fransanın SSRİ və Almaniyaya qarşı çıxmaq üçün Almaniya məsələsi üzrə Versal Sülh Müqaviləsi şərtlərinə yenidən baxılmasına imkan verməyə hazır olmasında təzahür etdi. Lokarnoda (1925) sülh konfransının işi nəticəsində qurulan qeyri-müəyyən qüvvələr balansı Almaniyanın xeyrinə pozuldu. Nəticədə Almaniya ordu və donanmanı bərpa edə və sayca artıra bildi, təzminatları ödəyə bildi, Avstriya (Anschluss 1938) və Çexoslovakiyanın Sudetenlandiyası (Münhen Konfransı 1938) hesabına sərhədləri genişləndirə bildi. İkinci Dünya Müharibəsi Versal sisteminin böhranının təzahürü idi.

1945-ci ildə İkinci Dünya Müharibəsinin başa çatması, Yalta və Potsdam konfranslarında dünyanın və sərhədlərin müharibədən sonrakı təşkili prinsiplərinin işlənib hazırlanması anti-Hitler koalisiyasının (SSRİ, ABŞ və Böyük Britaniya) dağılmasına səbəb oldu və ikiqütblü dünya sisteminin formalaşması ilə nəticələndi. Beynəlxalq münasibətlərdə ideoloji komponentin güclənməsi SSRİ və ABŞ-ın əsas siyasi opponentlərinin Avropada təsir dairələrinin formalaşmasına və Soyuq Müharibənin-siyasi böhranlar və silahlı münaqişələrlə dolu total və qlobal qarşıdurmanın yaranmasına kömək etdi.

Soyuq Müharibə çərçivəsində dünya siyasəti artan qarşıdurmadan beynəlxalq həyatın yumşalmasına qədər uzanırdı. Bu, hər iki fövqəldövlətin birbaşa və açıq hərbi toqquşmadan qaçmaq istəyi ilə müəyyən edilirdi, çünki hər iki dövlət bunun onlar üçün yaxşı nəticələnəcəyinə əmin deyildi. Soyuq Müharibə dövrlərlə inkişaf etdi, onun sərhəd xətti isə Koreya (1949-1953), Vyetnam (1964-1969) və Əfqanıstan (1979-1989) müharibələri idi. Müharibələr arasında dünya siyasətində istiləşmə dövrləri olub, münaqişə tərəfləri sülh müqavilələrinin imzalanması ilə müşayiət olunan münasibətləri ən yüksək səviyyədə həll etməyə çalışırdılar (1975-ci il Helsinki sazişi, 1972-ci il ABM müqaviləsi və s.) [4].

Dünyanın bipolyar sistemi aşağıdakılarla xarakterizə olunurdu:

- dünya siyasətinin iki mərkəzinin və NATO (1949) və OVD (1953) hərbi-siyasi bloklarının formalaşması;
- dünya siyasətində və beynəlxalq münasibətlərdə böhranlara səbəb olan birbaşa hərbi toqquşmanın mümkünsüzlüyü;
- silah yarışı;
- böhranların aradan qaldırılması və silahlanma yarışının məhdudlaşdırılması üzrə danışıqlar üçün imkan və şəraitin yaradılması;
- 1960-cı illərdə əvəzlənən birtərəfli üstünlük axtarışı, "qüvvələr pariteti" haqqında, yəni tarazlığın əldə olunması;
- müstəmləkə sisteminin dağılması, Asiya və Afrikada suveren dövlətlərin yaranması.

Müasir dünya planetdə mövcud olan dövlətlərin məcmusudur. Dövlətlərin siyasi və sosial-iqtisadi inkişafının mürəkkəbliyi və müxtəlifliyi, onların heterojenliyi ona gətirib çıxarmışdır ki, müasir dünya müxtəlif parametrlərlə səciyyələnir - iqtisadi inkişafın üçpilləli modelindən tutmuş geosiyasi strukturda yeri və rolunun müəyyənləşdirilməsinə qədər bütün xüsusiyyətləri ilə yeni dünya sisteminin - Malta-Madridin formalaşması baş verir.

Dövrümüzün siyasi ideyalarının, ictimai-siyasi təsisatların və dövlət hakimiyyətinin mövqeyini bilmək, ölkənin siyasi sferasında və qlobal siyasət okeanında baş verənləri dərk etmək siyasi prosesləri öyrənmədən mümkün deyil. Siyasi proses siyasi problemlərin

həllində maraqların, ideyaların və konsepsiyaların reallaşdırılması üçün hakimiyyətdən istifadə etmək naminə siyasi qüvvələrin inkişafı və qarşılıqlı fəaliyyətidir. Məhz siyasi proseslərdə bütün siyasi qüvvələrin xassələri və hakimiyyətin imkanları aydınlaşdırılır və reallaşır, siyasi maraqlar rədd edilir və ya təmin edilir.

Beynəlxalq aləmdə fəal qarşılıqlı əlaqədə olan və dünya siyasətinin subyekti kimi çıxış edən müstəqil dövlətlər milli və dövlət maraqlarını güdürlər. Bu baxımdan dövlətlərin daxili siyasətinə təkcə iqtisadi, sosial və s. deyil, həm də qlobal amillərin təsirini nəzərə almaq zərurəti yaranır. Müasir dünyada sosial-iqtisadi və siyasi inteqrasiyanın dərəcəsi o qədər böyükdür ki, dünyanın heç bir ölkəsi digər dövlətlərdən təcrid olunmuş şəkildə, öz "qonşularının" və dünya birliyinin maraqlarını nəzərə almadan təkbaşına fəaliyyət göstərmək iqtidarında deyil.

Dünya siyasətinin predmet sahəsinin konstitusiyasının mürəkkəbliyi onun beynəlxalq münasibətlərin təhlilinin digər sahələri ilə məhdud əlaqəsi ilə bağlıdır: beynəlxalq siyasi iqtisadiyyat, müqayisəli politologiya, beynəlxalq münasibətlər nəzəriyyəsi, siyasi nəzəriyyə. Dünya siyasəti qlobal səviyyədə siyasəti öyrənir, dünya inkişaf tendensiyalarını və müasir dünyanın siyasi quruluşunu müəyyən etməyə çalışır. Dünya siyasəti dövlətlərarası qarşılıqlı əlaqələri (münasibətləri) dünya siyasətinin ən vacib komponenti hesab edir.

Müasir dünyanın ən əhəmiyyətli məlumatlarına ərazinin yeri və ölçüsü, təbii və insan resursları, onlardan istifadə üsulları və məqsədləri, müəyyən bir dövlətin ideoloji və siyasi istiqaməti haqqında məlumatlar daxildir. Belə məlumatların təhlili və qiymətləndirilməsini siyasət elminin xüsusi sahəsi - geosiyasət həyata keçirir.

Müasir dünya yer üzündəki bütün dövlətlərin məcmusudur və müxtəlif siyasi, iqtisadi və sosial-mədəni inkişafı ilə xarakterizə olunur. XX əsr üçün dünya birliyinin 3 modelinin fərqləndiyi göstərilən fərqlər səviyyəsi əsasında dünya birliyini xarakterizə etmək adət idi:

- yüksək inkişaf etmiş postindustrial iqtisadiyyata və demokratik siyasi rejimlərə malik birinci dünya ölkələri;
- ənənəvi istehsalın aktiv istifadəsində sənaye iqtisadiyyatı ilə xarakterizə olunan ikinci dünya ölkələri
- üçüncü dünya ölkələri-inkişaf etməkdə olan iqtisadiyyatlarla və daha çox inkişaf etmiş ölkələrin əməkdaşlığına və köməyinə əsaslanır.

Dünya birliyinin bu xüsusiyyətlərinin əsasında inkişafın müəyyənləşdirilməsində başlıca iqtisadi meyar üstünlük təşkil edir. XXI əsrdə müasir dünya birliyi üçün. yeni dünya münasibətlər sisteminə əsaslanan xüsusiyyətlərin siyasi və sosial-mədəni meyarları - daha çox siyasi üstünlükləri və qabaqcadan müəyyənləşmələri diktə edən Malta-Madrid münasibətlər sistemi ön plana çıxdı. Məhz bu sistem bu gün dünya birliyinin dövlətlərinin qarşılıqlı əlaqədə olduğu siyasi prosesləri müəyyən edir.

XXI əsrin əvvəllərində. bir sıra amillərin təsiri ilə yeni geosiyasi, sivilizasiya vəziyyəti formalaşmışdır.

Birincisi, bu, yeganə fövqəldövlət olan ABŞ-ın qüdrətinin artması ilə əlaqəli birqütblü dünya nizamı sisteminin formalaşmasıdır. Dünyada siyasi qüvvələrin qlobal şəkildə yenidən bölüşdürülməsi SSRİ-nin və Avropada sosialist sisteminin dağılmasının nəticəsi idi.

İkincisi, milli iqtisadiyyatların inteqrasiyası, onların vahid dünya iqtisadi sisteminə birləşməsi, burada hər bir ölkənin iqtisadiyyatı bütövün bir hissəsidir. Bazarın qloballaşması, kommunikasiya konvergensiyasına əsaslanan artan qarşılıqlı asılılıq, planetar elmi inqilab, millətlərarası ictimai hərəkatlar və təhsil sistemi siyasi təsir və hökmranlıq üçün yeni imkanlar yaradır.

Lakin iqtisadi inkişaf səviyyəsi yüksək olan ölkələrin iqtisadi hökmranlığına əsaslanan dünya informasiya məkanının və dünya bazarının qloballaşması dünya əhalisinin əksəriyyətinə uyğun gəlmir.

Üçüncüsü, milli dövlətlərin dövlət suverenliyinin yayılması, aşınması beynəlxalq münasibətlərin idarəolunmazlığı vəziyyətinə gətirib çıxardı ki, bu da beynəlxalq terrorizmin inkişafına təsir etdi.

Şübhəsiz ki, müasir beynəlxalq münasibətlərin inkişaf tendensiyaları yüksək texnologiyaların "şübhəli əllərə" ötürülməsini qadağan edən qaydaların müəyyən edilməsini tələb edir. BMT çevik, tez fəaliyyət göstərən və səmərəli beynəlxalq təşkilata çevrilməlidir.

Dördüncüsü, beynəlxalq münasibətlərə soyuq müharibə baxımından baxan köhnə dünya qavrayış sisteminin dağılması yeni mənalar, yeni kimlik axtarışlarını tələb edirdi. Kommunizmin süqutu və Soyuq Müharibənin sonu bəşər sivilizasiyasının əsas dəyərləri və mənaları məsələsini gündəmə gətirdi.

Beşincisi, "Şimal" və "Cənub" arasında artan uçurum, böyük əksəriyyətin iqtisadi inkişafın dörd mərkəzindən maddi asılılığı: Şimali Amerika, Qərbi Avropa və Şərqi Asiya (Çin), Rusiya. Dünyanın yenidən bölüşdürülməsi. Qlobal rəqabət Qərbin və Şərqin imtiyazlı mövqelərindən əl çəkməyəcəyi iqtisadi rəqabətin güclənməsi.

Altıncısı, dinlərarası münasibətlərin kəskinləşməsi, miqrantların sayının artması, dünyanı sarmış pandemiya və onun arzuolunmaz nəticələrinin beynəlxalq proseslərə təsiri.

Müasir dünya düzəninin yaradılması beynəlxalq münasibətlərin və dünya nizamının inkişafı üçün demokratiya, silahsızlaşdırma və tərəfdaşlıq münasibətlərinin humanistləşdirilməsi ideyalarına əsaslanan yeni prinsiplərin formalaşmasını tələb edirdi. Amerika alimləri müasir dünyanın iki hissəsini ayırırlar:

1 - sülh, firavanlıq və demokratiya zonası;

2 - geridə qalmış ölkələr üçün xarakterik olan müharibə və fermentasiya zonası.

Siyasi proseslərə qlobal müstəvidə yanaşma müasir həyatın müxtəlif fəaliyyət sahələrində özünü büruzə verən qloballaşma tendensiyalarına bağlıdır:

1) siyasi sahədə - qlobal siyasi orqanların yaradılması vasitəsilə ayrı-ayrı dövlətlərin vahid siyasi sistemdə birləşməsi. Məsələn, BMT İkinci Dünya Müharibəsindən sonra qalib ölkələr - ABŞ, SSRİ, Böyük Britaniya və Fransa tərəfindən yaradılmışdır. BMT-nin sələfi XX əsrin 20-30-cu illərində mövcud olmuş Millətlər Liqası idi. Dünya ölkələrinin siyasətini müxtəlif sahələrdə koordinasiya edən BMT-dən başqa da qurumlar vardır. Məsələn, qlobal səviyyədə mədəni irsin qorunması və inkişafına nəzarət edən YUNESKO beynəlxalq təşkilatı, Ümumdünya Ərzaq Təminatı Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı və s.

2) iqtisadi sahədə-dünyanı getdikcə öz cənginə alan transmilli korporasiyalar ("Sony", "Philipps", "Samsung" və s.). Siz brend məhsul alırsız, amma məlum olur ki, bu məhsul Tayvan, Malayziya və ya Çində istehsal olunub. Burada Beynəlxalq Valyuta Fondu kimi qlobal maliyyə təşkilatları da yer alır [9].

3) informasiya sahəsində-İnternet şəbəkəsi kimi qlobal məlumat ötürücüləri sistemi. Bu sistem Dünya ətrafında informasiya qurşağı yaradır və noosfera konsepsiyasını bir daha təsdiq edir.

4) nəqliyyat sahəsində-dünyanın istənilən nöqtəsinə tez bir zamanda çatmağı təmin edən yeni nəqliyyat vasitələrinin yaranması (aeronəqliyyat və yaxın gələcəkdə kosmik nəqliyyat və s.).

5) ekoloji sahədə-təbii resursların məhdudluğu və bu resurslar uğrunda mübarizə, təbiətə ümumi təsirin artması və bu təsirin mənfi ekoloji nəticələri.

6) demoqrafik sahədə-əhalinin sayının sürətlə artması, 7 milyardı ötməsi və Yer kürəsində qeyri-bərabər paylanması, insanın biosferə təzyiqinin artması və Yerin ümumi vəziyyətini kəskinləşdirməsi.

7) hərbi sahədə-kütləvi qırğın silahlarının (atom bombası) yaranması, bu silah ehtiyatının bütün dünyanı dəfələrlə məhv edə biləcək gücdə olması.

Geosiyasət anlayışı XIX-XX əsrlərdə yaranmışdır. Onun yaranmasının obyektiv səbəbi qloballaşmadır: dünyanın bir olduğunun idrakı, dünya məkanının "bağlanması"; Avropa istilalarının durğunluğu və dünyanın yenidən bölünməsi uğrunda müharibələr və s. "Geosiyasət" terminini isveçli alim R.Çellen (1864-1922) tətbiq etmişdir. O, geosiyasəti elm olaraq hesab etmiş və bu elmin dövlətləri coğrafi orqanizm və məkan fenomeni olaraq incələdiyini irəli sürmüşdür. Daha geniş mənada geosiyasət siyasətlə dövlətin coğrafi mövqeyinin uzlaşmasını nəzərdən keçirir [14, s. 163]

Geosiyasi amillərin ictimai həyatda önəmli rol oynadığını sosiologiyada Ş.Monteskyö, V.O.Klyuçevskinin simasında coğrafi məktəbin nümayəndələri qəbul edirdi. Bu məktəb geosiyasətin bilavasitə sələfi olmuşdur. Geosiyasətin yaranmasında önəmli rol oynayan əsərlərə alman alim F.Ratselin (1844-1904) 1897-ci ildə çıxan "Siyasi Cografiya" kitabı, həmçinin, alman geosiyasi məktəbinin banisi K.Hausxoferin (1869-1946) yaradıcılığı daxildir. Geosiyasətdə dövlət anlayışı bioloji qanunlarla işləyən orqanizm və yer üzündə kök salmış təbii təkamülün məhsuludur. Geosiyasət anlayışında dövlətin ən mühüm vəzifəsi və qüdrətinin artırılması üçün ən mükəmməl vasitə yeni ərazilərin işğal edilməsi və yaşayış sahələrinin genişləndirilməsidir. Dövlətin əsas xüsusiyyətləri içərisində onun coğrafi mövqeyi, təbii resursları, iqlimi, ərazisinin genişliyi, əhalisinin sayı yer alır. XIX əsrdə geosiyasətin əsas müzakirə mövzusu bir dövlət üçün nəyin mühüm olmasıdır: amerikalı admiral A.Mexenin (1840-1914) "Hərbi dəniz gücünün tarixin gedişatına təsiri (1660-1783)" kitabında qeyd etdiyi kimi dənizlər üzərində nəzarətin olması, yoxsa "orta dünyaya" (Avrasiya) hakim olmaq [5, s.77-82].

Geosiyasətin mühüm anlayışları olan "qan və zəmin", "yaşam sahəsi" məfhumları nasistlər tərəfindən İkinci Dünya Müharibəsinin başlanmasında böyük rol oynamışdır. Halbuki A.Hitlerə qədər də Şərqə hücum ideyası mövcud idi. Geosiyasətdə "fəal geostrateji fərdlər" və "geosiyasi mərkəzlər" kimi anlayışlar mövcuddur. Geosiyasi mərkəzlər olaraq dövlətlər güc və hədəf baxımından deyil, mühüm coğrafi mövqeyi və fəal geostrateji fərdlərin təsirinə məruz qala biləcək zəif cəhətləri baxımından maraq kəsb edir. Geosiyasi mərkəzlər əsasən coğrafi mövqelərinə görə şərtləndirilir. Bəzi hallarda bu coğrafi mövqe mühüm ərazilərə çıxış baxımından, bəzən isə müəyyən resursların fəal geostrateji fərdlərə təhvil verilməməsi baxımından əhəmiyyət kəsb edir. Digər hallarda geosiyasi mərkəz geosiyasi meydanda həyati əhəmiyyətə malik olan region və ya dövlətin müdafiəsi üçün qalxan rolunu oynaya bilər. "Fəal geostrateji fərdlər geniş imkanlara və milli iradəyə dayanaraq, öz sərhədlərindən kənarda hökmranlıq etmək və mövcud geosiyasi vəziyyəti dəyişmək qüdrətində olan dövlətlərdir" [11, s.54,55].

Bjezinski iri və aktiv geosiyasi fiqur olaraq, Fransa, Almaniya, Rusiya, Çin və Hindistanı görür. Ukrayna, Azərbaycan, Cənubi Koreya, Türkiyə və İran isə geosiyasi mərkəzlərdir. XX əsrin ikinci yarısında geosiyasətə əlavə olaraq iki fərqli yanaşmaya malik biosiyasət anlayışı da meydana gəlmişdir: bu anlayış canlılarla bağlı ictimai təşkilatların idarə olunmasını və insanın öz bioloji təbiətinə sahib olmağı hədəfləyən siyasi hakimiyyət anlayışını ifadə edir [11, s. 118]

Dünya sistemi konsepsiyası 1967-ci ildə amerikalı sosioloq İ.Vallerstayn (1930) tərəfindən irəli sürülmüşdür. Onun əsas ideyası budur ki, qloballaşma ənənəsi dünyanı vahid sistemdə birləşdirməyə gətirib çıxarır. Vallerstayn dünya imperiyası ilə ümumdünya

iqtisadi sistemləri arasındakı fərqi tərif edir. Dünya imperiyası hərbi və siyasi hakimiyyətlə birləşdirilmiş ərazilərdir. Qədim Roma imperiyası və XIX-XX əsrlərdə kapitalist ölkələrin qurduğu müstəmləkə imperiyaları buna misaldır. Dünya imperiyalarından fərqli olaraq, ümumdünya iqtisadi sisteminin mərkəzləşdirilmiş siyasi hakimiyyəti yoxdur. Vallerstayn müasir kapitalizmi bu cür sistem hesab edir. Vahid siyasi hakimiyyətin olmaması sistemin inkişafına təkan verir, belə ki, transmilli şirkətlər ayrı-ayrı dövlətlərin bilavasitə nəzarətində deyillər. Bu da onlara pul vəsaitlərini dövlət sərhədlərindən kənara göndərmək və siyasi qadağalardan yan keçmək imkanı yaradır. Vallerstayna görə ümumdünya iqtisadi sistemi mərkəzi dövlətləri və onların idarə etdiyi ətraf və yarımətraf regionları əhatə edir. Dünya sistemi paradiqması xalqlar arasında məhsuldar qarşılıqlı əlaqələrin olmadığı təkhakimiyyətli sivilizasiyadan ("vahid dünya - vahid qanunlar") və qeyri-kommunikativ plüralizmin ifrat nöqtələrindən qaçmağa imkan verir. Bu paradiqmada "dünya kəmiyyət fərqinə dayanan texniki-iqtisadi və ya keyfiyyətə əsaslanan sosial-mədəni müstəvidə deyil, idarəolunma dərəcəsinə görə qiymətləndirilir. Nəticə etibarilə müasir insanlığın qlobal problemin həlli subyektinə çevrilməsi qiymətləndirilir" [12, s. 184-185].

Mərkəzi dünya ölkələri və digər dünya ölkələri qeyri-bərabər müstəvidədirlər. İnkişaf etməkdə olan ölkələr ölkələrin dünya sisteminin subyekti olması təbii resurslarından çatışmazlığına görə deyil (əksər hallarda məhz bu ölkələr resurslarla zəngin olur), onların müasir inkişaf xüsusiyyətləri baxımından çətindir. "Bu gün inkişaf etməkdə olan ölkələr fərqli sivilizasiya münasibətlərini, yəni özünəməxsus və kənardan yeridilmiş (əksər hallarda zorla) özəllikləri birgə daşıyan hibrid dövlət quruluşlarıdır. Buna görə də bu cəmiyyətlərin özünüformalaşdırma sisteminə sahib olması, yarımüstəqil təbii-tarixi proseslər nəticəsində meydana gələn qərb ölkələrinə nisbətdə daha çətindir" [12, s.185].

Hal-hazırda dünya iqtisadi sistemində ABŞ, Avropa birliyi ölkələri (xüsusilə Almaniya) və Yaponiya hakim mövqedədirlər. "Soyuq müharibə"nin bitməsi ilə dünya birqütblü siyasət üzərindən formalaşmağa başladı. Qərbin təsirinə qarşı çıxa biləcək gücdə olan, lakin digər ölkələrin bu təsirdən çıxmasına kömək edə biləcək qüdrətdə olmayan bir qism regional güclər yarandı. Bu, ilk növbədə Çindir. Normal ictimai quruluşda müxtəlifliyin inkişafı vəhdət halında olmalıdır, buna görə də qloballaşma ənənəsi obyektiv və təbiidir. Amerikalı sosioloq N.Birnbaum (1864-1937) hesab edirdi ki, "dünya bazarının və dünya idarəetmə strukturunun bəşər cəmiyyətinin təzahürü olaraq meydana çıxması artıq əfsanə deyil. Bu barədə tam müəyyənliklə danışmaq olar" [13, s.105]. "Pərdəarxası dünyanın" mövcudluğuna, gizli fəaliyyət göstərən və dünya hakimiyyətinə can atanın təşkilatların varlığına qeyri-adi yanaşmaq lazım deyil. Məsələn, əgər Norveçdə siyasi hakimiyyətin üç növü - hökumət, şirkətlər və həmkarlar ittifaqı vahid qərarlar verə bilirsə, nə üçün bu dünya miqyasında baş tuta bilməz? Bu, iqtisadi imperializmin mədəniyyətlə yoğrulmuş siyasi imperializmə keçididir. Pərdəarxası dünyanın iqtisadi resursları transmilli şirkətlərdir, ideoloji qaynağı isə qloballaşma və ümumbəşəri dəyərlər haqqında təsəvvürlərdir. Ümumbəşəri dəyərlərin təbliği, təcrübədə də göründüyü kimi, bir ölkənin maraqlarının digər ölkənin maraqlarına tabe edilməsi vasitəsidir.

Nəticə

Minilliyin sonunda yeni beynəlxalq münasibətlər sisteminə keçid baş verdi. Dünyanın nüvə müharibəsinin qarşısının alınmasına əsaslanan ikiqütblü sistemi bəzi politoloqların fikrincə birqütblü sistemə, digərlərinin fikrincə çoxqütblü sistemə yol verib. Bir tərəfdən, hazırda əksər Avropa dövlətləri NATO-ya qoşulub və bu, ABŞ-ın bu təşkilatın lideri kimi artan rolu və təsirindən xəbər verir. Digər tərəfdən, dünya siyasətinin yeni mərkəzləri yaranıb. Bu gün Çinin açıq lider olduğu Asiyada güc balansı

dəyişib. Cənubi Amerikada Braziliya və Venesuelanın başçılıq etdiyi antiqloballaşma hərəkatı yaranıb. Bu ölkələrin nüfuzunun artması inkişaf etmiş ölkələri - dünya siyasətinin liderlərini yeni qüvvələr balansını nəzərə almağa vadar edir.

Aşağıdakı prinsiplərlə yeni dünya nizamı formalaşır

- demokratikləşmə,
- demilitarizasiya,
- konkret dövlətin imkanlarından və ölçüsündən asılı olmayaraq tərəfdaşlığın humanistləşdirilməsi.

Yaxın illərdə beynəlxalq münasibətlərin necə inkişaf edəcəyi, dünyanın necə olacağını böyük ölçüdə müəyyən edəcək. Bu səbəbdən alimlər beynəlxalq münasibətlərin mövcud vəziyyətinin və inkişafının xüsusiyyətlərini onların dəyişkən tendensiyaları ilə müəyyən etməyə çalışırlar.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. *Aron, Raymond; Ionescu, Valence (1968), Democracy and totalitarianism, Weidenfeld and Nicolson.*
2. Blackledge, Paul, and Perry Anderson. 2004. Marxism, and the New Left. Merlin Press.
3. Peter Yearwood, "'On the Safe and Right Lines': The Lloyd George Government and the Origins of the League of Nations, 1916–1918." Historical Journal 32#1 (1989): 131–155
4. "Helsinki pact: A three-way battle in Madrid". Christian Science Monitor. 9 September 1980.
5. *Deudney, Daniel (March 2000). "Geopolitics as Theory: Historical Security Materialism". European Journal of International Relations. 6 (1): 77–107*
6. Американская социологическая мысль, / под общ.ред. В.И.Добренькова. М.Изд-во Междунар.ун-та бизнеса и управления.1996 ,560 с.
7. Токвиль.А.Старый порядок и революция. Санкт-Петербург. Алетей.2008,248 с.
8. Удовин С. Глобализация семиотические подходы. Москва; Рефл-бук,2002-462 с.
9. Razov S. Çin islahatları:təcrübə,problemlər.Dirçəliş jurnalı,№7-9,Bakı,1991
10. "Madrid Protocol". uspto.gov. United States: U.S. Patent and Trademark Office. Retrieved May 23, 2021
11. Бжезинсий З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы.М. Международные отношения, 2010. 256 с.
12. Панарин.А.Политология.М.Гардарики, 2002.480 с.
13. Бирнбаум // Большая российская энциклопедия : [в 35 т.] / гл. ред. Ю. С. Осипов. — М.: Большая российская энциклопедия, 2004—2017.
14. Панарин.А. Стратегическая нестабильность XXI века. М.Алгоритм, 2003,560 с.

Хумейра Мустафаева

ПОЛИТИЧЕСКИЕ И ЭКОНОМИЧЕСКИЕ ПРЕОБРАЗОВАНИЯ В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

Резюме

В статье с историко-политической точки зрения характеризуется совокупность экономических, политических, идеологических, правовых, дипломатических и иных отношений между государствами и государственными системами, действующими на мировой арене международных отношений. Определены понятия формирования отношений между государствами. При этом развитие международных отношений в рамках взаимодействия экономической, политической, социальной и культурной сфер анализируется на фоне международных организаций, созданных на основе межгосударственного междуна-

родного сотрудничества.

В рамках системного изучения международных отношений выделяются несколько подходов из традиционно-исторического, историко-социологического, эвристического, смешанного и эмпирического, а международные отношения анализируются с политической точки зрения существования международного порядка в мировой системе.

В развитии современных международных отношений подчеркиваются важные условия международного сотрудничества и равноправия в регулировании межгосударственных отношений в рамках правовых норм. Исследование также выявляет сложность и разнообразие *политического и социально-экономического развития в современное время.*

Цель – состоит в том, чтобы определить особенности межгосударственных, международных организаций и транснациональных корпораций в системе международных отношений, основанных на геополитических экономических интересах.

Методология – использованы методологические и исследовательские методы политического, нормативного и сравнительного анализа.

Результаты исследования – выявлены причины влияния политических процессов на миропорядок в формировании различных международных отношениях.

Ключевые слова: *международные отношения, политика, экономические и национальные интересы, международные организации, международное сотрудничество, демократизация*

Humeyra Mustafayeva

POLITICAL AND ECONOMIC TRANSFORMATIONS IN THE SYSTEM OF INTERNATIONAL RELATIONSHIPS

Summary

The article characterizes the combination of economic, political, ideological, legal, diplomatic and other relations between the states and state systems operating in the world arena of international relations from the historical and political point of view. The concepts of formation of relations between states have been defined. At the same time, the development of international relations within the framework of interaction of economic, political, social and cultural spheres is analysed against the background of international organizations established on the basis of interstate international cooperation.

Within the framework of a systematic study of international relations, several approaches are distinguished from traditional-historical, historical-sociological, heuristic, mixed and empirical approaches, and international relations are analysed from the political point of view in the existence of international order in the world system.

In the development of modern international relations, important conditions for international cooperation and equality in the regulation of interstate relations within the framework of legal norms are emphasized. The study also identifies the complexity and diversity of political and socio-economic development in modern times.

The purpose – is to determine the features of the interstate, international organizations and transnational corporations in the system of international relations based on geopolitical economic interests.

Methodology – research methods of political, normative and comparative analysis were used.

The results of the research – the reasons for the impact of political processes on the world order in the formation of various international relations have been identified.

Keywords: *international relations, politics, economic and national interests, international organizations, international cooperation, democratization*

UOT 378.48

Vilayət İsmayılov
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası, i.e.d.
ismaylov1953@mail.ru

Nicat Rzayev
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası, magistrant
rzayevnicat00@gmail.com

BEYNƏLXALQ TURİZMİN İNKİŞAFINDA İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU

Məqalədə beynəlxalq turizmin inkişafında informasiya texnologiyalarının rolu, informasiya texnologiyalarından istifadənin beynəlxalq turizmə verdiyi töhfələr göstərilmişdir. Beynəlxalq turizmin inkişafında informasiya texnologiyası turizm xidmətinin daşınmaz olması, onun təşkili üçün geniş informasiya-reklam tədbirlərinin görülməsinin vacibliyi və s. ilə izah olunur. Bundan başqa turizm biznesinin müəyyən dərəcədə mövsümi xarakter daşıması, mövsüm aylarında kütləvi turist tələbatının həddən artıq yüksəlməsi, turistlərin tələbatının ödənilməsi üçün turizm müəssisələrindən əlavə digər çoxlu sayda müəssisələrin də bu işə cəlb olunması burada etibarlı və sürətli informasiya mübadiləsi zərurətini ortaya qoyduğu qeyd edilir. Həmçinin, məqaələdə kompüter texnologiyasının və sürətli informasiya mübadiləsinin tətbiqinin turizmin təşkilində aparıcı rola malik olan turopertorların fəaliyyətinə ciddi təsiri qeyd edilmişdir.

Məqsəd-beynəlxalq turizmin inkişafında informasiya texnologiyalarının rolu və əhəmiyyətini müəyyənləşdirməkdən ibarətdir.

Metodologiya - tədqiqat işində statistik, iqtisadi və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Tədqiqatın nəticələri - beynəlxalq turizmin inkişafında informasiya texnologiyalarının rolu, informasiya texnologiyalarından istifadənin beynəlxalq turizmə verdiyi töhfələrin əhəmiyyəti müəyyən edilmişdir.

Açar sözlər: *beynəlxalq turizm, informasiya, texnologiya, müasir turizm, rol, töhfə*

Giriş

Turizm ayrı-ayrı ölkələrin iqtisadiyyatının əhəmiyyətli bir sahəsidir. Turizmin xarici valyuta gəlirlərinin, məşğulluğun və insanlararası təmasların genişlənməsinin mənbəyi kimi əhəmiyyəti artmaqdadır. Ümumdünya Turizm Təşkilatının (UNWTO) apardığı tədqiqatlar göstərir ki, qlobal maliyyə və iqtisadi böhranla bağlı son illərin obyektiv çətinliklərinə, dünyanın bir sıra turizm mərkəzlərində qeyri-sabit siyasi vəziyyətə baxmayaraq, qlobal turizm sənayesinin vəziyyəti ümumilikdə sabitdir və dünya iqtisadiyyatının ən böyük, yüksək gəlirli və sürətlə inkişaf edən sektorlarından biri kimi öz mövqeyini qoruyub saxlayır. Turizm sahəsində Azərbaycanın dövlət siyasətinin əsas vəzifələrindən biri də turizmin beynəlxalq tənzimlənməsinin hüquqi sahəsinə inteqrasiya edilməsi məqsədilə milli qanunvericiliyin birləşdirilməsidir. Azərbaycan Respublikasında turizm sənayesinin inkişafı ölkənin dünya turizm məkanına sürətli inteqrasiyası üçün

dövlət yardımının göstərilməsini tələb edən sosial əhəmiyyətli vəzifələrdən biridir.

Beynəlxalq turizmin inkişafında informasiya texnologiyasının rolu turizmin bir sıra səciyyəvi xüsusiyyətlərinə görə daha da əhəmiyyətlidir. Bu, turizm xidmətinin daşınılmazlığı, onun təşkil olunması üçün geniş informasiya-reklam tədbirlərinin aparılmasının vacibliyi və s. ilə izahlandırılır. İlk öncə onu qeyd etmək lazımdır ki, turizmin inkişafı üçün ən mühüm amil kimi adət edilməmiş ətraf mühit şəraiti Azərbaycanın ucqar dağ kəndlərinin ərazisində həmişə potensial turizm resursu olmuş və indi də olmaqdadır. Digər bir tərəfdən, getdikcə dinamik artan gəlir səviyyəsinə görə kənd əhalisindən seçilən şəhər əhalisi 10-11 aylıq fasiləsiz iş müddətindən sonra obyektiv olaraq özlərinin səyahət-rekreasiya tələbatlarını ödəməyə çalışırlar. Bu tələbatların ödənilməsi üçün müstəqil ölkəmizin vətəndaşlarının sərbəst seçimi nəticəsində dünya ölkələrinin turizm müəssisələrinin xidmətlərindən istifadə etmək hüquqları vardır. Lakin məsələnin iqtisadi tərəfi bu seçimə alternativ ola biləcək, ölkənin və turistlərin mənafeyi baxımından aktual olan bir çox məsələləri ön plana çəkir. Bu, bir tərəfdən getmə turizmi nəticəsində itirilən valyuta vəsaitlərinin daxili bazarda dövriyyəsinin bərpa olunmasına, digər bir tərəfdən isə həmin turizm obyektlərində istirahət etməyi seçən xarici turistləri cəlb etməklə daha çox əlavə gəlir əldə etməyə imkan verə bilər. Digər bir mühüm cəhət isə dünyada turizm xidmətinin, nəqliyyat vasitələrinin getdikcə bahalaşması, lokal münaqişələrin və terror təhlükəsinin artması ilə əlaqədar turistlərin onlara ən yaxın olan turizm-istirahət zonalarına daha çox meyl etməsidir.

Müasir qloballaşma dövründə bəşəriyyət öz inkişafının yeni mərhələsinə informasiya dövrünə girmişdir. İndi artıq insan həyatını, onu formalaşdıran informasiya məhsulu olmadan təsəvvür etmək mümkün deyildir. Onu əhatə edən dünyada baş verən hadisələri mümkün olduğu qədər sürətlə izləmək, alınmış informasiyadan faydalı şəkildə isiifadə edə bilmək hər bir insanın gündəlik tələbatına, müasir həyat tərzinə çevrilmişdir. İndi informasiya mübadiləsində istifadə edilən bir sıra tarixi-ənənəvi üsullardan tutmuş İnternetə qədər hər bir vasitə məhz bu həyat tərzinin harada və necə inkişaf etdiyinin bir göstəricisi kimi qəbul edilməkdədir.

Mövcud ədəbiyyatlara istinad və məlumatların təhlili

İnsan cəmiyyəti daim inkişaf etməkdədir. Bu gün tələbatlarımız arasında elələrini qeyd etmək olar ki, onlar məhz informasiya vasitələrinin sürəti və etibarlılığının artması ilə gündəlik həyatımızda yeni əhəmiyyət qazanmış, öz dəyərinə görə bir çox istehlak növlərini də ötüb keçmişdir. Bu baxımdan bir çoxları tərəfindən XXI əsrin fenomeni kimi qiymətləndirilən turizm sahəsi də özünə maraq cəlb etməkdədir.

Hər gün milyonlarla insan qohum və ya dostlarını ziyarət etmək, işgüzar danışıqlar aparmaq, peşə vəzifələrini yerinə yetirmək, təhsil almaq və s.üçün bir ölkənin hüdudlarından kənara çıəxaraq digərinin hüdudlarına keçir. Bu insanların öz dövlət hüdudlarından kənara çıxmağının səbəbləri çoxdur. Lakin bu səbəblərdən ən populyarlarından biri isə turizmdir. Bu gün səyahət etmək məqsədi ilə turist kimi istirahət etmək bəşəriyyətin həyatının ayrılmaz hissəsidir [17].

Qeyd etmək lazımdır ki, son illər Azərbaycanda beynəlxalq turizm sürətlə inkişaf etməklə orta illik iqtisadi artımın 4,3%-ni təmin edir. Hazırda beynəlxalq turizm dünya iqtisadiyyatında aparıcı fəaliyyət istiqamətlərindən biridir. Belə ki, göstərilən bütün xidmətlərin 1/3-i turizm hesabına həyata keçirilir. Bəzi ölkələrdə dövlət büdcəsinin 30-40%-i turizm hesabına formalaşır (Meksika, Sinqapur, Tayland və digər ölkələrin milli gəlirlərinin 80%-i turizm sferası hesabına təmin edilir). Beynəlxalq Turizm Təşkilatının (UNWTO) proqnozuna əsasən 2020-ci ildə turizmdən alınan gəlirlər 1,5-2 milyard dollar

təşkil edəcəkdir. Bu isə dünya əhalisinin turistik proseslərdə aktivliyinin 2-3 dəfə artacağını ifadə edir [16].

Bir çox ekspertlərin qiymətləndirməsinə görə, planetdə 196 müstəqil dövlət yerləşir (tanınmamış və ya qismən tanınmış dövlətlər nəzərə alınmadan). Onların hər biri sahəsi, əhalinin sayı, rifah səviyyəsi, infrastrukturun keyfiyyəti və turistləri maraqlandıran yüzlərlə digər göstəricilər, o cümlədən mədəniyyət, ənənə, mətbəx, memarlıq abidələri, iqlim və təbii ehtiyatlar baxımından fərqlənir. Ayrı-ayrı ölkələrə səfər etmək səviyyəsi viza tələbləri, təhlükəsizlik sistemi və görməli yerlərin olması da daxil olmaqla bir çox amillərdən təsirlənir. Hər il BTT-nın nüfuzlu turizm agentlikləri və ixtisaslaşdırılmış beynəlxalq təşkilatlar insan axınlarını təhlil edir və dünyada ən çox ziyarət edilən dövlətlərin tam obyektiv reytinqlərini təşkil edirlər [17].

BMT-nin Ümumdünya Turizm Təşkilatının (UNWTO) 2021-ci ilin rəsmi turist səyahəti və ekskursiyalarının məlumatlarına əsaslanaraq 2022-ci ildə dünyanın ən çox ziyarət edilən ölkələrini seçmək olar. Belə ki, bu seçim əsasən 2021-ci ildə ən çox turistlərin qəbulu göstəricisi əsasında müəyyən edilmişdir (cədvəl 1).

Cədvəl 1


2022-ci ildə ən çox turist qəbul ədə biləcək ilk onluqda yerləşmiş ölkələrin siyahısı

Turist qəbulu seçimi ölkələrinin sırası	Ölkələr	Gözlənilən turist qəbulunun sayı, mln. nəfər
1	Fransa	89,4
2	İspaniya	83,5
3	ABŞ	79,3
4	Çin	65,7
5	İtaliya	64,5
6	Türkiyə	51,2
7	Meksika	45
8	Tayland	39,8
9	Almaniya	39,6
10	Böyük Britaniya	39,4

Qeyd: [17] əsasında müəlliflər tərtib etmişdir

Məlumatların təhlili göstərir ki, ənənəvi olaraq, ilk üç ən populyar ölkələr Fransa, İspaniya və Amerika Birləşmiş Ştatları hesab edilir. Qeyd edilmiş bu 10 ölkə bigə 597,4 milyon nəfər turist qəbul edir ki, bu da təxminən dünya üzrə turistlərin 48-50%-ni təşkil edir. Belə ki, həmin sıralamada birinci yer almış Fransa ilə sonuncu yer alan Böyük Britaniya ölkələrinin turist qəbulu sayında təxminən 50 mln. nəfər fərq vardır. 2021-ci ildə qəbul edilmiş turistlərin sayının təhlili göstərir ki, ilk üçlükdə olan ölkələr üzrə bu göstərici Fransada (89,4 mln. nəfər), İspaniyada (82,8 mln. nəfər) və ABŞ-da (79,6 mln. nəfər) təşkil etmişdir. Turist qəbulunda ilk onluqda 8-10-cu sıralarda yerləşən Almaniyada -38,88 mln. nəfər, Taylandda-38,28 mln. nəfər və Böyük Britaniyada-36,3 mln. nəfər təşkil etmişdir.

Beynəlxalq turistlərin qəbulu göstəricisi haqqında məlumatlar əsasında 216 ölkə içərisində 100 ölkə sırasında yerləşmiş keçmiş sovetlər ittifaqı ölkələrinin reytinq sırası şəkil 1-də verilir.



Şəkil 1. Turist qəbuluna görə 100 ölkə sırasında olan keçmiş sovetlər ittifaqı ölkələrinin reytinqi

Qeyd: [18] əsasında müəlliflər tərəfindən tərtib edilmişdir

Belə ki, reytinq sırasında 16-cı yer almış Rusiyanı səyahət etmək istəyən beynəlxalq turistlərin sayı 2021-ci ildə 24, 551 mln. nəfər, 30-cu sırada olan Ukraynada-14,207 mln. nəfər, 55-ci sırada yerləşmiş Gürcüstanda-4,757 mln. nəfər, 57-ci sırada Qırğızıstanda-4,568 mln. nəfər, 69-cu sırada yerləşmiş Estoniyada-3,234 mln. nəfər, 74-cü sırada yerləşmiş Qazaxstanda-2,991 mln. nəfər, 75-ci sırada yerləşmiş Litvada-2,825 mln. nəfər, 77-ci sırada yerləşmiş Azərbaycanda-2,606 mln. nəfər, 86-cı sırada yerləşmiş Belorusda-2,142 mln. nəfər, 90-cı sırada yerləşmiş Latviyada-1,946 mln. nəfər və 98-ci sırada yerləşmiş Ermənistanda-1,652 mln. nəfər olmuşdur [18]. Təhlil göstərir ki, bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da turist qəbulu 2019-cu illə müqyisədə 2021-ci ildə 17,8% və ya 0,564 mln. nəfər az olmuşdur. Fikrimizcə, bu azalma bütün dünya ölkələrini öz caynağına almış pandemiya ilə əlaqələndirilə bilər. Onu da qeyd edək ki, Azərbaycanda ən çox turist qəbulu ili hesab edilən 2019-cu ilin göstəricisi də kifayət səviyyədə deyildir. Odur ki, ölkəmizə beynəlxalq turist axınının yüksəldilməsinin təşkili həm dövlət səviyyəsində, həm də ADTA və onun tabeçilində olan turizm şirkətləri səviyyəsində həlledici işlərin görülməsini nəzərdə tutan müvafiq tədbirlər planı və Dövlət Proqramlarının işlənililib hazırlanmasına və realizasiyasına səfərbər olunmalıdır.

İnformasiya texnologiyalarından istifadənin turizmdə rolu

Turizm fəaliyyətində informasiya texnologiyalarından geniş istifadə olunur. İnformasiya texnologiyalarının turizmdə tətbiqi oteldə və digər kütləvi yerləşdirmə vasitələrində qonaqların təhlükəsizliyinin qorunmasında kompüter sisteminin mövcudluğu, mehmanxananın müştəri bazasını genişləndirilməsinə və bir çox marketinq məsələlərinin həllinin tapılmasına imkan verir [12].

Hazırda beynəlxalq turizm sənayesi kompüterləşməyə keçib, yəni ilk növbədə bu turizm sənayesində bütövlüklə iş prosesini dəyişdirir və tədricən informasiya texnologiyalarının tətbiqi ilə bütün mühüm məsələlər həll olunur. İkincisi, kompüterləşmə prosesi əlavə vəsait tələb edir. Üçüncüsü, kompüterləşmə, əməyin yüngülləşdirilməsinə xidmət edir. Kompüterləşmə prosesi müxtəlif ölkələrdə və müəssisələrdə fərqli formada həyata

keçirilir. Bu, ölkənin iqtisadi və turizm sənayesinin vəziyyətindən, müəssisənin rəhbərliyi tərəfindən problemlərin başa düşülməsi və onun həlli istiqamətində müvafiq tədbirlərin görülməsindən, müəssisənin maliyyə durumunun və ixtisaslaşmış kadrların mövcudluğundan asılıdır.

Turizm sənayesində kompüterləşmə prosesinə başqa sahələrə nisbətən gec başlanılmışdır. Kompüterləşmənin gec tətbiq olunması turizm sənayesi müəssisələrinə daha az vəsaitlə yeni nəsil informasiya texnologiyalarını almağa imkan verdi. Beynəlxalq turizmin təşkil olunmasında müasir səviyyəli yüksək keyfiyyətli informasiya texnologiyasının rolunun aydınlaşdırılması və tətbiqinin öyrənilməsi maraq doğuran məsələlərdəndir. Beynəlxalq turizmin inkişafında informasiya texnologiyasının rolu isə turizmin bir sıra səciyyəvi xüsusiyyətləri ilə daha da əhəmiyyətlidir. Təşkilati cəhətdən istənilən turizm müəsisəsinin informasiya texnologiyaları ilə təchiz olunması ənənəvi olaraq qəbul edilən müəssisə ofisinin avtomatlaşdırılmasından əlavə yerli elektron şəbəkə və elektron sənəd dövriyyəsinin, habelə yol biletləri və otel nömrələrinin əvvəlcədən sifariş olunmasına qədər istənilən miqyasda işlərin həyata keçirilməsini təmin edə bilər. Əgər müasir səviyyəli informasiya texnologiyasının istifadə olunmasının struktur sxeminə nəzər salsaq, burada üç səviyyənin - müəssisədaxili, müəssisələrarası və interaktiv informasiya əlaqəsinin yaradılmasını qeyd etmək olar.

İnternetin turizm müəssisəsi üçün yaratdığı imkanları qısa olaraq aşağıdakı kimi göstərmək olar:

- şəbəkə marketinqinin həyata keçirilməsi;
- təklif etdiyi xidmətin "Online" rejimi üzərindən satılması;
- ərazicə uzaq olan müştərilərlə əlaqə yaradıla bilinməsi;
- ucuz kommunikasiya vasitələri ilə əlaqəyə çıxış (elektron poçt, rəqəmli telefon, videotelefon, və s.);
- internetin köməyi ilə biletlərin satılması, otel nömrələrinin bronlaşdırılması;
- səmərəli reklamın həyata keçirilməsi;
- elektron sərgilərdə, yarmarkalarda, sərgilərdə və s. iştirak;
- uzaqdan qeyri-nağd hesablaşmaların həyata keçirilməsi;
- 24 saat operativ iş rejimi;
- potensial əməkdaşların axtarılması;
- müəssiəsənin ictimaiyyətlə əlaqələrinin yüksək keyfiyyətlə və sürətlə aparılması;
- müəssisənin korporativ saytının yaradılması və onun İnternetdə yerləşdirilməsi.

Turistin internet vasitəsilə əldə edə biləcəyi potensial informasiyalara aşağıdakılar daxildir:

- məsafədən asılı olmayaraq istənilən turizm müəssisəsinin xidmətlərindən istifadə etmək;
- öz marşurutunu müəyyənləşdirmək, nəqliyyat vasitələri və bilet qiymətləri haqqında məlumatlar almaq;
- nəqliyyat vasitələrinə və otel nömrələrinə yerləri bronlaşdırmaq;
- istifadə etdiyi xidmət və əmtəələrin haqqını ödəmək;
- internetin axtarma sistemlərindən istifadə etmək;
- elektron poçtdan istifadə etmək.

İnformasiya, onun etibarlı mübadilə vasitələri turizm üçün niyə bu qədər vacibdir. Bu suala cavab vermək üçün turizm xidmətinin özünəməxsus xüsusiyyətlərini, turizm məhsulunun yaradılması, istifadə olunması zamanı qarşıya çıxan məsələlri araşdırmaq, turistlərin fərdi xüsusiyyətlərini nəzərə almaq lazımdır.

İqtisadiyyatın bütün sahələri kimi turizmdə də göstərilən xidmətin istehlakçıya

çatdırılması (marketinq), onun daha tez və səmərəli şəkildə reallaşdırılması mühüm məsələlərdən biri hesab olunur. Əgər turizm şirkəti üçün bu məsələ nə qədər vacibdirsə, istehlakçı üçün də eyni aktuallıq daşımaqdadır. Özünün qısa məzuniyyətini daha mənalı şəkildə keçirə bilmək istəyən hər bir işgüzar adam çoxlu sayda turizm məhsulu təklif edən firmaların seçimi qarşısında qalır. Bu isə çaşqınlığa və məsələnin reallığa çevrilməsinə maneələr yarada bilər. Bundan əlavə turizm xidmətinin özü bir sıra unikal xüsusiyyətləri ilə də fərqlənir. Bu xüsusiyyətlərə turizm məhsulunun bir yerdən başqa yerə daşına bilməməsi, turizm xidmətinin nisbətən mövsümi xarakter daşıması, turizm xidmətinidən istifadə edən insanların yüksək tələbkarlıqları aid edilə bilər. Turistlərə nəzər salsaq onların kifayət qədər təhsilli, maddi cəhətdən imkanlı, işinə ciddiliklə yanaşan, dinamik həyat tərzinə və tez-tez sərbəst səyahət etməyə meylli olan şəxslər olduğunu görərik. Bu insanlar onlara ayrılmış iş vaxtına ciddi əməl etdiklərii kimi istirahətlərini də mənalı keçirməkdə maraqlıdırlar. Əgər tarixə geri dönüb, məsələn, məşhur "Orient Express" ilə səyahətə nəzər salsaq, həmin dövrdə turizmin bir aristokrat əyləncəsi xarakteri daşıdığını görərik. Müasir dünyada İnternetin Yer kürəsinin istənilən nöqtəsinə qədər yayıldığını nəzərə alsaq potensial müştərilərin məhz bu şəbəkədən istifadə edərək öz istəkləri çərçivəsində seçimlərinin etdiklərini tamamilə təbii bir hal kimi qəbul etmək olar. Məsələnin populyarlığını başa düşən turizm firmaları ümümdünya şəbəkəsində təmsil oluna bilmək üçün özlərinin səhifələrini təqdim edirlər. İnternet hər bir müştəriyə (potensial turistə) yönəlmiş fərdi yanaşmanı təmin edir. Müasir dövrdə bütün dünya üzrə belə səhifələrin sayının 80 minə çatdığını göstərməklə məsələnin nə qədər populyar olduğunu bir daha əsaslandırmaq olar.

Qlobal şəbəkə bütün Yer kürəsini əhatə edən istənilən rabitə şəbəkəsidir. Qlobal şəbəkə termini daha dar mənada ikiistiqamətlil rabitə şəbəkələrinə, eləcə də şəbəkə texnologiyaları bazasına aiddir. Beynəlxalq poçt göndərişləri, radio və televiziya kimi bir yönlü rabitə şəbəkələri kimi erkən yaradılmış şəbəkələrin nəzərdən keçirilməsinə artıq ehtiyac duyulmur. Belə ki, ilk qlobal şəbəkə elektrik teleqrafının köməyi ilə yaradılmış və 1899-cu ildə qlobal miqyasda vüsət almışdır. Telefon şəbəkələri isə 1950-ci illərdə qlobal status əldə etmişdir. Bu yaxınlarda bir-biri ilə əlaqəli IP şəbəkələri (əsasən internet, 2009-cu ildə dünyada təxminən 360 milyon istifadəçiyə malik olmuş), eləcə də mobil GSM şəbəkələri (2009-cu ildə dünyada 3 milyarddan çox istifadəçi) ən böyük qlobal şəbəkələr hesab edilmişdir. Qlobal şəbəkələrin qurulması bir çox onilliklər ərzində davam edən böyük maliyyə səyləri tələb edir. Yerüstü və sualtı kabellər, yerüstü stansiyalar kimi fiziki informasiya daşıyıcılarının işlənib hazırlanan birləşmələr, ötürülən və istiqamətləndirici qurğular istismara verilməlidir. Bunun üçün, beynəlxalq kommunikasiya protokolları, qanunvericilik və sazişlər də cəlb olunmalıdır [19].

Ümumdünya şəbəkəsindəki belə səhifələrin bəziləri çox böyük olub, istifadəçiyə, bizim nümunədə potensial turistə kommersiya xarakterli informasiyadan əlavə, səyahətçi məsləhətləri, turizm mərkəzlərinə bələdçiliyi, görkəmli yerlərin foto və video təsvirləri, hava məlumatları, valyuta kursları, xəritə planlar haqqında məlumatlar verirlər. Bu ümumdünya şəbəkələrinə misal olaraq aşağıdakıları aid etmək olar:

- www.world-tourism.org;
- www.yahoo.com;
- www.expedia. com;
- www.asiatravel.com;
- www.travelocity.com;
- www.thomascook.co.uk;
- www.wttc.org;

- www.excite.com;
- www.travel.net;
- www.lycos.com və s.

Azərbaycan haqqında ümumdünya şəbəkəsində informasiya yayan ən görkəmli saytlardan www.myst.gov.az (Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin saytı), www.azeribaijan-info.com, (Azərbaycan haqında hər şey), www.culture.az (Azərbaycan mədəniyyətinə və incəsənətinə həsr olunmuş sayt), www.azerifolk.com (Azərbaycan mədəniyyəti haqqında sayt), www.tourizm.az (Virtual Turizm Agentliyinin xidməti), www.gateway.az və s. qeyd etmək olar. Ümumdünya şəbəkəsindən istifadə etməklə təkcə informasiyanın verilib-alınması kimi məsələləri deyil, həm də birbaşa olaraq turizm xitmətinin satışını da təşkil etmək mümükündür. Baxmayaraq ki, müasir dövrdə bu göstəricinin xüsusi çəkisi dünya üzrə ümumi turizm xidmətinin təqribən 3%-ni təşkil edir. Lakin, mütləq rəqəmlə ifadə etdikdə bu turizm xidməti satışı məbləğinin çox böyük olduğunu görmək mümkündür, bu isə turizm xidmətinin böyük bir həcmə malik olmasından irəli gəlir.

Potensial turistlərin İnternetini imkanlarından istifadə etməklə reklam olunan turist xidmətləri haqqında məlumatları asanlıqla əldə edə bilmələri turagentlər tərəfindən təklif olunan reklamlarla müqayisədə daha səmərəli olması ilə səciyyələnir. Belə ki, ənənəvi üsullarla (məsələn, televiziya) verilən reklamlar kütləvi auditoriya üçün nəzərdə tutulduğundan bir çox hallarda səmərəlilik vermir. Hətta məqsədli auditoriyanın seçilməsi düzgün həyata keçirildikdə belə, potensial müştərilər bu reklamlara qarşı biganə ola bilirlər. Bunun əsas səbəblərindən biri reklamı təşkil edən marketinq mütəxəssisnin qeyd edilən işə nəzarət etməsidir. Buradakı müştəri üçün reklama yalnız passiv mövqedən olaraq cəlb edilmə imkanı vardır. Başqa sözlə ifadə etdikdə bu nə dialoq, nə monoloq sayıla bilər. Ən yaxşı halda verilən bu reklam turizm xidməti təklif edən firmanın öz xidmətlərini tərifləməkdən ibarət ola bilər.

Texniki cəhətdən yanaşdıqda informasiya texnologiyalarının imkanlarının qeyri-məhdud olduğunu nəzərə alaraq onun insanların həyatında və iqtisadi fəaliyyətində, o cümlədən turizm biznesi sahəsində də rolunun getdikcə artdığını görmək mümkündür. İnsan tələbatının sonsuz olduğunu, bu tələbatların ödənilə bilməsi üçün resursların məhdud olduğunu nəzərə alarıqsa onlardan səmərəli şəkildə istifadə olunması mühüm məsələ kimi qarşıda durur. Qeyd edilən məsələnin həlli üçün isə həmin resurslar və onlardan istifadəfnin təşkili haqqında kifayət qədər informasiyaya malik olmaq zərurəti yaranır. İnformasiya texnologiyasınıın da sonsuz imkanlarından istifadə etməklə iqtisadiyyatın bütün sahələrində olduğu kimi dövrümüzün ən populyar sosial-iqtisadi hadisəsi olan beynəlxalq turizmin təşkili məsələsində də səmərəli nəticələr əldə etmək mümkündür.

Nəticə

Ayrı-ayrı ölkələrə səfər etmək səviyyəsi viza tələbləri, təhlükəsizlik sistemi və görməli yerlərin olması da daxil olmaqla bir çox amillərdən təsirlənir. Belə ki, ölkəmizə beynəlxalq turist axınının yüksəldilməsinin təşkili həm dövlət səviyyəsində, həm də ADTA və onun tabeçilində olan turizm şirkətləri səviyyəsində həlledici işlərin görülməsini nəzərdə tutan müvafiq tədbirlər planı və Dövlət Proqramlarının işlənililib hazırlanmasına və realizasiyasına səfərbər olunmalıdır.

Müasir dövrdə turizm və internet bir-biri ilə olan əlaqələrinə görə həm bir-birini tamamlayan, həm də bərabər inkişaf edən sahələrdir. Turizm sferası isə özünün spesifik xüsusiyyətləri ilə informasiya dəstəyinə daha çox ehtiyacı olan bir sahədir. Dünyada turizm məhsulunun böyük bir hissəsinin məhz internet vasitəsilə reallaşması turizmin informasiya

dəstəyinə nə qədər həssas olduğunu göstərir. Turizmin inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasında telekommunikasiya vasitələri kimi infrastruktur şəraitinin yaradılması sahəsində çoxlu işlər görülür və davam etdirilir.

Beləliklə, informasiya texnologiyalarının tətbiqi üzrə mövcud olan internet məhsullarının təhlili belə bir nəticə çıxarmağa imkan verir ki, onların böyük bir hissəsi təqdimat xarakteridir və İnternetin interaktiv imkanlarından çox az xidmət təklif olunur. Bu da sözsüz ki, ölkədə e-biznesin və e-commerce-nin zəif inkişafından irəli gəlir. Ümid etmək olar ki, həmin problemin həlli elektron turizmin daha sürətli inkişafına təkan verəcəkdir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. "Turizm fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. -Bakı, -2017
2. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanda turiz. -Bakı, -2021, -99 s.
3. Ataşov B.X. İdarəetmə elmi və rəhbər əməyi. - Bakı, -2011, -245 s.
4. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi. -Bakı, -2011, - 494 s.
5. География туризма / Под ред. А.Ю.Александровой. - Москва, -2018.-592 с.
6. Балабанов И.Т., Балабанов А.И. Экономика туризма. – Москва: Финансы и статистика, -2018, -176 с.
7. Биржаков М.Б., Никофоров В.И. Индустрия туризма: перевозки. – СПб.: Издателство Герда, -2007, -528 с.
8. Гуляев В.Г. Туризм: экономика и социальное развитие. - Москва, -2003, -302 с.
9. Карпова Г.А. Экономика современного туризма. СПб.: Герда, - 1998, -412 с.
10. Квартальнов В.А. Теория и практика туризма. - Москва: Финансы и статистика, -2001, -638 с.
11. Морозов М.А. Экономика и предпринимательство в социально – культурном сервисе и туризме. -Москва, -2009, -288 с.
12. Мацебера С.А. Информационные технологии в туризме. Материалы III научно-практической конференции. Бердянск: АУИТ «АРИУ» -2010, - С.1-12
13. Пекар В. Введение в экономику впечатлений // Маркетинг и реклама. —. 2008. — № 2. — С. 26–36
15. Соболева Е.А. Соболев И.И. Финансого – экономический анализ деятельности турфирмы. - Москва, -2010, -112 с.
16. https://top-rf.ru/places/556-strany-dlya-turistov.html
17. https://hochusvalit.com/khochu-svalit/samye-poseshchaemye-strany-mira
18. https://zbordirect.com/ru/blog/top-samykh-poseshchaemykh-stran-mira
19. https://ru.wikipedia.org/wiki/Глобальные_сети

Д.э.н. Вилаят Исмайлов
Ниджат Рзаев

РОЛЬ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В РАЗВИТИИ МЕЖДУНАРОДНОГО ТУРИЗМА

Резюме

В статье показана роль информационных технологий в развитии международного туризма, вклад использования информационных технологий в международный туризм. Информационные технологии в развитии международного туризма обусловлены недвижимостью туристской услуги, необходимостью проведения широкого спектра информационно-рекламных мероприятий по ее организации и др. Кроме того, отмечается, что туристический бизнес в определенной степени носит сезонный характер, в сезонные месяцы наблюдается

чрезмерный рост массового туристского спроса, а также привлечение к этой работе большого числа других предприятий для удовлетворения потребностей туристов, что создает необходимость в надежном и быстром обмене информацией. Также в статье отмечено серьезное влияние применения компьютерных технологий и быстрого обмена информацией на деятельность туроператоров, играющих ведущую роль в организации туризма.

Цель – определить вклад использования информационных технологий в международном туризме, роль и значение информационных технологий в развитии международного туризма.

Методология – в исследовании использовались методы статистического, экономического и сравнительного анализа.

Результаты исследования – роль информационных технологий в развитии международного туризма, важность вклада использования информационных технологий в международном туризме.

Ключевые слова: *международный туризм, информация, технологии, современный туризм, роль, вклад*

Doctor of economics Vilayat İsmayılov
Nijat Rzayev

THE ROLE OF INFORMATION TECHNOLOGY IN THE DEVELOPMENT OF INTERNATIONAL TOURISM

Summary

The article shows the role of information technology in the development of international tourism, the contribution of the use of information technology in international tourism. Information technologies in the development of international tourism are caused by the real estate of tourist services, the need for a wide range of information and advertising events for its organization, etc. In addition, it is noted that the tourism business is seasonal to a certain extent, during the seasonal months there is an excessive increase in mass tourist demand, as well as the involvement of a large number of other enterprises in this work to meet the needs of tourists, which creates the need for reliable and rapid exchange of information. The article also notes the serious impact of the use of computer technology and the rapid exchange of information on the activities of tour operators who play a leading role in the organization of tourism.

The purpose – to determine the contribution of the use of information technology in international tourism, the role and importance of information technology in the development of international tourism.

Methodology – political, normative and comparative analysis methods were used in the research.

The results of the study – the role of information technology in the development of international tourism, the importance of the contribution of the use of information technology in international tourism.

Keywords: *international tourism, information, technology, modern tourism, role, contribution*

UOT 33.336

Gülnarə Tanrıverdiyeva
Azərbaycan Dövlət İqtisad Universiteti, i.ü.f.d
gulya-tan@inbox.ru

MALİYYƏ NƏTİCƏLƏRİNİN KONSEPTUAL ƏSASLARI

Gəlir təşkilatlarının fəaliyyətinin gedişində müxtəlif daxil olmalar şəklində də təcəssüm edə bilər. Məsələn, malların, hazır məhsulların satışından, yaxud xidmətlərin göstərilməsindən gəlirlər. Təşkilat gəlirləri digər formada da əldə edə bilər. Məsələn, faizlər formasında – pul vəsaitlərindən, yaxud digər ekvivalentlərdən istifadəyə görə haqq, liseziya (icazə) ödənişləri – şirkətin uzunmüddətli aktivlərindən (məsələn, patentlər, ticarət markaları, müəlliflik hüquqları, digər aktivlər, mənfəətin bölüşdürülməsindən dividendlər və s.) istifadə haqqları. Prinsiplərdə xərclərin tərifi verilir, onların tanınması kriteriyaları şərh olunu."Maliyyə hesabatının təqdimatı" adlı MHBS-də xərclərin təsnifatı məsələləri açıqlanır. "Xərclər" termini ilə "məsrəflər" termini arasındakı əlaqə və fərqləri dəqiq bilmədən maliyyə nəticələrini müəyyən etmək və onların uçotunu aparmaq çətinliklər yarada bilər.

"Xərclər" termininin mahiyyəti belə açıqlanır: Xərclər- hesabat dövründə iqtisadi faydaların aktivlərin axıb getməsi yaxud tükənməsi ya da öhdəliklərin artması formasında azaldılmasıdır, bu da kapitalın səhmdar kapitalıştirakçıları arasında bölüşdürülməsi ilə əlaqədar olmayan azalmasına gətirib çıxarır.

Məqsəd – Azərbaycanda Beynəlxalq Mühasibat Uçotu Standartları əsasında müəssisələrdə uçot sisteminin müəyyənləşdirilməsidir.

Metodologiya – bu sahədə uçot sistemindəki dəyişikliklərin müqayisəli və göstəricilər əsasında qurulmasına istiqamətləndirilmişdir.

Açar sözlər: *hesablar planı, ikili yazılış kredit, maliyə riskləri , balans, aktiv, passiv*

Giriş

Müstəqilliyimizin ilk illərində ölkəmizin qarşılaşdığı müharibə şəraitinə və ağır iqtisadi-siyasi vəziyyətə baxmayaraq ölkə rəhbərliyinin uğurlu siyasəti nəticəsində həyata keçirilən geniş iqtisadi-siyasi islahatlar, iri regional layihələr və xüsusi dövlət proqramları sayəsində Azərbaycan keçid dövrünü müvəffəqiyyətlə başa vuraraq hal-hazırda regionda və dünyada bazar iqtisadiyyatı şəraitində yaşayan və sürətlə inkişaf edən ölkələr sırasına daxil olmuşdur. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişafının əsas amillərindən biri kimi korporativ idarəetmənin əhəmiyyəti çox böyükdür. Plan iqtisadiyyatdan fərqli olaraq bazar iqtisadiyyatı şəraitində maliyyə məsələləri vacib, maraqlı və diqqət tələb edən elmdir.

Plan ona görə vacib amil hesab edilir ki, bugünki investisiya qərarları 10, 20 və daha çox il müddətinə müəssisənin biznes fəaliyyətini müəyyən edə bilər. Həmçinin müəssisənin uğurlu və ya uğursuzluğu lazım gələn kapitalın əldə edə bilmə qabiliyyətindən çox asılıdır.

Maraqlı olmasının səbəbləri çoxdur. Maliyyə qərarları çox vaxt böyük pul məbləğləri ilə əlaqədar olur. Böyük investisiya layihələri və ya satınalmalar bəzən milyardlarla manatın cəlb olunmasını nəzərdə tutur. Həmçinin, qloballaşan dünyada maliyyə özü mahiyyət etibarilə beynəlxalq xarakter daşıyır və sürətli dəyişmələrə məruz

qalmaqla yanaşı cinayətkar əməllərdən də uzaq deyildir.

Maliyyə həm də diqqət tələb edəndir. Maliyyə qərarları demək olar ki, heç vaxt qurtarmır və müəssisənin içərisində olduğu maliyyə bazarları sürətlə fəaliyyət göstərir və dəyişirlər. Yaxşı maliyyəçi eyni vaxtda həddən artıq proqramların öhdəsindən gəlməli olur, lakin hər maliyyəçi dəyişmələrə düzgün reaksiya verməyi bacarmır. Bunun üçün sadəcə qaydaları bilmək kifayət etmir, müəssisələrin və maliyyə bazarlarının davranışlarında baş verən dəyişikliklərin səbəbini anlamaq tələb olunur. Müəssisə və təşkilatlarda maliyyə qərarlarının qəbul edilməsi üçün müvafiq biliklərə malik olduqda çətin problemlərin həlli asanlaşır.

Mövcud ədəbiyyatlara istinad

Konsepsiya – hər-hansı hadisənin əsas idayasını ifadə edən anlama və şərh etmənin müəyyən üsuludur. Maliyyə menecmentinin konseptual əsasları dedikdə maliyyə idarəetməsi sisteminin məntiqi, strukturu və fəaliyyət prinsiplərini müəyyən edən nəzəri əsasların məcmusu başa düşülür.

Maliyyə menecmentinin fundamental konsepsiyalarına aşağıdakıları aid etmək olar. Onların bəziləri praktiki deyil, daha çox nəzəri xarakter daşısa da effektiv maliyyə idarəetməsi sisteminin şüurlu şəkildə qurulmasında müstəsna əhəmiyyətə malik olduqları üçün qısa xarakteristikalarına nəzər yetirilməsi məqsədə müvafiqdir. (Sebzeliyev, 2013:85-91)

Pul axınları konsepsiyası

Müəssisənin təsvir olunmasının müxtəlif modelləri (model təsvirləri) mövcuddur. Ən çox modellərdən biri – müəssisənin bir-birini əvəzləyən *pul axınlarının* (pul daxilolmaları və ödənişi) məcmusu kimi təqdim olunmasıdır. Bu konsepsiya belə bir məntiqi fərziyyəyə əsaslanır ki, istənilən maliyyə əməliyyatı müəyyən pul axınları, başqa sözlə, zaman üzrə paylanmış ödənişlər və daxilolmalar deməkdir.

Pul axınının elementi gəlir, xərc, mənfəət, ödəniş və s. ola bilər. Əksər hallarda söhbət gözlənilən pul axınlarından gedir. Məhz bu növ axınlar üçün əsaslandırılmış maliyyə xarakterli qərarlar qəbul etməyə imkan verən riyazi üsul və meyarlar tədqiqatçılar tərəfindən işlənib hazırlanmışdır.

Diskont dəyər (pulun zaman dəyəri) konsepsiyası

Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, bu gün malik olduğumuz pul vahidi ilə müəyyən zaman intervalından sonra alınması gözlənilən pul vahidi eyni dəyəri ifadə etmirlər, belə ki, "sabahkı manat" öz dəyərinə görə "bugünkü manat"dan azdır.

Qeyd olunan "pulun zaman dəyəri" effektinin meydana çıxmasının üç əsas səbəbi vardır: *inflyasiya, risk və qeyrimüəyyənlik, pulun dövretmə qabiliyyəti.* Bu səbəblərin təsirinin mahiyyəti aydındır. (Səbzəliyəv, 2013: 85-105)

İnflyasiya nəticəsində pulun dəyərdən düşməsi baş verir, yəni daha gec əldə olunan pul vahidi daha az alıcılıq qabiliyyətinə malikdir. Praktiki olaraq iqtisadiyyatda risksiz vəziyyət olmadığı kimi, əldə olunması gözlənilən pul vəsaitinin hansısa səbəbdən gələcəkdə alınmayacağı ehtimalı da sıfırdan fərqlidir.

Nəhayət, hazırki anda malik olduğumuz pul təxirəsalınmadan dövriyyəyə buraxılaraq gəlir gətirə bilər. (Адамов, 2009:29)

Risk və gəlir arasında kompromis konsepsiyası

Riskin dərəcəsi ilə təklif (tələb) olunan və ya gözlənilən gəlirin miqdarı düz mütənasibdir. Potensial gəlir vəd edən maliyyə əməliyyatlarının planlaşdırılmasında

həlledici meyar Gəlir/Risk nisbətinin optimallaşdırılması meyarıdır.

Əməliyyat və maliyyə riskləri konsepsiyası

İstənilən müəssisə risklərin iki əsas növü ilə qarşılaşmalı olur: əməliyyat (fəaliyyət, sahibkarlıq, istehsal) riski və maliyyə riski.

Əməliyyat (fəaliyyət) riski geniş və ya dar mənada başa düşülə bilər. Geniş mənada bu risk biznesin sahə xüsusiyyətləri ilə bağlı onun özünəməxsus struktura malik olması ilə əlaqədar ortaya çıxır. Bu risk investor tərəfindən nəzərə alınmalıdır. Vəsaitini məhz bu sahəyə qoyan investor onun geri dönməməsi riskini qəbul etməlidir.

Buna görə də bu risk bəzən sahibkarlıq və ya biznes riski adlandırırlar. Dar mənada bu risk innovasiya fəaliyyəti ilə bağlıdır. Bahalı aktivlərin alınması pulun uzun müddətə dondurulması deməkdir. Əgər hansısa səbəbdən işlər yaxşı getməsə vəsait yalnız aktivlərin satılması yolu ilə qaytarıla bilər ki, bu da həmişə ciddi maliyyə itkiləri ilə müşayiət olunur. Buna görə də bu risk bəzən istehsal riski də adlandırırlar. (Адамов, 2009:32)

Maliyyə riskləri. Bu risk kapitalın strukturu ilə bağlıdır və müəssisənin maliyyə mənbələri barədə qərar qəbul edərkən nəzərə alınmalıdır. Məsələ burasındadır ki, istənilən biznesə spesifik bir xüsusiyyət – maliyyə mənbələrinin çatışmazlığı xasdır. Cəlbedici investisiya imkanları daim meydana çıxır. Lakin xüsusi kapital buna kifayət etmir. Nəticədə müəssisə sərfəli maliyyə şərtləri ilə uzunmüddətli borc əldə etmək üçün borcverənlərə müraciət etməli olur.

Müəssisə buna nail olsa da uzun müddət ərzində borca görə faizlər ödəməli olur. Üstəlik də ödənişlər müəssisənin fəaliyyətindən əldə etdiyi gəlirin səviyyəsindən asılı olmayaraq daim və müntəzəm həyata keçirilməlidir.

Mülkiyyətçilərdən fərqli olaraq borcverənlər gözləmir. Müəssisə borcverənlər qarşısında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə bilmədikdə müflisləşmə proseduru tətbiq oluna bilər və mülkiyyətçilər böyük itkilərə məruz qala bilər. Maliyyə riskinin mahiyyəti bundan ibarətdir.

Kapitalın dəyəri konsepsiyası

Maliyyə əməliyyatlarının əksəriyyətində müəyyən maliyyə mənbəyinin olması vacibdir. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, ödənişsiz (havayı) maliyyə mənbəyi yoxdur və müxtəlif maliyyə mənbələri müəssisəyə müxtəlif qiymətə başa gəlirlər. (Fətullayev, Kərimov, 2012:204)

Agent münasibətlər konsepsiyası

Birşəxs (və ya şəxslər) digər şəxsə (və ya şəxslərə) müəyyən işin yerinə yetirilməsini haqqını ödəmək şərti ilə tapşırır və ona (onlara) müəyyən səlahiyyətlər verirsə bu halda mütləq *agent münasibətlər* meydana çıxır. Bu konsepsiyaya görə bazar iqtisadiyyatı şəraitində müəssisənin fəaliyyətində maraqlı olan müxtəlif qruplar arasında müəyyən ziddiyətlərin olması qaçılmazdır. Belə ziddiyətlərin ən çox nəzərə çarpanı müəssisənin mülkiyyətçiləri arasında olur.

Bu ziddiyətlərin mahiyyəti, baş vermə səbəbləri və aradan qaldırılması yolları müəyyən dərəcədə agent nəzəriyyəsi çərçivəsində izah olunur. Vacib addımlardan biri agentlərin hərəkətləri üzərində nəzarət sisteminin yaradılması və bu məqsədlə müvafiq xərclərin nəzərə alınmasıdır.

Maraqların konfilikti kritik xarakter daşmadıqda maraqların *konqruent* olduğunu deyirlər. Konqruentliyə nəzarət etməyin yollarından biri – auditdir.

Alternativ xərclər konsepsiyası

Bu prinsipi bəzən "əldən buraxılmış imkanlar xərci" kimi adlandırırlar. Mənası ondan ibarətdir ki, istənilən maliyyə xarakterli qərarın qəbul edilməsi əksər hallarda müəyyən gəlir vəd edən alternativ variantlardan imtina etmək hesabına baş verir. Qərar

qəbul edilərkən bu əldən buraxılmış gəlirin nəzərə alınması vacibdir.

Qeyri-məhdud müddətə fəaliyyət konsepsiyası

Normal biznes şəraitində müəssisəni təsis edənlər onun uzun müddətli effektiv fəaliyyət göstərəcəyini düşünürlər. Yalnız fors-major hallar onun fəaliyyətini dayandıra bilər. Bunun sayəsində müəssisənin investorları və tərəfdaşları müəssisənin öhdəliklərinin yerinə yetiriləcəyinə əmin ola bilirlər. Bu konsepsiya müəssisənin stabil fəaliyyətinin əsasını təşkil edir. (Fətullayev, Kərimov, 2012:206)

Əmək və hüquqi müstəqillik konsepsiyası

Müəssisə öz mülkiyyətçiliyinə münasibətdə müstəqildir. O, yarandığı andan etibarən ayrıca əmlak-hüquqi kompleksə çevrilir. Başqa sözlə desək, müəssisənin əmlakı və vəzifələri onun mülkiyyətçilərinin və digər müəssisələrin əmlak və vəzifələrindən ayrılmış olur. Mülkiyyətçilərinə münasibətdə o müstəqil olur. Aktivlərin sahibi yalnız müəssisə özüdür. Hətta təsisçilərin tərkibindən çıxdıqda belə mülkiyyətçi nizamnamə kapitalına pay kimi olduğu aktivləri müəssisədən tələb edə bilməz.

Demokratik cəmiyyətdə bütün müəssisələr öz xüsusiyyətlərinə uyğun fəaliyyət göstərir və dinamik inkişaf edirlər. Belə müəssisələr sırasında ticarətlə məşğul olan təşkilatlar əsas rol oynayır. Belə təşkilatlar mal-material dəyərlilərinin satışı və işlənməsi ilə bağlı olan satış xərcinin ödənilməsi və fəaliyyətin –mənfəət əldə edilməsinin əsas mənbəyi olan ümumi gəlir kimi formalaşan malların satış qiymətinin hər bir müəssisəni özündə birləşdirən ticarət artırması (güzəşti) və əlavəsi əldə edirlər. Umumi gəlir adlanan ticarət güzəşti və əlavəsinin həçmi və onun təqdim olunması qaydası ümumi qarşılıqlı razılaşmaya müvafiq qanunverici aktlarla tənzimlənir. Ticarət güzəşti və əlavəsi əsas etibarı ilə ticarətlə məsğul olan müəssisələr üçün təyin edilir.

Ticarət güzəşti malların satıs qiymətlərinə nisbətən faizlə müəyyənləşdirilməklə mal qrupları və ticarət təşkilatlarının yerləşdiyi yerlər üzrə fərqləndirilir. (Səbzəliyev, 2013 : 67)

Mal satanlar tərəfindən ticarət güzəştinin düzgün verilməsi üzərində nəzarətin aparılması böyük əhəmiyyət kəsb edir.

Ticarət təşkilatlarının ümumi gəliri əsas etibarı ilə satılmış malların payına düşən ticarət güzəştinin səviyyəsi ilə təyin olunur. Umumi gəlir hesab edilən və ticarət muəssisəsinə məxsus olan ticarət güzəştinin sintetik uçotu 603 №-li "Verilmis güzəştlər" hesabında aparılır. Ayrı-ayrı əməliyyatları özündə əks etdirən hesabların debiti ilə müxabirləşməklə 603 №-li "Verilmis güzəştlər" hesabının kredit dövriyyəsi müxtəlif hesabların jurnal - orderlərində əks etdirilir. Daha doğrusu göstərilən hesabın məbləğləri 431, 531 "Mal satan və pordatçılara uzun/qısamuddətli" kreditor borcları" pərakəndə ticarət muəssisəsi oldugundan 205.2 №-li "Pərakəndə ticarətdə olan mallar" hesabları üzrə təyin olunmuş jurnal, orderlərin cədvəlində cəmləşir. (Fətullayev, Kərimov, 2012: 301)

Beləliklə, həmin hesabların debeti üzrə cədvəllərdə ay ərzində 603 №-li hesabın kredit dövriyyəsinin məbləği əldə edilir. Pərakəndə ticarət müəssisəsi malları öz yuxarı təşkilatının baza və anbarlarından alan hallarda, onlara verilən ticarət güzəştinin həcmi, tədavül xərcinin plan səviyyəsi və ayrı-ayrı ticarət müəssisələrinin rentabellik səviyyəsindən asılı olaraq fərqləndirilir. Mallar pərakəndə ticarət müəssisələrinə ticarət güzəşti və nəqliyyat xərcinin məbləği göstərilən tədiyyə tələbnaməsi, hesab-faktura və s. sənədlərə əsasən mədaxil edilir. Həmin sənədlərə əsasən mallar mədaxil edilən zaman təqdim olunmuş ticarət güzəştləri uçot reqistrlərində əks etdirilir. Lakin mallar yerli malsatanlardan və özünün təşkilatının baza və anbarlarından daxil olan hallarda ticarət güzəşti və nəqliyyat xərci mühasibat hesablarında malı mədaxil edən zaman deyil, baza və malsatanların ödəmə tələbnaməsi ödənildikdən sonra əks etdirilir. Belə bir hal baza yaxud anbardan malın buraxılmasına dair rəsmiyyətə salınmış sənətə ticarət güzəştinin

göstərilməsi ilə əlaqədardır. Beləliklə, malın pərakəndə ticarət müəssisənə mədaxili zamanı 431, 531 "Malsatan və podratçılara uzun/qısamuddətli kreditor borcları" hesabının kreditində, debitində isə nəinki, malsatanın ödənilmiş, ödəmə tələbnaməsinin məbləği, mədaxil edilmiş malın dəyəri pərakəndə qiymətlə, əks etdirilir. (Kərimov, 2012:234)

Belə ki, hesablaşma sənədində göstərilən ticarət güzəştinin məbləği 603 №-li hesabının kreditinə, 431 və ya 531 №-li hesabın debitinə yazılır. Beləliklə, 603 №-li hesab bilavasitə 431 və ya 531 №-li hesabla müxabirləşir. Mallar ticarət təşkilatının bölüşdürücü bazasından daxil olduqda isə 603 №-li hesab 172 №-li "Törəmə müəssisələrin uzunmuddətli debitor borcları" hesabı ilə müxabirləşir.

Yazlışda 603 №-li hesabın krediti 172 №-li hesabın debeti ilə müxabirləşməklə, daxil olmuş və ödənilmiş malın ticarət güzəşti yazılır. Anbar və ya bazalardan malların buraxılması zamanı uçotu sadələşdirmək üçün ticarət təşkilatına, öz pərakəndə ticarət muəssisələrinə ayrı, ayrı mallar üzrə müxtəlif ticarət güzəşti əvəzinə orta ticarət güzəşti faizi təqdim etməyə icazə verilir. Həmin ticarət güzəştinin miqdarı mal dövriyyəsinin quruluşundan asılı olaraq müəssisələr üzrə fərqləndirilmiş şəkildə təyin edilir. Bu zaman ticarət güzəştinin məbləği hər bir partiyanın malı üzrə deyil, ay ərzində buraxılmış malın bütün həcminə görə müəyyən edilir. Belə olduqda, ayın axırında təqdim olunmuş ticarət güzəşti 172 "Törəmə müəssisələrin uzunmuddətli debitor borclar", hesabının debetinə və 603 №-li hesabın kreditinə yazılmaqla rəsmiyyətə salınır. (Cəfərov, 2013:305)

Pərəkəndə ticarətdə satılmış malların payına düşən ticarət güzəştinin hesablanması üçün iki üsuldan istifadə edilir:

1. Orta ticarət güzəştinin faizi üzrə
2. Malların çeşidləri üzrə.

Satılmış ticarət güzəştini birinci üsul ilə hesabladıqda aşağıdakı hesablamalar həyata keçirilir:

1. Hesabat ayının axırında 603 №-li hesab üzrə qalıq əvvəlcədən təyin edilir.
2. 601 №-li satış hesabın hesabat dövrü üçün satılmış malların məbləği təyin olunur. Həmin məbləğ 205.2 №-li hesabın qalığına əlavə olunur.
3. Əvvəlcədən təyin edilmiş qalığın məbləği 100 ə vurulur və cəmi mal dövriyyəsinə bölünür. Beləliklə də, ticarət güzəştinin orta faizi təyin olunur.

Tapılmış orta faizdən və ayın axırına qalan mal qalığından istifadə edərək satılmayan mallara düşən ticarət güzəştlərinin məbləği müəyyən edilir. Bundan sonra həmin məbləg 603 №-li hesabın təqribi olan qalığından çıxılmaqla satılmış mallara düşən ticarət güzəşti əldə edilir. Satılmış ticarət güzəştinin bu qayda ilə müəyyən edilmiş məbləği storono üsulu ilə 601 №-li hesabın DT, də, 603 №-li hesabın KT- də əks etdirməklə rəsmiyyətə salınır. Lakin bu qayda ilə aparılan hesablama kifayətedici dərəcədə dəqiq məlumat verə bilmir. Bu onunda izah edilir ki, ayrı ayrı mallar bir, birindən fərqli ticarət güzəştlərinə malikdirlər. Buna görə də, bütün mallar üçün ticarət güzəştinin yeni orta faizini tətbiq etdiqdə satılmış ticarət güzəştinin məbləği az yaxud çox göstərilmiş olur.

Nəticə

Mal dövriyyəsinin artırılması və bu sahədə plan tapşırıqlarının artıqlaması ilə yerinə yetirilməsi bir tərəfdən ticarət güzəştləri məbləğinin artmasına, digər tərəfdən bu güzəştlərlə tərs münasibətdə olan tədavül xərclərinin aşağı salınmasına səbəb olur. Müəssisənin maliyyə vəsaitinin və onların idarə olunmasının xüsusiyyətləri, maliyyə nəticəsinə və onların uçotunun təskili problemləri fəsillərindən istifadə edən müəllif üçuncü fəsildə müəssisənin maliyyə əsaslığının əsası olan maliyyə nəticələrinin təhlilində ekspress və dərinləşmis həmçinin müəssisənin rentabelliyi və onun qiymətləndirilməsi

problemlərini konkret informasiyalarla əhatə edir və təsərrüfatın gəlirliyinin artırılması yollarını əsaslandırır.

Məhsul satışının ümumi həcmində parca, ayaqqabı, qızıl məmulatları və s. bu kimi məhsulların xüsusi çəkisi getdikcə artır. Odur ki, bu malların hesabına mal dövriyyə həcmini xeyli artırmaq mümkündür. Pərakəndə ticarətdə hələ də mal ehtiyatlarının qorunması, daşınması və satışa hazırlanması ilə əlaqədar olaraq çoxlu səmərəsiz tədavül xərcləri mövcuddur. Halbuki, bu məsrəfləri yükdaşımanın mütərrəqi metodlarını tədbiq etməklə xeyli azaltmaq olar. Bina və avadanlıqlardan istifadəyə görə ticarət müəssisələrinin ödədiyi icarə haqqlarının qədərinin nizamlanması da aktuallıq kəsb edir. Bu binaları icarə etmək üçün ticarət müəssisələri sənayə müəssisələrinə nisbətən artıq haqq verirlər. Buna görə icarə vermənin və icarə haqqının ödənilməsinin Avropanın digər ölkələrində tətbiq edilən variantlarından istifadə edilməsi məqsədə uyğundur.

Məhsul və əmtəələrin analitikliyini təmin etmək üçun onların beynəlxalq mühasibat uçotunda tətbiq edilən operativ (mühasibat) uçotu (qalıq) metodunun istifadə edilməsi daha səmərəli olar.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi
2. Atakişiyev M., Süleymanov Q.,"İnnovasiya menecmenti" Bakı-2004.
3. Адамов Н. Бухгалтерский учет инвестиций в капитальное строительство. Финансовая газета,-2009.
4. Abbasov Q., Səbzəliyev S., Daşdəmirov Ə., Quliyev V., Sadıqov Ə. "Mühasibat (maliyyə) uçotu". – Bakı, - 2013.
5. Cəfərov A."Mühasibat uçotu", - Bakı,- 2012
6. Əliyev R.B. İqtisadi təhlilin nəzəriyyəsi, - Bakı,-2002
7. Kərimov A."Mühasibat uçotu", - Bakı, -2010
8. Kərimov A."Mühasiba tuçotu". – Bakı, -2013
9. Quliyev V., Fətullayev R., Kərimov A. "Beynəlxalq uçot və hesabata giriş", - Bakı, - 2012
10. Milli Mühasibat Uçotu Standartları, Beynəlxalq Mühasibat Uçotu Standartları www.maliyyə.gov.az saytı

Гульнара Танривердиева

КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ ФИНАНСОВЫХ РЕЗУЛЬТАТОВ

Резюме

Различные в процессе деятельности доходы организаций также могут быть воплощены в виде логинов. Например, от продажи товаров, готовой продукции или услуг голирлар из сериала. Организационные доходы представлены и в других формах. альда эда биляр. Например, в виде процентов – с наличных денег, или плата за использование других эквивалентов (разрешительные) платежи – из долгосрочных активов компании (например, патенты, товарные знаки, авторские права, прочие активы, дивиденды от распределения прибыли и др.) платы за пользование.

Принципы дают определение издержек, их будь осторожен "Финансовый отчет презентация "Вопросы классификации затрат в МСФО объяснил. Между термином «затраты» и термином «затраты» определять финансовые результаты, не зная точных взаимосвязей и различий и ведение записей о них может создать трудности. Суть в следующем: Расходы – это отток активов от экономических выгод в течение отчетного периода. отбытие или исчерпание или увеличение обязательств акционер капитала связанные с распределением

между участниками капитала критерии признания Термин «расходы», это уменьшение формы.

Цель – Международный бухгалтерский учет в Азербайджане на основе системы бухгалтерского учета на предприятиях Стандарты удостоверение личности.

Методология – в области бухгалтерского учета вносить изменения на основе сравнительных и индикаторных направленный.

Ключевые слова: *план счетов, бинарный кредит, финансы. риски, баланс, активы, пассивы*

Gulnara Tanriverdiyeva

CONCEPTUAL FRAMEWORK FOR FINANCIAL PERFORMANCE

Summary

Different in the course of the activities of income organizations can also be embodied in the form of logins. For example, from the sale of goods, finished products or services golirlar from the show. Organizational revenues are in other forms as well alda eda bilar. For example, in the form of interest – from cash, or fee for the use of other equivalents (permit) payments – from the company's long-term assets (eg patents, trademarks, copyrights, other assets, dividends from profit distribution, etc.) usage fees. The principles give a definition of costs, their be careful "Financial Reporting presentation "adh issues of cost classification in IFRS explained. Between the term "costs" and the term "costs" determine the financial results without knowing the exact relationship and differences and keeping records of them can create difficulties. The essence is as follows: Expenditures are the outflow of assets from economic benefits during the reporting period departure or exhaustion or increase in liabilities shareholder of capital related to the distribution among capital participants recognition criteria The term "expenses" is a reduction in shape, this yes non-reduction leads to.

Objective – International Accounting in Azerbaijan based on the accounting system in enterprises Standards identification.

Methodology – in the field of accounting to make changes on the basis of comparative and indicators directed.

Keywords: *chart of accounts, binary credit, finance risks, balance, assets, liabilities*

UOT 657.6

Rauf Allahyarov
Azərbaycan Dövlət İqtisad Universiteti, i.ü. f. d.
allahyarovrauf50@gmail.com

MÜƏSSİSƏLƏRDƏ AUDİT XİDMƏTİNİN YARANMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Tədqiqatın məqsədi – mühasibat uçotunun (xüsusən də maliyyə uçotu) və beynəlxalq standartların konseptual əsaslarını, yəni ümumi qəbul edilmiş prinsip və metodları, milli və beynəlxalq mühasibat uçotu sistemlərini öyrənmək, mövcud mühasibat uçotu və maliyyə hesabatları sistemindəki problemləri öyrənmək, maliyyə hesabatlarının təkmilləşdirilməsi üçün istiqamətləri müəyyən etməkdir. Maliyyə uçotu məlumatları müəssisənin aktiv və öhdəliklərini qeyd edir.

Metodologiya – mühasibat uçotu məlumatların toplanması və auditorlar tərəfindən asanlıqla şərh edilə bilən məlumatların təşkili metodlarının tətbiqi əsas götürülmüşdür. Əməliyyat xərclərini, dəyişən gəlirləri və dividendləri nəzəri-metodoloji və analitik cəhətdən araşdırılması metodu tətbiq edilmişdir.

Orijinallığı və elmi yeniliyi – inkişaf etmiş ölkələrdə tətbiq edilən belə nəzarətin ən qabaqcıl, müasir forması olan daxili audit xidmətinin ölkəmizdə də təşkilinə ehtiyac vardır. Müəssisənin miqyasından, istehsalının həcmindən asılı olaraq iri və orta müəssisələrdə daxili auditin tətbiqi üçün xüsusi bölmənin, kiçik təşkilatlarda isə daxili auditorun cəlb edilməsi məqsədəuyğundur.

Açar sözlər: *audit, maliyyə hesabatı, investisiya, gəlir və xərclər, mühasibat uçotu, məsrəflər*

Giriş

Mühasibat uçotu maliyyə əməliyyatlarının təfərrüatlarının müəyyən edildiyi, ölçüldüyü, qeydə alındığı, təsnif edildiyi, yoxlanıldığı, təşkil edildiyi, şərh edildiyi və sistemli şəkildə maraqlı tərəflərə təqdim edildiyi bir fəaliyyətdir. Bu, şirkətin maliyyə və əməliyyat sağlamlığını qiymətləndirmək üçün rəqəmsal bir üsuldur. Müəssisədəki aktivlər, öhdəliklər və sahiblərin kapitalı kimi elementləri təhlil etməklə mühasibat uçotu müəyyən bir müddət ərzində baş vermiş mənfəət və ya zərəri aşkar edə bilər. Audit biznesin və ya fərdin maliyyə hesabatlarının dəqiq olub-olmadığını müəyyən etmək üçün diqqətlə yoxlanıldığı bir prosesdir. Həmçinin subyektin biznes sənayesində nəzarəti təmin edən qəbul edilmiş qayda və qanunlara uyğun olub-olmadığını müəyyən etmək üçün təhlil edilir. Audit adətən kənar auditorlar orqanı tərəfindən həyata keçirilir.

Mühasibat uçotu müəssisənin bütün həyatı boyu baş verən davamlı bir fəaliyyətdir. Mühasibat uçotu kimi də tanınan bu maliyyə tapşırığı hesabat dövrünün əvvəlindən başlayır və bitənə qədər davam edir. Digər tərəfdən, audit davamlı fəaliyyət deyil. O, biznes əməliyyatlarının təhlilinə ehtiyac yarandıqda başlayır. Buna sənaye qaydaları və ya bir şəxs və ya təşkilatla bağlı araşdırmanın ortaya çıxması səbəb ola bilər. Biznes ideologiyasına görə mühasibat uçotunun sonu auditin başlanğıcıdır [2, s.117].

Ehtimal etmək olar ki, audit xidmətlərinin inkişaf tempi, onların spektrinin genişləndirilməsi auditdən başqa xidmətlərin icrasını tənzimləyən normativ sənədlərlə, maliyyə hesabatlarının yoxlanılması, tapşırıqları və digər xidmətlərlə üst-üstə düşməyə bilər.

Audit və qeyri-audit xidməti

Audit xidmətləri qanunla müəyyən edilmiş audit xidmətlərinin göstərilməsi, o cümlədən qanunla müəyyən edilmiş hesabların auditi, yarımillik yoxlama və qanunvericiliyə uyğun olaraq digər xidmətlərdən ibarətdir.

Qeyri-audit xidmətləri qanunla müəyyən edilmiş audit xidmətlərindən başqa hər hansı xidmətlərdir və adətən aşağıdakılardan ibarətdir [4, s.201]:

- Vergi xidmətləri – o cümlədən vergi qanunvericiliyinə uyğunluq, vergi məsləhəti və vergi planlaşdırması;
- İnformasiya texnologiyaları xidmətləri – İT və digər nəzarət baxışları da daxil olmaqla;
- Korporativ maliyyə ilə bağlı xidmətlər – lazımi araşdırma və əməliyyat dəstəyi daxil olmaqla;
- Auditlə bağlı bütün digər xidmətlər – maliyyə uçotu və hesabatla bağlı məsləhətlər də daxil olmaqla standartlar; rahatlıq məktubları, sertifikat xidmətləri, razılıq və sənədlərə köməklik və onlara baxılması tənzimləyici orqanlara, daxili nəzarət araşdırmalarına, məhkəmə ekspertizasına, borc məsləhətinə və pensiyaya məsləhət işi təqdim edilmişdir.

Audit xidməti çox zəruridir, çünki audit xidmətləri olmayan şirkət firma üçün uyğun və ədalətli maliyyə hesabatları yarada bilməz. Audit xidmətlərinin üstünlüklərindən bəziləri aşağıda verilmişdir:

- ✓ Əmlakda və ya biznesdə hər hansı itki varsa, kompensasiya auditor tərəfindən yoxlanılmış ifadələrə əsasən sığorta şirkətləri tərəfindən təmin edilir.
- ✓ Maliyyə institutları yoxlanılmış hesabatlara (son beş ilin) əsasında kredit verirlər. Beləliklə, audit şirkətləri kredit götürə bilər.
- ✓ Audit ictimaiyyətin gözündə reputasiya yaradan bir təşkilatın gəlirliliyini və maliyyə vəziyyətini göstərir. Beləliklə, audit xidmətləri təşkilatın xoş niyyətini artırmağa kömək edir [6, s.91].

Müəssisələrdə audit xidmətlərinin təşkili və planlaşdırılması

Balans hesabatı şirkətin maliyyə qalıqlarının xülasəsidir, pul vəsaitlərinin hərəkəti haqqında hesabat isə balans hesablarında dəyişikliklərin – və mənfəət və zərər haqqında hesabatdakı gəlirlərin – şirkətin pul vəsaitlərinin vəziyyətinə necə təsir etdiyini göstərir. Başqa sözlə desək, şirkətin pul vəsaitlərinin hərəkəti haqqında hesabat müəssisəyə daxil olan və biznesdən çıxan pul vəsaitlərinin hərəkətini, şirkətin balansı isə onun aktivlərini, öhdəliklərini və sahiblərinin kapitalını ölçür [8, s.95].

Balans hesabatı şirkətin aktivlərini, öhdəliklərini və səhmdarların kapitalını müəyyən vaxtda, adətən bir dövrün sonunda, məsələn, rübün və ya ilin sonunda siyahıya alır. Balans hesabatı şirkətin aktivlər şəklində nəyə sahib olduğunu, öhdəliklər şəklində nəyə borclu olduğunu və səhmdarların kapitalında (həmçinin mülkiyyətçilərin kapitalı adlanır) siyahısına daxil edilmiş səhmdarlar tərəfindən qoyulmuş pul məbləğini göstərir (cədvəl 1).

Balans hesabatı şirkətin aktivlərini göstərir, həm də bu aktivlərin borc vasitəsilə və ya kapitalın buraxılması yolu ilə necə maliyyələşdirildiyini göstərir. Mühasibat balansı üç hissəyə bölünür: aktivlər, öhdəliklər və mülkiyyətçilərin kapitalı və o, aşağıdakı bərabərliklə təmsil olunur.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat daha sonra xalis gəliri götürür və onu nağdsız xərclər üçün düzəldir. Sonra balansda olan dəyişikliklərdən istifadə edərək pul vəsaitlərinin istifadəsi və mədaxili tapılır. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat dövr üzrə pul vəsaitlərinin dəyişməsini, həmçinin pul vəsaitlərinin başlanğıc və son qalığını göstərir.

Cədvəl 1. **Müəssisənin balansı**

Aktiv	Passiv
Vəsaitlərin tərkibi və yerləşməsi	Vəsaitlərin əmələ gəlmə mənbələri və təyinatı
Əsas vəsaitlər	Nizamnamə kapitalı
Qeyri-maddi aktivlət	Əlavə kapital
Uzunmüddətli maliyyə qoyuluşları	Ehtiyat kapitalı
Materiallar	Mənfəət
Hazır məhsul	Bankın uzunmüddətli kreditləri
Kassa	Bankın qısamüddətli kreditləri
Hesablaşma hesabı	Fəhlə və qulluqçulara olan borc
Debitorlar	Kreditorlar
Balans	Balans

Mənbə: cədvəl müəllif tərəfindən tərtib edilmişdir

Maliyyə təhlilini aparmaq üçün pul vəsaitlərinin hərəkəti, mənfəət və zərər haqqında hesabat kimi digər mühüm maliyyə sənədləri ilə yanaşı istifadə olunur. Balans hesabatının məqsədi şirkətinizin müəyyən bir zamanda xalis dəyərini göstərmək və maraqlı tərəflərə şirkətin maliyyə vəziyyəti haqqında fikir verməkdir [7, s.65].

Ümumiyyətlə, likvidlik şirkətin cari aktivlərindən istifadə etməklə cari öhdəliklərini ödəmək qabiliyyətidir. Pul vəsaitlərinin hərəkəti bir şirkətə daxil olan və çıxan pul vəsaitlərinə aiddir. Bir şirkətin bu iki sahədə nə qədər yaxşı çıxış etməsi onun fəaliyyət qabiliyyətinə və nəticədə gəlirliliyinə də təsir edə bilər.

Pul vəsaitlərinin hərəkəti şirkətin hesabat dövrünün əvvəlində əldə etdiyi pul vəsaiti ilə hesabat dövrünün sonunda malik olduğu pul vəsaiti arasındakı fərqdir. Pul vəsaitlərinin hərəkəti biznesin əməliyyat fəaliyyətini təmsil edir və ya ona əsaslanır. Hesabat dövrünün əvvəlindəki nağd pula açılış qalığı deyilir. Eynilə, hesabat dövrünün sonunda nağd pula yekun qalıq deyilir. Şirkətin pul vəsaitlərinin hərəkətini artıra biləcəyi üsullardan bəzilərinə daha çox mal və ya xidmət satmaq, xərcləri azaltmaq və debitor borclarını daha sürətli toplamaq daxildir.

Debitor-kreditorların maliyyə fəaliyyəti

Müəssisələrdə pul fəaliyyətinə nəzarət edərkən debitor və kreditorların hesablarının auditi aparılır. Məlumdur ki, debitor (borclu) fiziki şəxs, müəssisə və ya hər hansı digər qurumdur ki, onlara xidmət və ya mal göstərildiyinə və ya bir qurumdan borc götürdüyünə görə başqa quruma borcu olur.

Biznes sahibi kimi iki növ borclu var:

- ✓ işçi kreditləri;
- ✓ ticarət borcluları [9, s. 25].

Debitora misal olaraq, yeni avtomobil parkına investisiya qoymaq üçün bankdan borc götürən bir daşıma şirkəti göstərmək olar.

Kreditorlar başqa bir şirkətə borc verən və buna görə borcu olan fiziki şəxslər/müəssisələrdir. Bunun əksinə olaraq, borclular bir işdən borc götürmüş və buna görə borcu olan şəxslər/şirkətlərdir.

Borclu-kreditor hüququ bir tərəfin digərinə pul borcunu ödəyə bilmədiyi vəziyyətləri tənzimləyir. Üç növ kreditor var. Birincisi, müəyyən bir əmlaka qarşı girov qoyulmuş şəxslərdir. Bu əmlak (və ya onun satışından əldə edilən gəlir) digər kreditorlar qarşısında borcları ödəmək üçün istifadə edilməzdən əvvəl girov-kreditor qarşısında borcun ödənilməsi üçün istifadə edilməlidir. İkincisi, kreditorun üstün marağı ola bilər. Prioritet qanunvericiliklə müəyyən edilmiş qaydada yaranır. Kreditorun üstünlüyü varsa, borclunun digər borclar qarşısında müflis olması halında onun borcu ödənilməlidir. Sonuncu kreditor növü borclunun əmlakına qarşı nə girov hüququna malik olmayan, nə də qanunla müəyyən edilmiş prioritetin subyekti olan kreditordur. Kreditorun fiziki və ya hüquqi şəxs olmasından asılı olaraq bir növ girov tələb oluna bilər. Girov borcun ödənilməsi mümkün olmadığı halda bir növ təminat təmin edir. Bəzi kreditor növləri də aktivlərə məhdudiyyətlər qoya bilər.

Kreditorlar ümumiyyətlə təminatlı və təminatsız olaraq təsnif edilir. Təminatlı kreditorlar krediti yalnız o halda verirlər ki, borclular müəyyən aktivi girov kimi girov qoya bilsinlər. Borclunun müflis olması halında, təminatlı kreditor ödənilməmiş borcdan itkiləri ödəmək üçün borcludan girov götürə bilər. Təminatlı kreditin ən diqqətəlayiq nümunəsi, girov kimi əmlakın istifadə olunduğu ipotekadır. Digər tərəfdən, təminatsız kreditorlar öz borclularından heç bir girov tələb etmirlər. Borclunun müflis olması halında, təminatsız kreditorlar borclunun aktivləri ilə bağlı ümumi tələb irəli sürə bilərlər, lakin bir qayda olaraq, onlar aktivlərin yalnız kiçik bir hissəsini ələ keçirə bilirlər. Bu səbəbdən təminatsız kreditlər təminatlı kreditlərdən daha riskli hesab edilir.

***Cədvəl 2.* Resurs aktivlərinin bölgüsü**

Cari aktivlər	Uzunmüddətli aktivlər
Müəssisənin bir il ərzində pul vəsaitinə çevirməyi planlaşdırdığı aktivlərdir.	Müəssisənin bir ildən daha çox müddətə saxlamağı və ya pul vəsaitinə çevirməyi planlaşdırdığı aktivlərdir.
Müəssisənin debitor borclarını və mal-material ehtiyatlarını misal göstərmək olar-burada məqsəd onları tez bir zamanda pul vəsaitinə çevirməkdir.	Müəssisə/təşkilat tərəfindən götürülən girovları misal göstərmək olar.

Mənbə: investaudit.az

Hərtərəfli aktivlərin mühafizəsi planı biznesin idarə edilməsi ilə bağlı riskləri aradan qaldıra və ya əhəmiyyətli dərəcədə azalda bilər və nəsə səhv getdiyi təqdirdə biznes və şəxsi aktivləri kreditorların iddialarından qoruya bilər [13]. Dünya iqtisadiyyatı milyardlarla borclu-kreditor münasibətlərindən asılıdır. Hər səviyyədə mal və xidmətlər bu mal və xidmətlərə görə ödəniş etmək üçün açıq və ya gizli vəd müqabilində təqdim olunur.

Amerikada demək olar ki, hər bir fərdin və biznesin ya borcu vardır. Məhz bu borclu-kreditor münasibətləri aktivləri borcları ödəmək üçün ələ keçirəcək kreditorlardan qorumağı vacib edir.

Aktiv və passiv balansın idarəsi

Təşkilatda fəaliyyət prosesində balansda vəsaitlərin qalıqlarını və onların mənbələrini dəyişdirən çoxlu sayda təsərrüfat əməliyyatları baş verir. Hər əməliyyatdan sonra yeni balans tərtib etmək mümkün deyil, ona görə də bütün təsərrüfat əməliyyatları

əvvəlcə mühasibat uçotunda əks etdirilir, çünki balans ayın 1-i (rüb, il) tərtib edildiyi üçün ondan istifadə etmək mümkün deyil [5, s.108]. Əmlakın tərkibində, müəssisənin öhdəliklərində, onların əmələ gəlmə mənbələrində baş verən dəyişikliklərə gündəlik nəzarət etmək, cari uçot və nəzarət üçün mühasibat uçotu sistemi istifadə olunur.

Mühasibat balansının aktiv və passivlərə bölünməsinə görə hesablar aktiv və passivlərə bölünür. Təşkilatın iqtisadi aktivlərinin uçotu və hərəkəti üçün nəzərdə tutulmuş aktiv hesablar. Aktiv hesablardakı vəsaitlərin artımı debetdə, xərcləri isə kreditdə əks etdirilir.

Aktiv hesablarda (məsələn, "Kassir", "Materiallar", "Əsas vəsaitlər", "Cari hesablar" və s.) qalıqlar yalnız hesabın debetidir [11, s. 34].

Passiv hesablar məişət aktivlərinin mənbələrinin vəziyyətini və hərəkətini uçota almaq üçün nəzərdə tutulmuşdur. Passiv hesablarda təsərrüfat aktivlərinin mənbələrində artım kredit üzrə, azalma isə debet üzrə qeydə alınır. Passiv hesabların açılış və yekun qalıqları (məsələn, "Malsatan və podratçılarla hesablaşmalar", "Nizamnamə kapitalı", "Əmək haqqı üzrə işçilərlə ödənişlər", "Uzunmüddətli kreditlər" və s.) yalnız hesabın krediti üçündür [11, s. 38].

Aktiv-passiv hesablar həm aktiv, həm də passiv hesabların əlamətlərinə malikdir və hesablaşma əməliyyatlarını əks etdirmək üçün istifadə olunur, burada debitor və kreditor borcları eyni vaxtda baş verə bilər. Aktiv-passiv hesablar üzrə yazılışlar debet üzrə ev təsərrüfatlarının aktivlərinin ilkin qalıqlarının (qalıqlarının) və kredit üzrə təsərrüfat aktivlərinin mənbələrinin göstərilməsi ilə başlanır. Daha sonra hesablarda ilkin qalıqlarda dəyişikliklərə səbəb olan əməliyyatların məbləği əks etdirilir. Debet qeydləri müxtəlif mənalara malik ola bilər: vəsaitlərin artması, mənbənin azalması. Hesabın krediti üzrə yazının da fərqli mənası var: mənbənin artması, vəsaitin azalması. Aktiv və passiv balansın hər iki hissəsinin adlarıdır - ümumi balans və ya vəziyyət balansı kimi də tanınır - müəyyən bir anda şirkətin maliyyə vəziyyətini əks etdirən maliyyə hesabatıdır [3, s. 115]. Aktiv şirkətin malik olduğu, istər maddi, istərsə də qeyri-maddi ola bilsin, gələcəkdə fayda əldə edə biləcəyi ehtimal olunan mallar, hüquqlar və digər resursların çeşididir.

Aktivlər, digər tərəfdən, öhdəliklər də daxil olmaqla, şirkətin borclu olduğu borclardır və o, üçüncü tərəflərə olan borcları təmsil edir: bank ödənişləri, maaşlar, provayderlər, vergilər.

Passiv aktivləri təsnif etmək üçün onları aşağıdakılara ayıra bilərik:

- ✓ Uzunmüddətli öhdəliklər: Kapital sahiblərinə məxsus öz vəsaitləri.
- ✓ Cari öhdəliklər: şirkətin üçüncü tərəflərə olan borcları və provayderlərə, banklara və digər tərəflərə qaytarılmalıdır [12].

Hər bir mühasibat hesabında təsərrüfat əməliyyatları sistematik şəkildə, onların tamamlanma ardıcıllığı ilə, yəni xronoloji ardıcıllıqla əks etdirilir. Mühasibat uçotu hesablarında qeydlər sənədlər əsasında aparılır, buna görə də mühasibatlıq tərəfindən qəbul edilmiş bütün sənədlər mühasibat emalına məruz qalır. Onun mərhələlərindən biri də sənəddə əks olunmuş hər bir əməliyyat üzrə müvafiq hesabların uçotunun aparılmasıdır. Mühasibat uçotunda təsərrüfat əməliyyatının ikiqat yazılışı nəticəsində birinin debeti ilə digər hesabın krediti arasında yaranan əlaqə hesabların müxabirləşməsi adlanır və hesabların özləri müxbir olur.

Müəssisələrdə investisiya fəaliyyəti üzrə auditin təşkili

İnvestisiya mühasibatlığının məqsədi dəqiq investisiya balanslarını və fəaliyyətini təmin etmək üçün İnvestisiya Bürosuna dəstək vermək, bu cür məlumatların əlaqəli istifadəçilərinə dəqiq və vaxtında investisiya uçotu məlumatlarını çatdırmaq və müəssi-

sələrin investisiyalarını qorumaq üçün müvafiq tutuşdurma və nəzarət prosedurlarını həyata keçirməkdir [1, s.78]. İnvestisiyaların uçotu investisiya aləti üçün vəsait ödənildikdə baş verir. Mühasibat uçotunun dəqiq növü investorun niyyətindən və investisiyanın mütənasib ölçüsündən asılıdır.

Maliyyə hesabatlarına əsas təsir mənfəət və zərər hesabından keçən hər hansı investisiyanın yenidən qiymətləndirməsi olacaqdır. Əhəmiyyətli məbləğlər mənfəət və ya zərərə (gəlir haqqında hesabat) təsir edərsə, təşkilatın bölüşdürülməmiş mənfəətini artıraraq nəticələrinə təsir göstərəcəkdir [5, s. 68]. İnvestisiya əmlakının yenidən qiymətləndirilməsindən əldə edilən gəlirlər, bölüşdürülməmiş mənfəətə daxil edilsə də, onlar həyata keçirilmədiyi üçün bölüşdürülə bilən mənfəət kimi nəzərə alınmayacaq və buna görə də müəssisələr bu cür gəlirlərin uçotunu aparmalı və bölgü həyata keçirərkən onları ayrıca nəzərə almalıdırlar.

Mühasibat uçotunda kapital metodu, asılı şirkətlərdə adətən 20%-dən 50%-ə qədər olan kapital investisiyalarının hesablanması prosesidir. İnvestor belə səhmləri aktiv kimi saxlayır. İnvestorun asılı şirkətin xalis gəlirindəki proporsional payı investisiyanı artırır (və xalis zərər investisiyanı azaldır), dividendlərin proporsional ödənilməsi isə onu azaldır. İnvestorun mənfəət və zərər haqqında hesabatında investisiya obyektinin xalis gəlirinin və ya xalis zərərinin mütənasib payı bir sətirli maddə kimi göstərilir [8, s. 155]. Səs verən səhmlərin 50%-dən çoxuna sahiblik törəmə müəssisə yaradır. Onun maliyyə hesabatları əsas müəssisənin maliyyə hesabatlarında konsolidasiya edilir.

Törəmə şirkət və ya törəmə müəssisənin səhmlərinin yarıdan çoxuna sahib olan, tamamilə və ya qismən mülkiyyətində olan və qismən və ya tamamilə nəzarətdə olan şirkətdir. Törəmə şirkət, korporasiya və ya məhdud məsuliyyətli cəmiyyət ola bilər. Bəzi hallarda bu, dövlət və ya dövlət müəssisəsidir. Nəzarət edən müəssisə onun əsas şirkəti və ya holdinq şirkəti adlanır. Konsolidasiya metodu "törəmə müəssisəyə investisiyanı" əsas şirkətin balansında aktiv kimi, törəmə müəssisə isə balans hesabatında bərabər əməliyyatı qeyd edir. Törəmə müəssisənin aktivləri, öhdəlikləri və bütün mənfəət və zərər maddələri daha sonra dövri olaraq birləşdirilir və konsolidə edilmiş maliyyə hesabatlarında əks etdirilir.

Alternativ olaraq, investor investisiya obyektinə tam nəzarət etmədikdə, lakin onun idarəçiliyinə müəyyən təsir göstərdikdə, adətən səs verən səhmlərin 20-50%-nə sahib olmaqla təmsil olunursa, investisiyalar kapital metodundan istifadə etməklə uçota alınacaq [10, s. 170].

Mühasibat uçotunun maya dəyəri metodu şirkətin maliyyə hesabatlarında müəyyən investisiyaların qeyd edilməsi üçün istifadə olunur. Bu üsul, investorun adətən şirkətin 20%-dən az hissəsinə sahib olduğu kimi təqdim edilən sərmayəyə çox az və ya heç bir təsir göstərmədikdə istifadə olunur. İnvestisiya balansın aktivlər bölməsində ilkin dəyərlə qeydə alınır.

Nəticə

Mühasibat xidmətləri göstərən şirkətlər əmək haqqı fondundan tutmuş debitor borclarının toplanmasına, mühasibat uçotu və mühasibat proseslərinə qədər bütün xidmətlər spektrini təqdim edirlər. Kiçik biznes sahiblərini işçilərin məsrəflərində proqnozlaşdırılan qənaət və vaxtlarına əlavə qənaət cəlb edir ki, bu da şirkətlərinin əsas biznes fəaliyyətinə daha yaxşı xərclənir.

Hesablama (mühasibat) uçotu sisteminin şirkətin cari maliyyə vəziyyətinin daha dəqiq təsvirini təqdim etdiyi düşünülür və buna görə də nağd pul hesabatı ilə müqayisədə daha geniş tətbiq edilir. Bunun səbəbi, əməliyyatın və onun ödənişinin eyni vaxtda baş

verməsinin getdikcə daha nadir olmasıdır. Bununla belə, bir çox şirkətlər üçün hesablama metodunun əsas çatışmazlığı onun nisbi mürəkkəbliyidir.

Güclü debitor borcları sisteminin tətbiqi istənilən biznesin əsas pul vəsaitlərinin hərəkətini gücləndirməyə kömək edir. Bu zaman auditor səmərəli hesab-faktura sistemini tərtib etməyə, fakturaları göndərməyə və kolleksiyaları yaxşılaşdırmaq üzrə xidmət göstərir.

Ümumiyyətlə, səmərəli kreditor borcu platforması pul vəsaitlərinin hərəkətinə nəzarət etməyə kömək edir. Bu, müştəriləri idarə etmək, daha mütəşəkkil olmaq və güzəştlərdən faydalanmaq üçün möhkəm satınalma sifarişi sistemi yaratmağa kömək edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Atakişiyev, M.C. və b. İnvestisiya fəaliyyətinin təşkili / M.C.Atakişiyev, N.R.Nurəliyeva, N.H.Abbasova. - Bakı: Təfəkkür Universitetinin mətbəəsi, -2012. - 254s.
2. Cəfərli H.A.İqtisadi təhlil. - Bakı: Elm və təhsil, -2009. - 560 s.
3. Məmmədov, F.Z. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi: Dərslik. - 5-ci nəşr.- Bakı: Azərnəşr, 2012. - 504s.
4. Rzayev , R.Q. Mühasibat uçotu və audit: dərslik. - Bakı: ADİU, -2006. - 389s.
5. Rüstəmov P.H. Müasir idarəetmə sistemində innovasiyalı yanaşma(Azərbaycanın neft-qaz sənayesi timsalında). - Bakı: «İqtisad Universiteti» nəşriyyatı, -2015. - 168 s.
6. Zeynalov, V.Z. Maliyyə: Dərs vəsaiti. - Bakı: İqtisad Universiteti nəşriyyatı, -2010. - 361s.
7. Пястолов, С.М. Анализ финансово-хозяйственной деятельности предприятия. – М.: Академия, -2014. - 336 с.
8. Шеремет А.Д. - М.: Финансы и статистика, -2014. – 465 с.
9. Gillingham, J. (2015). Learn debits and credits. - Available at: https://accountingplay.com/ (Accessed:15.01.2022)
10. Muyambiri, B., Odhiambo, M.N. (2018). The impact of financial development on investment: a review of international literature // Organizations and markets in emerging economics, №9(2), pp.167-192. DOI:10.15388/omee.2018.10.00009
11. Picket, S.K.H. (2002). The ınternal auditing handbook. - 2nd ed.- USA: Wiley.
12. Financial Times. (2022). Accountancy. – Available at: https://www.ft.com/accountancy
13. İnvestAudit. (2022). Finance and audit. - Available at: http://investaudit.az/

Рауф Аллахяров
Азербайджанский Государственный Экономический Университет, д. фил. по э.

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОЗДАНИЯ СЛУЖБЫ АУДИТА НА ПРЕДПРИЯТИЯХ

Резюме

Целью исследования является изучение концептуальных основ бухгалтерского учета (особенно финансового учета) и международных стандартов, т.е. общепринятых принципов и методов, национальных и международных систем бухгалтерского учета, изучение проблем в существующей системе бухгалтерского учета и финансовой отчетности, выявление области улучшения финансовой отчетности. - Информация финансового учета отражает активы и обязательства организации.

Методология исследования – Бухгалтерский учет основан на сборе данных и применении методов организации данных, которые могут быть легко интерпретированы аудиторами. Применен метод синтетическо-аналитического исследования операционных

расходов, переменных доходов и дивидендов.

Оригинальность и научная новизна исследования - гармонизация национальных систем учета разных стран важна, в первую очередь, для потенциальных иностранных инвесторов. Таким образом, иностранные инвесторы должны иметь четкую, прозрачную и реалистичную финансовую отчетность соответствующего хозяйствующего субъекта, являющегося объектом инвестирования.

Ключевые слова: *аудит, бухгалтерская отчетность, инвестиции, доходы и расходы, бухгалтерский учет, расходы*

Rauf Allahyarov
Azerbaijan State University of Economics, PhD in Economics

THE MAIN DIRECTIONS OF THE ESTABLISHMENT OF THE AUDIT SERVICE IN ENTERPRISES

Summary

The purpose of the research is to study the conceptual framework of accounting (especially financial accounting) and international standards, ie generally accepted principles and methods, national and international accounting systems, to study the problems in the existing accounting and financial reporting system, to identify areas for improving financial reporting. Financial accounting information records an entity's assets and liabilities.

Methodology of the research- Accounting is based on the collection of data and the application of methods of data organization that can be easily interpreted by auditors. The method of synthetic and analytical study of operating expenses, variable income and dividends has been applied.

Originality and scientific novelty of the research- the harmonization of national accounting systems of different countries is important, first of all, for potential foreign investors. Thus, foreign investors must have clear, transparent and realistic financial statements of the relevant business entity that is the object of investment.

Keywords: *audit, financial statements, investment, income and expenses, accounting, expenses.*

UOT 316.3

Söhrab Məhərrəmov
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, f.f.d.
sohrab.magerramov.@gmail.com

İNFORMASİYA TEXNOLOGİYALARININ XÜSUSİYYƏTLƏRİ VƏ ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ

Məqsəd – informasiya texnologiyalarının komputer texnologiyası və digər yüksək texnologiyalar sahəsində olan kəşflərdən, ən müasir kommunikasiya vasitələrindən istifadə edərək, insan həyatının və müasir cəmiyyətin bütün sahələrində zaman, əmək, enerji və maddi resurslar sərfini azaltmaq üçün informasiya prosesinin səmərəli təşkili yollarının araşdırılmasır.

Metodologiya – məqalənin hazırlanmasında sistem-nəzəri yanaşma metodundan istifadə edilib.

Tədqiqatın nəticələri – müasir cəmiyyətdə informasiyanın emalı texnologiyasının əsas texniki vasitəsi olan fərdi komputerin informasiya sahəsinə tətbiqi və telekommunikasiya vasitələrindən istifadə edilməsi informasiya texnologiyalarının inkişafında təşkilatlarda müxtəlif fəaliyyət növlərinin məzmununu ciddi şəkildə dəyişən yeni mərhələ açdı.

Açar sözlər: *informasiya, İKT, alqoritm, EHM, informatika, bilik bazası, intensional, ekstensional*

Giriş

İnformatika elm olaraq informasiya proseslərinə (bu anlayışın ən geniş mənasında) xas olan ümumi qanunauyğunluqlarını öyrənir. İnformasiyanın yeni daşıyıcıları, rabitə kanalları, kodlaşdırma üsullarını, informasiyanın vizual əksi və s. araşdırılanda, bu informasiyanın konkret mənası, təbiəti demək olar ki, əhəmiyyətini itirir. Məlumat bazasının idarəetmə sistemini hazırlayan işçi üçün, sonralar milyonlarla istifadəçinin bu bazaya hansı konkret məlumatlar qoyacağı yox, təşkilatı işin ümumi prinsipləri və məlumat axtarışının səmərəliliyi mühümdür. Belə ümumi qanunauyğunluqlar bir elm olaraq informatikanın predmetini təşkil edir.

İnformatika heç bir halda yalnız "təmiz elm" deyil. Heç şübhəsiz o elmi nüvəyə malikdir. Lakin informatikanın vacib bir xüsusiyyəti onda, insan fəaliyyətinin demək olar bütün sahələrini – istehsal, idarəetmə, elm, təhsil, ticarət, maliyyə sahəsi, tibb, kriminalistika, ətraf mühitin mühafizəsi və s. əhatə edən ən geniş tətbiqetmələrin olmasıdır. Sosial idarəetmənin yeni informasiya texnologiyaları bazasında təkmilləş-dirilməsi sadaladıqlarımızın ən mühümüdür [1, s. 74].

İnformatika tətbiqetmələrinin obyekti qismində ən müxtəlif elmlər və tez-tez "yeni informasiya texnologiyaları" adlandırılan ən müasir texnologiyalar üçün davamlı mənbə olan praktiki fəaliyyət sahələri çıxış edir. İnsan fəaliyyətinin müxtəlif sahələrində (istehsal proseslərinin idarə edilməsində, layihələndirmədə, maliyyə əməliyyatlarında, təhsildə və s.) fəaliyyət göstərən müxtəlif informasiya texnologiyaları ümumi əlamətlərə malik olmaqla yanaşı, eyni vaxtda öz aralarında ciddi fərqlənirlər.

Məlumdur ki, eyni maddi resursa fərqli texnologiyalar tətbiq etməklə müxtəlif məhsul əldə etmək mümkündür. Belə yanaşmanın informasiyanın emalı texnologiyasına da aid edilməsi doğru sayıla bilər.

Maddi istehsal texnologiyasının məqsədi insanın və ya sistemin tələbatını ödəməyə

xidmət edən məhsul istehsalı olduğu kimi, informasiya texnologiyasının məqsədi də, insanın təhlil etməsi üçün informasiyanın istehsalı və bunun əsasında hər hansı bir hərəkətin yerinə yetirilməsi üçün qərarın qəbul edilməsidir.

İnformasiya termini (latınca"informatio"- aydınlatma, izah) ilk olaraq bir insandan digərinə şifahi, yazılı və ya hansısa şərti siqnalların köməyi ilə və ya hansısa texniki vasitələrdən istifadə etməklə ötürülən məlumat hesab edilirdi. XX əsrin ortalarında inormasiya anlayışı ümumelmi bir anlayış oldu. Bu anlayışda insandan insana, insandan avtomatik qurğuya, bir avtomatik qurğudan digərinə, canlı cismin bir hüceyrəsindən digərinə, bir orqanizmdən digərinə, bir təşkilatdan digərinə və s. ötürülən istənilən məlumat qeyd edilir. İnformasiya anlayışının başqa bir izahı da var: informasiya hər hansı bir obyektin vəziyyəti, onun öncəki tarixində və onun sonrakı mövcudluğu proqramlarında, onun yaddaşda saxlanılan, verilən və ya istənilən, tələb edilən məqsədlərə çatmaq üçün şəkli dəyişdirilən və ya onlarla digər obyektlərə ötürülən məlumatdır [2, s. 1321].

Texnologiya (yunanca "techne" – ustalıq, bacarıq və "loqos" – anlayış, təlim) obyektin keyfiyyət dəyişikliyinin baş verdiyi proseslərin həyata keçməsinin üsulları və vasitələri haqda biliklərin toplusu, məcmuu kimi müəyyən edilir. Başqa bir yanaşmada texnologiya – hər hansı bir işdə, ustalıqda, sənətdə, həmçinin obyektlərin keyfiyyət dəyişikliyinin baş verdiyi proseslərin baş verməsinin üsulları və vasitələri haqda biliklərinin məcmuu, istehsal üsulunun elmi təsvirində istifadə edilən materialların emalı və yenidən emalı proseslərinin məcmuudur [3, s. 12]

Yunan dilindən tərcümədə texnologiya (techne) sənət, sənətkarlıq, bacarıq olmaqla, proseslərdən başqa bir şey demək deyil. Proses deyəndə müəyyən məqsədə çatmağa yönəlmiş müəyyən hərəkətlərin məcmuu başa düşülür. Proses insanın seçdiyi strategiya ilə müəyyən edilməli və müxtəlif vasitə və metodların toplusunun köməyi ilə reallaşmalıdır.

Texniki vasitələr özündə informasiyanı ölçən, emal edən, saxlayan, ötürən, ifadə edən, həmçinin icraçı qurğuları, ofis texnikası, avadanlıqlarını, rabitə xətlərini, şəbəkə avadanlıqlarını və s. birləşdirir. Məlum olduğu kimi, istənilən qurğuların tərkibinə daxil olan ən mühüm element mikroprosessor olur.

Proqram mühiti, vasitələri İT iş qabiliyyətini təmin edir, komputerlə istifadəçi arasında interfeysi təmin edən, əməliyyat sistemini və proqram mühitini, vasitələrini özündə birləşdirir. İnformasiya texnologiyalarının tətbiqinin məqsədini informasiya resurslarından istifadə zamanı əmək məhsuldarlığını yüksəltmək təşkil edir.

UNESKO-nun verdiyi tərifə görə, informasiya texnologiyaları – informasiyanın emalı və qorunması ilə məşğul olan insanların əməyinin səmərəli təşkilinin metodlarını öyrənən elmi, texnoloji, mühəndis fənlərinin bir-biri ilə bağlı, hesablama texnikası, insanlar və istehsalat avadanlıqları ilə təşkilin və qarşılıqlı fəaliyyətin metodları, onların praktik əlavələri, həmçinin bütün bunlarla əlaqəli sosial, ekonomik və kültür problemlərinin kompleksidir. İT mürəkkəb hazırlıqlar, böyük həcmdə ilkin xərclər və elm tutumlu texnika tələb edir. Onların tətbiqi mütəxəssis hazırlığı sistemində riyazi təminatın təmin edilməsi, informasiya axınının formalaşması ilə başlamalıdır.

İnformasiya neft, qaz, faydalı qazıntılar və s. kimi qiymətli resurs olduğundan, həm də onun emalı prosesi maddi resursların emalı prosesinə uyğun olduğundan, onu texnologiya olaraq qəbul etmək olar. Bunu nəzərə alsaq, aşağıdakı tərif doğru sayıla bilər.

İnformasiya texnologiyalarının inkişafı

İnformasiya texnologiyaları – informasiyanın yığılması, saxlanması, emalı, təqdim

edilməsi prosesləri, axtarış metodları və belə proseslərin və metodların həyata keçirilməsinin üsuludur.

İnformasiya texnologiyası – obyektin, prosesin və ya hadisənin vəziyyəti haqda yeni keyfiyyətli informasiya alınması üçün məlumatların emalı və ötürülməsi üçün vasitə və yığılma metodlarının məcmuunu istifadə edən prosesdir. İnformasiya texnologiyasının məqsədi insan tərəfindən təhlil edilməsi və bunun əsasında hər hansı bir işin yerinə yetirilməsi, həll edilməsi üçün informasiya istehsal etməkdir.

İnformasiya texnologiyaları komputer texnologiyası və digər yüksək texnologiyalar sahəsində müasir nailiyyətlərə, ən müasir kommunikasiya vasitələrinə, proqram təminatına və praktik təcrübəyə əsaslanaraq və ondan rasional şəkildə istifadə edərək, insan həyatının və müasir cəmiyyətin bütün sahələrində zaman, əmək, enerji və maddi resurslar sərfini azaltmaq üçün informasiya prosesinin səmərəli təşkilinin vəzifələrini həll etməyə yönəlmişdir. İnformasiya texnologiyaları idarəetmə, sənaye istehsalı, sosial proseslər, xidmət sahələri ilə qarşılıqlı əlaqədə olur və tərkib hissə olaraq onlara daxil olur [4, s. 64].

Müasir texnologiyaların əsas əlamətləri bunlardır: 1) alqoritm məlumatların rəqəmsal mübadiləsi standartlarının strukturlaşdırılması: 2) informasiyanın zəruri olan şəkildə komputerdə saxlanması və təqdim edilmsinin geniş yayılması; 3) informasiyanın rəqəmsal texnologiyanın köməyi ilə praktik olaraq hüdudsuz məsafəyə ötürülməsi.

İnformasiya texnologiyalarının əsas vasitələri deyəndə informasiya texnologiyaları informasiyanı idarə etmək üçün lazım olan bütün resursları, xüsusilə də komputerləri, proqram təminatı və informasiyanın yaradılması, saxlanılması, idarə edilməsi və ötürülməsi üçün lazım olan şəbəkə başa düşülür.

İnformasiya texnologiyalarının komputerdən istifadə ilə bağlı inkişafına, müxtəlif bölmə əlamətlərinə görə müəyyən edilən bir neçə yanaşma mövcuddur.

Fərdi komputerin meydana gəlməsi ilə informasiya texnologiyalarının inkişafında yeni mərhələnin başlanması ideyası bütün yanaşmalarda əsas hesab edilir. İnsan üçün istər əsas peşələr, istərsə də məişət sahəsində olan fərdi tələbatların ödənilməsi başlıca məqsəd sayılır.

Aşağıda şərh edilən bütün yanaşmalar üçün bir ümumi cəhət, burada fərdi komputerin yaranması ilə informasiya texnologiyalarının inkişafında yeni dövrün başlaması fikrinin olmasıdır. Burada əsas məqsəd insanın istər peşə, istərsə də məişət sahəsində tələblərinin təmin edilməsidir.

Müasir cəmiyyətdə informasiyanın emalı texnologiyasının əsas texniki vasitəsi, istər texnoloji proseslərin qurulması və istifadəsi konsepsiyasına, istərsə də sonucda alınan informasiyanın keyfiyyətinə ciddi şəkildə təsir edən fərdi komputer xidmət edir.

Fərdi komputerin informasiya sahəsinə tətbiq edilməsi və telekommunikasiya vasitələrinin işlədilməsi, informasiya texnologiyalarının inkişafında yeni mərhələni müəyyən etdi. Yeni informasiya texnologiyası - "dost" istifadəçi interfeysi olan, fərdi komputerdən və telekommunikasiyadan istifadə edən bir informasiya texnologiyasıdır.

İnformasiya sahəsinə fərdi komputerin tətbiq edilməsi və telekommunikasiya vasitələrindən istifadə informasiya texnologiyalarının inkişafında yeni mərhələ açdı və nəticədə informasiya texnologiyalarının adına "yeni", "komputer" və ya "müasir" sinonimlərindən biri əlavə edildi.

"Yeni" sözü bu texnologiyanın təkamül xarakterini yox, yenilikçi olmasını göstərir. Onun tətbiqi o mənada yenilikçi sayılır ki, təşkilatlarda müxtəlif fəaliyyət növlərinin məzmununu ciddi şəkildə dəyişir. Yeni informasiya texnologiyaları anlayışına informasiyanın fərqli vasitələrlə, konkret olaraq telefon, teleqraf, telekommunikasiya, faks və s. ötürülməsini təmin edən kommunikasiya texnologiyaları da daxil edilir.

"Komputer" sözü göstərir ki, burada əsas texniki vasitə komputerdir. Yeni, (komputer) informasiya texnologiyalarının üç əsas prinsipi bunlardır: 1) komputerlə interaktiv (dialoqlu) iş rejimi; 2) digər proqram məhsulları ilə inteqrasiya (birləşmə, qarşılıqlı əlaqə); 3) istər məlumatların, istərsə də vəzifələrin qoyuluşunun dəyişilməsi prosesinin çevik olması. Komputerdən isifadə edilməklə informasiya texnologiyalarının inkişafı barədə fərqli bölmə əlamətləri ilə müəyyən edilən bir yanaşma mövcuddur.

Multilink dial-up iki və ya daha çox uzaqdan çıxışı birləşdirmək yolu ilə çoxaldılmış daxil olma qabiliyyətini təmin edir və onları məlumatların vahid kanalı kimi nəzərdən keçirir. Burada iki və ya daha çox modem, telefon xətləri və hesabların nömrələri, həmçinin bu texnologiyanı işlədən provayder tələb olunur. Bu variant İSDN, DSL və digər daha müasir texnologiyalara qədər populyar idi. Bəzi istehsalçılar bu metoda yardım etmək üçün xüsusi modemlər yaratmışdılar.

İSDN (ing. İntegrated Service Digital Network) xidmətlərin inteqrasiyası olan rəqəmsal şəbəkə, telefon rabitəsi xidmətləri və məlumat mübadiləsini birləşdirməyə imkan verən xidmətdir. İSDN-nin əsas işi məlumatların 64 kbit/s sürəti ilə abonentin kabel xətti ilə ötürülməsi və inteqrasiya olunmuş telekommunikasiya xidmətlərinin (telefon, faks və s.) təmin edilməsidir. Bu məqsəd üçün telefon xətlərindən istifadə edilməsinin iki üstünlüyü var: onlar artıq mövcuddur və terminal avadanlıqlarına enerji vermək üçün istifadə edilə bilər. İSDN şəbəkəsində trafikin müxtəlif növlərini birləşdirmək üçün TDM texnologiyasından istifadə edilir (Time Division Multiplexing, zamana görə multipleksirovanlaşma). Məlumatın hər bir növü üçün elementar kanal (və ya standart kanal) adlanan ayrıca zolaq ayrılır. Bu zolaq üçün fiksə edilmiş, razılaşdırılmış ötürülmə qarantiya olunur. Zolağın ayrılması kanaldan kənar siqnalizasiya kanalı adlanan xüsusi kanal ilə CALL siqnalı verildikdən sonra baş verir.

İT əsas xassələrinə məqsədəuyğunluq, komponentlərin və strukturun olması, ətraf mühitlə qarşılıqlı əlaqə, tamlıq, zaman daxilində inkişaf etmə daxildir. İnformasiya texnologiyası informasiya ilə, proqram məhsulları ilə və hesablama texnikası ilə ağıllı, səriştəli işləmək bacarığı təklif edir. İnformasiya texnologiyalarının səmərəli işləməsi aşağıda qeyd etdiyimiz əsas xassələri ilə müəyyən edilir [5, s. 29].

1. Məqsədəuyğunluq – istehsalın səmərəliliyinin yüksəldilməsi, hesablama texnikasının müasir vasitələrinin, paylanmış məlumat bazasının, müxtəlif hesablayıcı şəbəkələrinin tətbiqi sayəsində informasiyanın səmərəli dövriyyəsi və emalının təmin edilməsini nəzərdə tutur.

İnformasiya texnologiyasının müxtəlif komponentləri və strukturu mövcuddur:

- funksional komponentlər, informasiyanın dövriyyəsi və emalı proseslərinin konkret məzmunu.

İnformasiya texnologiyalarının strukturu dayaq texnologiyası və bilik bazası kimi iki böyük qrupda birləşmiş, onu təşkil edən komponentlərin qarşılıqlı əlaqəsini ifadə edən daxili təşkilatdır.

Predmet (domen) sahəsinin modelləri - istifadəçilər: müəssisənin mütəxəssisləri və inkişaf etdiricilər arasında qarşılıqlı anlaşmanı təmin edən təsvirlərin məcmuudur.

Dayaq (dəstək) texnologiyası – informasiyanın saxlanmasının və emalının yarımsistemlərinin reallaşmasının əsasını təşkil edən avtomatlaşmanın aparat vasitələrinin, sistemli və instrumental proqram təminatının məcmuudur.

Bilik bazası EHM yaddaşında saxlanılan biliklərin toplumunu təmsil edir. Bilik bazasını intensional (yəni, ümumi haqda bilik) və ekstensional (yəni, nə isə "konkret" haqda bilik) adlı iki yerə bölmək olar. İntensional bazada üzlük baza məlumatları adlanan yaddaşlı üzlük, ekstensional bazada isə baza məlumatları adlanan yaddaşlı üzlük

saxlanılır. Başqa sözlə bilik bazası predmet sahəsinin əksini ifadə edir. O, özünə məlumat bazasını daxil edir (direktiv informasiya, plan tapşırıqları, elmi-texniki informasiya, qeyri-istehsalat informasiya, müəssisənin şöbələrinin iş relimini göstərən köməkçi informasiya).

2. İnformasiya texnologiyasının tərkibinə hesablama, kommunikasiya və təşkilatı texnikasının vasitələrindən ibarət olan texniki vasitələrin kompleksi (proqram vasitələri), ümumi (sistemli), tətbiqi (mütəxəssislərin funksional tapşırıqlarının həlli üçün proqramlar) və instrumental proqram təminatı (alqoritmik dil, proqramlaşdırma sistemi, spesifik dillər, proqramlaşdırma texnologiyaları), özündə normativ-metodiki və konkret informasiya texnologiyasının idarəedici və texniki personalının işini təşkil edən instruksiya xarakterli məlumatlar daxildir.

3. Xarici mühitlə qarşılıqlı əlaqə - informasiya texnologiyalarının idarəetmə obyektləri ilə, qarşılıqlı fəaliyyətdə olan müəssisələrlə və sistemlərlə, maliyyə-kredit orqanları ilə, elmlə, avtomatlaşmanın proqram və texniki vasitələrinin istehsalı ilə, məhsulların istifadəçiləri və təchizatçıları ilə qarşılıqlı əlaqəsini nəzərdə tutur.

4. Tamlıq – informasiya texnologiyası özünün heç bir komponentinə xas olmayan tapşırıqlqrı həll etmək bacarığı olan tam vahid bir sistemdir.

5. Zaman daxilində inkişaf informasiya texnologiyasının inkişafının dinamikliyinin təmin edilməsini, onun modernləşməsi və modifikasiyası imkanlarını, strukturun dəyiş-məsi, yeni komponenti daxil etmək bacarığı, yeni tapşırıqların həll edilməsi imkanlarını və s. əhatə edir.

İnformasiya texnologiyasının instrumentarisi qismində geniş yayılmış proqram məhsulları çıxış edir: mətn prosessorları, nəşr sistemləri, elektron cədvəllər, məlumat bazası ilə idarə sistemləri, funksional təyinatlı məlumat sistemləri .

1. İnformasiya texnologiyaları bu gün cəmiyyətin inkişafının ən mühüm strateji amili kimi cəmiyyətin informasiya resurslarını fəallaşdırmağa və səmərəli istifadə etməyə imkan verir.

2. İnformasiya texnologiyaları insan cəmiyyətinin həyat fəaliyyətində getdikcə daha böyük yer tutur, informasiya proseslərini optimallaşdırmağa və bir çox hallarda avtomatlaşdırmağa imkan verir.

3. İnformasiya texnologiyaları uyğun istehsalat və sosial texnologiyaların komponentləri qismində çıxış edir.

4. İnformasiya texnologiyaları hazırda insanlar arasında informasiya qarşılıqlı fəaliyyətin təmin edilməsində, həmçinin kütləvi informasiyanın hazırlanması və yayılması sistemində olduqca vacib rol oynayır.

5. İnformasiya texnologiyaları bu gün cəmiyyətin intellektuallaşmasında, onun təhsil və kültür sisteminin inkişafı prosesində mərkəzi yer tutur.

6. İnformasiya texnologiyaları müasir dövrdə yeni biliklərin əldə edilməsi və yığılmasında əsas rol oynayır.

7. İnformasiya texnologiyalarından istifadə bəşəriyyətin qlobal problemlərinin, ilk növbədə hazırda dünya birliyinin yaşadığı sivilizasiyanın qlobal böhranını aradan qaldırmaq zərurəti ilə bağlı olan problemlərin həllində ciddi köməklik göstərə bilər.

Texnoloji təsvirlərin nəticəsi olaraq informasiya-texnoloji proseslərin sistemində reallaşmasının məcmuu çıxış edir.

Texnoloji təsvirlərin nəticəsində informasiya-texnoloji proseslərin sistemində reallaşma

İnformasiya texnologiyalarının ən təsirli tətbiq etmələrini sadalayaq.

Avtomatlaşdırılmış idrəetmə sistemləri - AİS - insanla birlikdə istehsalda və ya

ictimai sahədə obyektlərin idarə etməsini təşkil edən texniki və proqram təminatı vasitələri kompleksidir.

Texnoloji proseslərin avtomatlaşdırılmış idarəetmə sistemləri – TPAİS.

Elmi tədqiqatların avtomatlaşdırılmş sistemləri – ETAS – elmi cihazların komputerlə birləşdirildiyi proqram – aparat kompleksidir. Burada ölçü məlumatları avtomatik olaraq daxil edilir, komputer bu məlumatların tədqiqatçı üçün ən uyğun şəkildə emalını və təsvirini həyata keçirir .

Avtomatlaşdırılmış təlim sistemi - ATS. Şagirdlərə yeni mövzunu öyrənməyə, biliklərə nəzarəti həyata keçirməyə, müəllimlərə isə tədris materiallarını hazırlamağa kömək edən sistemlər mövcuddur.

Avtomatlaşdırılmış layihələndirmə sistemi – ALS - İnsanla (konstruktor, layihəçi-mühəndis, arxitektor və s.) birlikdə mexanizmləri, binaları, mürəkkəb cihazların hissələrini və s. maksimum səmərəli layihələndirməyə imkan verir.

Sadaladıqlarımızdan başqa tibbdə diaqnostika sistemlərini, mühasibat və maliyyə fəaliyyətinin aparılması sistemlərini, redaksiya-nəşriyyat fəaliyyətinin təmin edilməsi sistemlərini, bilet satışının təşkilinin sistemlərini də əlavə etsək informasiya texnologiyalarının tətbiq olma sahələrinin nə qədər geniş olduğu aydınlaşar.

İnformasiya texnologiyaları texniki, proqram, informasiya, metodik və təşkilatı təminatına əsaslanır və ondan asılıdır.

Texniki təminat - deyəndə komputer, ofis texnikası, rabitə xətləri, şəbəkə avadanlaqları başa düşülür. İnformasiya texnologiyasının texniki təchiz olunmasından asılı olan növü (əl ilə olan, avtomatlaşmış, uzaqlaşdırılmış) informasiyanın yığılmasına, emalına və ötürülməsinə təsir edir. Hesablama texnikası bir yerdə dayanmır. Fərdi komputer gücləndikcə, qiyməti ucuzlaşır və geniş istifadəçilər üçün əlçatan komputerlər inteqrasiya edilmiş rabitə imkanları ilə, sürətli modemlərlə, böyük yaddaş həcmləri ilə, skanerlərlə, səsi tanıyan və əlyazma mətni tapan qurğularla təchiz edilmişlər.

Proqram təminatı, texniki və informasiya təminatından birbaşa asılı olmaqla, yığma, emaletmə, təhlil, saxlama, komputerlə interfeysdə olmaq funksiyalarını reallaşdırır.

İnformasiya təminatı - komputerlə emal etmə üçün müəyyən formada təqdim edilən məlumatların məcmuudur.

Təşkilati və metodik təminat istənilən nəticəni əldə etmək üçün komputerin fəaliyyətinin və proqram təminatının təmin edilməsinə yönəlik tədbirlərin kompleksi deməkdir.

Tətbiq etmə sahələrinə görə əsas, tətbiqi və xüsusi informasiya texnologiyalarını fərqləndirirlər.

Əsas informasiya texnologiyaları fəaliyyətin müxtəlif sahələrində informasiya ilə universal iş metodları istifadə edilən texnologiyadır. Əsas informasiya texnologiyaları informasiyanın müəyyən növlərinin yenilənməsi, saxlanması və ya ötürülməsi ilə bağlı informasiya proseslərinin bu və ya digər konkret fraqmentlərinin təşkilinin ən səmərəli üsullarını təqdim edir.

Əsas tipli İnformasiya texnologiyaları onların istiqamətləndiyi tapşırıqların növünə görə təsnif edilə bilər. Əsas tipli texnologiyaların tam fərqli platformalarda yerləşməsi, əsaslanması komputer və proqram mühiti növlərinin fərqinə görə şərtləndiyindən, ona görə onların predmet texnologiyası əsasında birləşdirilməsi vaxtı sistem inteqrasiyasında problem yaranır.

Tətbiqi informasiya texnologiyaları müəyyən tətbiq sahələrinə uyqunlaşdırılmış informasiyalarla tipik iş həyata keçirən texnologiyadır. İdarəetmədə informasiya texnologiyaları, sənaye istehsalında informasiya texnologiyaları, ticarətdə informasiya

texnologiyaları, təhsildə informasiya texnologiyaları, tibbdə informasiya texnologiyaları və s. tətbiqi informasiya texnologiyasına misal ola bilər [6, s. 47] .

İnformasiya texnologiyalarının tətbiq olunduğu sahələrdə informasiya (məlumatlar, informasiya mesajları, informasiya məhsulları) resurs, vasitə, reqlament qismində və ya fəaliyyətin aralıq məhsulu kimi çıxış etsə də, onun son məhsulu deyildir.

Xüsusi (mövzu) informasiya texnologiyaları informasiya istehsalının, arxiv texnologiyası, nəşr texnologiyası, reklam texnologiyası, ofis texnologiyası, elmi-təhsil texnologiyası və s. kimi konkret sahələri üçün spesifik olan texnologiyadır [7, s. 49].

Bu texnologiyalarda informasiya təkcə əməyin predmeti və onun aralıq nəticələri qismində deyil, həm də fəaliyyətin son məhsulu kimi çıxış edir. Adlarını çəkdiyimiz sahələr cəmiyyətin informasiyaya (informasiya məhsullarının istehsalı və informasiya xidmətlərinin göstərilməsi) olan tələbatının ödənilməsində ixtisaslaşır.

İnformasiya texnologiyalarını aşağıdakı şəkildə qruplaşdırmaq olar: 1) texniki vasitələr, 2) kommunikasiya vasitələri, 3) təşkilatı-metodik təminatı; 4) standartlaşma.

Məlumat emalında informasiya texnologiyaları yaxşı strukturlaşmış vəzifələrin həll edilməsinə yönəlib, burada tələb olunan ilkin məlumatlar, alqoritmlər və onların emalı üçün digər standart əməliyyatlar məlumdur. Bu texnologiya aşağı ixtisaslı işçilərdə əməliyyat fəaliyyəti səviyyəsində bəzi gündəlik təkrarlanan idarəetmə əməyinin avtomatlaşdırılması məqsədi ilə tətbiq edilir. Buna görə bu səviyyədə informasiya texnologiyalarının və sistemlərinin tətbiq edilməsi işçilərin əmək məhsuldarlığını ciddi şəkildə yüksəldəcək, onları gündəlik əməliyyatlardan azad edəcək, hətta ola bilsin ki, işçilərin sayının azalmasına gətirib çıxaracaq.

Əməliyyat fəaliyyəti səviyyəsində aşağıdakı işlər görülür; 1) şirkətin həyata keçirdiyi əməliyyatlar barədə məlumatların emalı; 2) şirkətdə işlərin vəziyyəti haqda vaxtaşırı nəzarət hesabatlarının yazılması; 3) hər cür gündəlik sorğulara cavabın alınması və onun kağız şəklində sənədlər və ya hesabat formasında hazırlanması.

Məlumatların emalı ilə bağlı bu texnologiyanı digərlərindən fərqləndirən bir neçə xüsusiyyətlər mövcuddur: 1) şirkət üçün zəruri məlumatların emalı tapşırıqlarının yerinə yetirilməsi. Qanunda hər bir şirkətə öz fəaliyyəti haqda məlumatlara malik olmaq və onları qorumaq tövsiyə olunur. Ona görə hər bir şirkətdə məlumatların emalının informasiya sistemi olması zəruridir və buna uyğun informasiya texnologiyası işlənib hazırlanmalıdır;

2) Yalnız yaxşı strukturlaşdırılmış, alqoritm yaratmaq mümkün olan tapşırıqların həll edilməsi; 3) emalın standart əməliyyatlarının yerinə yetirilməsi; 4) əsas iş həcminin avtomatik rejimdə, insanın minimum iştirakı ilə yerinə yetirilməsi; 5) detallaşdırılmış məlumatlardan istifadə edilməsi; 6) hadisələrin xronologiyasına daha çox diqqət vermək; 7) problemin həllində digər səviyyələrdən olan mütəxəssislərdən minimum yardım tələb etmək.

İdarə etmədə informasiya texnologiyasının məqsədi şirkətin qərar qəbul edilməsində iştirak edən bütün əməkdaşlarının istisnasız olaraq hamısının informasiya ehtiyaclarını təsdiqləməkdir. Bu idarə etmənin istənilən səviyyəsində faydalı ola bilər. Bu texnologiya idarəetmənin informasiya sistemi mühitində fəaliyyətə yönəlmişdir və əgər onları məlumatların informasiya texnologiyasının yardımı ilə həll edilən tapşırıqlarla müqayisə etsək, həll ediləcək ən pis strukturlu tapşırıqlarda istifadə edildiyi məlum olar.

Təşkilatda yeni informasiya texnologiyalarının tətbiq edilməsində onun zamanla köhnəlməsinin qaçılmaz olması səbəbindən rəqiblərdən geri qalmaq riskini nəzərə almaq lazımdır, çünki, informasiya məhsulları digər maddi məhsullardan fərqli olaraq, yeni növlər və ya versiyalarla əvəz olunmada yüksək sürətə malikdir. Burada dəyişmə

sürəti bir neçə aydan bir ilədək olur.

Əgər, yeni informasiya texnologiyalarının tətbiq edilmə prosesində bu məsələ nəzərə alınmazsa, şirkətin yeni informasiya texnologiyalara keçirilməsinin sonuna yaxın ola bilsin ki, o, artıq köhnəlmiş olar və onun modernləşməsi üçün addımlar atılmalı olar.

İnformasiya texnologiyalarının tətbiqi zamanı belə uğursuzluqları adətən texniki vasitələrin mükəmməl olmaması ilə izah edirlər, əslində isə uğursuzluğun başlıca səbəbi informasiya texnologiyalarının istifadə metodologiyasının olmaması və ya zəif işlənməsi olur.

Müasir cəmiyyəti xarakterizə edən əsas proseslərdən biri informasiyalaşdırmadır. İnformasiya texnologiyasını bilmək yazmaq və oxumaq kimi keyfiyyətlərlə bir sıraya qoyulur. İnformasiya terminini müxtəlif tədqiqatçılar fərqli mənada işlədirlər. İnformasiyalaşdırma – (ingilis. iformatization) ərazicə paylanmış informasiya resurslarını birləşdirən telekommunikasiya infrastrukturunun qurulmasına və inkişafına yönəlik siyasət və proseslərdir. İnformasiyalaşdırma prosesi informasiya texnologiyasının inkişafında texnolojinin transformasiyasının nəticəsi, postsənaye istehsal üsulunun məhsuludur. İnformasiyalaşdırmanın əsasında idarə etmənin kibernetik metodları və vasitələri, həmçinin informasiya və kommunikasiya texnologiyasının instrumentariləri durur. İnformasiyalaşdırma deyəndə, istehsalın müxtəlif sahələrinə, insanların ictimai və şəxsi həyatlarına komputer texnikasının və yeni informasiya texnologiyalarının tətbiqi başa düşülür.

Cəmiyyətin informasiyalaşdırılması ilk olaraq, fəaliyyətin elm, istehsal və digər növlərinin daxil olduğu çap fonunda olan intellektual potensialdan geniş istifadəni nəzərdə tutur. İkincisi, ictimai istehsalın inkişafına və onun intellektuallaşmasına yardımçı olan informasiya texnologiyalarının fəaliyyətin müxtəlif növlərinə tətbiq edilməsini özündə ehtiva edir.

İnformasiyalaşdırma – informasiya kommunikasiya texnologiyalarını (İKT) tətbiq etməklə istifadəçilərin informasiya tələbatlarının ödənilməsi üçün optimal şəraitin yaradılması prosesidir. İnformasiyalaşdırma prosesində, ilkin olaraq, informasiyanın toplanması, emalı, onun saxlanması və təhlili üçün böyük işlərin görülməsi zəruridir. İstənilən sahədə rasional həll yollarının tapılması böyük həcmdə informasiyanın emalına əsaslanır, bu isə xüsusi texniki vasitələr cəlb olunmadan praktiki olaraq mümkün deyildir.

Nəticə

İnformasiya texnologiyaları mütəxəssisləri üçün informasiya texnologiyasından istifadə səviyyəsi onların peşəkarlıq səriştəsini göstərir.

İnformasiya proseslərinin texnoloji modeli peşə təhsilinin praktikasında, İT mütəxəssislərinin ixtisasının yüksəldilməsində geniş istifadə edilir. Texnoloji biliyin spesifikliyi peşə bacarıqlarının və vərdişlərinin formalaşması prosesində onlara olan yüksək tələbi müəyyən edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Информационные технологии. Учебник. Составитель Б.Ш.Асанкулов. Нарынский Государственный Университет. Нарын. 2011.
2. Советский энциклопедический словарь / гл. ред. А.М.Прохоров. – 2-е изд. – М. : Сов. энциклопедия, 1983. – С. 1321–1322.
3. Советов, Б. Я. Информационная технология : учебник / Б. Я. Советов. – М. : Высшая школа, 1994. – 368 с.
4. Данилевский, Ю.Г. Информационная технология в промышленности / Ю.Г.Данилевский, И.А.Петухов, В.С.Шибанов. –Л. : Машиностроение, 1988. – 283 с.
5. Информационные технологии : учебник / Ю.Ю.Громов, И.В.Дидрих, О.Г.Иванова,

М.А.Ивановский, В.Г.Однолько. –Тамбов : Изд-во ФГБОУ ВПО «ТГТУ», 2015. – 260 с. – 100 экз. –ISBN 978-5-8265-1428-3.
6. Информационные технологии : учебник / Ю.Ю.Громов, И.В.Дидрих, О.Г.Иванова, М.А.Ивановский, В.Г.Однолько. –Тамбов : Изд-во ФГБОУ ВПО «ТГТУ», 2015. s.47
7. Информационные технологии : учебник / Ю.Ю.Громов, И.В.Дидрих, О.Г.Иванова, М.А.Ивановский, В.Г.Однолько. –Тамбов : Изд-во ФГБОУ ВПО «ТГТУ», 2015. s.49
8. Информационные технологии : учебник / Ю.Ю.Громов, И.В.Дидрих, О.Г.Иванова, М.А.Ивановский, В.Г.Однолько. –Тамбов : Изд-во ФГБОУ ВПО «ТГТУ», 2015. s.41
9. Информационные технологии в бизнесе / под ред. М.Желены. – СПб. : Питер, 2002. – 120 с.
10. Кастельс, М. Информационная эпоха: экономика, обществи культура : / М.Кастельс ; под науч. ред. О. Шкаратана ; пер. с англ. –М. : ГУВШЭ, 2000. – 608 с.
11. Колин, К.К. Информационная технология как научная дисциплина / К.К.Колин // Информационные технологии. – 2001. – № 2. –С. 2 – 10.
12. Яроцкий, А.П. Системный анализ : учеб. пособие / А.П.Яроцкий. – Барнаул : Изд-во АлтГТУ, 2006. – 149 с.

Сохраб Магеррамов

ОСОБЕННОСТИ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ

Резюме

Цель–исследование способов эффективной организации информационного процесса по снижению расхода времени, труда, энергии и материальных ресурсов во всех сферах жизни человека и современного общества с использованием последних открытий в области информационных технологий, компьютерных технологий и др. высокие технологии.

Методология–при подготовке статьи использован системно-теоретический подход.

Результаты исследования–применение персональных компьютеров в сфере информации и использование телекоммуникаций, основных технических средств обработки информации в современном обществе, открыло новый этап в развитии информационных технологий, существенно изменив содержание различных деятельность в организациях.

Ключевые слова: *информация, ИКТ, алгоритм, компьютер, информатика, база знаний, интенсив, экстенсив*

Sohrab Maharramov

FEATURES OF INFORMATION TECHNOLOGY AND THE MAIN DIRECTIONS OF DEVELOPMENT

Summary

Purpose–the study of ways to effectively organize the information process to reduce the consumption of time, labor, energy and material resources in all spheres of human life and modern society using the latest discoveries in the field of information technology, computer technology, etc. high technology.

Methodology–when preparing the article, a system-theoretical approach was used.

The results of the study–the use of personal computers in the field of information and the use of telecommunications, the main technical means of information processing in modern society, opened a new stage in the development of information technologies, significantly changing the content of various activities in organizations.

Keywords: *information, ICT, algorithm, computer, informatics, knowledge base, intensive, extensive*

UOT 330. 101.541.330.831

Elnur Zeynalov
AMEA İqtisadiyyat İnstitutu, doktorant
elnurzeynalli.edu@gmail.com

VALYUTA MƏZƏNNƏSİ VƏ MAKROİQTİSADİ TƏNZİMLƏNMƏDƏ ONUN ROLU

Məqalədə valyuta məzənnəsinin makroiqtisadi tənzimlənmədə rolu ilə əlaqəli fərqli yanaşmaların sistemləşdirilməsinə baxılmışdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, valyuta məzənnəsi mahiyyət etibarı ilə çoxsaylı faktorların təsiri altında formalaşdığı kimi, onun dalğalanması və ya böhranı da iqtisadiyyatda çoxsaylı amillərin dəyişməsinə səbəb olur. Həmçinin, valyuta məzənnəsi iqtisadi göstərici kimi xarici iqtisadi fəaliyyətə, investisiyalara, dünya bazarında milli məhsulların rəqabətinə, kapitalın hərəkətinə, pul dövriyyəsinin vəziyyətinə və bütün istehsal prosesinə çox güclü təsir göstərir.

Tədqiqatın məqsədi–valyuta məzənnəsinin mahiyyəti, məzmunu və makroiqtisadi tənzimlənmədə rolu ilə bağlı yanaşmaları sistemləşdirmək və ümumiləşdirməkdir.

Tədqiqatın metodologiyası-tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz və sintez metodlarından istifadə edilib.

Tədqiqatın tətbiqi əhəmiyyəti–tədqiqatda araşdırılmış əsaslı təhlilərdən ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə nail olunmasında və iqtisadi səmərəliliyin yüksəldilməsində, valyuta münasibətlərini tənzimlənməsində istifadə edilə bilər.

Tədqiqatın nəticələri–valyuta sistemləri beynəlxalq aləmdə baş verən iqtisadi-siyasi proseslərdən aslı olaraq dəyişir. Buna görə də valyuta məzənnəsinin səmərəli tətbiqi milli məhsulların rəqabətqabiliyyətinə təsir etdiyi üçün məzənnənin səmərəli tətbiqi yerli istehsalı stimullaşdıra bilər.

Tədiqiqatın orijinallığı və elmi yeniliyi–valyutanın mahiyyəti, məzmunu, valyutanın məzənnəsinin formalaşma mexanizmi, paaşe indeksi əsasında qiymət indeksləri hesablanmışdır.

Açar sözlər: *valyuta məzənnəsi, real mübadilə məzənnəsi, qiymət indeksi, makroiqtisadi tarazlıq, valyuta rejimləri və s.*

Giriş

Valyuta məzənnəsi—bir ölkənin pul vahidinin başqa bir ölkənin pul vahidi ilə ifadə olunan nominal dəyəri olduğu bilinsədə, valyuta məzənnəsinin iqtisadiyyatdakı rolunu birmənalı qiymətləndirmək olduqca çətindir. Belə ki, ABŞ-ın Federal Ehtiyatlar Mərkəzinin idarə heyətinin sədri Alan Greenspan təsadüfi olaraq qeyd etmirdi ki; "Valyuta məzənnəsinin çoxlu sayda proqnozlaşdırılmalarına rast gəlmək olar, lakin bu proqnozlar digər iqtisadi göstəricilərin proqnozları ilə müqayisədə daha az uğurludur" [1, s. 7]. Qeyd edilən fikirə sübut olaraq onu deyə bilərik ki, valyuta məzənnəsi elə bir iqtisadi göstəricidir ki, qısa bir vaxt ərzində kəskin dəyişikliyə məruz qala bilər. Yəni, qısa bir müddət ərzində kəskin uçuzlaşa bilər və ya yaxud əksinə uzun müddət ərzində sabit qala bilər. Qeyd edilənlər onu deməyə əsas verir ki, valyuta məzənnəsinə təsir edən əsas amillərə əvvala nəzəri baxımdan ciddi əsaslandırmalı, ölkənin iqtisadi səciyyəvi xüsusiyyətləri nəzərə alınmalı və valyuta rejimləri ilə bağlı qaydalarda tələb olunan meyyarlar milli iqtisadiyyatın strukturuna uyğun dəqiq müəyyən edilməlidir. Valyuta məzənnəsinin dəyişməsi ölkənin dünya iqtisadi məkanındakı statusunu və bununla da onun həm xarici,

həm də daxili münasibətlərdə gələcək inkişafının istiqamətlərini əvvəlcədən müəyyənləşdirir.

Mövcud ədəbiyyatlara istinad

Milli valyutanın məzənnəsi həm əhalinin yayayış səviyyəsi baxımından, həm də hökumətlərin ticarət və digər ölkələrlə iqtisadi əlaqələrin qurulması və inkişafı səviyyəsi baxımından, həm də iqtisadi subyektlər baxımından qərarların qəbulu üçün mühüm etalondur. Empiriq tədqiqatlar göstərir ki, istənilən ölkədə milli valyutanın yüksək dalğalanmalar və ya volatillik olduğu bir şəraitdə ixrac-idxal əməliyyatları üzrə xərclər adətən artır, idxal olunan mallarının qiymətləri artır ki, bu da nəticə etibarı ilə daxili bazarda məhsulların bahalaşmasına səbəb olur. Belə olan halda, istehlakçılar özlərini bahalaşmadan və mümkün devalvasiyadan qorumaq üçün xarici valyutada əmanətlərin payını artırırlar ki, bu da milli valyutanın möhkəmlənməsinə və sabitləşməsinə mənfi təsir edir. Milli valyutanın kəskin dalğalanması və ya valotilliyi əhaliyə istehlakını azaltmağı, sahibkarlara isə milli iqtisadiyyata investisiyaları azaltmağ üçün əsas verir. Yüksək volatillik müəssisələrin uzunmüddətli inkişaf strategiyaları qurmasına mane olur ki, bu da müəssisələr tərəfindən ixracın azalmasına və istehsalın ləngiməsinə gətirib çıxarır.

Valyuta məzənnəsi, ona təsir edən amillər, valyuta siyasəti və onunla bağlı olan amillər beynəlxalq iqtisadi münasibətlərin tədqiqat obyekti olmasına baxmayaraq, milli valyutanın milli iqtisadiyyata və əhalinin həyat səviyyəsinə birbaşa təsiri beynəlxalq iqtisadi münasibətləri getdikcə makroiqtisadiyyatın daha aktual sahəsinə çevrməkdədir. Bunun səbəbi iqtisadi həyatın getdikcə beynəlmiləlləşməsi, qloballaşması proseslərinin güclənməsi, inteqrasiya proseslərinin dərinləşməsi, milli iqtisadiyyatların getdikcə daha sıx qarşılıqlı əlaqəsi və asılılığı bu gün dünya iqtisadiyyatının inkişafının ən mühüm amillərindəndir.

Valyuta məzənnəsinin iqtisadi siyasətin aləti kimi çıxış etməsi onun makroiqtisadi rolu ilə bağlıdır. Belə ki, bir çox iqtisadi göstəricilər valyuta məzənnənin səviyyəsindən və dinamikasından asılıdır. Müasir dövrdə hər hansı bir ölkədə iqtisadi proseslərin digər ölkənin iqtisadi proseslərə təsirinin bazası kimi tədiyə balansı çıxış edir. Belə ki, Amerikalı iqtisadçı A.Lerner 1944-1946-cı illər üzrə ABŞ ticarətini təhlil edərək belə qənaətə gəlir ki, valyuta məzənnəsinin dəyişməsinin ticarət balansının dinamikasına təsir göstərə biləcəyi nəzəri şərtini formalaşdırır. Həmin dövrdə, A.Lerner və A. Marşall müəyyən etdilər ki, milli valyutanın məzənnəsinin aşağı düşməsi ticarət balansını yaxşılaşdırmağa kömək edir. Bu hal onda baş verir ki, idxala milli tələbin və ixraca olan xarici tələbin mütləq elastikliklərinin cəmi vahiddən çoxdur. Sonradan bu nəzəriyyə 1946-1950-ci illərdə iqtisad elminə, Marşal-Lerner şərt kimi daxil olmuşdur [2, s.52].

$$E_x + E_i > 1$$

Burada - E_x - ixraca tələbin elastikliyi və E_i - idxala tələbin elastikliyini göstərir. Bu yanaşmaya görə əgər elastikliyin dəyəri vahiddən böyük deyilsə, devalvasiya ölkənin ticarət balansına müsbət şəkildə təsir göstərə bilməz və əksinə, tələb elastikliyi vahiddən yüksək səviyyədə olduqda isə devalvasiya ölkənin ticarət balansına müsbət şəkildə təsir göstərir.

Hal-hazırda valyuta məzənnəsinin tənzimlənməsi yolu ilə cari əməliyyatlar hesabının kəsirinin aradan qaldırılmasının effektiv alət olduğunu güman etmək adi bir hala çevrilmiş və bununla bağlı istər müsbət və istərsə də mənfi yanaşmalar olduqca çoxdur. Belə ki, nəzəri yanaşmalarda devalvasiyanın ixracı stimullaşdırdığı və idxalı sıxışdırdığı

kimi məlumatlardan istifadə olunur, lakin bu istiqamətdə tədqiqat aparan mütəxəssislər onu sübut etmir və valyuta məzənnəsinin dəyişməsinin ixracın (idxalın) reaksiyasını dəqiq mahiyyətini göstərmir. Bir sıra iqtisadçılar empirik məlumatlara əsaslanaraq bu nəzəriyyəni tamamlamağa çalışmışlar. Belə empirik tədqiqatlardan da biri J əyrisidir. Burada söhbət J.Artus və M.Naytın, həmçinin R.Dornbuş və S.Fişerin, daha sonra isə P.Kruqmanın tədqiqatlarında işlənmiş J əyrisinin təsirindən gedir. P.Kruqman göstərir ki, yerli istehsalçıların ixracını genişləndirmək üçün və daha bahalı idxal komponentlərinə nail olmaq üçün vaxt lazımdır. Real valyuta məzənnənin ucuzlaşması qısa müddətdə tədiyə balansının cari əməliyyatlar bölməsinin yaxşılaşmasına səbəb olmayacaq, daha da pisləşdirəcək. Lakin, devalvasiyadan sonra 6-12 ay ərzində cari əməliyyatlar hesabı əvvəlki səviyyəyə qayıdacaqdır. Uzunmüddətli perspektivdə (devalvasiyadan sonra bir ildən çox müddətə) cari əməliyyatlar hesabı yaxşılaşmağa doğru davam edəcəkdir [3, s. 448].

Hansı şəraitdə, hansı şərtlər daxilində milli valyutanın devalvasiyasına getmək lazım olduğunu dəqiq və düzgün qiymətləndirmək milli iqtisadiyyatın gələcək inkişafı üçün olduqca vacibdir. Əks halda valyutanın devalvasiyası milli iqtisadiyata neqativ təsirlər göstərə bilir. Bunu BVF-in metodikasından da görmək olar. BVF-nun metodikasına əsasən hər hansı bir ölkənin valyutasının 25%-30% kəskin uçuzlaşması devalvasiya deyil, artıq bu valyuta böhranıdır [4]. BVF metodikasında milli valyutanın 10%-ə qədər devalvasiyası məqsədəuyğun hesab edilirdisə artıq belə yanaşmanın özünü belə birmənalı şəkildə qiymətləndirmək doğru olmadığı məlum olmuşdur.

Müasir dövrdə valyuta məzənnəsinin iqtisadiyyatdakı rolunu qiymətləndirirərkən sual doğuran məsələlər olduqca çoxdur. İlk olaraq nominal devalvasiya real devalvasiyaya gətirib çıxarırmı sualı ilə bağlıdır. İkincisi, qiymətlərdə rəqabət üstünlüyü cari əməliyyatları hesabının (ticarət balansının) müsbət saldosuna səbəb olması sualıdır.

Empirik təhlillər göstərir ki, nominal devalvasiyanın real devalvasiyaya gətirib çıxarması üçün əmək haqqı, qiymət və məşğulluğun nəzərə alınması vacibdir. Belə ki, əgər milli valyutada devalvasiya və buna uyğun əmək haqqı artımı vaş verəsrsə bu əmək haqqı — qiymət spiralı alınaraq, əmək haqqının artması qiymət artımına ötürülərək yerli istehsal ilə idxal məhsulları arasında qiymətlərin bərabərləşməsinə səbəb ola bilər ki, bu da məcmu buraxılışın və əmək haqqının devalvasiyyadan əvvəlki dövrdə kimi sanki, sabit qalması və ya nominal devalvasiyanın real devalvasiyaya heç bir təsir göstərməsinə gətirib çıxarmır. Başqa sözlə, nisbi qiymətlər sabit qaldığı təqdirdə devalvasiya səmərəsiz və milli iqtisadiyyata təsiri mənfi olur.

Burada, maraq kəsb edən məsələlərdən biri də qiymət bahalaşmasının məcmu tələbə təsiri ilə bağlıdır. Əgər Mərkəzi Banklar pul kütləsini artırmasa, yüksək qiymətlər real pul kütləsini və məcmu tələbi azaldır. Gəlirin aşağı düşməsi nəticəsində tədiyə balansının cari əməliyyatlar bölməsi (ticarət balansı) müsbətə doğru meyl edir. Buradan belə nəticə çıxır ki, devalvasiya həyata keçirən dövlətlər qiymət artımına qarşı sərt məcmu tələb siyasətindən istifadə edməlidir.

Devalvasiyanın milli iqtisadiyyatda qiymətlər vasitəsilə rəqabət üstünlüyünə və cari əməliyyatları hesabının (ticarət balansının) müsbət saldosuna səbəb olması ilə bağlıdır. Bu məqamı aydınlaşdırmaq üçün aşağıdakı riyazi ifdəyə nəzər salaq [5, s. 529]:

$$NX = X - \frac{e * P_f}{P} * Q.$$

Burda, NX-xalis ixracı, X – milli məhsullara olan xarici tələbi və ya ixracı, e – nominal məzənnə, P_f – xaricdə qiymət səviyyəsi, P – daxili qiymət səviyyəsini, Q –

ölkənin idxal etdiyi məhsulların miqdarını, yəni, $\frac{e*P_f}{P} * Q$ – isə yerli məhsullar ifadəsində idxalın məbləğidir.

Milli valyutanın devalvasiyası məzənnəni ucuzlaşdırır, lakin belə halda yerli və xarici malların qiyməti dəyişməz qalarsa, bu zaman idxal artır. Əgər idxal olunan məhsulun fiziki həcmi dəyişmirsə, onda milli valyutada ifadə olunan məbləğ qiymət amilinə görə artır ki, bu da ticarət balansını pisləşdirir. Burada həcm effekti ikili rol oynayır. Biricisi yerli məhsullar xarici idxalçılar üçün ucuz olduqda ixrac artır və idxal isə bahalı olduğuna görə azalır. Deməli, Devalvasiya nəticəsində idxal və ixracda baş vermiş həcm effektinin qiymət effektini kompensasiya etməsi çox önəmlidir. Qısamüddətli həcm effekti çox kiçik olduğu üçün qiymət effektini kompensasiya edə bilmir. Uzunmüddətli dövrdə isə əksinə həcm effekti qiymət effektini üstələyir. Uzunmüddətli və qısamüddətli həcm effektinə istehsalçı və istehlakçıların nisbi qiymət dəyişkənliyinə hansı müddətdə uyğunlaşmasından çox aslıdır.

Empiriq tədqiqatlar təsdiqləyir ki, uzunmüddətli dövrdə tədiyə balansında kəsir uzunmüddətli olursa bu zaman bu zaman ölkədə milli valyutanın devalvasiyası baş verir və idxal məhsullarının nisbi qiymətləri bahalaşır. Qısamüddətli dövrdə isə qiymət effekti həcm effektini üstələyir. Bu zaman əvvəlcə tədiyə balansının pisləşir. Lakin, zaman keçdikcə, ticarətin həcmi dəyişmiş bu nisbi qiymətlərə uyğunlaşır. Nəticədə ixrac artır, idxal isə tədricən azalır. Uzunmüddətli dövrdə həcm effekti üstünlük qazanmağa başlayır və ticarət balansı yaxşılaşır. Bu prosesi iqtisadi ədəbiyyatarda bu prosesi J əyrisi effekti də adlandırılır. Bunun səbəbi isə həmin dövrdə ticarət balansı üzrə qrafi J əyrisinə bənzəyir.

Ölkə iqtisadçılarından F.Qənbərov öz tədqiqatlarında J əyrisi barədə belə qeyd edir. Qısa müddətdə bahalaşan idxal "qiymət effekti" nəticəsində tədiyə balansına mənfi təsir. Uzunmüddətli dövrdə isə ixracın artması "kəmiyyət effekti" ilə tədiyə balansına müsbət təsir edir [6, s.11].

Qeyd edilən milli valyutanın devalvasiyası və bununda nəticəsində ixracın stimullaşdırılması, idxalın isə bahalı göstərilməsi kimi belə yanaşmadan dünyanın bir çox ölkələri bu siyasətdən istifadə etmişdir. Belə ki, 1960-1980-cı illərdə Yaponiya, 1970-ci llərdə Brazilya, 1980-1990-cı illərdə Çili və Çin də istifadə etmişdir [7, s.15]. Cin xalq respublikasının milli valyutasının ucuzlaşması ilə bağlı Y.Həsənli göstərir ki, 1994-cü ildən etibarən son dövrlərə qədər Cin yuanının ABŞ dollarına məzənnəsi 8,0-8,8 intervalından kənara çıxmamışdır [8, s.209]. Yəni, Çin dövləti yuanı qeyd edilən interval sərhədlərində saxlayaraq onun məzənnəsinin ciddi şəkildə möhkəmlənməsinə imkan verməmişdir.

B.E.Brodski öz tədqiqatlarında 96 devalvasiya hadisəsinin nəticələrini təhlil etmiş G.Calvo və C.Reinhartın apardığı tədqiqatlara istinad edərək göstərir ki, devalvasiya xüsusilə aşağı və orta inkişaf səviyyəsinə malik ölkələrdə iqtisadi artıma müsbətdən daha çox mənfi təsir göstərir [9, s. 35-37].

Həmçinin, ölkə iqtisadçılarından F.Ə.Qənbərov qeyd edir ki, devalvasiya iqtisadiyyatın dollarlaşma səviyyəsinin 84%-dən çox olduqda bu iqtisadi artıma mənfi təsir edir. Eləcədə, ölkənin xarici borcu çox olduqda milli valyutanın devalvasiyası iqtisadi artım tempini 1,6% azaldır [6, s.11]. Hesab edirik ki, devalvasiyaya konkret hədlərin qoyulması daha məntiqlidir.

Beləliklə də, mübadilə məzənnəsinin dəyişməsi nəticəsində iqtisadi vəziyyətin xarakteristrikasını aşağıdakı kimi vermək olar.

Cədvəl 1

Mübadilə məzənnə dəyişikliyi

Nominal mübadilə məzənnəsi üzrə dəyişmə	*Real mübadilə məzənnəsi üzrə dəyişmə*	*Rəqabətin dəyişməsi*	*Vəziyyətin dəyişməsi*
Nominal mübadilədə möhkəmlə	Real mübadilədə möhkəmlə	Rəqabətin pisləşməsi meyli artır	Xaricdən idxal olunan məhsullar ucuz, milli məhsullar isə baha xarakterizə olunur.
Nominal mübadilədə ucuzlaşma	Real mübadilədə ucuzlaşma	Rəqabətin yaxşılaşması meyli artır	Xaricdən idxal olunan məhsullar daha baha, milli məhsullar isə ucuz xarakterizə olunur

Qeyd: müəllif yanaşması

Aparılan müşahidələr təsdiqləyir ki, hazırda dünyada baş verən iqtisadi və ya siyasi səbəblər üzündən valyuta sistemləri daima dəyişikliklərə məruz qalırlar. Belə ki, BVF-nun üzvü olan ölkələrin valyuta ehtiyatlarının formalaşdırılması, tədiyə balansının kəsirinin ödənilməsi, dünya kapitalı bazarında əməliyyatlar üçün istifadə olunduğudan onun quruluşunda istifadə edilən valyuta səbətinə baxmaq maraqlıdır. BVF-yə üzv olan hər bir ölkə öz valyuta ehtiyatlarının bir hissəsini kvota daxilində SDR-ə (xüsusi borc alma hüquqi) çevirir.

Cədvəl 2

SDR-in valyuta ehtiyatları üzrə strukturu

Dövrlər	ABŞ dolları	Avro	İena Yaponiya	Funt strerliq	Yuan Çin
1999-2000	39%	32%	18%	11%	-
2001-2005	44%	31%	14%	11%	-
2006-2010	44%	34%	11%	11%	-
2011-2015	41.9%	37.4%	9.4%	11.3%	6.4%
2016-2020	41.73%	30.93%	8.33%	8.09%	10.92%

Mənbə: https://www.imf.org/external/index.htm.

Dünyada valyuta sistemlərinin dəyişilməsinə səbəb olan əsas amillərdən biri fikrimcə, valyuta böhranıdır. Valyuta böhranları adətən maliyyə böhranlarının tərkib hissəsi olmaqla, milli valyuta məzənnəsinin kəskin düşməsi ilə nəticələnir. BVF-nun metodikasına əsasən bir ölkənin valyutasının 25%-30% kəskin uçuzlaşması artıq valyuta böhranıdır. Təbii ki, valyuta böhranı nəticəsində ölkənin qızıl-valyuta ehtiyyatları azalır, əhalinin yığım vasitəsi kimi milli valyutaya inamı azalır, milli avkivlərin dəyəri aşağı düşür, daxili investisiyalar kəskin azalır, ölkədən kapital axını sürətlənir və nəhayət ölkənin tədiyə balansı passiv saldoya malik olur.

Aparılan müşahidələr təsdiq edir ki, valyuta məzənnəsinin formalaşması ona təsir edən ammilərdən aslıdır. Bu baxımdan, valyuta məzənnəsinə təsir edən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar.

Cədvəl 3

Valyuta məzənnəsinə təsir edən amillərin təsnifatı

Təsnifat əlaməti	Amillər
Təsir müddətinə görə	Konyukturaya əsasən (qısamüddətli), Struktura əsasən (uzunmüddətli)
Valyuta məzənnəsinə təsir istiqamətinə görə	Məzənnənin ucuzlaşması, Məzənnənin bahalaşması, Kompleks yanaşma(ucuzlaşma və ya bahalaşma)

Mənbə: https://www.imf.org


Konyunktur amillər əsasən qısamüddət ərzində fəaliyyət göstərir və onları proqnozlaşdırmaq çətindir. Konyuktur amilləri səciyyələndirən makrostatistik məlumatların qrupu genişdir. Onları aşağıdakı kimi göstərmək olar:

- Bütövlükdə iqtisadiyyatın vəziyyəti (iqtisadi artım, ÜDM, inflyasiya göstəriciləri və s.);
- İqtisadiyyatın ayrı-ayrı sahələrinin vəziyyəti (pul statistikası, rəsmi faiz dərəcələri, dövlət qiymətli kağızları üzrə gəlirlilik, istehsal sektorunun göstəriciləri, məşğulluq və əmək bazarı üzrə göstəricilər, beynəlxalq ticarət və s.);

Struktur amillər isə uzun müddət ərzində fəaliyyət göstərir və proqnozlaşdırıla bilir. Bura əsasən, dünya bazarlarında ölkə mallarının rəqabətqabiliyyəti, ölkənin milli gəlirinin həcmi, dünya bazarlarındakı qiymətlərə münasibətdə daxili qiymətlərin dəyişməsi, maliyyə seqmentlərinin xüsusilə də, qiymətli kağızlar bazarının inkişaf dərəcəsi və s. amillər aid edilir.

Təhlillər göstərir ki, valyuta məzənnəsinin formalaşması çoxfaktorlu bir prosesdir. Müxtəlif xarakterli çoxlu sayda qarşılıqlı əlaqədə olan amillərin təsiri altında formalaşır. Həmçinin, qeyd etmək lazımdır ki, valyutanın məzənnəsi əsasən ölkədə qəbul edilmiş məzənnə rejiminin seçilməsindən də asılıdır.

BVF-nun materiallarının tədqiqi göstərir ki, 192 ölkədə aşağıdakı kimi valyuta rejmləri fəaliyyət göstərir.



Mənbə: [10, s. 9] və www.imf.org -2020.

Şəkil 1. Valyuta rejmləri

Beləliklə də aparılan araşdırmalar onu deməyə əsas verir ki, valyuta məzənnəsi mahiyyət etibarı ilə çoxsalı faktorların təsiri altında formalaşdığı kimi, onun dalğalanması və ya böhranı da iqtisadiyyatda çoxsaylı amillərin dəyişməsinə səbəb olur.

Materialların müzakirəsi

Milli valyutanın məzəsənnəsinin formalaşmasında xarici ticarətin rolu danılmazdır. Bu baxımdan əksər ölkələr nominal və real effektiv valyuta məzənnəsinə xüsusi diqqət yetirirlər. Burada aparıcı rolu yerli və xarici qiymətlər müəyyən edir. Qiymətlərin dəyişməsinin müəyyən olunmasında istifadə olunan yanaşmalardan biri də qiymət indeksləridir. Qiymət indekslərinin müəyyələşdiril-məsində istifadə olunan düsturlardan biri də Paaşe üzrə qiymət indeksidir. Paaşe düsturu ilə qiymət indeksi (I_p^P) aşağıdakı kimidir:

$$I_p^P = \frac{\sum p_1 q_1}{\sum p_0 q_1},$$

I_p^P – indeksi cari dövrdə istehsal edilmiş məhsulların dəyərinə qiymətlərin təsirini əks etdirir. Başqa sözlə, bu indeks ilə qiymətlərin dəyişməsi hesabına cari dövrdə məhsulun dəyərinin bazis dövrü ilə müqayisədə necə dəfə artdığı (azaldığı) müəyyən olunur. Burada, $\sum p_1 q_1$ -cari dövri, $\sum p_0 q_1$ – isə əvvəlki dövrü, daha dəqiq baza dövrünü xarakterizə edir. Həmçinin, burada, məhsulun qiyməti *(p)*, məhsulun fiziki həcmidir *(q)*.

Paaşe düsturu əsasında Azərbaycanın idxal-ixrac məhsulları üzrə fiziki həcm və qiymət indekslərinin dinamikası aşağıdakı kimidir.

Cədvəl 4


Paaşe düsturu əsasında idxal-ixrac məhsulları üzrə fiziki həcm və qiymət indeksləri

İllər	İdxal üzrə həcm indeksi	İdxal üzrə qiymət indeksi	İxrac üzrə həcm indeksi	İxrac üzrə qiymət indeksi
2014	1	1	1	1
2015	1.69	1.76	1	0.53
2016	1.83	1.2	1.2	0.52
2017	1.81	1.4	1.2	6.0
2018	1.98	1.74	1.1	7.7
2019	2.93	2.67	1.2	0.80
2020	3.35	3.1	1.2	1.2

Qeyd: cədvəl müəllif tərəfindən hesablanıb

Paaşe düsturu əsasında idxalın həcminin hesablanması onu göstərir ki, ölkədə daxili bazarın həcmi genişləndiyi üçün ölkənin daxili tələbinin xeyli hissəsi idxal hesabına ödənilir. Qeyd etdiyimiz fikiri təhlil olunan illər üzrə ümumən idxal həcminin artmasından da görmək olar. Buna uyğun da ixdal olunan məhsulların qiymətləri də yuksəlmişdir. Qeyd edilən fikirləri ixrac haqqında demək olduqca çətindir. Belə ki, ixrac məhsullarının həcm indeksi təhlil olunan dövr ərzində demək olara ki, dəyişməz qalmışdır. Həmçinin onu da bildirək ki, ixrac üzrə qiymət indeksinin 2017-ci il və 2018-ci ildə yuksək olması 2017-

2018-ci illərdə dünya miqyasında xam neftə gündəlik tələb yuksək olmuşdur. Belə ki, həmin dövrdə bir bal üçün neftin orta illik qiyməti 65 ABŞ dolları olmuş 2019-cu ildə isə 45 ABŞ dolları səviyyəsinə düşməsi təbii olaraq 2019-cu ilin qiymət indeksinə təsir etmişdir. 2020-ci ildə isə xam neftin qiymətinin qalxması ixrac qiymətləri indeksinin yuksəlməsini şərtləndirmişdir. Qiymətlərin milli valyutanın nominal və real effektiv məzənnəsinə necə təsir etdiyini müəyyən etmək üçün nominl və rel effektiv məzənnə üzrə dinamikaya nəzər salaq.



Şəkil 2. Nominal və real effektiv məzənnə

Şəkil 2-dən göründüyü kimi 2012-2021-ci illərdə demək olar ki, bütün dövrlərdə manatın nominal effektiv məzənnəsi ilə real effektiv məzənnəsi arasında ci ildə ciddi fərqlər olmuşdur. Nəzəri baxımdan nominal effektiv məzənə ilə real effektiv məzənnə arasında fərq nəq qədər az olsa bir o qədər səmərəlidir. Təhlil üçün götürülən bütün dövrlərdə real effektiv məzənnə nomial effektivdən çox olmuşdur. Deməli, Mərkəzi Bank valyuta bazarına müdaxilə edərək valyuta məzənnəsini tənzimləməyə çalışmışdır.

Nəticələr

Beləliklə də aparılan araşdırmalar onu deməyə əsas verir ki, valyuta məzənnəsi mahiyyət etibarı ilə çoxsalı faktorların təsiri altında formalaşdığı kimi, onun dalğalanması və ya böhranı da iqtisadiyyatda çoxsaylı amillərin dəyişməsinə səbəb olur.Valyuta məzənnəsi iqtisadi göstərici kimi xarici iqtisadi fəaliyyətə, investisiyalara, dünya bazarında milli məhsulların rəqabətinə, kapitalın hərəkətinə, pul dövriyyəsinin vəziyyətinə və bütün istehsal prosesinə çox güclü təsir göstərir. Makroiqtisadi səviyyədə pul göstəricisi olan valyuta məzənnəsi dövlət tərəfindən həyata keçirilən pul siyasətinin effektivliyini xarakterizə edir və arzu olunan inflyasiya səviyyəsinə və bir sıra digər göstəricilərə (ixrac və idxalın səmərəliliyi) nail olmaq üçün hədəf meyar kimi çıxış edə bilər. Kapital axını, beynəlxalq likvidlik və s.). Bu, ölkənin beynəlxalq bazarda rəqabət qabiliyyətinin göstəricisidir və tədiyə balansının tənzimlənməsi trayektoriyasını göstərir. Valyuta məzənnəsinin kəskin dəyişməsi beynəlxalq iqtisadi, o cümlədən pul-maliyyə münasibətlərinin qeyri-sabitliyini artırır, mənfi sosial-iqtisadi nəticələrə, ölkələrin gəlirlərinin qeyri-bərabər bölüşdürülməsinə səbəb olur. Bununla əlaqədar olaraq valyuta məzənnəsinin tənzimlənməsinin milli və beynəlxalq mexanizmlərindən istifadə olunur.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. U.S. Federal Reserve, "Testimony of Alan Greenspan – Federal Reserve Board's semiannual monetary policy report to Congress," U.S. Federal Reserve Web site. www.federalreserve.gov/ December 2005
2. Pilbeam, K. International Finance / Keith Pilbeam. – L.: 2013. – 580 p.
3. Krugman, P.R. International Economics: Theory & Policy. / P.R. Krugman, M. Obstfeld. – Boston: Pearson Education, 2018. – 715 p
4. www.imf.org
5. R.Dorunbuş,S.Fişer, R.Stars Makroiqtisadiyyat 11-ci nəşr, 2015-ci il səh.636
6. Fuad Qənbərov Məzənnə siyasəti: yeni çağırışlar və imkanlar Bakı-2021 s.295
7. А.Бланк, Е.Гурвич, А.Улюкаев (2006) Обменный курс и конкурентоспособность отраслей российской экономики. Вопросы Экономики, №6 с.4-24.
8. Yadulla Həsənli, Fəxri Həsənov "Valyuta məzənnəsinin ona təsir edən amillərdən asılılığının ekonometrik modelləşdirilməsi" "Dünyaya baxiş" jurnalı, №1, 2008, səh. 207-219
9. Б.Е.Бродский Реальный обменный курс рубля и экономический рост в России Вопросы Экономики, 2006, №4 с.35-51
10. Annual Report on Exchange Arrangements and Exchange Restriction, 2020. – www.imf.org

Эльнур Зейналлы

ВАЛЮТНЫЙ КУРС И ЕГО РОЛЬ В МАКРОЭКОНОМИЧЕСКОМ РЕГУЛИРОВАНИИ

Резюме

Цель исследования - систематизировать и обобщить подходы к сущности, содержанию и роли валютного курса в макроэкономическом регулировании.

Методология исследования – в работе использовались сравнительный анализ, логическое обобщение, системный подход, методы анализа и синтеза.

Значимость применения исследования - фундаментальный анализ исследования может быть использован для достижения конкурентоспособности экономики страны и повышения экономической эффективности, регулирования валютных отношений.

Результаты исследования показывают, что валютные системы меняются в зависимости от экономических и политических процессов, происходящих на международной арене. Следовательно, эффективное использование обменного курса может стимулировать местное производство, так как эффективное использование обменного курса влияет на конкурентоспособность национальной продукции.

Оригинальность и научная новизна исследования - сущность и содержание валюты, механизм формирования валютного курса, индексы цен рассчитывались на основе индекса Пааше.

Ключевые слова: *обменный курс, реальный обменный курс, индекс цен, макроэкономический баланс, валютные режимы и др.*

Elnur Zeynallı

FOREIGN EXCHANGE RATE AND ITS ROLE IN MACROECONOMIC REGULATION

Summary

The purpose of the study is to systematize and generalize approaches to the essence, content and role of the exchange rate in macroeconomic regulation.

Research methodology – comparative analysis, logical generalization, systematic approach, methods of analysis and synthesis were used in the work.

The significance of the application of the study - the fundamental analysis of the study can be used to achieve the competitiveness of the country's economy and increase economic efficiency, regulate foreign exchange relations.

The results of the study show that currency systems change depending on the economic and political processes taking place in the international arena. Therefore, the effective use of the exchange rate can stimulate local production, since the effective use of the exchange rate affects the competitiveness of national products.

The originality and scientific novelty of the study - the essence and content of the currency, the mechanism of formation of the exchange rate, price indices were calculated on the basis of the Paasche index.

Keywords: *exchange rate, real exchange rate, price index, macroeconomic balance, currency regimes, etc.*

UOT 338. 012

Toğrul Əkbərli
Lənkəran Dövlət Universiteti
togrulakberli@yahoo.com

QARŞILIQLI ASILILIQ VƏ TƏSİRLƏRİN İQTİSADİYYATIN AÇIQLIĞINA VƏ ÖLKƏNİN MALİYYƏ-İQTİSADİ TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİ

Məqalədə Azərbaycan Respublikası son dövrlər maliyyə-iqtisadi sistemin qloballaşması prosesinə çox intensiv formada cəlb olunması qeyd olunur və bunun nəticəsində həm beynəlxalq maliyyə-iqtisadi bazarın yaratdığı üstünlüklərdən yararlanmaq, həm də milli iqtisadiyyatın və ölkənin maliyyə bazarının inkişafında ümümdünya ənənlərinin göstərə biləcəyi təsirlər üçün açıq hesab edilir. Ona görə də ölkəmiz üçün yaxın 3-5 il ərzində modernləşdirmə məsələləri və milli təhlükəsizilik siyasətinin effektiv şəkildə reallaşdırılmasını nəzərdə tutan balanslaşdırılmış şaquli-inteqrativ mexanizmin formalaşdırılması xususi aktuallıq, praktik əhəmiyyət kəsb edir.

Məqsəd–qaşılıqlı asılılıq və təsirlərin Azərbaycan iqtisadiyyatının açıqlığına və maliyyə-iqtisadi təhlükəsizliyinə təsirinin müəyyən edilməsidir.

Metodologiya–tədqiqat işində sistemli və müqayisəli təhlil prinsiplərindən və ümumelmi (ekspert qiymətləndirməsi, dialektik, sistemli, statistik və sinergetik yanaşma və s.) metodlardan istifadə edilmişdir.

Tədqiqatın nəticəs –maliyyə-iqtisadi sistemdə yaranan böhran hallarının aradan qaldırılması və prinsipcə onun başqa inkişaf mərhələsinə transformasiyası məqsədilə ölkəmiz üçün yaxın 3-5 il ərzində modernləşdirmə məsələlərinin və milli təhlükəsizilik siyasətinin effektiv şəkildə reallaşdırılmasını nəzərdə tutan balanslaşdırılmış şaquli-inteqrativ mexanizmin formalaşdırılmasının xususi aktuallığı və praktik əhəmiyyəti qeyd edilmişdir.

***Açar sözlər**: asılılıq, açıqlıq, təhlükəsizlik, maliyyə, biznes, qloballaşma, risk, təhdid*

Giriş

Müasir şəraitdə beynəlxalq maliyyə-iqtisadi axınların həcminin və rolunun artması nəticəsində qlobal maliyyə sistemində həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin inteqrasiya səviyyəsi yüksəlmişdir. Bu da öz növbəsində dünya maliyyə-iqtisadi sistemini bir tərəfdən mürəkkəbləşdirirsə, digər tərəfdən onun zəifləməsinə gətirib çıxarır. Məhz qlobal miqyasda baş verən inteqrasiya prosesləri son dövrlər katalizator rolunu oynamaqla maliyyə-iqtisadi proseslər arasında təşəkkül tapan zidiyyətləri daha da kəskinləşdirir. İyirmi ildən artıq bir müddətdir ki, Azərbaycan Respublikası maliyyə-iqtisadi sistemin qloballaşması prosesinə çox intensiv formada cəlb olunur və bunun nəticəsində həm beynəlxalq maliyyə-iqtisadi bazarın yaratdığı üstünlüklərdən yararlanmaq, həm də milli iqtisadiyyatın və ölkənin maliyyə bazarının inkişafında ümümdünya ənənlərinin göstərə biləcəyi təsirlər üçün açıq hesab edilir. Başqa sözlə, milli iqtisadiyyatın dünya təsərrüfat əlaqələri sisteminə daha çox cəlb edilməsi, qoşulması onu ümumdünya bazarının konyukturası və dinamikasından asılı vəziyyətə salır, milli maliyyə - iqtisadi sisteminin proqnozlaşdırılmayan yüksək səviyyəli risklərlə üzləşməsinə səbəb olur. Təbii ki, bu da öz növbəsində milli maliyyə-iqtisadi sistemin dayanıqlığı və təhlükəsizliyinə təməl xarakterli təhdidlər yaradır. Milli iqtisadiyyatın yol verilən həddən artıq açıq olması

və ölkəmizin beynəlxalq kapital mübadiləsində iştirakı real və potensial hesab edilən milli resursların israfçılığına gətirib çıxarır, daxili investisiyaların və kapital qoyuluşlarının həcmini azaldır, ölkədə məhsul istehsalı həcminin artırılması və onun struktur baxımından yeniləşməsi imkanlarını məhdudlaşdırır, maliyyə bazarının əsas seqmentlərində asimmetriya yaratmaqla dayanıqlığını pozur, tədiyyə balansının vəziyyətinə və valyuta ehtiyatlarının həcminə mənfi təsir göstərir.

İqtisadi artımın mühüm amillərindən biri hesab edilən kapitalın ölkədən çıxarılması ənənəsinin güclənməsi iqtisadi resursların əhəmiyyətli hissəsinin, siyasi çəkisinin, xarici bazarlarda mövqeyin və dayanıklı inkişafı təmin edən potensialın itirilməsi ilə nəticələnir.

Qloballaşma dövründə iqtisadiyyatın açıqlığı və maliyyə-iqtisadi təhlükəsizlik problemi

Milli bazarlarda qiymət siyasəti sahəsində müşahidə edilən disproporsiyalar milli iqtisadiyyatın bütün sahə və sferalarında struktur nöqteyi-nəzərindən disfunksionallıq, eləcə də ekzogen təbiətə malik yüksək volatil dinamika şəraitində onun davamlı inkişafı üçün təhdid yaradır. Bütün bu amillər dövlətin "milli gücünü", daha doğrusu, dünya miqyasında rolunu (o cümlədən, maliyyə, iqtisadi, elmi-texniki və s.), böhran hallarına müqavimət göstərə bilmək qabiliyyətini, dünya miqyasında milli lobbiçiliyin təsirini əhəmiyyətli dərəcədə aşağı salır, onun təhlükəsizliyi və bütövlüyünə təhdid yarada bilən çoxsaylı sosial-iqtisadi problemlərin təşəkkül tapmasına yol açır.

Təbii ki, risk və sistemin inteqrativ açıqlıq (taktiki göstəricilərə və məqsədlərə deyil, milli strateji maraqlara əsaslanan) səviyyəsinin yüksək olması fonunda geoiqtisadi maliyyə sabitliyinin və ölkənin maliyyə-iqtisadi sisteminin idarəedilməsi xüsusi əhəmiyyət daşıyır.

Qeyd etmək lazımdır ki, qloballaşma proseslərinin intensiv xarakter aldığı və milli iqtisadiyyatın açıq olduğu bir şəraitdə maliyyə-iqtisadi təhlükəsizliyin elmi dərk etmə metodları və strategiyası da dəyişməlidir. Lakin o da nəzərə alınmalıdır ki, təbiət ehtibarı ilə xarici mühit və digər sistemlər arasında material, maliyyə və informasiya axınlarının (kapitalın, işçi qüvvəsi, məhsul və s.) mübadiləsi azad və müstəqil formada həyata keçirildiyindən istər maliyyə bazarı, istərsə də milli iqtisadiyyat özü-özünü tənzimləyən və təşkil edən açıq sistem hesab edilir.

İqtisadi sistemin açıqlığı dedikdə ilk növbədə dünya təsərrüfat sisteminə inteqrasiya dərəcəsi və dünya bazarının tələblərinə tabe olmaq, beynəlxalq bazarlarda məhsul, xidmət, kapital və digər istehsal amilləri ilə əməliyyatların aparılması zamanı müstəqillik səviyyəsi (məhdudiyyətlərin olmaması) başa düşülür. Təbii ki, acıq iqtisadi model hər bir ölkənin milli sərhədlərindən asılı olmayaraq, onun hüdüdlarından kənarda sərbəst maliyyə - iqtisadi fəaliyyətin aparılmasını nəzərdə tutur.

Qloballaşma dövründə iqtisadiyyatının açıqlığı və Azərbaycanın maliyyə-iqtisadi bazarının səciyyəvi xüsusiyyətləri

Qeyd etmək lazımdır ki, hal-hazırda dünya iqtisadiyyatında qloballaşma proseslərinin gücləndirilməsi, istehsalın beynəlmiləşdirilməsi və beynəlxalq əmək bölgüsünün dərinləşməsi ilə bağlı təşəkkül tapan iqtisadi proseslər kifayət geri dönməz xarakter almışdır. Beynəlxalq münasibətlər sisteminin həqiqi üzvü kimi Azərbaycan Respublikası bazar iqtisadiyyatı doktirasını qəbul etdikdən sonra digər bazar növləri kimi milli iqtisadiyyatın və bank-maliyyə sisteminin dayanıqlığını təmin edən maliyyə-iqtisadi bazarında səciyyəvi xarakterə malik bütün keyfiyyətləri ilə yanaşı, özünün açıqlıq səviyyəsinə görə fərqlənir. Təbii ki, maliyyə-iqtisadi bazarının açıqlığı milli iqtisadiyyatın və bank-maliyyə sisteminin dayanıqlığına təsirsiz ötüşmür. Onu da nəzərə almaq lazımdır ki, milli maliyyə -

iqtisadi bazarın açıqlığı səviyyəsinin milli bazarların keyfiyyətcə inkişafına və ölkənin milli təhlükəsizliyinə təhdidlərin səviyyəsinə təsirləri müzakirə predmeti olduğu qədərdə mühüm əhəmiyyət daşıyır. Bu kontekstdə böhrana və milli iqtisadi maraqlara təhdidlərin yaranmasına xidmət göstərən mürəkkb xarakterli münasibətlər kompleksi ilə onların əmələ gəlmə səbəbləri arasında qarşılıqlı asılılıq problemləri və onların həlli məsələlərinin diqqətdə saxlanılması xüsusi ilə vacib hesab edilir. Bunun üçün isə ilk növbədə "iqtisadiyyatın açqlıq" anlayışının daşıdığı iqtisadi məna yükünün dəqiqləşdirilməsinə ehtiyac duyulur. Fikrimizcə, "iqtisadiyyatın açqlıq" anlayışının milli və qlobal makroiqtisadi sistemlər, real proseslər arasında qarşılıqlı fəaliyyət qaydalarını və onların müxtəlif - vətəndaş, cəmiyyət və dünya səviyyələrində müsbət və ya mənfi təsirlərini xarakterizə edir.

Hər şeydən əvvəl, iqtisadiyyatın açıqlığı makroiqtisadi sistemin inkişaf fəlsəfəsi ilə şərtləşən, onu xarakterizə edən səciyyəvi xüsusiyyət kimi nəzərdən keçirilməlidir. Milli və dünya iqtisadiyyatında son dövrlər müşahidə edilən ümumi ənənələr onu deməyə əsas verir ki, dünya ölkələri arasında ticarət münasibətləri yeni xarakter almış, kapital və resursların (o cümlədən əmək) hərəkəti sahəsində üfüqi və şaquli inteqrasiya əlaqələri dərinləşmişdir. İzafi istehsal və son istehlak nəzəriyyələri ilə razılaşaraq qeyd edə bilərik ki, iqtisadiyyatın açıqlıq səviyyəsinin yüksəlməsi, yeni istehsal güclərinin təşəkkül tapması qlobal iqtisadi böhranların, eləcə də bir çox sənaye sahələrində artıq istehsal güclərinin əmələ gəlməsinə şərait yaradır. İqtisadi qloballaşma və milli maliyyə-iqtisadi sistemin açıqlığı bir tərəfdən inkişaf etməkdə olan ölkələrin firavanlığı üçün təhdidlər yaradır, digər tərəfdən beynəlxalq diskriminasiya siyasəti vasitəsi ilə ayrı-ayrı sistemyaradıcı ölkələrə özlərinin yeni iqtisadi artım modelini reallaşdırmağa imkanı verir.

Böhran şəraitində iqtisadiyyatın açıqlığı və beynəlxalq maliyyə-iqtisadi təhlükəsizlik məsələləri

Maraqlı məqam ondan ibarətdir ki, ilk dəfə olaraq E.Xansen [1] və F.Xoutri [2] iqtisadiyyatın tsikli inkişafı ilə bank kreditlərinin məhdudiyyətliliyi və sürüşkən uçot dərəcələri arasında qarşılıqlı əlaqənin mövcudluğunu elmi əsaslarla sübut etmişlər.

1989-cu ildə soyuq müharibənin qurtardığı, Şərqi Avropada sovet imperiyasının dağıldığı və 1991-ci ildə Sovetlər İttifaqının özünün freqmentasiyaya uğradığı andan etibarən "yeni dünya qaydaları" və onun təbiəti haqqında beynəlxalq xarakterli mülahizələr meydana cıxmağa başladı. Bunun nəticəsi olaraq müharibədən sonra iqtisadi artımı stimullaşdırmaq və maliyyə-iqtisadi paritetləri saxlamaq üçün istifadə olunan nisbətən sadə və sabit bipolyar dünya ciddi şəkildə zəiflədi və iqtisadi, siyasi, etnik münaqişələrin mürəkkəb formaları ilə xarakterizə olunan xaotik, beş və ya daha böyük dövlətlərdən ibarət çoxpolyarlı dünyaya tədricən transformasiya olundu. Bu sahədə tədqiqat aparar alim və mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, "ötən son otuz ildə biz iki dövlətin dominantlıq etdiyi dünyadan birinin dominatlıq etdiyi dünyaya, indi isə liderlərin olmadığı, multipolyar dünyaya qədər yol keçdik" [3]. Təbii ki, belə bir çoxpolyarlı dünyada idarəedilən iqtisadi qloballaşmanın həyata keçirilməsi zamanı milli cəmiyyətlərin və beynəlxalq birliklərin maraqları kəsişir, ölkənin milli təhlükəsizilik məsələsi aktuallaşır. Milli təhlükəsizlik paradiqması baxımından ölkə səviyyəsində həll edilən ənənəvi maliyyə və iqtisadi siyasət, siyasi maraqlarla bağlı münaqişəli məsələlərin həlli mexanizmi tədricən qlobal, regional və transregional səviyyəyə keçərək beynlxalq xarakter alır. Belə bir şəraitdə təhlükəsizlik problemlərinin və təhdidlərin xüsusi olaraq ayrıca götürülmüş bir ölkənin milli sərhədləri ilə məhdudlaşdırılması qəbul edilməz hesab edilir və belə demək mümkünsə, beynəlxalq münasibətlər sistemi daxilində qarşılıqlı fəaliyyət göstərən çoxsəviyyəli strukturlar- "yeni

ərazilərlə" müəyyənləşir.

Təbii ki, şəbəkə nəzəriyyəsi beynəlxalq münasibətlər sisteminin əsası kimi çoxsəviyyəli qarşılıqlı faəliyyətin mövcud strukturu və ərazi müstəqilliyi prinsipinə transformasiyada rolunu daha aydın və hərtərəfli təsvir etməyə imkan verir. Nəzərdən qaçırmaq lazım deyil ki, bu prosesdə qlobal şəbəkənin elementi kimi çıxış edən dövlət mövcud şəbəkənin davranışına nəzarət funksiyasını həmişə yerinə yetirə bilmir. Deməli, real iqtisadi şəraitdən çıxış etsək görərik ki, şəbəkənin dövlətə təsiri, dövlərin şəbəkəyə təsirindən daha çoxdur.

Beləliklə, iqtisadiyyatın açıqlıq səviyyəsinin artması birmənalı olaraq bütün dünya maliyyə-iqtisadi sistemin disproporsionallığını gücləndirir, ayrı-ayrı ölkələr, iqtisadi siniflər, təsir qrupları arasında vahid ümümdünya valyuta ehtiyatı kimi qəbul olunan və dünya maliyyə bazarında praktiki olaraq inhisarçılıq edən ABŞ-nın kazğız əskinazı - dollar uğrunda ziddiyyətləri və mübarizəni kəskinləşdirir [4].

Qloballaşmanın və böhran şəraitinin maliyyə-iqtisadi təhlükəsizliyə təsiri

Praktik təcrübə göstərir ki, kapital bazarında mütləq rəqabət üstünlüyünə malik olan transmilli maliyyə institutları inkişaf etməkdə olan ölkələrin uzunmüddətli məqsədlərinin reallaşdırılmasında və iqtisadiyyatın balanslaşdırılmış inkişafında bir o qədər də maraqlı deyillər.

Dünya iqtisadiyyatının maraqları baxımından formalaşan maliyyə-iqtisadi model idarəedilməz hala gətirilməklə, xaotik transmilli maliyyə -iqtisadi sisteminə transformasiya olunmaqla yanaşı, eyni zamanda milli iqtisadi maraqlara əhəmiyyətli dərəcədə təhdidlərin yaranmasında bir növ katalizator rolunu oynayır.

Nəzər almaq lazımdır ki, son 10 - 15 ildə istər dünya, istərsə də ölkə səviyyəsində baş verə iqtisadi təkamül prosesləri bir daha maliyyə-iqtisadi sistemin mürəkkəbliyini və onun getdikcə sərtləşməsi faktını təsdiq etdi. Bu da təkzib edilməz həqiqətdir ki, beynəlxalq maliyyə-iqtisadi münasibətlər sisteminin əksər iştirakçıları böyük maliyə böhranına - 2007-ci ilə qədər sürətlə inkişaf edən maliyyə şəbəkəsinə texniki tərəqqinin yaratdığı qaçılmaz əlavə məhsul, maliyyə şəbəkəsinin mürəkkəblik dərəcəsinin getdikcə sərtləşməsi, artmasına isə maliyyə bazarının stabil inkişafını təmin edən başlıca amil kimi baxırdılar. Allen və Qayl tərəfindən maliyyə şəbəkəsinin mürəkkəbliyinə və ölçülərinə stabilləşdirici təsir göstərən maliyyə-riyazi modelin işlənib hazırlanmasıda məhz bu məqsədə xidmət edirdi [5,6].

Təsadüfü deyil ki, dünya maliyyə böhranının növbəti dalğası maliyyə sisteminin özözünü yenidən bərpa edə bilməməsi xassəsini aşkar etdikdən və nəticə ehtibarı ilə bütün maliyyə dünyası yüksək qeyri-müəyyən duruma düşdükdən sonra iqtisad dairələrdə maliyyə və iqtisadi bazarların idarəedilməsi və inkişafı ilə əlaqədar ümumqəbuledilmiş paradiqmanın etibarlılığı haqqında şübhələr əmələ gəlməyə başladı [7]. Nəzərə almaq lazımdır ki, maliyyə-iqtisadi sistemin neqativ endogen şoklara yüksək axritektur bağlılığı və həssaslığı ölkənin maliyyə bazarında tutduğu mövqeyə və xarici maliyyə öhdəliklərinə proporsional şəkildə birbaşa təsir göstərir [8]. Bu zaman milli cəmiyyətlərin dünya maliyyə sisteminə inteqrasiya prosesi ixtiyarı bir ölkə səviyyəsində az nəzarət edilən, qloballaşma proseslərindən imtina etmək anlamına gəlsə də, həm ölkə daxilində, həm də ölkələr arasında artan gəlir bərabərsizliyinin, tənzimlənməyən maliyyə axınlarının, xroniki yüksək işsizliyin, sosial və gender sahəsində diskriminasiya hallarının və s. əmələ gəlməsinə səbəb olur. Deməli, belə nəticəyə gəlmək olar ki, hal-hazırda qloballaşmanın törətdiyi və ya törədə biləcəyi fəsadlar, onun yaratdığı üstünlüklərindən çox olduğundan cəmiyyətin istehsal qabiliyyəti ilə istehlak qabiliyyəti arasında, məhsul bazarının həcmi ilə maliyyə

bazarının həcmi və iqtisadi artımı təmin edilməsində oynadıqları rollar arasında, resursların dəyəri, qiyməti və maliyyə aktivləri arasında böyük fərqlərin (istehlakın sürəti inkişafın əldə edilən nəticələrini qoruyub saxlamaq üçün istehsalın sürətindən geri qalır) yaranması ilə əlaqədar mütəmadi olaraq bir sıra qlobal disbalansların eksponensional artmasını qaçılmaz edir və dünyada maddi sərvətlərin qeyri-bərabər bölüşdürülməsinə gətirib çıxarır. Sosial-iqtisadi proseslərin gedişi zamanı qeyd edilən bu disbalansların durmadan artması istənilən ictimai -iqtisadi sistemi "dünya böhranı" kimi qəbul edilən çıxılmaz vəziyyətə salır və bu gün mövcud olan idealoji prizmadan onun tənzimlənməsinə edilən bu və ya digər cəhdlər bu durumu bir qədərdə sərtləşdirir. Maliyyə-iqtisadi münasibətlər kontekstində sistemin üzləşdiyi kritik durumu flyuktuasiyanın arması ilə (məsələn, kredit yükünün maksimum həddə qədər artması fonunda əhali yığımının minimum səviyyəyə qədər azalması və s.) xarakterizə etmək olar.

Mövcud təsərrüfatçılıq sistemini saxlamaq şərti ilə son dövrlər həyata keçirilən antiböhran siyasəti istər milli, istərsə də beynəlxalq səviyyədə mövcud iqtisadi ziddiyyətləri bir qədər də dərinləşdirir. Müasir əmtəə-pul münasibətləri şəraitində iqtisadi fikir sahiblərinin gəldiyi nəticə ondan ibarətdir ki, milli iqtisadiyyatın açıqlığının dövlət səviyyəsində lokal idarəedilməsi, həmçinin ölkənin inkişaf səviyyəsinə uyğun olaraq açılığın sərhədlərinin müəyyənləşdirilməsi nəzəri-praktiki baxımdan qeyri-mümkün bir prosesdir. Milli iqtisadiyyatın açıq olmasını məhdudlaşdıran tədbirlərin həyata keçirilməsi dünya miqysında onun formalaşan rəqabətqabiliy-yətinin zəifləməsinə, bazar payının itirilməsinə, qabaqcıl elmi-texniki işləmələrdən təcridə, qlobal mübarizə fonunda əldə edilən texnoloji üstünlüklərdən istifadə edilməməsinə, dünya maliyyə - iqtiadi bazarlarda oynaya biləcyi rolun azalmasına təhlükə yarada bilər.

Aydındır ki, müasir şəraitdə istənilən ölkə, o cümlədən Azərbaycan iqtisadiyyatında başlıca dəyər (rəqabətüstünlüyü) real tədiyəqabiliyyətli istehlak hesab edilir. Bunun üçün isə ölkədə kiçik və mikrobiznesin inkişafına dəstək proqramlarında qeyd edilən biznes mühütini "iqtisadi şüar" vəziyyətindən çıxarmaq, biznes subyektlərinə bütün həyat dövranı boyunca və onların məhsullarının son istehlakçılara çatdırıl-ması mərhələləri üzrə aktiv köməklik göstərə biləcək real və effektiv fəaliyyət göstərən milli işgüzar biznes inkubatorlara transformasiya etmək tələb olunur.

Mövcud rəqabətüstünlüyünü qazandıqları pulların böyük bir hissəsini ölkədə istehsal edilən məhsullara və göstərilən xidmətlərə sərf edəcək əmək miqranları üçün əlavə iş yerlərinin yaradlması ilə də gücləndirmək mümkündür.

Sadalanan taktiki metodlar iqtiadiyyatın açıqlıq şəraitində ölkənin xarici durumunu, iqtisadi patriotizm ideyalarını özündə ehtiva edən mövcud milli strategiyaları və perspektiv dövr üçün təhlükəsizilik siyasətinin institusional mexanizmini dəyişmək yolu ilə milli maliyyə-iqtisadi təhlükəsizlik siyasətini formalaşdırmağa və səmərəli formada reallaşdırmağa imkan verməlidir.

Nəticə

Maliyyə-iqtisadi sistemdə yaranan böhran hallarının aradan qaldırılması və prinsipcə onun başqa inkişaf mərhələsinə transformasiya strategiyası yalnız bütün insan cəmiyyətinin varlığının ayrılmaz tərkib hissəsi hesab edilən ictimai istehsal sisteminin və maliyyə münasibətlərinin mərhələli şəkildə qlobal dəyişilməsi ilə mümkündür. Bununla əlaqədar olaraq bütün maliyyə-iqtisadi münasibətlər sistemində və ictimai quruluşda radikal struktur islahatları açıq maliyyə-iqtisadi sistemin effektiv idarəedilməsi prinsipinə əsaslanmalıdır. Daha doğrusu, istehsal-istehlak və pul axınlarında disbalansın yaranması (yüksək, gəlir, yüksək istehlak, yüksək kasiblıq, azlığın naminı dünya resurslarının israfçılığı və s.)

hallarına nəzarət edilməlidir. Məhz bu, bu dünyada yaranan böhran hallarının və milli iqtisadiyyatın açıq olması ilə əlaqədar ölkənin maliyyə-iqtisadi sisteminə yaranan təhdidlərin aradan qaldırılması üçün yeganə çıxış yol hesab olunur. Bununla əlaqədar olaraq ölkəmiz üçün yaxın 3-5 il ərzində modernləşdirmə məsələləri və milli təhlükəsizilik siyasətinin effektiv şəkildə reallaşdırılmasını nəzərdə tutan balanslaşdırılmış şaquli-inteqrativ mexanizmin formalaşdırılması xususi aktuallıq, praktik əhəmiyyət kəsb edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Хансен Е. Х. Экономические циклы и национальный доход - М: Финансовая академия, 2008. 466 с.
2. Хоутри, Р. Д. Деньги и кредит / Р. Д. Хоутри. – Москва : Директ-Медиа, 2007. – 363 с. – Режим доступа: по подписке. –
URL: https://biblioclub.ru/index.php?page=book&id=26853 (дата обращения: 23.04.2022).
3. Larry Neal, Jeffrey G. Williamson. The Cambridge History of Capitalism: Vol. 2, The Spread of Capitalism: From 1848 to the Present. Cambridge University Press, 2014. Pp. 176-179.
4. Joseph E. Stiglitz, «Complacency in a Leaderless World» 06.02.2013, заметка на его ежемесячной колонке на Project Syndicate www.project-syndicate.org 108).
5. Allen F., Gale D. Journal of Political Economy, 2001. Vol. 108, №1. Pp. 1-33.
6. Allen F., Gale D. Systemic risk and regulation. NBER in a volume on the Risks of Financial Institutions edited by M. Carey and R. Stulz 2005.
7. Morris S., Shin H. Financial regulation in a system context. Brookings Panel on Economic Activity, September. 2008.
8. Krugman P. The Return of Depression Economics and the Crisis of 2008. Norton, New York. 2009, 110 p.

Тогрул Акбарли

ВЛИЯНИЕ ВЗАИМОЗАВИСИМОСТИ И ОТКРЫТОСТИ ЭКОНОМИКИ НА ФИНАНСОВО-ЭКОНОМИЧЕСКУЮ БЕЗОПАСНОСТЬ СТРАНЫ

Резюме

В статье отмечается, что Азербайджанская Республика в последнее время активно участвует в глобализации финансово-экономической системы, в результате чего открыта как для преимуществ международного финансово-экономического рынка, так и для влияния мировых традиций на развитие национальной экономики и финансового рынка. Поэтому формирование сбалансированного вертикально-интегративного механизма для нашей страны в ближайшие 3-5 лет, обеспечивающего эффективную реализацию вопросов модернизации и политики национальной безопасности, имеет особую актуальность и практическую значимость.

Цель – определить влияние взаимозависимости и воздействия на открытость и финансово-экономическую безопасность экономики Азербайджана.

Методология – в работе использовались принципы системно-сравнительного анализа и общенаучные методы (экспертная оценка, диалектический, системный, статистический и синергетический подход и др.).

Результаты исследования – в целях преодоления кризиса в финансово-экономической системы и перевести ее на другую ступень развития, для эффективной реализации политики модернизации и национальной безопасности приобретает особая актуальность и практическая значимость формирования сбалансированного вертикально-интегративного механизма для страны в ближайшие 3-5 лет.

Ключевые слова: *зависимость, открытость, безопасность, финансы, бизнес, глобализация, риск, угроза*

Togrul Akbarli

THE IMPACT OF INTERDEPENDENCE AND OPENNESS OF THE ECONOMY ON THE FINANCIAL AND ECONOMIC SECURITY OF THE COUNTRY

Summary

The article notes that the Republic of Azerbaijan has recently been actively participating in the globalization of the financial and economic system, as a result of which it is open both to the advantages of the international financial and economic market and to the influence of world traditions on the development of the national economy and financial market. Therefore, the formation of a balanced vertically integrative mechanism for our country in the next 3-5 years, which ensures the effective implementation of issues of modernization and national security policy, is of particular relevance and practical significance.

Purpose – the goal is to determine the impact of interdependence and impact on the openness and financial and economic security of the Azerbaijani economy.

Methodology – the principles of system-comparative analysis and general scientific methods (peer review, dialectical, systemic, statistical and synergetic approach, etc.) were used in the work.

The results of the study – in order to overcome the crisis in the financial and economic system and transfer it to another stage of development, for the effective implementation of the policy of modernization and national security, the formation of a balanced vertically integrative mechanism for the country in the next 3-5 years is of particular relevance and practical importance.

Keywords: *dependency, openness, security, finance, business, globalization, risk, threat*

İlham Bədəlov
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant
b_ilham1@mail.ru

XARİCİ TİCARƏT SİYASƏTİNİN SEÇİMİ KONTEKSTİNDƏ İDXALƏVƏZLƏMƏ

Məqalədə asılı inkişaf problematikası və selektiv proteksionizmin forması kimi "idxaləvəzləmə" anlayışının iqtisadi mahiyyəti tədqiq edilir. Latın Amerikası və Cənub-Şərqi Asiya ölkələrində idxaləvəzləmənin tətbiqinin tarixi aspektləri nəzərdən keçirilir və həmin ölkələrin iqtisadiyyatının zəifləməsinə və ya inkişafına gətirib çıxarmış amillər müəyyən edilir. İdxaləvəzləmə strategiyasının həyata keçirilməsi kontekstində sənayenin gənc sahələrinin qorunması siyasətinin nəticələri ümumiləşdirilir.

Məqsəd – ölkədə yeni və ya daha keyfiyyətli mallar itehsal olunmayanadək işgüzar dairələrdə fəaliyyətin diversifikasiyasına maraq oyatmaqdır.

Metodologiya – tədqiqat işində biznes modeli və müqayisəli təhlil metodundan istifadə edilmişdir.

Tədqiqatın nəticəsi – idxaləvəzləmə ayrı-ayrı malların analoji yerli mallarla əvəzlənməsi yolu ilə onların idxalının azaldılması və ya dayandırılmasıdır.

Açar sözlər*: asılı inkişaf, idxaləvəzləmə, iqtisadi inkişaf, proteksionizm*

Giriş

İdxaləvəzləmə strategiyası idxal olunan mallara daxili tələbi ödəyən, müəyyən şəkildə seçilmiş sahələr çərçivəsində yerli istehsalın inkişafına yardımçı olmaq məqsədi daşıyan, ticarət proteksionizminin formalarından biridir. O, əsasən inkişaf etməkdə olan ölkələr tərəfindən istifadə olunmuşdur və, nəticə etibarilə, güman etmək olar ki, idxaləvəzləmə nəzəriyyəsinin əsasını periferiya iqtisadiyyatının inkişafı nəzəriyyələri təşkil edir. Beynəlxalq ticarətin miqyasının artması, dünya bazarının formalaşması və beynəlxalq əmək bölgüsünün dərinləşməsi ölkələrin həyatında birmənalı rol oynamamışdır. Bir tərəfdən, göstərilən proseslər həmin ölkələrin ümumi iqtisadi inkişaf mühitinə daxil edilməsi üçün əsas olmuşdur. Digər tərəfdən, bu proses belə adlandırılan "asılı inkişaf tipi" çərçivəsində və bazasında baş vermişdir. Postindustrial ölkələrin maraqlarından və tələbatlarından asılı olan inkişaf etməkdə olan ölkələr dünyada iqtisadi avanqarda nail olmağa istiqamətlənmiş "yetişməkdə olan inkişafın trayektoriyasındadır".

İdxaləvəzləmə siyasəti dedikdə idxalın əvəzləyicilərini istehsal edən sənaye sahələrinə nəzərən xarici ticarət proteksionizmi vasitəsilə həyata keçirilən dövlət siyasəti başa düşülür. O, gənc sahələrin qorunması siyasətinin – proteksionizmin xeyrinə ən mübahisəli arqumentlərdən birinin tərkib hissəsidir. Gənc sahənin ədalətliliyinin proteksionizm tərəfdən birmənalı qəbul edilməməsi, bir tərəfdən, xüsusən təşəkkül tapmanın birinci mərhələsində, belə arqumentin məntiqəuyğunluğu və iqtisadi əsaslı olmasından, digər tərəfdən isə belə siyasətin effektivliyi ilə bağlı ziddiyyətdən yaranır, çünki təcrübə göstərir ki, belə sahələr çox vaxt "süni" şəraitdə inkişaf edərək, heç vaxt həqiqətən rəqabət qabiliyyətli olmur [10, s. 193].

Gənc sahələrin qorunması haqqında arqumentin mahiyyəti institusional cəhətdən zəif inkişaf şəraitində resursları akkumulyasiya etmək və potensial rəqabət qabiliyyətli

istehsalatlara yönəltmək və ya təkrar yönləndirmək qabiliyyətinə malik olmayan sırf bazar mexanizmlərinin qeyri-kamilliyinin motivasiyasına əsaslanır. Bu zaman iqtisadiyyat onun cari vəziyyətindən asılılıq dövrəsinə düşür, yəni cari rəqabət qabiliyyətinin aşağı səviyyəsi resursları uzunmüddətli layihələrə qoymağa imkan vermir, bu isə, öz növbəsində rəqabət qabiliyyətinin cari vəziyyətini daha da pisləşdirir. Lakin nəzərə almaq lazımdır ki, gənc sahələrin müvəqqəti qorunmasında belə bir təhlükə vardır ki, qorunan gənc sahələr "əbədi gənc" sahələrə çevriləcək və qeyri-müəyyən qədər uzun müddət rəqabətdən qorunma tələb edəcək və zəmanətli gəlirlər nəticəsində texnoloji təkmilləşmə üçün stimulları olmayacaq [11, c. 167].

L.Şinkarukun fikrincə, gənc sahələrin qorunması siyasəti aşağıdakı amillər olmadığı və ya kifayət qədər olmadığı şəraitdə özünü doğrultmur [11, s. 168]:

- imtiyazlı rejimlərin təqdim edilməsi məsələləri üzrə dövlət qərarlarının qəbul edilməsi prosedurları ilə bağlı açıqlıq, qərəzsizlik və korrupsiyadan müdafiə;
- istehsalın perspektivli müqayisəli və rəqabət üstünlüklərinə malik olan sahələrini düzgün müəyyən etmək qabiliyyəti olan, dövlət idarəsi personalının ixtisasının və mənəvi keyfiyyətlərinin yüksək səviyyəsi;
- nisbi istehsal xərcləri və onların dinamikası haqqında keyfiyyətli bazar məlumatının olması – bu, nisbi rəqabət qabiliyyəti ilə bağlı əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir;
- cəmiyyətin maddi istehlak dəyərlərini deyil, inkişaf, özünü təkmilləşdirmə dəyərlərini hədəfə alması.

İdxaləvəzləmə dedikdə, adətən idxala məhdudiyyətlərin tətbiqi yolu ilə daxili sənayenin təşviq edilməsi strategiyası başa düşülür [7, s. 19]. Bizim nöqteyi-nəzərimizə görə, idxaləvəzləmənin bu cür izahı bir qədər məhduddur, belə ki, idxaləvəzləmə müstəsna qaydada əsaslandırılmamış proteksionizmlə əlaqələndirilə bilməz, effektiv iqtisadiyyatın yaradılması məqsədilə strukturun yenidən qurulması, istehsalın yenilənməsi və diversifikasiyası, səylərin və resursların konsentrasiyası üzrə tədbirlər kompleksindən ibarət olmalıdır. Belə kontekstdə idxaləvəzləmənin professor A.Y.Elyanov tərəfindən izahı daha düzgündür. Onun fikrincə, idxaləvəzləmə "daxili bazarı yerli istehsal malları ilə doldurmaq və stimullaşdırmaq və yalnız bundan sonra onları ixraca yönəltmək iqtidarında olan əhatəli sənaye komplekslərinin yaradılmasını..." ön plana çəkir [4, s. 7]. Bu zaman idxaləvəzləmə prosesində dövlətin rolu – səhv etdiyi təqdirdə büdcə vəsaitlərini qeyri-effektiv mənimsəmək riskinə girməklə "prioritetli" sahələri müəyyən etmək deyil. İdxaləvəzləmənin məqsədi – ölkədə yeni və ya daha keyfiyyətli mallar itehsal olunmayanadək işgüzar dairələrdə fəaliyyətin diversifikasiyasına maraq oyatmaqdır. V.Zaryankinin verdiyi tərifə görə, "idxaləvəzləmə" – müəyyən malların daha yüksək istehlak xüsusiyyətləri və idxal qiymətindən aşağı qiymətlə səciyyələnən analoji yerli mal tərəfindən ölkənin daxili bazarından sıxışdırılıb çıxarılması (əvəzlənməsi) yolu ilə onların idxalının azaldılması və ya dayandırılmasıdır" [3, s. 45]. İstehlak və istehsal mallarının idxalının azaldılması heç də hər zaman onun daxili bazarda əvəz edilməsi və istehsal həcminin artması demək deyil. Təcrübədə idxalın azaldılması əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi səbəbindən baş verə bilər, buna görə də idxaləvəzləmə idxalın, hər şeydən əvvəl, ölkə daxilində analoji malların istehsalının artması hesabına azalmasını bildirməlidir.

İdxal asılılığı problematikası ilk dəfə 1950-ci illərdə Q.Prebiş və X.Zinger tərəfindən təhlil edilmişdir. Onlar xammalı ixrac edən, sənaye mallarını isə idxal edən ölkələr üçün ticarət şəraitinin uzunmüddətli pisləşməsi tendensiyasının mövcud olması haqqında fikir ifadə etmişlər. Öz təhlilində Q.Prebiş "mərkəz-periferiya" dixotomiyası üzərində qurulmuş terminologiyadan istifadə etmişdir ki, bu da nəticədə asılılıq nəzəriyyəsində və

dünya sistemlərinin nəzəriyyəsində aktiv istifadə olunmuşdur [18]. Bu cür quruluşun əsas elementi mərkəzdir və o, müasir sənaye məhsullarının istehsalında inhisarçı mövqe tutmaqla, istehsal və istehlak təyinatlı sənaye mallarının istehsalında ixtisaslaşan postindustrial ölkələri nəzərdə tutur. Bu quruluşda ikinci dərəcəli rol inkişaf etməkdə olan ölkələrdən ibarət olan periferiyaya məxsusdur və istehsalat prosesinin birinci mərhələsini – xammalın əldə edilməsi işini yerinə yetirir.

Mərkəz beynəlxal əmək bölgüsündə qaydaları və şərtləri müəyyən edən, istehlak və istehsalın ümumi standartlarını təyin edən müstəqil və aktiv qüvvə kimi çıxış edir, halbuki, periferiyanın inkişaf perspektivləri dünya bazarında mövcud olan iqtisadi və sosial amillərin nisbətindən bilavasitə asılıdır.

Ölkənin iqtisadi artımı və maddi rifahı xarici amillərdən bilavasitə asılı olduğu zaman, milli sənaye istehsalat və sosial infrastrukturun zəif inkişafı, ixtisaslı kadrların çatışmazlığı səbəbindən aşağı effektivliklə səciyyələnir, nəticə etibarilə, idxaləvəzləmə strategiyasının həyata keçirilməsi zərurəti yaranır.

İnkişaf etməkdə olan ölkələrin problemlərini tədqiq edən bir sıra alimlər idxaləvəzləməyə əsaslanan inkişaf nəzəriyyələri işləyib hazırlamışlar. Onların hər birində iqtisadi inkişafın üsulları və mexanizmləri müxtəlif cür açıqlanır.

Latın Amerikasında idxaləvəzləyici sənayeləşmənin aparılmasının gözlənilən nəticələri verməməsinə baxmayaraq, ölkələrdə iqtisadi fəaliyyətin yeni sahələri yarandı, regionun öz texnoloji bazası formalaşdı, əlavə iş yerləri yarandı, müəssisələr beynəlxalq səviyyədə rəqabət aparmaq, öz texnologiyalarından istifadə edərək yeni bazarlara çıxmaq imkanı əldə etdi.

Əksər iqtisadçılar Latın Amerikası ölkələrinin idxaləvəzləyici sənayeləşmənin həyata keçirilməsi üzrə siyasətinin əsas səhvini onun yüngül sənaye və əsas sahələri yaratmağa başlamasında və Koreya və Tayvandan fərqli olaraq, məhsul ixracı imkanlarından istifadə etməmələrində görürlər ki, bu da avtarkiyanın yüksək səviyyəyə çatmasına gətirib çıxardı. Lakin, qeyd etmək lazımdır ki, yüngül sənaye məhsullarının geniş ixracı 1960-cı ilədək inkişaf etmiş ölkələr tərəfindən (onlar həmin vaxtlar yeganə mümkün istehlakçılar idi) yüngül sənaye sahələri üçün qoyulmuş ticarət qaydaları səbəbindən mümkün deyildi. Həmin vaxtlar yalnız avadanlığın, xammalın və kənd təsərrüfatı mallarının ixracı iqtisadi cəhətdən səmərəli idi, çünki yüngül sənaye mallarına yüksək rüsumlar qoyulurdu. Latın Amerikasında avadanlıq istehsal edilmədiyi üçün, 60-cı illərədək idxaləvəzləmə kursunu tamamilə haqlı hesab etmək olar. Bu regionun problemi o idi ki, ölkələrin hökumətləri regiondaxili sənayeni təşkil edə, 1960-cı ildən sonra isə strategiyanı dəyişərək ixrac-yönümlü edə bilməmişdirlər. Asiya pələngləri sənayeləşməni çox sonradan başladılar və nəticə etibarilə, dərhal ixrac-yönümlü inkişaf vasitəsilə daha perspektivli sənayeləşmə üsulunu qəbul etdilər (cədvəl 1).

Bununla yanaşı, artıq 1970-ci illərdən başlayaraq idxaləvəzləyici sənayeləşmə siyasəti kəskin tənqid obyektinə çevrildi, 1980-1990-cı illərin sonlarında isə əksər inkişaf etməkdə olan ölkələr ondan ticarətin məhdudlaşdırıcı birtərəfli liberallaşmasının xeyrinə imtina etdilər (cədvəl 2).

İnkişaf etməkdə olan ölkələrin çıxarma sahələrinin asılılığı, iqtisadi inkişafın xarici və daxili amillərinin tam kompleksinin təsirinin nəticəsi oldu. Ən əhəmiyyətli amil çıxarılmış mineral resursların əsas kütləsinin yerli emal kompleksi üçün əmək predmetinə çevrilməməsi, istismar olunan yeraltı sərvətlərin mülkiyyətçisi olan ölkənin hüdudlarından kənarda emal edilməsi vəziyyəti oldu.

Nəticədə yerli çıxarma müəssisələrində yaranan əlavə dəyər yığım məqsədilə istifadə edilmir, sərhəd xaricinə gedərək, orada kapitala çevrilirdi, onun valyuta resursları

şəklində olan hissəsi isə, qalaraq, daxili istehlak və istehsal tələbini təmin edən idxalın ödənməsinə xərclənirdi. Bunun parlaq sübutu ingilis iqtisadçısı C.Uodisin Qananın iqtisadi vəziyyəti ilə bağlı ifadəsidir: "O, kakao dənələrini ixrac edir, amma şokolad məmulatları idxal edirdi, meşəni ixrac edir, amma kağızı idxal edirdi, boksiti ixrac edir, amma alüminium məmulatları idxal edirdi. Qana öz kakaosunun nəqli üçün kisələrin alışına ildə 5 mln. funt sterlinqə yaxın pul xərcləyirdi" [7, s. 34].

***Cədvəl 1.* İdxaləvəzləmə nəzəriyyələrinin əsas müddəalarında fərqlər**

	"Böyük təkan" nəzəriyyəsi		"Periferiya iqtisadiyyatı" nəzəriyyəsi	
	Balanslaşdırılmış inkişaf nəzəriyyəsi	Balanslaşdırılmamış inkişaf nəzəriyyəsi	Latın Amerikası ölkələrinin özünütəminat nəzəriyyəsi	Afrika ölkələrinin özünütəminat nəzəriyyəsi
İnvestisiya mənbələri	Xarici kapital qoyuluşları	Xarici kapital qoyuluşları	Müvəqqəti tədbir olaraq xarici kapital qoyuluşları	Daxili mənbələr, əlavə mənbə olaraq xarici kapital qoyuluşları
Prioriet sahələr və kapital qoyuluşu sahələri	Bütün sənaye sahələri, eyni zamanda investisiya qoyuluşu	Ayrı-ayrı sahələr – kapitalın qoyulduğu "lokomotivlər"	Ayrı-ayrı sahələr – kapitalın qoyulduğu "lokomotivlər"	Kənd təsərrüfatı
Dövlətin iştirakı	minimal	minimal	aktiv dövlət tənzimləməsi : nəzərdə tutulur	dövlət tənzimləməsi, müəssisələrin milliləşməsi, dövlət tərəfindən kapital qoyuluşları
İnteqrasiya olunmuş qrupların yaradılması	yoxdur	yoxdur	proteksionizmlə bağlı idxaləvəzləmə xərclərinin öhdəsindən gəlmək üçün əsas üsul kimi təklif edilir	dövlət səviyyəsində istifadə olunur, regional özünütəminat strategiyaları qəbul edilir

Mənbə: müəllif tərtib etmişdir

İnkişaf etməkdə olan ölkələrdə idxal yerli emal sənayesinin inkişafının alternatividir. Həmin sənaye zəif inkişafı və kifayət qədər vəsaitlərin olmaması səbəbindən idxalla rəqabətə girə və daxili istehlak və istehsal tələbini ödəyə bilmirdi. Öz növbəsində, xarici müəssisələr zəruri istehsal vasitələrinin ölkə ərazisində istehsalını təşkil etməkdənsə, onları kənardan gətirməyi özləri üçün daha sərfəli hesab edirdilər.

Nəticə etibarilə, periferiyanın iqtisadi inkişafının ixrac-xammal vektorunun saxlanması eyni zamanda istehsalın xammal sahələrinin yerli istehsalın digər sahələri ilə inteqrasiyasına nəinki imkan vermir, həm də gələcəkdə bu cür inteqrasiya üçün əhəmmiyyətli maneələr yaradırdı. Bir çox iqtisadçı alimlər bunu birbaşa və ya dolayı qəbul edirlər.

Cədvəl 2. **İdxaləvəzləmə əsasında sənayeləşmə strategiyasını ticarətin birtərəfli liberallaşdırılmasına dəyişmiş ölkələr**

Ölkələr	İslahatlar
Argentina	1988-ci ildə tariflər aşağı salındı; 22-ci maddə istisna olmaqla idxalın lisenziyalaşdırılması ləğv edildi; 1991-ci ildə üçpilləli tarif strukturu tətbiq edildi (0%, 11%, 22%).
Boliviya	1985-ci ildə ticarət rejimi yenidən nəzərdən keçirildi və bütün kvotalar ləğv edildi; 1990-cı ilin aprelində 2 əsas tarif dərəcəsi tətbiq edildi: istehsal təyinatlı mallara 5%, digər mallara – 5%.
Braziliya	Əsas ticarət islahatları 1990-cı ilin mart ayında bütün kvotaların tariflərlə əvəz edilməsi üçün başlandı; orta tarif dərəcələri 1990-cı ildə 37 %-dən 25 %-dək, 1994-cü ildə isə 14%-dək azaldıldı.
Çili	1973-cü ildən bütün tariflər götürüldü və avtomobillər istisna olmaqla bütün mallara 10% ümumi tarif tətbiq edildi; 80-ci illərin əvvəllərinin iqtisadi böhranından sonra tarif 15 %-dək yüksəldildi.
Qana	İdxalın lisenziyalaşdırılması daha liberal oldu və əksər idxal mövqeləri üçün vahid tarif təyin edildi.
İndoneziya	Ticarət islahatları 1986-cı ildə başladıldı; 1988-ci ilin ortalarında artıq idxalın yalnız 20%-nə xüsusi lisenziya verilirdi.
Yamayka	Kvotalar ləğv edildi və tariflər 20 və 30% səviyyəsinədək azaldıldı.
Meksika	1988-ci ilədək maksimal tarif dərəcəsi 20% olmaqla tariflər orta hesabla 11 %-dək azaldıldı.
Mərakeş	1983-cü ildən başlayaraq proteksionizmin əhəmiyyətli dərəcədə zəifləməsi baş verdi; maksimal tariflər 400 %-dən 45 %-dək azaldıldı.
Nigeriya	Ticarətin liberallaşdırılması 1986-cı ildə başladı; idxalın lisenziyalaşdırılması və tariflər əhəmiyyətli dərəcədə azaldıldı.
Pakistan	İslahatlar 1986-cı ildə qeyri-tarif tənzimlənməsinin tarifli tənzimlənmə ilə əvəz edilməsi ilə başladı; maksimal tariflər 225 %-dən 125 %-dək endirildi.
Peru	İslahatlar 1990-cı ildə başlandı; kvotalar ləğv edildi və tariflər üç dərəcəyədək sadələşdirildi (15 %, 25 %, 50 %); 1991-ci ildə yuxarı faiz dərəcəsi 25%-dək azaldıldı.
Seneqal	1986-1988-ci illərdə əksər kvotalar ləğv edildi və bəzi tariflər azaldıldı.
Tunis	1990-cı ilin ortalarınadək idxalın lisenziyalaşdırılması idxalın əksər əmtəə mövqeləri üçün ləğv edildi.
Türkiyə	1990-cı ildən başlayaraq kvotalar və bəzi qeyri-tarif ticarət maneələri əhəmiyyətli dərəcədə azaldıldı.
Venesuella	İdxalın hərtərəfli liberallaşdırılması 1989-cu ildə başladıldı; əksər idxal qadağaları ləğv edildi və tariflər maksimal səviyyədən 50 %-dək 80 % azaldıldı.

Mənbə: [Little Ian, Scitivsky Tibor, Scott Maurice Industry and Trade in Some Developing Countries / Ian Little, Tibor Scitivsky, Oxford University Press] əsasında müəllif tərtib etmişdir.

İdxaləvəzləmənin tərəfdarları hesab edirlər ki, inkişaf etməklə olan ölkələr əvvəlcə, ilk növbədə, idxal olunan istehlak mallarının əvəzlənməsi üçün (idxaləvəzləmənin birinci mərhələsi) öz istehsalını yaratmalı və nəticədə, yüksək tariflərlə və idxal kvotaları ilə mühafizə altında həyata keçirməklə, mürəkkəb sənaye məmulatlarının daha geniş dairəsini yerli istehsalla əvəz etməlidir (idxaləvəzləmənin ikinci mərhələsi). Uzaq perspektivdə idxaləvəzləmənin tərəfdarları ikiqat məqsədi güdürlər: yerli istehsalı diversifikasiya etmək ("balanslaşdırılmış inkişaf") və gələcəkdə, miqyas effekti, işçi qüvvəsinin aşağı qiyməti və istehsal təcrübəsinin toplanması nəticəsində sənaye mallarının daxili qiymətləri rəqabət

qabiliyyətli olduqdan sonra onların ixracını təşkil etmək.

Bütün idxaləvəzləmə prosesi iki tarixi fazaya bölünə bilər. İdxaləvəzləmənin birinci fazasına qısamüddətli istifadə olunan texniki cəhətdən sadə istehlak mallarının istehsalı daxildir. Digər faza uzun müddət istifadə olunan istehlak mallarının, eləcə də zəruri istehsal vəsaitlərinin istehsalını ön plana çıxarır. Adətən, bu mərhələdə idxaləvəzləmə tükənir ki, bu da onunla bağlıdır ki, istehsal və istehlak təyinatlı maşın-texnika məmulatları hazırlayan əksər istehsalatlar kapital tutumludur və kütləvi istehlakçıya hesablanmışdır. Yerli bazarın darlığı və məhdudluğu istehsalın həcmini artırmağa imkan vermir ki, bu da onun inkişafını ləngidir və istehsal xərclərini artırır.

Profesor Cerald K.Helleyner, təcrübədə idxaləvəzləmənin reallıqlarını nəzərdən keçirərkən iqtisadi inkişaf problemləri üzərində ixtisaslaşmış iqtisadçılar arasında özünəməxsus konsensus formalaşdıran bir nəticəyə gəlmişdir. Xüsusən, onun fikrincə, "şüurlu və ya şüursuz surətdə stimullaşdırılan idxaləvəzləyici sənayeləşmə modelinə istənilən bəraət tapmaq çətindir (cədvəl 3). Bu model əksər ölkələrdə istehlak mallarına həddən artıq yer verməklə, potensial uzunmüddətli müqayisə üstünlüklərinə – resurs təminatına və tədris imkanlarına az diqqət ayırır. Selektiv idxaləvəzləmə siyasəti onun ümumiləşdirilməsi cəhdləri ilə müşayiət olunursa, son illərin təcrübəsi bu cür siyasətin aşkar qeyri-effektivliyini göstərmişdir. Nəticədə, istehsal güclərinin çox az istifadə olunduğu, məhdud məşğulluğun, istehsal qabiliyyətinin artırılması üçün dar perspektivlərin olduğu qeyri-effektiv sənaye sektoru çox tez-tez yaradılırdı" [15, s. 22].

İdxaləvəzləmə siyasətinin vəzifəsi sənaye istehsalının müxtəlif növlərinin nisbi effektivliyini balanslaşdıracaq və beləliklə, istehlak mallarının idxalının azaldılması yolu ilə aralıq investisiya mallarının yerli istehsalını dəstəkləyəcək stimullar sisteminin yaradılmasından və nəticədə onların ixrac üçün sənaye istehsalının stimullaşdırılmasından ibarətdir.

***Cədvəl 3.* Xarici ölkələrdə idxaləvəzləmə siyasətinin və idxal proteksionizminin həyata keçirilməsi məqsədləri**

Ölkə	Model	Məqsəd
ABŞ	İdxal proteksionizmi	Avropa və Asiya rəqiblərinin ekspansiyasından mühafizə
AB-nin ümumi bazarı		Kənd təsərrüfatı istehsalının səviyyəsinin artımı
Yaponiya	İdxaləvəzləmə	Özünü təminat
BRHÇ ölkələri	daxili-xarici yönümlü kombinə olunmuş idxalvəzləmə	Ödəniş balansının bərabərləşməsi, inflyasiya ilə mübarizə, inkişaf etmiş ölkələrin proteksionizminə müqavimət, özünü təminat
NİK ölkələri	Xarici yönümlü idxalvəzləmə	
Mərkəzi və Şərqi Avropa ölkələri	İdxal proteksionizmi	Avropa Birliyinin inkişaf etmiş ölkələrinin məqsədləri ilə eynidir
MDB ölkələri	Kombinə olunmuş idxalvəzləmə	özünü təminat və yerli istehsalçıların xarici rəqabətdən müdafiəsi

Mənbə: müəllif tərtib etmişdir

Beləliklə, idxaləvəzləmə ayrı-ayrı malların ölkənin daxili bazarında istehlak xüsusiyyətlərinə və keyfiyyətinə görə idxal mallarından geri qalmayan analoji yerli mallarla əvəzlənməsi yolu ilə onların idxalının azaldılması və ya dayandırılmasıdır.

Nəticə

Bizim nöqteyi-nəzərimizcə, gənc sahələrin qorunması siyasəti və idxaləvəzləmə siyasəti uzunmüddətli və davamlı iqtisadi artım üçün universal "panaseya" kimi nəzərdən keçirilə bilməz. Onların təsirli olması, institusional və infrastruktur inkişafının aktiv siyasətinin, insan kapitalının və əqli kapitalın aktiv formalaşmasının, qənaətcil makro-iqtisadi siyasətin və korrupsiya ilə mübarizənin və effektiv dövlət apparatının yaradılmasının da daxil olduğu inkişaf şəraitinin geniş kompleksindən əhəmiyyətli dərəcədə asılıdır. Eyni zamanda, iqtisadi kateqoriya, iqtisadi proses və dövlətin iqtisadi siyasəti kimi idxaləvəzləmə anlayışlarının mahiyyətində fərqləri anlamaq lazımdır

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Дунаев И.В. Торговая политика : учеб. пособ. / И.В. Дунаев, В.Ю. Бабаев. - Хабаровск: Изд-во Харри НАДУ "Магистр", 2017. - 132 С.
2. Жалелаев Я.А. Проблемы формирования современных основ политики импортозамещения в Азербайджанской Республике / Я.А. Жалелаев, В.М. Гацько // Стратегическая панорама. – 2016. - №1. – С. 102-111.
3. Зарянкин В.В. Роль импортозамещения в системе международных торговых отношений / В.В. Зарянкин // Беларусь и мировые экономические процессы: сб. науч. статей. – Выпуск 7. – 2017. – С.44-50.
4. Эльянов А. Глобализация и догоняющее развитие / А. Эльянов // Международная экономика и международные отношения. – 2014. – №1. – С.3-17.
5. Исмагилова Л.Г. «Развитие экспортоориентированных и импортозамещающих производств как фактор интеграции региона в систему мирохозяйственных связей» дисс. канд. экон. наук, 2014 г.
6. Кадочников П.,Синельников-Мурылев С., Четвериков С. Импортозамещение в Российской Федерации в 1998-2002 гг.// ИЭПП. Научные труды № 62Р.М.-.2003.
7. Комилов А.Ф. Особенности формирования политики импортозамещения в промышлености Республики Таджикистан: дис. канд. экон. наук: 08.00.05 / Комилов А. Ф. - Душабне, 2011. - 212с.
8. Мазараки А.А., Мельник Т.М. Импорт и перспективы импортозамещения / А.А.Мазараки, Т. М. Мельник / / Вестник Саратовского государственного торгово-экономического университета. – 2012. №.6. – С.5-16.
9. Пазизина С. М. Концептуальные основы политики импортозамещения / С. М. Пазизина / / Сборник научных трудов молодых ученых Воронежского экономического университета "Наука молодая". – 2018. – № 15-16. – С. 122-125.
10. Рынки реального сектора экономики страны: структурно-институциональный анализ /[Точилин В. О, Осташко Т.О, Пустовойт О.В. и др.] ; по Ред. В.О. Точилина; К., 2009. - 640 С.
11. Структурные изменения и экономическое развитие Азербайджанской Республики /[Геец В. М., Шинкарук Л. В., Артемова Т.И. и др.] ; под ред Л. В. Шинкарука. – РАН: Ин-т экон. и прогнозировал. – М., 2017. – 696 с.
12. Торадо М. Экономическое развитие / М. Торадо. – Экономический факультет МГУ. – М.: ЮНИТИ. – 1997. – с.458.
13. Cardoso F.H. Dependency and Development in Latin America / F.H. Cardoso, E. Faletto. Transl. by M. Mattingly. – Berkeley: University of California Press. – 1979. – 474p.
14. Frank A.G. Capitalism and Underdevelopment in Latin America: Historical Studies in Chile and Brazil. / A.G. Frank. - N.Y.: Monthly Review Press. 1990. –192p.
15. Helleiner J.K. Markets, Politics and Globalization. Can the Global Economy be Civilized? / J.K. Helleiner // 10th Raul Prebisch Lecture. – Geneva. – 2000. – PP.18-47.
16. List F. The National System of Political Economy / F. List. – Economics. -1856. – 762p.
17. Little Ian, Scitivsky Tibor, Scott Maurice Industry and Trade in Some Developing Countries /

Ian Little, Tibor Scitivsky, Maurice Scott. – London: Oxford University Press, 1970
18. Prebisch R. Commercial Policy in the Underdeveloped Countries / R. Prebisch // American Economic Review. -1959. –Vol. 49. –P. 251-273.

Ильхам Бадалов

ИМПОРТОЗАМЕЩЕНИЕ В КОНТЕКСТЕ ВЫБОРА ВНЕШНЕТОРГОВОЙ ПОЛИТИКИ

Резюме

В статье исследуется экономическая сущность понятия «импортозамещение» как проблемы зависимого развития и формы избирательного протекционизма. Рассмотрены исторические аспекты применения импортозамещения в странах Латинской Америки и Юго-Восточной Азии, выявлены факторы, приведшие к ослаблению или развитию их экономик. Подведены итоги политики защиты молодых производств в контексте реализации стратегии импортозамещения.

Цель–вызвать интерес к диверсификации деятельности в деловых кругах до тех пор, пока в стране не будут производиться новые или более качественные товары.

Методология–в исследовательской работе использовались бизнес-модель и метод сравнительного анализа.

Результаты исследования–импортозамещение–это сокращение или прекращение импорта определенных товаров путем замены их аналогичными отечественными товарами.

Ключевые слова: *зависимое развитие, импортозамещение, экономическое развитие, протекционизм*

Ilham Badalov

IMPORT SUBSTITUTION IN THE CONTEXT OF FOREIGN TRADE POLICY CHOICE

Summary

The article examines the economic nature of the concept of "import substitution" as a problem of dependent development and a form of selective protectionism. The historical aspects of the application of import substitution in Latin America and Southeast Asia are considered, and the factors that led to the weakening or development of their economies are identified. The results of the policy of protection of young industries are summarized in the context of the implementation of the import substitution strategy.

Purpose–to arouse interest in the business community to diversify activities until new or better quality goods are produced in the country.

Metodology–the research work used a business model and a comparative analysis method.

Findings–import substitution is the reduction or cessation of the import of certain goods by replacing them with similar domestic goods.

Keywords: *dependent development, import substitution, economic development, protectionism*

UOT 330.5

Xançoban Şahbazov
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası, magistrant
shahbazov.khanchoban@hotmail.com
Elmi rəhbər: Əskər Əliyev, dos.

ELEKTRON DÖVLƏT XİDMƏTLƏRİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ VƏ BU İSTİQAMƏTDƏ KADR HAZIRLIĞI PROBLEMLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məqalədə elektron dövlət xidmətlərinin tətbiqi mühitində əmək bazarında olan innovativ yeniliklər və bu istiqamətdə kadr hazırlığının qarşısında duran problemlər təhlil edilərək, perspektiv inkişaf istiqamətləri tədqiq edilir. Təhsil kontekstində təhsilalanların və eyni zamanda təhsilin elektron dövlət xidmətləri istiqamətində kadr siyasətinə uyğunlaşdırılması problemləri öyrənilir və həll yolları araşdırılır.

Məqsəd – müqayisəli iqtisadi təhlilə əsaslanaraq elektron dövlət xidmətlərinin tətbiqində kadr hazırlığı problemlərinin qiymətləndirilməsi və həlli istiqamətində perspektiv istifadə imkanlarının müəyyənləşdirilməsidir.

Metodologiya – elektron dövlət xidmətlərinin tətbiqində kadr hazırlığı problemlərinin qiymətləndirilməsi üzrə iqtisadi-statistik modeldən istifadə edilmişdir.

Tədqiqatın nəticələri – elektron dövlət xidmətlərinin tətbiqində kadr hazırlığı problemlərinin qiymətləndirilməsi aparılmış və konkret təkliflər irəli sürülmüşdür.

Açar sözlər: *elektron dövlət, innovativ texnologiyalar, kadr hazırlığı, potensial imkanlar, təhlil, qiymətləndirilmə, inkişaf perspektivləri*

Giriş

İnnovasiyaya əsaslanan iqtisadiyyatın formalaşması informasiya cəmiyyətinin müasir inkişaf mərhələsinin əsas göstəricisidir. Müasir dövrdə biliklər daim yenilənir. Ona görə də yeniliklərə daha tez adaptasiya olan, yeni bilikləri, informasiyaları tətbiq etməyi bacaran kadrların hazırlanması prioritet istiqamətlərdən biri kimi seçilməlidir. İqtisadiyyatın biliklərə əsaslanması təkcə yeni biliklərin, və innovativ texnoloji məhsulların istehsalı deyil, eləcə də, əldə edilmiş bu yeni biliklərin, innovasiyaların iqtisadiyyatın bütün sahələrində səmərəliliyinin yüksəldilməsi üçün yayılması və tətbiqi nəzərdə tutmalıdır. Yüksək ixtisaslı müasir tələblərə uyğun kadr resurslarının formalaşması ictimai tənzimləmədə də yüksək imkanlar yaradacaqdır. Bu həm milli, həm dəbeynəlxalq aləmdə dövlətlərin rolu və funksiyalarının dəyişməsini şərtləndirəcək, müasir ictimai siyasət və idarəetmə islahatlarının aparılmasını zəruri edəcəkdir. Elektron dövlət xidmətlərinin yaradılması bu prosesin bir tərkib hissəsidir. Elektron dövlət xidmətləri bir tərəfdən idarəetmə məsələlərinin həllində texnoloji alət kimi çıxış edir, digər tərəfdən isə, müasir çağırışlara uyğun qarşıya qoyulmuş vəzifələrin həllini təmin edən virtual məkanı formalaşdırır. Elektron dövlət xidmətlərinin yaradılmasında təhsilin rolu hüquqi dövlətin və innovativ iqtisadiyyatın inkişafı, sosial tələbatların ödənilməsi, hər bir vətəndaşın və cəmiyyətin sorğularının cavablandırılması istiqamətində çağırışlara adekvat cavabın təmin olunmasından ibarətdir. Bu kontekstdə yaradılan xidmətlərin kadr təminatı və kadr hazırlığı problemlərinin həlli, təlim-tədris sisteminin təşkilində tamamilə yeni yanaşmaların tətbiqi,

istər vətəndaş, istərsə də dövlət qulluqçusu tərəfindən fərdi təhsil proqramlarının formalaşdırılması imkanlarının təmin olunması önəmli məsələlərdəndir. Elektron dövlət xidmətlərinin kadr təminatının təşkili probleminin müxtəlif aspektlərinin araşdırılması da bu prosesdə iştirak edən bir neçə kateqoriya heyətin potensial bilik və bacarıqlarının aşkarlanması imkanını yaratmışdır.

Elektron dövlət xidmətlərinin tətbiqində təhsilin rolu

Elektron dövlət xidmətlərinin tətbiqində kadr hazırlığı problemlərinin həllində təhsilin rolu demokratik hüquqi dövlətin və innovativ iqtisadiyyatın inkişafı, sosial tələbatların ödənilməsi, hər bir vətəndaşın və cəmiyyətin sorğularının cavablandırılması istiqamətində çağırışlara adekvat cavabın təmin olunmasından ibarətdir. Bu kontekstdə elektron hökümətin kadr təminatı və kadr hazırlığı problemlərinin həlli, təlim-tədris sisteminin təşkilində tamamilə yeni yanaşmaların tətbiqi, istər vətəndaş, istərsə də dövlət qulluqçusu tərəfindən fərdi təhsil proqramlarının formalaşdırılması imkanlarının təmin olunması önəmli məsələlərdəndir. Elektron hökümətin kadr təminatının təşkili probleminin müxtəlif aspektlərinin araşdırılması bu prosesdə iştirak edən bir neçə kateqoriyanın aşkarlanması imkanını yaratmışdır. Belə ki, yüksək peşəkar biliklərə, davranış keyfiyyətlərinə və motivasiyaya malik olan dövlət qulluqçuları olmadan yeni informasiya cəmiyyətinin və onun tərkib hissəsi olan elektron dövlətin təşşəkkül tapması çox çətindir. Digər tərəfdən, elektron hökümət ictimai sektorun formalaşmasında katalizator rolunu oynaya bilər, çünki o, biliklərin əldə edilməsi, konseptuallaşdırılması, saxlanılması, ötürülməsi, yayılması proseslərinə təsir edir. Yəni elektron hökümət əhalinin rəqəmsal texnologiyalara yiyələnməsi kimi vacib funksiyanın yerinə yetirilməsini təmin edir. Vətəndaşlar isə, öz növbəsində, elektron hökümət tərəfindən təqdim olunan məlumat və xidmətlərdən istifadə etmək üçün sonunculara kompüter şəbəkələri vasitəsilə çıxışın əldə edilməsi qaydalarını və üsullarını öyrənir. Deməli, elektron hökumət vətandaşların yeni koqnitiv bilik və bacarıqlarının inkişafını stimullaşdırır. Elektron dövlət vətəndaşların, onların assosiasiyalarının və biznesin biliklər cəmiyyətinə inteqrasiyasını üç istiqamət üzrə dəstəkləyir: "Dövlət-dövlət", "dövlət-vətəndaş", "dövlət biznes". Hər bir vətəndaşın öz bilik səviyyəsini daima artırması üçün müxtəlif növ təlim-təhsil xidmətləri və onlara çıxış imkanları olmalıdır. Bu isə elektron hökümət tərəfindən "ömür boyu təhsil" prinsipinin reallaşdırılması məsələsini ön plana çıxarır [4].

Elektron hökümətin mütəmadi olaraq ixtisaslı kadr ehtiyatının təmin olunması üçün təhsil sistemi çərçivəsində innovativ islahatları dəstəkləyən kadr hazırlığı problemi öz həllini tapmalıdır. Bu çağırışa cavab olaraq təhsil sisteminin müasirləşdirilməsi, onun kontentinin real iqtisadiyyatın və əmək bazarının tələblərinə uyğunlaşdırılması, çevik tədris proqramlarının yaradılması və tətbiqi, ənənəvi, distant və virtual təhsilin vəhdətinin təmin olunması istiqamətində islahatlar aparılmalı və müvafiq tətbirlər həyata keçirilməlidir. Elektron hökümət qurulması və inkişafı bilavasitə informasiyakommunikasiya texnologiyaların tətbiqi ilə bağlıdır. Bu o deməkdir ki, İKT potensialın intellektual daşıyıcıları olan İT mütəxəssisləri elektron hökümətin əsas faktorlarından biridir və elektron hökümətin kadr hazırlığında bu kateqoriyanı formalaşdıran insan resurslarının təhsili xüsusi əhəmiyyət kəsb edir.

Elektron dövlət xidmətlərinin tətbiqində UNESKO-nun təhsil konsepsiyası

UNESKO-nun yeni təhsil konsepsiyasına əsasən "ömür boyü təhsil", "hamı üçün təhsil", "sərhədsiz təhsil" prinsipləri biliklər cəmiyyətinin təməlini təşkil edir, İnternet isə bu cəmiyyətin qurulmasında lokomativ rolunu oynayır. Elektron hökümət şəraitində ömür

boyu təhsil fəlsəfəsi e-lifelong-learning, yəni uzunmüddətli ömür boyu təhsil formatında davam edir [4].

Distant və virtual təhsil yeni ümumdünya smart education (ağıllı təhsil) fenomeninin əsasını qoymuşdur. Ağıllı təhsil fəlsəfəsi yalnız yeni texnologiyaların tətbiqini deyil, daha çox təhsil müəssisələrinin, onların kontentlərinin, professor müəllim heyətinin İnternet şəbəkəsində ümumi standartlar, razılaşmalar və texnologiyalar bazasında müştərək tədris fəaliyyətini yerinə yetirilməsini nəzərdə tutur. Ağıllı təhsili, dünyada mövcud olan interaktiv mühitə sərbəst çıxış imkanlarını təmin edən kontentlər vasitəsilə həyata keçirilən çevik təhsil kimi səciyyələndirmək olar. Ağıllı təhsilin açarı biliklərin əlyetərli olmasıdır. Smart-cəmiyyətdə tədris modellərinin transformasiyası təhsilin kütləviliyi, təhsil proqramlarının fərdiləşdirilməsi, təhsil kontentinin sürətlə yenilənməsi və əlyetərliliyi, ömür boyu təhsilin vüsat alması ilə ifadə olunur [4].

Elektron dövlət xidmətlərinin tətbiqində kadr hazırlığı istiqamətləri

Elektron hökümətin fəaliyyəti və inkişafı onun mövcud kadr təminatı, onun bilik və bacarıqları, eyni zamanda kadr potensialının təkrar istehsalı ilə bağlıdır. Elektron hökümətin kadr təminatının formalaşmasında iştirak edən aktor kateqoriyalarını, onların spesifik təlim-təhsil tələbatlarını nəzərə alaraq, tərəfimizdən elektron mühitdə kadr hazırlığı istiqamətləri aşağıdakı kimi təsnifləndirilmişdir:

- innovativ iqtisadiyyatın inkişafı üçün kadr hazırlığı;
- elektron dövlətin göstərdiyi xidmətlərin istifadəçilərinin (vətəndaşların) hazırlığı;
- elektron dövlətdə çalışan kadrların (dövlət qulluqçularının) mütəmadi hazırlığı, ixtisasartırması, yenidən hazırlığı;
- elektron dövlətin dəstəklənməsi və inkişafı üçün İKT kadrların hazırlığı.

Elektron hökümətin inkişafı şəraitində təhsil sisteminin təşkilinə yeni yanaşma. Davamlı innovativ iqtisadiyyatın inkişafı təhsilin bütün növləri (formal, informal, qeyri-formal) və səviyyələri üzrə kadrlar və onların səmərəli təkraristehsalı olmadan mümkün deyildir. Burada formal təhsil məhz bu fəaliyyət üçün nəzərdə tutulmuş müəssisələrdə xüsusi hazırlanmış personal tərəfindən aparılan və hamı tərəfindən tanınan təhsil sənədinin verilməsi ilə başa çatan təhsil formasıdır; informal və ya spontan (ixtiyari) təhsil/təlim – həyat təcrübəsi, gündəlik "öyrənmə" situasiyaları prosesində biliklərə yiyələnmək formasıdır; qeyriformal və ya məqsədli özünütəhsil – müxtəlif kurslar, treninqlər, seminarlar, fərdi məşğələlər vasitəsilə biliklərə yiyələnmək formasıdır; korporativ və ya biznes-təhsil – iş yerində təlim, ixtisasartırma, yenidən hazırlıq yolu ilə biliklərə yiyələnmək formasıdır. Milli təhsil sistemlərinin inkişafında və müasirləşməsində elektron (distant və ya virtual) təhsil (e-learning) aşağıdakı problemlərin həllində strateji rol oynayır:

- milli təhsil sistemlərinin müasirləşdirilməsi və inkişafı;
- keyfiyyətli təhsil almaq qabiliyyəti olan insanların hamısının təhsil almaq imkanlarının təmin olunması (yaş həddinə məhdudiyyət qoyulmadan);
- təhsil və əmək bazarı arasında əlaqənini qurulması;
- maraq və ehtiyacları nəzərə alınmaqla müxtəlif kateqoriyalardan olan insanların ömür boyu təhsilə əlyetərliyinin təmin olunması [4];
- müstəqil təhsil üçün imkanların dəstəklənməsi.

Elektron təhsil (e-təhsil) iqtisadi və coğrafi bərabərsizliyi azaldaraq, az gəlirli və ucqar regionlarda yaşayan sakinlərin ən yaxşı təhsil kontentinə əlyetərliyini təmin edir. Eyni zamanda e-təhsil gənclər üçün "sosial liftlər"dən birinə çevrilərək dövlətdə müasir iş yerləri üçün mütəxəssislərin operativ hazırlanmasını təmin etmək qabiliyyətinə malikdir. Həmçinin, e-təhsil məhdud imkanlı insanların tədris prosesinə cəlb olunması və onlar üçün

aktiv həyatın yeni perspektivlərinin açılmasına imkan yaradır.

Elektron dövlət xidmətlərinin fəaliyyəti aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

1) modulluq və miqyaslılıq - ciddi dəyişikliklər edilmədən portalın proqram-texniki komponentlərinin inkişaf etdirilməsi imkanının olması;

2) sərbəstlik - portalın tərkibinin və fəaliyyətinin ona qoşulmuş informasiya sistemlərində və ehtiyatlarında aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmaması;

3) sistemlilik - dövlət qurumları tərəfindən elektron xidmətlərin göstərilməsi məqsədi ilə mövcud olan və ya yeni yaradılan informasiya sistemlərinin və ehtiyatlarının qarşılıqlı əlaqələrinin və uzlaşmasının təmin edilməsi;

4) təhlükəsizlik - sertifikatlaşdırılmış proqram təminatından və proqram-texniki vasitələrdən istifadə edilməsi, məlumatlarla, o cümlədən fərdi məlumatlarla bağlı informasiya mübadiləsi zamanı qanunun tələblərinə riayət edilməsi, təşkilati, texniki, texnoloji tədbirlər həyata keçirməklə informasiyanın mühafizəsinin təmin edilməsi;

5) istifadə asanlığı - informasiya ehtiyatlarına bir dəfə daxil edilmiş məlumatlardan "bir pəncərə" prinsipi əsasında çoxsaylı istifadənin təmin edilməsi;

6) səmərəlilik - informasiya mübadiləsinin real vaxt rejimində həyata keçirilməsi, qarşılıqlı əlaqələrin optimallaşdırılması və bununla bağlı vaxt itkisinin və maliyyə məsrəfinin azaldılması;

7) şəffaflıq - sistem daxilindəki fəaliyyətin şəffaflığının və hesabatlılığının təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi üçün şəraitin yaradılması [1].

Elektron hökümət mühitində baş verən cəmiyyətin ümumi demokratikləşmə prosesləri əhaliyə göstərilən xidmətlərin əhəmiyyətinin artmasına və vətəndaşların tələbatlarının və sorğularının daha dolğun ödənilməsinə müsbət təsir göstərir. Ömür boyu təhsil/təlim isə e-vətəndaşların, yəni elektron hökümətin göstərdiyi xidmətlərin istifadəçilərinin formalaşmasının əsasını təşkil edir [4]. Adətən, elektron hökümətin göstərdiyi xidmətlər istifadəçilərın müəyyən baza səriştələrinin olmasına hesablanır. Vətəndaş veb-brauzerlərdən, e-poçtdan, mətn prosessorundan və identifikasiya vasitələrindən istifadə etmək bacarıqlarını mənimsəyir. Lakin əgər bu və ya digər prosedurların reallaşdırılması üçün baza kompetensiyalarından əlavə bilik və bacarıqlar tələb olunursa, e-vətəndaşın hazırlığı üçün müvafiq elektron təlimlər, elektron metodiki tövsiyələr, İKT-nin tətbiqi üzrə müvafiq elektron tədris kursları və s. nəzərdə tutulmalıdır. Elektron hökümətin xüsusi istifadəçi kateqoriyası olan məhdud imkanlı vətəndaşların (görmə qabiliyyəti məhdud olanlar, korlar, əlillər və s.) məlumat və xidmətlərə çıxışının təmin olunması və onlar üçün spesifik təlim vasitələrin hazırlanması məsələləri də öz həllini tapmalıdır.

Elektron hökümət mühitində dövlət qulluqçularının hazırlanması. Elektron hökümət şəraitində dövlət qulluğu fəaliyyətinin xarakteri və əhəmiyyəti dəyişir və dövlət qulluqçuları əvvəllər onlara xas olmayan hüquqi və fiziki şəxslərə xidmətlər üzrə funksiyaları yerinə yetirməyə başlayırlar. Bu fəaliyyət biliklərin sürətlə köhnəlməsi və idarəetmə sistemində kadrların yerdəyişməsi və mobilliyi fonunda həyatə keçirilir, institusional yaddaşın dəstəklənməsi və təcrübənin ötürülməsi problemini gündəmə gətirir . Biliklərə əsaslanan iş mühiti aşağıdakıları şərtləndirir:

- dövlət orqanlarının bütün səviyyələrində çalışan dövlət qulluqçularının müəyyən kompetentlik səviyyəsinə malik olması;

- iş proseslərinin, xidmətlərin göstərilməsi və komanda işinin təkmilləşdirilməsi üçün İKT-dən istifadə bacarıqlarına malik olması.

Gündəlik vəzifə səlahiyyətlərinin yerinə yetirilməsi üçün vacib olan ənənəvi kompetensiyalar yığımından başqa dövlət qulluqçuları e-hökumətin bütün komponentlərinin inkişafının razılaşdırılmış şəkildə idarə edilməsi üçün sistemli yanaşmanın tətbiqi, əsas administrativ proseslərin analizi, informasiya ehtiyaclarının aşkarlanması, modelləşdirilməsi, optimallaşdırılması, İKT-nin tətbiqi ilə əlaqədar olan risklərin və təşkilati dəyişikliklərin, göstərilən e-xidmətin keyfiyyətinin idarə edilməsi və s. yeni səriştələrə də malik olmalıdırlar . Bu yeni səriştlərə yiyələnmək üçün dövlət qulluqçusular fasiləsiz təhsil çərçivəsində mütəmadi olaraq korporativ (iş yerində) kurslara cəlb edilməli, həm onların spesifik administrativ funksiyaları sahəsində, eləcə də İKT-nin səmərəli istifadə edilməsi sferasında ixtisaslarını artırmalı və yeni kompetensiyalar əldə etməlidirlər.

"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq İKT sektorunun həcminin 4 dəfə genişlənməsi gözlənilir [2]. Bu İT-mütəxəssislərin hazırlıq sistemi üçün ciddi çağırışdır. İT kadr hazırlığının kəmiyyət problemləri ilə yanaşı onların keyfiyyət xarakteristikalarına dair irəli sürülən tələblər xüsusi önəm daşıyır. Belə ki, edövlətin inkişafı şəraitində İT-mütəxəssislər müasir texnologiya və innovasiyalara adaptiv və çevik olmalı, mütəmadi olaraq öz bilik və bacarıqlarını artırmalı və müxtəlif sahələrdə tətbiq etməyi bacarmalıdırlar.

Nəticə

Aparılan araşdırmalar elektron hökümət mühitində kadr hazırlığına dair aşağıdakı əsas nəticələrin əldə edilməsinə imkan yaratmışdır:

- elektron hökümətin formalaşması və inkişafında əsas faktor kimi intellektual potensialın daşıyıcısı olan insan çıxış edir;
- elektron hökümətin kadr hazlrlığı prosesində bilavasitə iştirak edən hər bir kateqoriya öz marağı, elektron hökümət mühitində üzərinə düşən rol, funksiya, vəzifə və onlara müvafiq spesifik təhsil ehtiyacları ilə səciyyələndirilir;
- elektron hökümətin kadr siyasətinin formalaşması və kadr təminatının səmərəli təkrar istehsalı, sözügedən spesifik təhsil tələbatlarının ödənilməsi ilə bağlıdır və ömür boyu təhsil çərçivəsində fərdi təhsil trayektoriyalarının seçimi vasitəsilə həyata keçirilə bilər.

Elektron hökümətin ixtisaslı mütəxəssislərlə təmin olunması üçün təhsil sistemi:

- kadrların hazırlığı sahəsində beynəlxalq standart və tövsiyələrə uyğun ən müasir tədris-metodiki təchizata əsaslanmalıdır;
- tədris proqramlarında e-learning beynəlxalq standartlarının tətbiqi üçün müasir texnologiyalardan istifadə edilməlidir;
- zamanın tələblərinə müvafiq virtual mühitdə adekvat bilik və bacarıqların əldə edilməsi üçün təhsilin bütün formalarına çıxış təmin etməlidir və s.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı - 05.02.2013, № 813
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf konsepsiyası. AR Prezidentinin sərəncamı, 29 may 2012-ci il
3. "AR-də informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya", AR Prezidentinin sərəncamı, 2 aprel 2014-cü il
4. "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı – 18.07.2018, № 311
5. E-qanun.az - Normativ hüquqi aktların vahid internet elektron bazası

Ханчобан Шахбазов

ОЦЕНКА ПРИМЕНЕНИЯ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ЭЛЕКТРОННЫХ ГОСУДАРСТВЕННЫХ УСЛУГАХ И ПРОБЛЕМЫ ПОДГОТОВКИ КАДРОВ В ЭТОМ НАПРАВЛЕНИИ

Резюме

В статье анализируются инновационные нововведения на рынке труда в сфере применения электронных государственных услуг и проблемы, стоящие перед подготовкой кадров в этой сфере, исследуются перспективы развития. В контексте образования изучаются проблемы адаптации обучающихся и одновременно воспитания к кадровой политике в сфере электронных государственных услуг и исследуются пути их решения.

Цель – выявление перспективных возможностей для оценки и решения проблем обучения персонала при применению электронных государственных услуг на основе сравнительного экономического анализа.

Методология – для оценки проблем обучения персонала при применению электронных государственных услуг использована экономико-статистическая модель.

Результаты исследования – проведена оценка проблем обучения персонала при применению электронных государственных услуг и внесены конкретные предложения.

Ключевые слова: *электронное правительство, инновационные технологии, подготовка кадров, потенциальные возможности, анализ, оценка, перспективы развития*

Khanchoban Shahbazov

EVALUATION OF THE APPLICATION OF INNOVATIVE TECHNOLOGIES IN ELECTRONIC GOVERNMENT SERVICES AND PROBLEMS OF PERSONNEL TRAINING IN THIS DIRECTION

Summary

The article analyzes the innovative innovations in the labor market in the application of e-government services and the problems facing staff training in this area, and explores the prospects for development. In the context of education, the problems of adaptation of students and at the same time education to personnel policy in the field of e-government services are studied and solutions are explored.

Purpose of the research – identification of promising opportunities for evaluating and solving personnel training problems in the use of electronic public services based on comparative economic analysis.

Methodology – to assess the problems of personnel training in the use of electronic public services, an economic and statistical model was used.

The results of the research – an assessment of the problems of personnel training in the use of electronic public services was carried out and specific proposals were made.

Keywords: *e-government, innovative technologies, staff training, potential opportunities, analysis, evaluation, development prospects*

Miriş Bağırzadə
Dövlət İdarəçilik Akademiyası, magisrtant
miriw.bagirzade@gmail.com

Nazənin Hüseynova
Dövlət İdarəçilik Akademiyası, dos. h.f.d.

ALMANİYA VƏ FRANSA – AVROPA İTTİFAQI ÖLKƏLƏRİNDƏ SOSİAL MÜDAFİƏ SİSTEMLƏRİ

Məqalədə uzun bir tarixi dövr keçərək formalaşmış və günümüzün aktual məsələlərindən olan sosial müdafiə sistemlərinin Avropa İttifaqında formalaşması və burada tətbiq edilən tədbirlər öz əksini tapmışdır. Daha sonra isə Avropa İttifaqına üzv olan ölkələrdə - Almaniya və Fransa sosial müdafiə sistemləri haqqında ətraflı məlumat verilmişdir. Statistik göstəricilər və diaqram vasitəsilə verilmiş məlumatlar əsasında bu ölkələrin sosial müdafiə sistemləri arasındakı fərqlər əks olunmuşdur. Əsasən xarici ədəbiyyatlardan istifadə edilərək hazırlanmış bu məqalədə sosial müdafiə sistemi ilə əlaqədar nəticə verilmişdir.

Məqsəd – Almaniya və Fransa sosial müdafiə sistemlərinin araşdırılıb , təhlil edilməsi
Metodologiya – tədqiqat işində iqtisadi-statistik, iqtisadi-sosial və təhlil metodundan istifadə edilmişdir.
Tədqiqatın nəticəsi – müəyyən edilmişdir ki, Avropa İttifaqı sosial müdafiə sahəsində uğurlu addımlar atmışdır. Belə ki, Roma müqaviləsinin bağlanması ilə işçilərin üzv ölkələrində sərbəst hərəkətini əks etdirən 1408/712 saylı əsasnamə və 2009-cu ildə yerini 883/2004 saylı Əsasnamə ilə əvəz etməsi , 2010-cu ilə pensiya ilə bağlı Yaşıl və Ağ kitabların nəşr edilməsi bu sahədə atılan əsas addımlardır. Bundan başqa tədqiqat nəticəsində verilmiş statistik göstəricilər əsasında Almaniya və Fransada Aİ-na üzv olmalarına baxmayaraq hər birində pensiya, işsizlik sığortası və s kimi sosial müdafiə alətlərində fərqlərin olduğu müəyyən edilmişdir.
Açar sözlər: *sosial müdafiə, sığorta, pensiya,əlillik və işsizlik sığortaları*

Giriş

Sosial müdafiə ümümbəşəri bir anlayış olaraq dünyanın hər bir ölkəsində müxtəlif tərifləra və görüşlərə açıq olmuşdur. Belə ki, sosial müdafiə, insanların bir sosial varlıq olaraq birgə yaşaması nəticəsində yaranan problemlərin qarşısını almaq üçün yaradılan həllər kimi qədim zamanlardan bəri "əzəli və əbədi ehtiyac" olaraq ortaya çıxmışdır. Bu gün ən çox istifadə olunan sosial müdafiə termini latın mənşəli və birlik, bərabərlik, həmrəylik və yardım zehniyyətinə əsaslanan "Sosial" sözü ilə təhlükəsizliyin qarşılığı kimi işlənən "Müdafiə" sözündən ibarətdir və cəmiyyətin bütün üzvlərinə mümkün təhlükələrdən qorunma zəmanəti verilir. Yəni, Sosial müdafiə fərdlərin öz iradəsi xaricində təhlükə qarşısında qalması halında onların müdafiəsini təmin edən dövlət sistemi, təşkilati, ehtiyac, həmrəyliyi və xidmət vasitəsi kimi qəbul edilə bilər. 1929-cu dünyada baş verən iqtisadi böhran nəticəsində Ruzvelt bu sahədə addımılar atılması qərar vermiş, nəticədə sosial müdafiə termini 1935-ci ildə Amerika Birləşmiş Ştatlarında yaranmış və bu haqda qanun qüvvəyə minmişdir. Daha sonra isə ilk dəfə 1941-ci ildə açıqlanan Atlantik Xartiya ilə beynəlxalq miqyasda istifadə olunmağa başlanmış və Lord Bevericin 1942-ci ildə Britaniya Parlamentinə məşhur hesabatını "Beveric Hesabatı" təqdim etməsi ilə daha

qabarıq şəkildə ortaya çıxmışdır. XX. Əsrin ikinci yarısında bütün sosial müdafiə sistemləri tərəfindən qəbul edilən bəzi beynəlxalq standartlar formalaşdı. Bunlardan birincisi 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi", digəri isə 1952-ci ildə 35-ci Beynəlxalq Əmək Konfransında qəbul edilmiş "Sosial müdafiənin minimum normaları haqqında 102 saylı Konvensiya"dır. Müqavilədə sosial müdafiənin məqsədi sosial risklə üzləşmiş şəxsi qoruyacaq iqtisadi təminat gətirməkdir. Bütün dünyada; Xəstəlik hallarında tibbi və pul yardımı, işsizlik, qocalıq, istehsalat qəzası, peşə xəstəliyi, analıq, əlillik, ölüm, ailə yardımı ödənişlərinin risk çərçivəsində qiymətləndirilməsi və sosial müdafiə modeli kimi qəbul edilməsi qərara alınmışdır.

Avropa İttifaqında sosial müdafiə ilə bağlı görülən işlər

Sosial müdafiə sistemləri, bəzi əsas prinsiplərdən başqa, ölkələrin sosial strukturlarına, mənşəyinə və iqtisadi şərtlərinə görə ehtiyaclarına uyğun olaraq formalaşan strukturlardır. Avropa İttifaqında (Aİ) sosial müdafiə sistemləri və təcrübələri ölkədən ölkəyə çox dəyişir. Bu səbəbdən, Aİ səviyyəsində sosial müdafiə ilə bağlı həyata keçirilən sistem, ölkələrin sosial müdafiə sistemlərini yaxınlaşdırmaq və ya uyğunlaşdırmaqdansa, Ümumi Bazarın təməl daşlarından biri olan sərbəst hərəkət prinsipinin sağlam işləməsi üçün lazımi tədbirlərin görülməsini hədəfləyir. Sosial müdafiə ilə bağlı məcburi qaydaları ehtiva edən sosial müdafiə koordinasiyası və sosial müdafiənin müasirləşdirilməsinə dair hələ məcburi qaydalar ehtiva etməyən sənədlər bu kontekstdə mühüm əhəmiyyət kəsb edir [3].

Üzv dövlətlər arasında sosial müdafiənin koordinasiyasını təmin etmək üçün tədbirlər, 1957-ci ildə Roma Müqaviləsi ilə Avropa İqtisadi Birliyinin yaradılmasından dərhal sonra nəşr olunan 3/58 və 4/58 saylı əsasnamələrlə qəbul edilmişdir.Roma Müqaviləsi layihəsini hazırlayanlar müxtəlif sosial müdafiə sistemlərinin və onların müavinət almaq hüququna qoyulan məhdudiyyətlərin üzv dövlətlər arasında dövriyyədə olan işçilər üçün və Müqavilədə vurğulanan sərbəst hərəkət hüququna maneə törədə biləcəyini anlayaraq, uyğunlaşdırma və koordinasiyanı əməkçi miqrantların sosial müdafiə problemlərinin həllində istifadə olunan iki yanaşma kimi görürdülər. Uyğunlaşma iki yolla həyata keçirilir. Müəyyən bir sahədə ümumi hüquq sisteminin tətbiqi bu yanaşmalardan biridir. Bu cür uyğunlaşdırma milli sistemdə gələcək qanunvericilik işlərinə mane olur. Digər yanaşma minimum standartların müəyyən edilməsidir. Bu yolla üzv dövlətlər minimum standartlara uyğun olduqları müddətcə öz milli sistemlərini inkişaf etdirə bilərlər.Sonrakı illərdə 1408/71 nömrəli "Birlikdə hərəkət edən işçilərin və onların ailələrinin sosial müdafiə rejimlərinin həyata keçirilməsinə dair Əsasnamə"nin nəşri ilə daha əhatəli koordinasiya mükəmməlliyinin yaradılması səyləri sona çatmışdır. Bundan əlavə, Əsasnamə dərc edildikdən sonra 574/72 saylı İcra Qaydası da dərc edilmişdir.

1408/71 saylı Əsasnamə, sərbəst hərəkət prinsipi çərçivəsində Aİ-yə üzv dövlətlərin vətəndaşlarının sosial müdafiə hüquqlarını birləşdirmək və qorumaq məqsədi daşıyır və sığorta sahələrini və əhatə olunan şəxsləri ətraflı şəkildə müəyyənləşdirir. Tənzimləmə ilə Aİ üzvləri arasında koordinasiya işi aparılıb. Bu sənədlə əsasən:

- Vətəndaşlığa görə ayrı-seçkiliyin qadağan edilməsi,
- şəxsin iqtisadi fəaliyyətini davam etdirdiyi üzv dövlətin sosial müdafiə qanunvericiliyinin həyata keçirilməsi;
- Benefisiarın rezident olmadığı və ya "artıq" rezident olmadığı Üzv Dövlətdə hüquqların ötürülməsi,
- Bu hüquqların əldə edilməsi üçün nəzərdə tutulan müddətin tamamlanmasında vaxt itkisinin qarşısını almaq üçün müxtəlif üzv dövlətlərdə keçirilən dövrlərin birləşdirilməsi nəzərdə tutulur.

Əsasnaməyə uyğun olaraq işçi tanımı: icbari sığorta və ya istəyə bağlı daimi sığorta ilə bir və ya bir neçə sığorta sahəsi üzrə sığortalı olub işlə təmin olunanlar, istəyə bağlı sığortalılar, öz hesabına işləyənlər, bir sıra şərtləri yerinə yetirmək şərtilə sərhəd işçiləri, mövsümi işçilər, ailə üzvləri və benefisiarlar, habelə immiqrantlar və vətəndaşlığı olmayan şəxslərdir (1998-ci ildə dövlət qulluqçularını və 1999-cu ildə tələbələri əhatə etməklə genişləndirilmişdir). Tənzimləmə çərçivəsində xəstəlik və analıq, əlillik, qocalıq, haqq sahibliyi, iş qəzası və peşə xəstəliyi, işsizlik sığortası, ölüm halında ödənişlər və ailə müavinətləri qiymətləndirilmişdir. Yuxarıda göstərilən sığorta sahələri çərçivəsində gəlir və ya yardım almaq hüququna malik olan və öz ölkəsindən başqa Avropa İttifaqı ölkəsində yaşayan işçinin gəliri və ya müalicə xərcləri işçinin yerləşdiyi ölkənin məsul qurum tərəfindən ödənilir , daha sonra işçinin bağlı olduğu əsas qurumdan tələb olunur [3].

1408/71 saylı Əsasnamə 2009-cu ildən 883/2004 saylı Əsasnamə ilə əvəz edilmişdir. Bu tənzimləmə ilə 1408/71 saylı əsasnamənin əsas fəlsəfəsi qorunub saxlanılmaqla yanaşı, həm sığortalılar, həm də sığorta sahələri üçün sosial müdafiənin koordinasiya dairəsi genişləndiriləcək. Bu çərçivədə təqaüdçülər də sosial müdafiənin koordinasiyası əhatəsinə daxil edilmiş, işsizlik müavinətlərinin verilməsi uzadılmış, erkən pensiya və qismən pensiyaya çıxma kimi pensiyaya keçid sistemləri 883/2004 saylı nizamnaməyə daxil edilmişdir. Yeni tənzimləmə ilə gətirilən yeniliklər ümumiyyətlə aşağıdakılardır:

- Sığortalılar və onların hüquqları baxımından əhatə dairəsi genişləndirilərək sığortalıların hüquqları gücləndirilmişdir.
- Təkcə fəal əhalinin deyil, həm də üzv ölkələrin sosial müdafiə qanunvericiliyinə daxil edilmiş bütün vətəndaşların tənzimləmə dairəsinə daxil edilməsi təmin edilmişdir.
- Mərhələli və ya erkən pensiyaya çıxma kimi pensiya öncəsi rejimlərin daxil edilməsi ilə əhatə olunan sığorta sahələrinin sayı artmışdır.
- İnsanlar başqa Birliyə üzv dövlətə iş axtarmağa getdikləri zaman işsizlik müavinətlərinin köçürülməsinə icazə verən tənzimləmə hazırlanmışdır.
- Xüsusilə bir ölkədə yaşayan və digər ölkədə işləyən sərhəd işçiləri üçün ayrı-seçkiliyin qarşısının alınması üçün tədbirlərin gücləndirilməsi üçün tədbirlər görülmüşdür.
- Yaxşı idarəçilik prinsipləri həyata keçirilmişdir [4, səh 35-36].

2010-cu ildə nəşr olunmuş "Pensiya sistemi üzrə Yaşıl Kitab" və bu kitabdakı fikirlərə sosial tərəfdaşların şərhlərinin də yer aldığı "Ağ Kitab: Adekvat, Təhlükəsiz və Davamlı Pensiya Gündəliyi" nəşr edilmişdir. Bu sənədlərdə Komissiyanın bu sahədə atdığı ən konkret addımlar var. Çünki Yaşıl Kitab və Ağ Kitab həm də məcburi müddəaları ehtiva edən Aİ səviyyəli hüquqi tənzimləmələr üçün hazırlıq işləri hesab olunur.

Ağ Kitabın iki əsas vurğusu yaşlanma və pensiya/məşğulluq arasındakı əlaqənin təmin edilməsidir. Bu kontekstdə Komissiya uzunmüddətli perspektivdə görüləcək tədbirləri aşağıdakı kimi sadalamışdır:

- Pensiya islahatları daha yaxından və yaxından izlənəcək. Bunun üçün mövcud monitorinq mexanizmləri hazırlanacaq.
- Pensiya islahatlarını maliyyə cəhətdən dəstəkləmək üçün maliyyə strukturu yaradılacaq. Təqaüddə gender fərqini minimuma endirmək üçün yaxşı təcrübə nümunələri müəyyən ediləcək və tövsiyə olunacaq.
- "2012-ci Avropa Aktiv Yaşlanma və Nəsillərarası Həmrəylik İli" ərzində Komissiya bu sahədə lazımi maarifləndirmə işini aparacaq.
- Komissiya "Avropa 2020 Baxışı"nın koordinasiyasını təmin edəcək və yaşlıların, xüsusilə də qadınların iş həyatında daha uzun müddət qalmaları üçün dəstəyi artıracaq və bu sahədəki layihələrə maliyyə dəstəyi verəcək.
- 2014-2020-ci illər üçün hazırlanan dövrə əsasən, Komissiya ölkələrin Avropa

Sosial Fondundan resurslardan istifadəsini dəstəkləyəcək.

- Komissiya bütün tərəflərin razılığı və rəyi ilə məcburi pensiya şöbələrinin necə yenidən nəzərdən keçirilə biləcəyi üzərində işləyəcək.
- Komissiya həmçinin əlavə özəl pensiya fondlarının yaradılması üçün müxtəlif tədbirlər görəcək. Burada da qabaqcıl təcrübəyə malik ölkələrin təcrübəsinin bölüşdürülməsi, yığılan vergi və mükafatların effektivliyinin araşdırılması, işçilərin müdafiəsi və üçüncü sütun pensiya sisteminin keyfiyyətinin artırılması kimi müxtəlif tədbirlər həyata keçirəcək.

Almanya Sosial Müdafiə Sistemi

Almaniyada uzunmüddətli sığorta qolları , məcburi sosial sığorta proqramı kimi dövlət tərəfindən idarə olunur. Bundan əlavə, könüllü və şirkət əsaslı ikinci pilləli pensiya sistemləri və üçüncü pilləli fərdi pensiya sistemləri mövcuddur.

Uzunmüddətli sığortanın şəxsi sahəsi. Xidmət müqaviləsi bağlanan işçilər, öz adına vəya hesabına işləyənlər, üç yaşınadək uşaqlarına baxanlar, işsizlik müavinəti kimi sosial təminatlardan faydalananlar, hərbi xidmətə çağırılanlar, hərbi xidmət əvəzinə ictimai xidmət göstərənlər və könüllü qulluqçular daxildir. Bu məcburi iştirakla yanaşı, 16 yaşdan yuxarı olanlar üçün də sistemdə könüllü iştirak etmək mümkündür. Bəzi sərbəst işləyən qruplar, mədənçilər, fermerlər, dövlət qulluqçuları və dövlət məmurları üçün xüsusi tədbirlər mövcuddur.Uzunmüddətli sığorta sahələrinin maliyyələşdirilməsi sığortalılardan, özünüməşğulluq subyektlərindən və işəgötürənlərdən alınan sığorta haqları üzrə ayırmalar hesabına təmin edilir. Sığortalılar üçün ayırmalar, 850 avrodan yuxarı aylıq əməkhaqqı üçün aylıq qazancın 9,3%-i; 850 avroya qədər aylıqlarda endirimli, 450 avroya qədər isə istəyə bağlıdır.Haqların hesablanmasında aşağı gəlir limiti olmasa da, illik üst gəlir limiti 78.000 Avrodur. İşəgötürənin payı, aylıq əmək haqqının 9,3%-ni təşkil edir. Bu dərəcə, 450 avrodan az gəlirlə çalışdırılan işçilər üçün 15% təşkil edir; Mədən, dəmir yolu və dənizçilik müəssisələrində 16,45% olaraq tətbiq edilir. Digər tərəfdən, özünüməşğulluq subyektlərindən işləyən işçilərdən aylıq gəlirlərinin 19,9%-i həcmində kəsinti edilir. Öz hesabına işləyən işçilər üçün minimum aylıq kəsinti 83,70 avro, yuxarı həddi isə 1,209 avrodur. Dövlət qeyri-sığorta müavinətlərini maliyyələşdirir, əlavə olaraq sığortaya əsaslanan müavinətlərə töhfə verir və uşaqların tərbiyəsi dövrləri üçün sığorta haqları ödəyir. Müavinətlər xəstəlik fondları tərəfindən toplanır və pensiya sığortası təşkilatlarına köçürülür.

Yaşlılıq sığortası

Yaşa görə pensiya almaq üçün ən azı 5 il sığorta haqqı ödənilməli və 65 yaş 7 aylıq yaş tələbi yerinə yetirilməlidir. (2023-cü ilə qədər hər il 1 ay, daha sonra 2029-cu ildə 67 yaşa qədər hər il 2 ay artacaq.)

Bu ümumi praktikaya əlavə olaraq:

- 63 və 6 aylıq yaş həddi (2029-cu ilə qədər hər il 2 ay artırılaraq 65 yaş kimi tətbiq olunacaq) və ən azı 45 il iş stajına malik olmaq;
- 63 yaş və 9 aylıq (2029-cu ildə 65 yaş kimi tətbiq olunacaq, 2021-ci ilə qədər bir aydan sonra hər il iki ay artacaq) 35 illik əmək stajına əlavə olaraq ən azı 50 faiz əlilliyi olanlar isə yaşa görə pensiya almaq hüququna malikdirlər.

Əlillik Sığortası

Əlilliyə görə pensiya almaq üçün Xəstəliyə və ya əlilliyə görə əmək qabiliyyətinin itirilməsi səbəbindən qismən (istənilən işdə gündə 3 saatdan 6 saata qədər işləyə bilən) və

ya tam (istənilən işdə gündə 3 saatdan az işləyə bilən), əlillikdən əlavə, 5 il ərzində sığorta haqqı ödəmək və əlillik hadisəsi baş verməzdən əvvəl son 5 ildə ən azı 36 ay məcburi sığorta haqqı ödəmək tələb olunur. 65 yaşdan etibarən əlilliyə görə pensiya əlilliyə görə pensiyadan az olmayan yaşa görə pensiya ilə əvəz olunur.

Ailə yardımları

Almaniyada ailə yardımları sosial yardım kimi həyata keçirilir. Ailə yardımı bir və ya bir neçə uşağı olan valideynlərə, ailələri ilə bütün əlaqələrini itirmiş uşaqlara və kimsəsizlərə verilir. Ailə yardımları dövlət tərəfindən maliyyələşdirilir.

Uşaq məşğulluq orqanında qeydiyyatda olan işsizdirsə 21 ; tam zamanlı təhsil alırsa 25; 25 yaşa qədər əlillik olduqda, uşaq müavinəti yaş məhdudiyyəti olmadan verilir; Digər hallarda, uşağın yaşı 18-dən azdırsa, uşaq müavinəti faydalananlara uşaqların sayı ilə artan nisbətdə verilir. Bunun üçün yardımı alacaq ailə Almaniyada vergi ödəyicisi olmalı və uşaq Almaniya, İsveçrə, digər Aİ və ya Avropa İqtisadi Bölgəsi ölkələrində yaşamalıdır.

25 yaşınadək uşağı olan, öz ehtiyaclarını ödəyə bilən, lakin uşaqlarına baxa bilməyən, gəlir səviyyəsi müəyyən həddə olan, uşaq pulu almaq hüququ olan və başqa sosial yardımlardan istifadə etməyən ailələrə gəlir testinə əsasən maksimum 36 aya qədər 170 Avro uşaq pulu ödənilir. 14 aydan kiçik uşaqları olan, övladlığa götürən və ya doğuşdan sonra uşağa baxan ailələrə, Ayda 300 avrodan başlayan və 1800 avrodan çox olmayan və maksimum 12 ay ödənilən, doğumdan əvvəl 12 ay ərzində xalis gəlirin ən azı 67% -ni təşkil edən valideyn müavinəti ödənilir.

Sağlıq sığortası

2009-cu il yanvarın 1-dən etibarən icbari və ya özəl tibbi sığortaya üzvlük hər kəs üçün öhdəliyə çevrilib. Sağlıq sığortası; Müəyyən məbləğə qədər illik gəliri olan xidmət müqaviləsi ilə işləyənlər, öz sığortalıqları olmamaq şərti ilə həyat yoldaşları və ya şərikləri, tələbə və ya çıraq olduqda isə 25 yaşınadək ,əks halda 18 yaşına qədər uşaqları, pensiya alanlar, tələbələr, müəyyən şərtləri olan əlillər, çıraklar və işsizlik müavinəti alanlar daxildir. Əvvəllər icbari tibbi sığortadan çıxanlar da müəyyən şərtlərlə könüllü olaraq sistemə qoşula bilərlər. Öz adından və hesabına işləyən fərdi sahibkarlar da bu sığorta sahəsinə daxil edilmir. Mədənçilər, rəssamlar, dövlət işçiləri və öz-özünə işləyən fermerlər üçün xüsusi qaydalar var.

Sağlamlıq müavinətləri üçün hüquq qazanmağın müddəti yoxdur. Teorik olaraq, sağlamlıq müavinətlərindən faydalanmaq üçün heç bir vaxt məhdudiyyəti yoxdur. Lakin müavinətlər şəxs sığortadan çıxan kimi başa çatır. İşçilərə və onların himayəsində olan şəxslərə tibbi yardım xəstəlik fondları hesabına maliyyələşdirilmək şərti ilə səhiyyə müəssisələri tərəfindən həyata keçirilir. Bəzi xidmətlər üçün töhfə haqqı tələb olunur. Məsələn, həkim müayinəsi üçün töhfə haqqı 10 Avro, dərmanlar üçün isə dərman qiymətini aşmamaq şərti ilə 5 ilə 10 Avro arasında olmaq şərti ilə paylama qiymətinin 10%-i töhfə haqqı olaraq ödənilir.

İşsizlik sığortası

Almaniyada işsizlik müavinətləri sosial müdafiə və sosial müavinətlərin qarışığı kimi həyata keçirilir. Sosial sığorta qolu kimi; Bu, ev işçilərini, çıraqlar və təcrübəçilər daxil olmaq üzrə xidmət müqaviləsi ilə işləyənləri, müəyyən şərtləri olan bəzi digər qrupları əhatə etsə də, könüllülük əsasında fərdi sahibkarları, baxıcılar və xarici işçiləri də əhatə edir. Sistemə qeyri-qanuni işlərdə çalışanlar daxil deyil; İşləyib-işləməməsindən asılı olmayaraq sosial yardıma ehtiyacı olan hər kəsi əhatə edir.


İşsizlik müavinətləri sığortalı şəxslər, öz adına və ya öz hesabına uyğun müstəqil işləyənlər, işəgötürənlər və dövlət dəstəyi hesabına maliyyələşdirilir. Sosial sığorta sahəsi olaraq, işsizlik müavinəti üçün sığortaolunanlar və işəgötürənlər illik tavan həddində qazanclarının 1,5%-i ,öz adına və ya öz hesabına uyğun müstəqil işləyənlərdən isə 3%-I dəyərində sığorta haqqı olaraq alınır. Mərkəzi və yerli hökumətlər bu sahədəki boşluqların aradan qaldırılmasına dəstək verir və sosial yardım kimi işsizlik müavinətlərinin maliyyələşdirilməsini təmin edirlər.

Fransa Sosial Müdafiə Sistemi

Fransada ümumi sosial sığorta sxemi; sosial müdafiədən məsul olan müxtəlif nazirliklərin (Sosial Xidmətlər Nazirliyi, Həmrəylik və Səhiyyə Nazirliyi ilə İqtisadiyyat Nazirliyi) nəzarəti altında, işçilərin və işəgötürənlərin nümayəndələri tərəfindən idarə edilən, sığorta riskləri ilə tənzimlənən yerli, regional və milli qurumlar tərəfindən idarə olunur.

Ölkədə sığorta haqqı ilə bağlı ödənişlər, işçilər və işəgötürənlər tərəfindən ödənilir. Fransada iki sosial rifah vergisi var və onlar işçilər tərəfindən ödənilir. Bu vergilər; İş gəliri, daşınmaz əmlak gəliri, investisiya gəliri və qumar gəlirindən çıxılır (diaqram 1).

Fransada xəstəlik, analıq, atalıq, əmək qabiliyyətini itirmə və ölüm, istehsalat qəzası və peşə xəstəliyi İşçilərin Milli Sağlamlıq Sığortası Fondu (CNAMTS) tərəfindən idarə olunur və iki ayrı bölmə altında fəaliyyət göstərir. Bu bölmələr: "Pensiya və İş Yerində Sağlamlıq Fondu" və "Baza Tibbi Sığorta Fondu"dur. Yaşlılıq sığortası Milli Yaşlılıq Sığorta Fondu (CNAV) tərəfindən təmin edilir; Milli Ailəyə Yardım Fondu (CNAF) tərəfindən ailə müavinətləri idarə olunur. Mükafatlar yerli səviyyədə "Sosial Müdafiə və Ailəyə Yardım Müavinətlərinin Toplama Ofisləri" (URSSAF) tərəfindən toplanır. İşsizlik Sığortası müqavilə əsasındadır və UNEDIC tərəfindən idarə olunur.



Diaqram 1. Fransa Sosial Müdafiə Sisteminin Gəlirlərinin Maliyyə Mənbələri

Fransada ailə müavinətlərinin sığortası çox əhatəli bir quruluşa malikdir. Fransada yaşayan hər kəsə ailə müavinətləri verilir. Bu, insanın işləyib-işləməməsindən asılı deyil. Qanuni, qeyri-qanuni, övladlığa götürülmüş və ya ögey olub-olmamasından asılı olaraq heç bir dəyişiklik edilmir. 20 yaş həddi var. Uşağın işləməməsi vacibdir.

Uzunmüddətli sığorta çərçivəsində: ilk dəfə 1910-cu ildə tətbiq edilən qanunvericilik; hal-hazırda 1945 (qeyri-kənd təsərrüfatı işçiləri), 1975 (əlillər), 1996 (sosial müdafiə

orqanı), 2001 (hissələrin hüquqları), 2003 (pensiya müavinətləri), 2006 (pensiya), 2009 (əlillik müavinəti və digər töhfələr) və 2010 (pensiya) illərdə tətbiq olunan qanunlarla davam edir.

Qısamüddətli sığorta çərçivəsində: ilk dəfə 1898-ci ildə istehsalat qəzası sığortası ilə həyata keçirilməyə başlayan qanunvericilik; hal-hazırda, 1945 (qeyri-kənd təsərrüfatı işçiləri), 1946 (istehsalat qəzası) və 1972 (kənd təsərrüfatında istehsalatda bədbəxt hadisələr), 1996 (sosial müdafiə oraqanı), 1999 (ümumi əhatə dairəsi), 2001 (atalıq məzuniyyəti və qarşılıqlı yardım təşkilatları), 2004 (analıq sığortası) və 2004 (xəstəlik sığortası islahatı) illərdə qəbul edilmiş qanunlarla həyata keçirilməkdə davam edir.

Agirc-Arrco Federasiyası (http://www.agirc-arrco.fr) özəl sektor işçiləri və menecerləri üçün tamamlayıcı pensiya sistemini idarə edir. Depozit və Konsiqnasiya Fondu (IRCANTEC (https://www.ircantec.retraites.fr) dövlət sektorunda müqavilə bağlamış özəl sektor işçiləri üçün tamamlayıcı pensiya sxemlərini idarə edir. Sosial Müdafiə Təşkilatlarının Mərkəzi İnstitutu (http://www.acoss.fr) sosial müdafiə agentliklərinə və institutlarına nəzarət edir və mərkəzi hesabların məbləğlərini idarə edir.

Yaşlılıq sığortası

Ticarət və sənaye sahəsində çalışan bütün işçilər, kənd təsərrüfatında maaş alan işçilər; müəyyən şərtlər altında öhdəsində olan həyat yoldaşları, əlil ailə üzvünə qulluq edən işsizlər, xaricdə işləyən Fransa vətəndaşları yaşlılıq sosial sığortası ilə təmin olunurlar. Bundan əlavə, mədənçıxarma, dəmir yolu, dövlət sektoru işçilərinə, dənizçilərə, qeyri-kənd təsərrüfatı ilə məşğul olanlara və sərbəst peşə sahəsində işləyənlərə xüsusi qanunlar və şərtlər tətbiq edilir.

Sosial sığortadan başqa, məcburi əlavə(tamamlayıcı) pensiya sistemi (ticarət və sənayedə çalışanlar, kənd təsərrüfatında maaş alanlar; müəyyən şərtlərlə himayəsində olan ər-arvad) və xüsusi (könüllü) tamamlayıcı pensiya sistemi mövcuddur. Sistemin maliyyələşdirilməsi; sığortalı, işəgötürən və hökumət tərəfindən təmin edilir.

Sosial sığorta çərçivəsində; işçinin əsas əmək haqqının 6,9%-i (yaş və bəzi benefisiarlar) və 0,35%-i (yaşamağa görə müavinət) İşəgötürəndən 8,55%-i (yaşa görə) və 1,85%-i (yaşamağa görə müavinət) məbləğində sığorta haqqı alınır. Məcburi əlavə pensiya haqqının dərəcəsinə gəldikdə: seçilmiş sxemdən asılı olaraq işçilərdən aylıq gəlirin 3%-dən 8%-ə qədər; işəgötürənlərdən 4,65%-dən 12,75%-ə qədər sığorta haqqı toplanır.

Yaşa görə pensiya almaq üçün tələb olunan qanuni minimum pensiya yaşı 2018-ci ildən 63-dür. Tam pensiyaya avtomatik haqq qazanma yaşı 67-dir. Qanuni minimum yaş və avtomatik pensiya yaşı sığortalının doğum ayına və ilinə uyğun olaraq dəyişir; 1 iyul 1951-ci il tarixindən əvvəl doğulmuş işçilər üçün minimum yaş müvafiq olaraq 60 və 65-dir. Yaşa görə əmək pensiyası almaq üçün tələb olunan sığorta müddəti də yaş kimi, sığorta olunanın doğum ili və ayından asılı olaraq tədricən artır. 1951-ci ildən əvvəl doğulmuş insanlar üçün fərqlidir; 1951-1972-ci il təvəllüdlü şəxslər, 1973-cü ildən sonra doğulanlar isə ayrıca hesablanır.

Əlillik Sığortası

Minimum əmək qabiliyyətinin itirilməsi dərəcəsi 66,7% təşkil edir. Ümumiyyətlə, riskin baş verdiyi tarixdən əvvəlki 12 ay ərzində və son üç ayda ən azı 200 saat daxil olmaqla 600 saat, yaxud qanuni minimum əmək haqqının ən azı 2.030 misli sığorta haqqı (qanuni minimum əmək haqqı 9,67 avro) tələb olunur. Sığorta olunan hər hansı peşə fəaliyyətindən məhrum edilmiş hesab edildikdə, pensiya sığorta olunanın orta qazancının 50 faizini təşkil edir; Bəzi gəlir gətirən fəaliyyətlər cəlb olunarsa, bu nisbət 30%-ə düşür.

Orta qazanc ən yaxşı 10 ildə ödənilmiş sığorta haqqı əsas qazancına əsaslanır. Müavinətləri hesablamaq üçün istifadə olunan maksimum aylıq qazanc 3218 avrodur. Minimum illik pensiya 3359 avro təşkil edir.

Sığortalı qazanc gətirən işini davam etdirərsə, əlilliyə görə pensiya altı ay ərzində gəlir testi aparılmadan ödənilir; Bundan sonra pensiya və qazancdan əldə edilən toplam gəlir, əlillik ilinin başlanmasından əvvəlki təqvim ili ərzində sığortaolunanın ödədiyi orta əmək haqqından artıq olarsa, pensiya dayandırılır.

Sistemdən maaşlı işçilər faydalanır. Xəstəlik və ya əlilliyə görə eyni bölgədə eyni iş qrupuna daxil olan şəxslərin normal qazancının 1/3-dən azını qazananlar əlil sayılır. Əlil hələ də peşə fəaliyyətini həyata keçirə bilirsə, 1-ci qrup, deyilsə 2-ci qrup, başqasının köməyinə ehtiyacı olduqda isə 3-cü qrup əlil sayılır.

Psixotexniki müayinələrdən sonra əlillər işə uyğunlaşma qaydaları ilə uyğunlaşma mərkəzlərində peşə adaptasiyası vasitələri ilə təmin olunublar. 20-dən çox işçisi olan işəgötürənlər əlillərin 6%-ə qədərini işə götürməlidirlər.

Ailə yardımları

Ailə müavinətləri gəlir testi nəticəsində haqq qazanan şəxslərə verilir. Uşaq baxımı üçün müavinət 18 yaşına çatmamış ən azı bir uşağı olan insanlar üçün verilir. Evli deyilsə 18 yaşa qədər, tələbədirsə 19 yaşa qədər, hərbi xidmətdədirsə 21 yaşa qədər və əlil uşaqlara bu yardım yaş məhdudiyyəti olmadan verilir. Uşaq müavinətini almadan əvvəl son 3 ildə ailənin gəlirinə əsaslanan əlavə illik müavinət var.

Uşaq müavinəti bir və iki uşaq üçün ildə 380 avro, üç uşaq üçün 760 avro və dörd və ya daha çox uşağı olan ailələr üçün 1135 avro, illik gəliri 49.000 avroya qədər olan şəxslər üçün nəzərdə tutulub. İllik gəliri 59.000 avroya qədər olan ailələr üçün bu məbləğlər bir qədər az ödənilir. Bundan əlavə, hər bir uşaq üçün müxtəlif gəlir səviyyələri ilə bağlı illik ailə gəliri 39.000 Avrodan aşağı olan ailələr üçün əlavə uşaq dəstəyi verilir. Eynilə, tək valideynli ailələrə müəyyən şərtlərlə əlavə müavinətlər verilir.

İşsizlik sığortası

Bu sığorta sahəsində ilk qanun 1905-ci ildə qəbul edilmişdir. 1958-ci ildə (işsizliyə görə), 1973-cü ildə (sosial yardım), 1984-cü ildə (sosial sığorta və sosial yardım), 1988-ci ildə (minimum müavinət), 2009-cu ildə (işsizliyə görə kompensasiya), 2013-cü ildə (peşə müqaviləsi) və 2014-cü ildə (işsizliyə görə kompensasiya) qəbul edilmiş qanunlar əsasında həyata keçirilmişdir.

Fransada işsizlikdən sığorta icbaridir. Sığorta müddətindən, yaşa və minimum sığorta haqqı ödəmə müddətindən asılı olaraq işsizlik müavinətinin alınması müddəti 7 ay ilə 42 ay arasında dəyişir. Əmək müqaviləsinin müddətinin bitməsinə qədər 22 ay ərzində ən azı 182 gün sığortalanmaq lazımdır. Hüquqi səbəblər istisna olmaqla, son iş yerini könüllü tərk etməmək, iş axtarışında olan və fiziki cəhətdən işləmək qabiliyyətinə malik olmaq, işaxtaran kimi qeydiyyatda olmaq və ya şəxsi fəaliyyət layihəsində nəzərdə tutulan hərəkəti etmək, 60 yaşına çatmamış olmaq kimi şərtlər mövcuddur.

Nəticə

Müəyyən edilmişdir ki, Avropa İttifaqı sosial müdafiə sahəsində uğurlu addımlar atmışdır. XX əsrin ikinci yarısında bütün sosial müdafiə sistemləri tərəfindən qəbul edilən bəzi beynəlxalq standartlar formalaşması ,1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi", 1952-ci ildə 35-ci Beynəlxalq Əmək Konfransında qəbul edilmiş "Sosial müdafiənin minimum normaları haqqında 102 saylı Konvensiya" , 1957-ci ildə Roma Müqaviləsi ilə Avropa İqtisadi Birliyinin yaradılması, dərhal sonra isə sərbəst hərəkət

prinsipi çərçivəsində Aİ-yə üzv dövlətlərin vətəndaşlarının sosial müdafiə hüquqlarını birləşdirmək və qorumaq məqsədi daşıyan və sığorta sahələrini və əhatə olunan şəxslərin hüquqlarını əks etdirən 1408/712 saylı əsasnamə və 2009-cu ildə yerini 883/2004 saylı Əsasnamə ilə əvəz etməsi, 2010-cu ilə pensiya ilə bağlı Yaşıl və Ağ kitabların nəşr edilməsi bu sahədə atılan əsas addımlardır.

Almaniyada uzunmüddətli sığorta qolları, məcburi sosial sığorta proqramı kimi dövlət tərəfindən idarə olunur. Bundan əlavə, könüllü və şirkət əsaslı ikinci pilləli pensiya sistemləri və üçüncü pilləli fərdi pensiya sistemləri mövcuddur.Uzunmüddətli sığorta sahələrinin maliyyələşdirilməsi sığortalılardan, özünüməşğulluq subyektlərindən və işəgötürənlərdən alınan sığorta haqları üzrə ayırmalar hesabına təmin edilir. Sığortalılar üçün ayırmalar, 850 avrodan yuxarı aylıq əməkhaqqı üçün aylıq qazancın 9,3%-i; 850 avroya qədər aylıqlarda endirimli, 450 avroya qədər isə istəyə bağlıdır.Haqların hesablanmasında aşağı gəlir limiti olmasa da, illik üst gəlir limiti 78.000 Avrodur. İşəgötürənin payı, aylıq əmək haqqının 9,3%-ni təşkil edir. Bu dərəcə, 450 avrodan az gəlirlə çalışdırılan işçilər üçün 15% təşkil edir; Mədən, dəmir yolu və dənizçilik müəssisələrində 16,45% olaraq tətbiq edilir. Digər tərəfdən, özünüməşğulluq subyektlərindən işləyən işçilərdən aylıq gəlirlərinin 19,9%-i həcmində kəsinti edilir. Öz hesabına işləyən işçilər üçün minimum aylıq kəsinti 83,70 avro, yuxarı həddi isə 1,209 avrodur.

Fransada ümumi sosial sığorta sxemi; sosial müdafiədən məsul olan müxtəlif nazirliklərin (Sosial Xidmətlər Nazirliyi, Həmrəylik və Səhiyyə Nazirliyi ilə İqtisadiyyat Nazirliyi) nəzarəti altında, işçilərin və işəgötürənlərin nümayəndələri tərəfindən idarə edilən, sığorta riskləri ilə tənzimlənən yerli, regional və milli qurumlar tərəfindən idarə olunur.

Fransada xəstəlik, analıq, atalıq, əmək qabiliyyətini itirmə və ölüm, istehsalat qəzası və peşə xəstəliyi İşçilərin Milli Sağlamlıq Sığortası Fondu (CNAMTS) tərəfindən idarə olunur və iki ayrı bölmə altında fəaliyyət göstərir. Bu bölmələr: "Pensiya və İş Yerində Sağlamlıq Fondu" və "Baza Tibbi Sığorta Fondu"dur. Yaşlılıq sığortası Milli Yaşlılıq Sığorta Fondu (CNAV) tərəfindən təmin edilir; Milli Ailəyə Yardım Fondu (CNAF) tərəfindən ailə müavinətləri idarə olunur. Mükafatlar yerli səviyyədə "Sosial Müdafiə və Ailəyə Yardım Müavinətlərinin Toplama Ofisləri" (URSSAF) tərəfindən toplanır. İşsizlik Sığortası müqavilə əsasındadır və UNEDIC tərəfindən idarə olunur.

Aparılmış tədqiqat nəticəsində verilmiş statistik göstəricilər əsasında Almaniya və Fransada Aİ-na üzv olmalarına baxmayaraq hər birində pensiya, işsizlik sığortası və s kimi sosial müdafiə alətlərində fərqlərin olduğu ,nəticədə hər bir ölkənin özünəməxsus sosial müdafiə sistemlərinə malik olması müəyyənləşdirilmişdir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Avrupa Birliği'nde Sosyal Güvenlik Hukuku El Kitabı, Sosyal Güvenlik Kurumunun Kapasitesinin Arttırılması Projesi, Mart 2011, Ankara,
2. Avrupa Komisyonu, 883/2004 sayılı Tüzük, (http://eur-lex.Euro-pa.eu/LexUriServ/LexUriServ.do?uri=OJ:L:2004:166:0001:0123:EN:PDF)
3. DUR, Varol, Avrupa Birliği'nde Esnek Güvence ve Türkiye Uygulamaları, Yayınlanmamış Uzmanlık Tezi, SGK, Ankara, 2011.
4. Sosyal Güvenlik Kurumu, Avrupa Birliğinde Sosyal Güvenliğin Koordinasyonu, 2013, Ankara, s. 43,
5. European Commision Employment, Social Affairs &Inclusion, https://ec.europa.eu/social/home.jsp?langId=en
6. Social security in Germany (Sozialversicherung) (iamexpat.de)

7. French social security – and how to claim benefits | Expatica
8. www.working-in-germany.com

Мириш Багирзаде
Назанин Гусейнова

ГЕРМАНИЯ И ФРАНЦИЯ– СИСТЕМЫ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ В СТРАНАХ ЕВРОПЕЙСКОГО СОЮЗА

Резюме

В статье отражено становление систем социальной защиты в Европейском союзе, которое формировалось после длительного исторического периода и является одним из наиболее актуальных вопросов на сегодняшний день, и предпринимаемые здесь меры. Затем была представлена подробная информация о системах социальной защиты в странах-членах ЕС – Германии и Франции. Различия между системами социальной защиты этих стран отражены на основе статистических показателей и данных, представленных на диаграмме. В данной статье, подготовленной в основном с использованием зарубежной литературы, отражены результаты, касающиеся системы социальной защиты.

Цель – изучить и проанализировать системы социальной защиты в Германии и Франции.

Методология – в исследовании использовались экономико-статистические, экономико-социальные и аналитические методы.

Результаты исследования – было установлено, что Европейский Союз предпринял успешные шаги в области социальной защиты. Так, с заключением Римского договора Регламент № 1408/712, отражающий свободное передвижение работников в странах-участницах ,и его замена Регламент № 883/2004 в 2009 г., а также издание Зеленой и Белой пенсионных книг в 2010 г. являются ключевыми шагами в этом направлении. Кроме того, исследование показало, что, хотя Германия и Франция являются членами ЕС, существуют различия в инструментах социальной защиты, таких как пенсии, страхование по безработице и т. д.

Ключевые слова: *социальная защита, страхование, пенсия, страхование по инвалидности и безработице*

Mirish Baghırzade
Nazenin Huseynova

GERMANY AND FRANCE– IN THE EUROPEAN UNION COUNTRIES SOCIAL PROTECTION SYSTEMS

Summary

The article reflects the formation of social protection systems in the European Union, which was formed after a long historical period and is one of the most pressing issues today, and the measures taken here. Then, detailed information was provided on the social protection systems in the EU member states - Germany and France. Differences between the social protection systems of these countries are reflected on the basis of statistical indicators and data provided by the diagram. This article, which is based mainly on foreign literature, given results related with the social protection system.

Purpose – research and analysis of German and French social protection systems.

Methodology – economic-statistical, economic-social and analytical methods were used in the research.

The results of the study – it was determined that the European Union has taken successful steps in the field of social protection.Thus, with the conclusion of the Treaty of Rome, Regulation No. 1408/712, which reflects the free movement of workers in member countries, and its replacement in 2009 with Regulation No. 883/2004, the publication of Green and White Pension Books in 2010, are the main steps. In addition, the study found that although Germany and France are members of the EU, there are differences in social protection instruments such as pensions, unemployment insurance, etc.

Keywords: *social protection, insurance, pension, disability and unemployment insurance*

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktik jurnal

№ 1 (17), 2022

Redaktorlar:
Xanımbacı Cəfərli, Aygün Bağırzadə

Kompüter tərtibatı:
Lalə Tağıyeva

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

"Müəllim" nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99412) 555 15 60
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 31.05.2022
Çapa imzalanıb: 05.06.2022
Format: 60x84 1/8. 21,0 ç.v. Tiraj: 200